Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

Cəfərqulu Rüstəmov
Füruzə Muradova

QOBUSTAN

Kiçikdaş abidələri

Bakı 2008

Redaktor: V.H.Əliyev
Tarix elmləri doktoru,
MEA-nın həqiqi üzvü

Rəyçilər: M.N.Mansurov
F.L. Osmanov

C.Rüstəmov, F.Muradova
QOBUSTAN. Kiçik daş dağı abidələri.
"E.L." Nəşriyyat və Poliqrafiya Şirkəti MMC, Bakı, 2008, səh., 316.

İSBN 978-9952-438-47-5

© C.Rüstəmov
© F.Muradova

Qobustanın qayaüstü təsvirləri

Qədim qayaüstü təsvirlər tarixi-arxeoloji abidələrin ən maraqlı və sirlilərindəndir. O, bəşər tarixini öyrənmək üçün obrazlı «dilə» malik qiymətli maddi-mədəniyyət qalıqları, keçmişin səhifələrini işıqlandıran, ibtidai cəmiyyətdə insan əməyi və fəaliyyətini, onun həyatını və dünyagörüşünü rəngarəng və əyani şəkildə əks etdirən tarixi sənəd - «canlı» arxivdir.

Qayaüstü təsvirlər qədim insanların həyat tərzi haqda biliklərimizin qiymətli mənbələrindən ibtidai yaradıcılıq yollarının inkişafını təsəvvür etməyə imkan verən qədim incəsənət əsərləridir, qədim nəsillərin özləri haqda canlı hekayələridir.

Qədim qayaüstü təsvirlər dünyada çox yerdə aşkar edilib öyrənilmişdir. Onların varlığı XIX əsrin ortalarında qeydə alınmağa başlanmışdır.

Qədim təsvirlər qaya və daşlar üzərində əsasən iki üsulla-petroqlif (petros - daş, lurhe-naxış açma üsulu) və palitra (rənglə şəkil çəkmə üsulu) ilə çəkilmişdir. Onlardan petroqlif tipli qayaüstü təsvirləri ilk dəfə 154 il bundan qabaq - 1848-ci ildə Oneqa gölü sahilində K.Qrevink görmüşdür(1).

Palitra tipli qayaüstü təsvirlərin varlığı isə XIX əsrin 70-ci illərində ilk dəfə İspaniyada Altamiro mağarasında, sonra isə bir sıra Fransa mağaralarında aşkar edilmişdir(2).

XX əsrin 30-cu illərindən etibarən qədim qayaüstü təsvirlərə ibtidai mədəniyyət sahəsinin tədqiqi ilə məşğul olan alimlərdə maraq artır. Onların axtarılması və öyrənilməsi işi genişlənir. Zəmanəmizə qədər, demək olar ki, bütün qitələrdə və ölkələrdə - (Ukraynada (3), Dağıstanda (4), Kareliyada (5), Uralda (6), Sibirdə (7), Orta Asiyada (8), Gürcüstanda (9), Ermənistanda (10), Monqolustanda (11) İtaliyada (12), Skandinaviyada (13), Afrikada (14) və s.) qədim qayaüstü təsvirlərin varlığı aşkara çıxarılmış və öyrənilməsi davam edir.

Azərbaycanda qədim qayaüstü təsvirlərin varlığı ilk dəfə 1939-cu ildə Qobustan qayaüstü təsvirlərinin ilk tədqiqatçısı İ.M.Cəfərzadəyə məlum olmuşdur (15).

Azərbaycanda qədim qayaüstü təsvirlər sonralar Abşeron yarımadasında (16), Bakı şəhəri yaxınlığında Şıxov çimərliyində (17), Naxçıvan MR-da Gəmiqayada (18), Kəlbəcər rayonunda Dəlidağda (19) və Cənubi Azərbaycanda Qaradağ bölgəsində (20) də aşkar edilmişdir.

Qobustan Şərqi Azərbaycanda, Qafqaz dağlarının cənub-şərq ətəkləri ilə Xəzər dənizi arasında 100 km-ə qədər diametri olan, çoxlu qobularla (qədim çay yataqları və yarğanlar) kəsilən, yarımsəhra dağətəyi böyük coğrafi rayondur. Qobustan sözü «Qobu» və «stan» kimi ərazi bildirən şəkilçidən əmələ gəlmiş qobuluq, qobular diyarı, qobular olan yer deməkdir. Böyük Qobustanın ərazisi şərqdə Xəzər dənizi, şimalda Sumqayıtçay, qərbdə Şamaxı rayonu Pirsaatçay, cənubda Hacıqabul və Ələtə qədər ərazini əhatə edir.

Zəmanəmizdə Qobustanın iqlimi yayda çox isti, qışda mülayim keçir. Orta illik temperatur müsbət 12-14,5 dərəcədir. Bitki örtüyü və heyvanat aləmi kasıbdır. Təbiət yalnız yaz və payız yağışlarından sonra cana gəlir.

Qobustanda Kiçikdaş dağında «Qayaarası», Böyükdaş dağında «Anazağa» və «Kənizə» düşərgələrində hələ yuxarı paleolit dövründən başlayan həyat təbii hadisələrlə əlaqədar qısa müddətlərdə dayansa da, yenidən canlanıb və orta əsrlərə qədər davam etmişdir. Qobustanı dünyaya tanıdan da onun qədim sakinlərinin yaratdıqları, 15-20 minillik tarixi dövrü əhatə edən qədim qayaüstü təsvirlər və müxtəlif tarixi - arxeoloji abidələrdir. Buradakı üzəri 10-15 metr qalınlığında əhəngdaşı təbəqəsi ilə örtülü, zirvəsi mizin üstü kimi düz, daş dövründə sürək üsulu ilə ov etmək üçün təbii tələ, tunc dövründə kənar qüvvələrdən (qəbilələrarası basqın və vuruşmalardan) qorunmaq üçün təbii qala olmuş Böyükdaş (1-ci fotoşəkil) və Kiçikdaş (2-ci fotoşəkil) dağları özləri təbii-tarixi abidədir.

Qobustanda qayaüstü təsvirlər 1939-cu ildən məlum olsa da, Böyük Vətən müharibəsi onların qeydə alınması və öyrənilməsi işini 1945-ci ilə qədər ləngitmişdir. 1947-ci ildən 1965-ci ilə qədər İ.M.Cəfərzadənin rəhbərliyi ilə Qobustanda Böyükdaş, Kiçikdaş dağları və Cingirdağ-Yazılıtəpə sahəsində 750-yə qədər daş və qaya üzərində 3500-dən çox döymə və qazma üsulu ilə çəkilmiş insan və heyvan rəsmləri, müxtəlif mövzulu həyat səhnələri, qayıq təsvirləri, işarə, damğa, yazı, yalaq, dəlmə və s. kimi insan əlinin izi olan abidə qeydə alınmışdır (21).

1965-ci ildən Qobustanda qədim qayaüstü təsvirlərin öyrənilməsi və qeydə alınması işi Qobustanda arxeoloji qazıntılar müəlliflər tərəfindən davam etdirilir (22).

«Qobustanda ilk, əsaslı, arxeoloji qazıntı 1960 və 1961-ci illərdə müəlliflərin iştirakı ilə İ.M.Cəfərzadənin rəhbərliyi altında «Ovçular» zağasında aparılmışdır (23).

1965-ci ildən başlayaraq, müəllif C.N.Rüstəmovun rəhbərliyi, F.M.Muradovanın iştirakı ilə Qobustan arxeoloji ekspedisiyası tərəfindən Qobustanda 16 daşaltı sığınacaq tipli düşərgə, dörd tunc dövrü yaşayış yeri, Yazılıtəpədə pir sahəsi, 40-a qədər kurqan arxeoloji qazıntılarla tədqiq edilmiş, 6 yerdə yoxlama qazıntısı aparılmışdır.

İ.M.Cəfərzadədən sonra aparılmış arxeoloji qazıntılar və axtarışlar nəticəsində Qobustanda daha 400-ə yaxın, üzərində insan əli ilə yaradılmış abidə - təsvir, yalaq və s. olan daş və qaya aşkar edilib qeydə alınmışdır. Onlardan 140 ədədi Qobustanda «Anazağa», «Kənizə», «Öküzlər-2», «Firuz», «Firuz-2», «Ceyranlar» və «Qayaarası» kimi qədim düşərgələrdə, «Böyükdaş», «Dairə», «Çapmalı» kimi yaşayış yerlərində müxtəlif dövrlərə aid mədəni təbəqə altında, tunc dövrü kurqanlarında qəbrin örtük və kromlex daşları arasında, qalanları Böyükdaş, Kiçikdaş, Cingirdağ - Yazılıtəpə sahələrində, qabaqlar qeydə alınmış daşlarla yanaşı və yeni sahələrdə, Kiçikdaş ərazisində Qayaaltı və Daşqışlaq

sahələrində, eləcə də Qobustan qoruğu ərazisindən kənarda, Böyük Qobustanda Şıxqaya və Şonqardağ (24) sahələrində aşkar edilmişdir.

Qobustanda arxeoloji qazıntı aparılmış daşaltı sığınacaqlarda düşərgənin divarlarını təşkil edən qayaların mədəni təbəqə örtmüş aşağı səthlərində də yüzlərlə qədim təsvirlər aşkar edilmişdir. Qayaüstü təsvirlərin öyrənilməsi və xüsusən, dövrlərinin müəyyənləşdirilməsi işində mədəni təbəqə altından aşkar edilmiş bu kimi daşlar üzərindəki qədim rəsmlərin elmi əhəmiyyəti qədərsizdir. Göstərilən daşlardakı rəsmlər bu ərazidə oxşar təsvirlərin bir növ doğum şəhadətnaməsi sayıla bilər. Ona görə də Qobustanın qədim qayaüstü təsvirlərini xalqımızın qədim mədəniyyətinin və tarixi inkişaf yolunun güzgüsü saymaq olar. Qobustan çox geniş mövzulu, dərin məzmunlu 15-20 minillik tarixi dövrdə tarixin inkişaf yollarını işıqlandıran şəkillər qalereyasıdır.

Qobustanda qədim qayaüstü təsvirlər qayalar üzərində harada gəldi çəkilməyib. Qədim qobustanlıların yaşayışını, təsərrüfat həyatı və dünyagörüşünü əks etdirən bu incəsənət abidələri ən çox qədim insan düşərgələrinin divarlarında və oraya yaxın daş və qayalar üzərində döymə, qazma, sürtmə, cızma üsulu və palitra ilə rəngli (Böyükdaşda yuxarı səkidə daş № 24[a], 181; Qayaaltı kolleksiyada daş № 11) çəkilmişdir.

Qobustanda «Anazağa», «Kənizə», «Ceyranlar» və «Qayaarası» kimi qədim düşərgələrdə arxeoloji qazıntı aparılana qədər qayaüstü təsvirlərin ən qədimləri (kölgəvari döyülmüş qadın və kişi təsvirləri) oxşatma yolu ilə və şəxsi mülahizələrə əsasən eradan əvvəlki V-III minilliklərə - (25), «Ovçular» zağasında arxeoloji qazıntılardan sonra isə neolit dövrünə - eradan əvvəlki VIII-VI minilliklərə, təbii ölçülü, eləcə də kiçik ölçülü, lakin tam real təsvir edilmiş öküz rəsmləri, kiçik ölçülü kölgəvarı döyülmüş kəmərçinli kişilər, real çəkilmiş at (gur), maral və iri ölçülü keçi təsvirlərinin bir qismi neolitdən sonrakı eneolit dövrünə, eradan əvvəlki IV-III minilliklərə aid edilmişdir (26).

30 ildə Qobustanda apardığımız arxeoloji qazıntı və tədqiqatların nəticələri göstərir ki:

1. Qobustanda yaşayış və qayaüstü təsvirlərin çəkilməsinin tarixi çox-çox qabaqlardan - yuxarı paleolitdən başlamışdır.

2. Qayaüstü təsvirlərdən hansının daha qədim olması üçün onların real görünüşdə düzgün çəkilməsi müəyyən qədər şərtlənsə də, ölçülərinin böyüklüyü şərt deyil və heç də ən qədim təsvirlərin hamısı iri, təbii ölçüdə çəkilməyib. Təbii ölçülü öküz rəsmləri bəlkə də qədimliyinə görə ikinci, üçüncü sırada durur. Ümumən Öküz təsvirlərinin hamısını, qədimliyinə görə, yandan kölgəvari döyülmüş qadın rəsmlərindən və ön görünüşdə, beli kəmərçinli, çiynindən kaman asılmış kişi rəsmlərindən sonrakı dövrə aid etmək də düzgün deyil.

Öküz təsvirləri Qobustanda tarixin daş dövrünün bütün mərhələlərində və sonrakı dövrlərdə də var. Onların kiçik və orta ölçülü (uzunluğu 0,5 metrə qədər) olanları yan görünüşdə kölgəvari qadın təsvirləri kimi ən qədimdir. Öndən

görünüşdə kölgəvari döyülmüş, yay-oxla silahlı, beli kəmərçinli kişi rəsmləri isə öküzlərin çox da iri olmayan qədim qrupundan sonraya, təbii ölçülü iri öküzlərdən əvvələ aiddir. Bu tip kişi təsvirləri Böyükdaş dağının yuxarı səki sahəsində, «Anazağa» düşərgəsində ikinci mərhələyə aid olub, mezolit dövrü təsvirlərinin əsasını təşkil edir. Arxeoloji qazıntılar nəticəsində ən qədim dövrə (yuxarı paleolitə) aid Kiçikdaş dağında «Qayaarası» düşərgədə beli kəmərçinli, kölgə kimi döyülmüş, yay-oxlu kişi təsvirləri yoxdur. İlk dövrün kişi təsvirləri kiçik ölçülü, xətlərlə verilmiş (bədəni dikinə düz xətlə, qolları və ayaqları yana açılmış) insan təsvirlərindən ibarətdir. Bu dövrdə qadınların kölgəvarı, daha çox nəzərə çarpacaq vəziyyətdə, kişilərin az-az və adi xətlə təsvir edilməsi səbəbini bəlkə də qəbilədə qadının madərşahlıqda üstün mövqe tutması ilə, Ana kimi pərəstiş obyekti olması ilə izah etmək gərəkdir. Görünür, sonralar qəbilə həyatında kişi əməyinin get-gedə qiymətləndirilməsi, kişinin həyatda rolunun artması, kişiyə - Ataya, ovda seçilən qoçaq ovçuya hörmət kişilərin də əkslərinin qayada kölgəvarı şəkildə, ov silahları (ox və kaman, bəzən bumeranq) ilə silahlanmış təsvir edilməsinə səbəb olmuşdur.

3. Bizim tədqiqatlara qədər hesab edildiyi kimi Qobustan qayalarında təsvir edilmiş bütün heyvanların heç də hamısı ov obyekti olmayıb və ovsunçuluq məqsədi ilə təsvir edilməyib. Arxeoloji qazıntıların nəticəsinə əsaslanan araşdırmalar göstərir ki, Qobustanda hələ yuxarı paleolit dövründə «Qayaarası» düşərgəsinin sakinlərinin əsas ov obyekti ceyran, dövrün sonu və orta daş dövründə «Anazağa» sakinlərinin əsas ov obyekti isə ceyran və gur olmuşdur. Lakin bu heyvanların təsvirləri olduqca azdır. Qobustanda qayalar üzərində təsvirinə ən çox rast gəlinən marallar isə ov obyekti olmayıb və onlar ovlanmayıb. Bunu arxeoloji qazıntılar zamanı əldə edilmiş minlərlə sümük qalıqları içərisində bir dənə də olsun maralın mətbəx sümüyünün olmaması deyir. Görünür, yarımsəhra təbiətə malik Qobustanda qayaüstü təsvirlərin yarandığı dövrdə heç maral olmayıb, real maral təsvirləri isə gözəllik simvolu kimi yaradılmışdır, totemdir. Qeyd edək ki, Qobustanda son tunc və antik dövrlərindən əvvəl maral təsvirləri yoxdur. Çox güman ki, qədim qobustanlılar canlı maralı tarixin göstərilən dövrlərində, vaxtaşırı, Qafqaz dağlarının ətəklərindəki meşəli zonalara ova gedərkən görmüş, bu heyvanın gözəlliyinə valeh olmuş və onu özünə totem sayaraq, təsvirlərini qayalarda həkk etmişlər.

4. Qobustanda keçi təsvirləri çoxdur. Onların bir qismi belindən xətlə kəsilib. Bizə qədərki məlumatlarda bu ovsun əlaməti kimi qeydə alınır. Bizim tədqiqatlar göstərir ki, Qobustanda keçi təsvirlərindən bəlkə də vəhşi olanı yoxdur, ya da tək-təkdir. Keçiyə (yay-oxla, nizə ilə və s.) əsl ov səhnəsi yoxdur. Onlar əsasən ev keçiləridir. Ən qədimləri isə beli kəsik deyil (bax: «Firuz» düşərgəsində qazıntı, daş № 80). Belindən kəsilmiş (ovsunçuluq əlaməti olan) keçi təsvirlərinin çoxu isə əsasən Yazılıtəpə sahəsində, Böyükdaş dağında aşağı səki sahəsində (daş № 10, 13, 116, 140, 145, 151), Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağında (Kiçikdaş, № 5 və s.) pirlərə yaxın olan sahələrdədir. Ona görə də

biz keçi təsvirlərinin belindən kəsilməsini ovsunçuluq yox, pirə qurban kəsmə əlaməti sayırıq. Bizə elə gəlir ki, indi müqəddəs yerlərdə olduğu kimi, o vaxtlarda da pirə qurban gətirənlərdən bəziləri qurbanlığın haqqını verib onun adından qurban kəsilməsini pirə qulluq edən şəxslərə həvalə edirdilər. Pirdə eyni vaxtda bir neçə qurban kəsildikdə, qurbanlıq əti çox olub artıqlıq etdikdə, kiminsə haqqını verdiyi qurbanlığı kəsməyib sonraya saxlamaq məcburiyyətində qalması təbii idi. Görünür, belə vaxtlarda qurbanlığın haqqını almış, qurbanlığı kəsməməklə günaha düşmək istəməyən pir qulluqçusu qurbanlıq əvəzinə, qayada özü çəkdiyi və ya elə qədimdən çəkilmiş keçi rəsmini kəsməklə borcunu «yerinə yetirir», özünün günahını yuyulmuş hesab edirdi.

5. Qobustanda tunc dövrü kurqanlarının qazıntısı zamanı kurqanın nişangah daşında (kurqan № 15), daş qutu qəbrini ətrafına düzülmüş kromlex daşlarında (kurqan № 3, № 7, № 30), qəbrin örtük daşında (kurqan № 23, № 28 və s.) heyvan (əsasən keçi) təsvirləri aşkar edilmişdir. Bu təsvirlərdəki heyvanların tunc dövrü üçün ev heyvanı olmaları şübhə doğurmur. Arxeoloji qazıntılar zamanı bəzən qədim (xüsusən tunc) dövrü qəbirlərində qablarda heyvan sümüklərinə, heyvanların bütöv skeletlərinə rast gəlinir. (Qobustanda 15 №-li qəbrə bütöv qoyulmuş qoyun skeleti aşkar edilmişdir). Qəbrə qablarda ət xörəyinin və ya bütün skeletin (qoyunun və atın) qoyulması, sözsüz ki, ölünün axirət dünyasında ehtiyacını ödəmək məqsədini güdmüşdür. Biz belə hesab edirik ki, kurqanların qəbir və kromlex daşlarındakı təsvirlər də onun öz heyvanları simasında ölünü müşayiət etmək, həqiqi heyvanı daşda rəsm edilmiş heyvanla əvəz etmək məqsədi güdmüşdür.

6. Qobustanda qayaüstü təsvirlərin yaranması ibtidai insanların həyatı və dünyagörüşü ilə bağlı olmuşdur. Bizə görə insan təsvirləri mötəbər adamların - baba və nənələrin simasını özləri ilə yaşatmağın, seçilmiş və tanınmış adamlara hörmət və ehtiramın təzahürüdür. Heyvan rəsmlərinin daş dövründə çəkilmiş bir qismi (ceyran, gur, öküz, qaban və s.) ovlanmış heyvanları göstərmiş, bir qismi (öküz, keçi, şir və b. kimi) qayada totem kimi təsvir edilmiş, maral rəsmi isə totem gözəllik rəmzi kimi çəkilmişdir.

Daş dövründən sonrakı dövrlərdə çəkilmiş öküz (inək), keçi, at və b. heyvan təsvirlərində qədim qobustanlıların ev heyvanları ilə, həyat və təsərrüfatla bağlı görüşləri ifadə edilmişdir.

7. Qobustanda qayaüstü təsvirlərin mövzusu çox genişdir. Burada qayalar üzərində yandan və bəzən öndən olmaqla kölgəvari döyülmüş (bəzən silahlı), bəzən bədəni bəzədilmiş qadın, öndən çəkilmiş silahlı və kəmərçinli kişi rəsmləri, xətt ilə verilmiş piyada və atlı, yay-oxla, nizə ilə, üç dişli yaba ilə, qılıncla silahlanmış ovçu və cəngavər təsvirləri, kollektiv rəqs (yallı), kollektiv əmək, ov, döyüş və sitayiş səhnələri həkk olunmuşdur. Qobustanda həyat olan dövrdə yaşamış bütün heyvanların (ot yeyən və yırtıcı), sürünənlər (ilan və kərtənkələ), həşərat (böy), quş, balıq, hətta tısbağa və s. təsvirinə rast gəlmək olar. Onlar sakit

dayanmış, yeriş və qaçış vəziyyətində, heyvanların döyüşü, ovlanması, birinin digərinə hücum etməsi və s. kimi səhnələrdə verilmişdir.

Qobustanda müxtəlif tarixi dövrlərdə qayada çəkilmiş gəmi (qayıq) təsvirlərinin çoxluğu, balıq, balıqçı toru təsvirləri, sümükdən balıq toru toxumaq və dayaz sularda balıq vurmaq üçün tapılmış alətlər qədim qobustanlıların həm də mahir balıqçı, peşəkar qayıq düzəldən və dəniz səyyahı olduqlarını göstərir.

8. Qobustanın qədim qayaüstü təsvirlər kolleksiyası özünün mövzu müxtəlifliyi ilə yanaşı, real, təbii ifadəsi və mütənasibliyilə də seçilir. Onlar özünə görə xüsusi dəsti-xəttə malikdir. Heyvanların duruşu, hərəkətdə olması, xüsusi səhnələrdə təbii vəziyyətinin ifadəsi əsl incəsənət əsəri kimi adamı heyran edir. Bütün heyvanların başı, buynuzu (buynuzlularda), dörd ayağı və quyruğu olduğu halda, qədim rəssam onları elə ifadə etmişdir ki, hər heyvan rəsmi məhz o heyvanı göstərir. Bu vəziyyət, demək olar ki, İslama qədər davam edir. Sonra isə İslamın «Canlı aləmin yaradıcısı Allahdır, dünyanı da o yaratmışdır, canlıları da. Ondan başqa heç kəs canlı yarada bilməz» dünyagörüşünə uyğun olaraq canlıları təsvir etmək zəifləyir, aradan çıxır. Lakin qayalarda təsvir etmə qədimdən qalma adət kimi davam edir.

Qayalar üzərində yazı və sahibkarlıq simvolu kimi işarə və damğalar çoxalır, qayalar üzərində müxtəlif əyləncə - oyun qurğuları düzəldilir və s.

Qobustanda Böyükdaş, Kiçikdaş, Cingirdağ - Yazılıtəpə sahəsində qədim qayaüstü təsvirlərlə yanaşı qədim düşərgələr, yaşayış yerləri, qəbir abidələrinin çoxluğu bu dağların ərazisini kiçik arxeoloji rayona çevirir, açıq səma altında muzey kimi səsləndirir. Üç dağın ərazisi 2 dəfə Azərbaycan hökumətinin qərarı ilə Qobustan qoruğu (1951-ci ildə № 1003 və 1966-ci il 9 sentyabrda № 50) elan edilmiş, 1967-ci il fevral ayının 1-dən isə Qobustan Dövlət tarixi-bədii qoruğu kimi fəaliyyət göstərir. Qeyd edək ki, Böyük Qobustanda Qobustan qoruğu ərazisindən kənar sahələrdə Şonqardağ ətrafında 5 yerdə qədim qayaüstü təsvirlər və bir qədim düşərgə, Şıxqaya dağı ətrafında 8 daş üzərində qədim rəsmlər, yaşayış yeri qalığı və 5 kurqan aşkar edilmiş və tədqiq olunmuşdur(27). Böyük Qobustanın içərilərində «Qaynarça» adlanan yerdə kurqanlar və kromlexlər, Sofu Novruz piri yanında bütpərəstlik dövrü qəbristanlığı, ətrafına daş hasar çəkilmiş dairəvi yaşayış yeri, Kaftaran dağında möhtəşəm Ovdan tikilisi, Pirdirəki dağı ətrafında və içəri Qobustanda bir sıra abidələr qeydə alınmışdır.

Qobustanda üzərində təsvir, yalaq, dəlmə, işarə-damğa, yazı qalığı olan daşların sayı mindən çoxdur. Onlar müəyyən sahələrdə hər biri ayrıca nömrələnməklə, kolleksiya kimi, qeydə alınmışdır. Kolleksiyalardan üçü Kiçikdaş dağı sahəsində Qayaaltı, Kiçikdaş və Daşqışlaq kolleksiyalarıdır.

Qobustanın qayaüstü təsvirlərindən cəmi 120-yə qədər daş (onlardan bəziləri təkrar-təkrar olmaqla) İ.M.Cəfərzadə tərəfindən işlənib çap edilmişdir (Bax: Djafarzade, 1957, 1958, 1965, 1973)

Təqdim etdiyimiz bu işlə Qobustanda qayaüstü təsvirlərin, kolleksiya-kolleksiya olmaqla, hamısını işləyib təsvirləri tədqiqat və qazıntılarımızın nəticəsindən çıxan təxmini tarixləri göstərməklə, elm aləmi üçün çap etməkdir. Bu işdə daşlar üzərindəki təsvirlərin əvvəllər İ.M.Cəfərzadə tərəfindən çap edilmiş tarixi məsələsinə arxeoloji qazıntıların və tədqiqatların nəticələri əsasında yenidən baxılacaq, daşlar üzərində qeydiyyatdan qalmış rəsmlər qeydə alınacaq, eləcə də çap olunmamış və tərəfimizdən aşkar edilmiş daşlar üzərindəki təsvir və abidələr işə daxil ediləcəkdir.

Qobustanda Kiçikdaş, Böyükdaş, Cingirdağ-Yazılıtəpə, Şonqardaq və Şıxqaya sahələrindəki qayaüstü təsvirlərin hamısını (təxminən mindən çox daş üzərində 6000-dən çox şəkil) bir kitabda vermək mümkün deyil. Ona görə də Qobustan qayaüstü təsvirlərinin təsviri və izahını «Qobustan petroqlifləri» ümumi başlığı altında, göstərilən dağlar üzrə, ayrı-ayrı kitablarda verməyi planlaşdırırıq.

Təqdim olunan bu işdə Kiçikdaş dağı ərazisinin 3 kolleksiyasında (Qayaaltı, Kiçikdaş və Daşqışlaq) qeydə alınmış abidələri verilir.

Kiçikdaş dağı abidələri

Kiçikdaş dağı Qobustan qəsəbəsindən cənub-qərb tərəfdə, Böyükdaş dağından 3 km cənubdadır. Hazırda Kiçikdaş dağı iki hissədən ibarətdir: İlk görünüşdə dağ hissə və gil özülü əriyib qayalıqlar dənizinə çevrilmiş hissə. Birinci hissə Kiçikdaş dəğı ərazisinin şimal qurtaracağında ilk formasını saxlamış özülü gil, mizvarı formada, üstü 14 hektar sahəyə malik, 10-15 metr qalınlığında Abşeron cinsli əhəngdaşı layı ilə örtülü, hissədir (2-ci fotoşəkil). İkinci hissədə dağın alt, gil özülü yuyulub, əhəngdaşı örtüyü parçalanıb tökülərək, müxtəlif hündürlüklərdə saxlanmış qayalıqlar dənizi əmələ gətirmişdir. Dağın bu hissəsi şimalda özül hissədən cənuba, Çanaxqıran dağı, Qaraatlı piri və Qaraatlı qəbristanlığına qədər uzanır.

Kiçikdaş dağı sahəsinin qədim qayaüstü təsvirləri 3 kolleksiyada - Qayaaltı, Kiçikdaş və Daşqışlaq kolleksiyaları kimi qeydə alınmışdır.

1. Qayaaltı» petroliflәri kolleksiyasının qayaüstü təsvirləri

Kiçikdaş dağının zirvəsinin cənub-şərq baxarında, dağın daş layı örtüyünün altında, örtük qayadan qopub tökülmüş nəhəng qaya parçaları yığını arasında aşkar edilmiş 18 daş (№ 1-18) üzərindəki təsvirlər Kiçikdaş dağı «Qayaaltı» kolleksiyası kimi qeydə alınmışdır. Burada 5 rəsmli daş da arxeoloji qazıntılar nəticəsində aşkar edilmişdir.

Qayaaltı kolleksiyasının qədim qayaüstü təsvirləri arasında əsasən ibtidai öküz, qadın və xətti kişi təsvirləri diqqəti cəlb edir.

Qayaaltı sahədə təsvirlərin dövrünü müəyyənləşdirmək üçün iki yerdə, «Qayaarası» və «Qayaarası -2» adlandırılan qədim düşərgələrdə arxeoloji qazıntı aparılmışdır. Qazıntılar Qayaaltı kolleksiyasında öküz, insan, ceyran və s. təsvirlərin çəkilmə tarixinin yuxarı paleolit dövrünə aid olduğunu göstərmişdir (28).

«Qayaarası» düşərgəsi.

Düşərgə Kiçikdaş dağının daş örtüyünün cənub-şərq baxarı altında, «Qayaaltı» petroqlifləri kolleksiyasının 7, 8 və 9 №-li şəkilli daşları arasında, 1,5-2,0 metr enində, bir növ dəhlizvari örtülü arada aşkar edilmişdir.

«Qayaarası» düşərgəsində 1981, 1984, 1985 və 1986-cı illərdə 25 kv. metr sahədə, «Qayaarası-2» düşərgəsində isə 1986 və 1988-ci illərdə 20 kv. metrdən çox sahədə arxeoloji qazıntı aparılmışdır (29). (1-ci, 2-ci və 4-cü tablolar, düşərgələrin plan və kəsikləri).

«Qayaarası» düşərgəsində B_{4-8} V_{4-8} kvadratları zolağında 1,5-1,7 metr dərinliyə DEJ_{2-4} kvadratlarında 1,9-2,0 metr dərinliyə qədər (30) qara rəngli, çürüntülü, qayadan ovulub tökülmüş daş əziyi və xırda daş qırıqları qarışıqlı torpaq təbəqəsi davam edirdi. Bu təbəqə tərkibi etibarilə (içərisində tez-tez xırda quş və gəmirici sümüklərinə, tək-tək çaydaşı və çaxmaqdaşı qəlpələrinə və s. rast gəlincə də) tam mədəni təbəqə deyildir. İçərisindəki tapıntılar təsadüfi xarakter daşıyır. Bu səviyyədə təsadüf edilmiş ocaq qalığı da görünür qonşu «Qayaarası-2» düşərgəsinin üst təbəqəsinin sakinləri tərəfindən qalanmışdır.

«Qayaarası» düşərgəsində əsas arxeoloji material verən mədəni təbəqə göstərilən səviyyələrdən 3,0-3,7 metr aşağı dərinliyə qədər davam etmişdir. Əsas (material verən) təbəqə tünd qəhvəyi rəngli bərk gillicə ilə başlayır və bəzi sahələrdə qayadan ovulmuş əhəngdaşı ovuntusu qarışıqlı, boz qonur rəngli lay qalıqları ilə davam edir. Mədəni təbəqədə müxtəlif dərinliklərdə olmaqla 7 yerdə ocaq qalığı qeydə alınmışdır.

«Qayaarası» düşərgəsindən 7 mindən çox daş alət və onların istehsal tullantılarından ibarət arxeoloji material və çoxlu sümük qalıqları aşkar edilmişdir. Buradan əldə edilmiş daş alətlər əsasən çaxmaqdaşından qopardılmış qəlpə və lövhələrdən hazırlanmışdır. Onların 10%-ə qədəri (600-dən çoxu) müəyyən formaya salınmış, məqsədli daş alətlər, dişəklənmiş və istifadə edilmiş qəlpə və bıçaqvarı lövhələrdən ibarətdir(3-cü foto şəkil). Onların çoxunu arxaik və həndəsi formalı alətlər təşkil edir. Həndəsi formalı alətlər «Qayaarası»nda, eləcə də Qobustanın başqa qədim düşərgələrində («Anazağa», «Kənizə» və s.) kolleksiya təşkil edir. Bu vəziyyət ilk vaxtlar bizi Qobustan abidələrinin dövrünün ilk mezolit dövründən başlanması qənaətinə gətirmişdir (31).

«Qayaarası»ndan və «Anazağa» düşərgəsinin alt təbəqəsindən yuxarı paleolit tipli daş alət nümunələrinin tapılması, eləcə də qədim qadın təsviri tiplərinin bütün Qobustanda yalnız Böyükdaş və Kiçikdaş dağlarının örtük daşları altındakı «Qayaarası» və «Anazağa» düşərgələri daşları üzərində saxlanması,

Qobustan ərazisinin, xüsusən, göstərilən dağlar ətrafı və dənizkənarı zolağın bu günki təbii şəraitdə, nəinki son paleolit, hətta mezolit və neolit dövründə də yaşayış üçün əlverişsiz olması bizi düşünməyə sövq etdi. Görünür, yuxarı paleolit dövründə Qobustanda yaşayış yalnız Kiçikdaş dağında «Qayaarası» və «Qayaarası-2» (alt təbəqə), Böyükdaş dağında isə «Anazağa» və onun ətrafında olmuşdur. Ola bilsin ki, sonradan Xəzər dənizinin səviyyəsi son xvalin geoloji dövründə qalxmış, göstərilən dağların ətraf ərazilərini basmış və torpağı şoranlaşdırmışdır.

«Qayaarası»nda həndəsi formalı alətlərin (üçbucaq, trapes və seqmentlərin) olması yuxarı paleolit üçün gözlənilməz sayılmamalıdır (32). Bu vəziyyətə Krasnodar ölkəsindəki Satanay düşərgəsində də təsadüf olunur (33). Çünki Qafqazda yuxarı paleolit və mezolit dövrləri arasında birindən o birinə keçid fərqi olduqca şərti baş verir (34).

«Qayaarası» düşərgəsindən tapılmış çaxmaq daşından alətlər, əsasən, aşağıdakı arxaik tiplərdədir. Burada ən çox təsadüf olunmuş alətlərə çaxmaqdaşından qəlpə və bıçaqvarı lövhələrdən düzəldilmiş uclu (3-cü tablo, 4, 5 və 6), yanlı (3-cü tablo, 9), bir, iki və daha çox gəzli (3-cü tablo, 7, 8) qaşovlar; aşağı ucunun bir yanı dişəklə qövsvarı olaraq seqmentvarı şəkildə kütləşdirilmiş, düz ağzı iti saxlanmış şatelperron tipli köndələn bıçaqlar (3-cü tablo, 1-3); aşağı ucu iki tərəfdən dişəklə nazildilmiş iti uclar (3-cü tablo, 10, 11); bir yanı dərin dişəklə kütləşdirilmiş qəlpələr (3-cü tablo, 12, 13); lövhəvarı qəlpələrdən iskənə tipli alətlər (3-cü tablo, 14); aşağı ucu dişəklə çəpləşdirilmiş lövhələr (3-cü tablo, 15, 16); həndəsi formalı alətlərdən hündür üçbucaqlar (3-cü tablo, 17, 18, 19); hündür, uzunsov və oturacaqlarında gəz açılmış trapeslər (3-cü tablo, 22, 23, 24); uzun seqmentlər (3-cü tablo, 25, 26) və s. daxildir.

Ox ucları itiuclu formalı kiçik, lövhəvarı qəlpələrdən oturacağının bir tərəfindən dişəklənməklə (3-cü tablo, 20,21) düzəldilmişdir. Bir ox ucu sümükdəndir. Onun hər iki ucu şişləşdirilmiş və üzəri sürtülüb cilalanmışdır (3-cü tablo, 27). İri heyvanın qabırğasından lövhəvarı bir sümük əşyanın üzəri cilalanmış, bir ucunda bucaqvarı cızıqlar çəkilmiş və kənarları diş-diş edilmişdir (3-cü tablo, 28). Sümükdən bir ədəd pardaxlayıcı, iki ədəd biz, bir ədəd yığma alətin əsasından qırıq da tapılmışdır (4-cü fotoşəkil).

«Qayaarası» düşərgəsində çaxmaqdaşından konusvarı, prizmatik və karandaşvarı nukleuslar və onlardan qopardılmış simmetrik mikrolövhələrdən hazırlanmış mikroölçülü alətlər yox dərəcəsindədir. Nukleuslar əsasən birüzlü və konusa yaxın formalıdır. Nukleus kimi prizmavarı qəlpələrdən də istifadə olunmuşdur. Göstərilənlərdən əlavə «Qayaarası»ndan, çaxmaqdaşından, yuxarı ucu ikitərəfli gəzlə xüsusi ayrılmış lövhələr, qravett iti uclusu, biz və burğular, kəsər və kəsərciklər, ox ucu kimi işlədilə biləcək, dişəksiz, iti uclu şəkilli kiçik qəlpələr və s. də tapılmışdır.

«Qayaarası» düşərgəsi çaxmaqdaşı materiallarının əsas tipləri-qaşovlar, şatelperron tipli köndələn bıçaqlar, iti uclar, bir yanı kütləşdirilmiş lövhə və

qəlpələr, bir ucu çəpləşdirilmiş lövhələr və s. Dağıstanda «Çox» düşərgəsində yuxarı paleolit və ilk mezolit dövrünə aid 5-ci təbəqənin materialları ilə oxşarlıq tapır (35).

Qobustanda başqa qədim düşərgələrlə müqayisədə «Qayaarası»nda çaydaşından az istifadə edilmişdir. Çaydaşından əsasən qayalarda şəkildöymə aləti, zərb aləti, dişəkləyici, qopardılmış ilk qəlpələrindən bıçaqlar, qaşovlar düzəltmək, çopperlər və yerqazan alətlər, sürtkəclər və s. kimi iri ölçülü alətlər düzəltmək üçün istifadə olunmuşdur.

«Qayaarası» düşərgəsinin divarlarını təşkil edən 7, 8 və 9 №-li qayalar üzərində və mədəni təbəqə örtmüş sahələrində, eləcə də, mədəni təbəqə altından aşkar edilmiş 5 ədəd daş üzərində (onlardan 3 ədədi: 8^a, 8^b, 8^v №-li daşlar yerində saxlanmışdır) çoxlu qədim təsvirlər çəkilmişdir.

«Qayaarası» düşərgəsinin divarlarının qazıntı ilə açılmış sahələri və daşlar üzərində yuxarı paleolit dövrünün qadın fiqurlarını andıran qadın təsvirləri, ibtidai öküz, qaban, ceyran təsvirləri qazılmışdır.

«Qayaarası» düşərgəsindən tapılmış fauna qalığının 95%-dən çoxu, Azərb. EA müxbir üzvü, mərhum D.V.Hacıyevin təyinatına əsasən iri ölçülü ceyrana məxsusdur. Başqa heyvanlardan öküz, gur, suiti, keçi kimi heyvanlar və balıq sümüyü yox dərəcəsindədir. Görünür, «Qayaarası» düşərgəsinin daş dövrü sakinləri əsasən ceyran ovçuları olmuşlar. O dövrdə Qobustanın təbiəti ceyran sürülərinin yaşaması üçün çox əlverişli olmuş, gurlar isə hələ tam məskunlaşmamışlar.

«Qayaarası» düşərgəsindən əldə edilmiş daş alətlərin arxaik səciyyəsi, qədim təsvirlər arasında daş dövrü qadın rəsmlərinin çoxluğu və s. «Qayaarası» düşərgəsində yaşayışın yuxarı paleolit dövrünün sonlarına aid olmasını göstərir.

«Qayaarası-2» düşərgəsi Kiçikdaş dağ zirvəsinin cənub-şərq baxarında, dağın örtük əhəngdaşı təbəqəsindən qopub düşmüş nəhəng qaya parçaları arasında, «Qayaarası» düşərgəsindən 40-50 metr cənub-qərb tərəfdə, «Qayaaltı» qədim şəkillər kolleksiyasının 2 və 6 №-li daşları arasında sığınacaq tipli yerdə aşkar olunmuşdur. Düşərgədə 1986-1988-ci illərdə 20 kv. metr sahədə arxeoloji qazıntı aparılmışdır (36) (bax: 4-cü tablo, «Qayaarası-2» düşərgəsinin planı və kəsikləri). Düşərgədə üstdən 0,8-1,0 metrə qədər çürüntülü son dövr təbəqəsi, ondan altda daş əziyi qarışıqlı gillicə təbəqə davam edirdi. Alt daş dövrü təbəqəsi onun içərisində linzavarı yatmışdır. Əsas arxeoloji material bu mədəni təbəqədən əldə edilmişdir. Toplanmış 1700-dən çox daş materialından 130-a qədəri çaxmaq və çaydaşından alətlərdir. Onlar 15 ədəd çaxmaqdaşından müxtəlif formalı nukleus, 23 ədəd trapes, 4 ədəd seqment, 33 ədəd uclu, gəzli və yanlı qaşov, 5 ədəd aşağı ucunun bir yan tərəfi kütləyici dişəklə seqmentvarı şəklə salınmış köndələn bıçaq, 6 ədəd ox ucu, çaydaşından 2 ədəd çopper, 5 ədəd zərb aləti və s. kimi alətlərdən ibarətdir.

«Qayaarası-2» düşərgəsində alt təbəqənin materialları», ümumi səciyyəsi ilə qonşu «Qayaarası» düşərgəsində alt mədəni təbəqənin materiallarına yaxındır. Hər

iki düşərgədə çaydaşından, Qobustanda başqa düşərgələrdə olduğundan, az istifadə olunmuşdur. «Qayaarası»nda olduğu kimi «Qayaarası-2»dən də toplanmış sümük qalığı əsasən ceyrana aiddir. Qazıntılar nəticəsində aşkar olunmuş rəsmlərdən «Qayaarası»nda yalnız 2 ədəd öküz təsviri (12-ci tablo, B 7 və 13-cü tablo, A) qeydə alındığı halda «Qayaarası-2»-də daha az sahədə qazıntıdan 9 öküz rəsmi aşkar edilmişdir (Bax: 9-cu tablo, «A», №№ 7-11, 14-16 və «B», № 2). «Qayaarası»nda 8 və 9 №-li daşlar üzərində qazıntı ilə aşkar edilmiş siluet qadın təsvirləri çox olduğu halda, «Qayaarası-2»də qazıntı ilə mədəni təbəqə altından onlar yoxdur. «Qayaarası» üst paleolit dövründən sonra düşərgə kimi istifadə edilməyib. «Qayaarası-2»də isə sonrakı ilk tunc dövründə də az müddətli yaşayış olmuşdur. Buna üst səviyyədə rast gəlinmiş gil qab qırıqları və qazıntının üst səviyyəsində düşərgənin örtülü sahəsində (A_5-B_5 kvadratlarında) 6^{v} №-li daş üzərində qazılmış yalaq şahidlik edir.

«Qayaarası-2»də qədim qadın təsvirlərinin olmaması, öküz rəsmlərinin isə çoxluğu burada həyatın «Qayaarası»ndakı yaşayışın son mərhələsində baş verdiyini göstərir. Görünür, «Qayaarası»nda 7 və 8 №-li daşlar üzərində, qazıntıdan yuxarı səviyyədə qeydə alınmış öküz rəsmləri də (10-cu tablo, №№ 1, 2, 4, 5, 7, 8; 11-ci tablo, №№ 1, 2, 5, 7) «Qayaarası»nda həyatın son mərhələsində, «Qayaarası-2»də alt təbəqə dövründə çəkilmişdir.

«Qayaaltı» kolleksiyasının 5 №-li daşının şimal üzünün qərb hissəsindəki səhnədə, (7-ci tablo, B) öküz (№1 6) daha qədim qadın təsvirlərinin (№ 11-15) altında çəkilib (5-ci fotoşəkil). Belə bir səhnəyə Böyükdaş dağı yuxarı səki sahəsində, 78 №-li daşın üstündə də təsadüf olunmuşdur. Qadın təsvirləri (№ 3-6) öküz (№ 7) təsvirinin üstündə çəkilmişdir.

İ.M.Cəfərzadə qadın təsvirlərinin er.əvvəlki IV-III minilliklərin arasına, öküz təsvirini isə er.əvvəl IV minilliyə aid etmişdir (37). Tədqiqatların nəticələri öküz və qadın təsvirlərinin həmin dövr paleolitin sonuna aid olduğunu göstərmişdir.

Biz hesab edirik ki, ilk qadın təsvirləri əsasən madərşahlığın hakim olduğu üst paleolit dövründə, qəbilə ocağının qoruyucusu, nəslin davametdiricisi uğursuz ov zamanı yığıcılıqla topladığı ərzaqla qəbilə üzvlərini təmin edən anaya, qadına pərəstişin ifadəsi kimi çəkilmişdir.

«Qayaaltı» qədim təsvirlər kolleksiyasında qeydə alınmış şəkilli daşlar aşağıdakılardır:

DAŞ № 1

Kiçikdaş dağı zirvəsinin cənub-şərq baxarında, «Qayaaltı» şəkilli daşlar kolleksiyası daşlarından ən cənub tərəfdə olanıdır. «Qayaarası-2» düşərgəsindən 15-20 metr cənubda, şimal-qərb-cənub-şərq üstü örtük kimi iki sahəli olmaqla enişə doğru yatmış 10-11 metr uzunluğunda, 15-20 sm enində çatla iki bölünmüş

nəhəng qayanın qərb hissəsidir. Bu hissənin uzunluğu yerdə təxminən 7 metr, eni 4 metr, hündürlüyü 5 metrdir. Daşın şimal-şərq tərəfə baxan üzünün qərb ucunda yönü sağa olmaqla çox iri, təbii ölçülü öküz təsvirinin baş hissəsi saxlanmışdır (5-ci tablo, «A»). Onun qoşa buynuzu başa nisbətdə uyğun ölçüdə, dalğavarı olaraq dik qalxır, qulaqlar çox kiçik verilmişdir. Bədəni saxlanmamışdır (6-cı fotoşəkil). Keçmişdə daşın bu üzündə tam öküz və başqa təsvirlərin də olması istisna edilmir. Daşın bu üzü şimala tərəf baxdığından daima şimal küləyi və yağışın təsirinə məruz qalır. Ona görə də, çox güman ki, daşın bu üzündə olmuş qədim təsvirlərin çoxu atmosferin təsirindən, silinib saxlanmamışdır. 1 №-li daşın şimal-qərb tininin, öküz təsviri olan ucunun, altında da qədim təsvirlər vardır (5-ci tablo, «B», 1-8 və 7-ci fotoşəkil). Bu təsvirlər olan üz kiçik və düz sahəyə malikdir. İlk əvvəl bu təsvirlərə baxmaq üçün dalı üstə yerə uzanmaq lazım gəlirdi. Çünki şəkillərlə torpaq arasında hündürlük 0,6 metrdən hündür deyildi. Ona görə də daşın şəkillər olan ucunun altı qazılıb dərinləşdirildi. Bu üzdə çox kiçik ölçülü iki ədəd siluet döyülmüş qadın (№№ 1, 2), iki ədəd sxematik adam (№№ 6, 7), iki ədəd öküz (№№ 3, 4) bir ədəd ceyran (№ 8) və qoşa xətt qalığı (№ 5) qeydə alındı.

Qadın rəsmlərinin hər ikisi yönü sola, iri döş və oturacaqla qeyd olunmaqla Qobustanın ən qədim, paleolit dövrü rəsmlərindəndir. Öküz rəsmlərindən biri (№ 3) qadın təsvirinin birinin (№ 2) üstündə çəkilmiş və onun bel xətti qadının omba və qarın hissəsini kəsmişdir. Öküzün boynunda iki kiçik qulağı və iki qoşa, qabağa meyilli buynuzu, qabaqdan ikinci ayağı və qarınaltı xəttindən hissə saxlanmışdır. İkinci öküzdən (№ 4) bel xətti, iki dik və dala meyilli buynuzu və başı saxlanmışdır. Onun başının forması öküz olmasını deməyə qənaət verir.

Adam rəsminin hər ikisi çox kiçik və sxematik olaraq başları yumru, sağ qolları yuxarı qaldırılmış, sol qolları maili olaraq aşağı uzanmış, ayaqları yana açılmış vəziyyətdə və adamın birinin (№ 6) sağ ayağının ucu haçalanmış təsvir edilmişdir.

Ceyran (№ 8) rəsmi başı uzunsov və girdə, qoşa buynuzu yuxarı qalxıb ucu qabağa əyilmiş, qabaq ayaqları qabağa, dal ayaqları dala olmaqla qaçış vəziyyətində təsvir edilmişdir.

Qayaaltı kolleksiyasının 1 №-li daşındakı bütün təsvirlər «Qayaarası» düşərgəsinin də ilk yaşayış dövründə - tarixin üst paleolit mərhələsində, er.əvvəlki XVIII-XV minilliklər arasında çəkilmişdir.

DAŞ № 2

Qayaaltı sahənin 1№-li daşından 10 metr şimala, 3№-li daşdan 330° altında 8-10 metr məsafədə «Qayaarası-2» düşərgəsinin qərb divarını təşkil edən və qərb tərəfi dağa söykənən, yuxarısı çat-çat olmuş, şərq ucu «Qayaarası-2» düşərgəsinin üstünü örtmüş, şərq-qərb uzunluğu 10 metr, qərb ucda eni 7-8 metr, hündürlüyü 5,5 metr nəhəng qayadır. Onun cənub-şərq üzünün aşağı hissəsi XX əsrin 70-ci

illərində yağış suyu ilə yuyulub açılmış və burada qədim şəkillər qeydə alınmışdır. Daşın «Qayaarası-2»yə baxan şərq tərəfi yumşaq əhəng daşı olduğundan aşınmaya məruz qalmışdır. Ona görə də bu qayada qədimdə, şəkil olub-olmadığını demək mümkün deyildi.

2 №-li daşın cənub-şərqə baxan dik üzünün, yağış selinin açdığı aşağı hissəsində uzunluğu 4 metrə qədər və 1 metrə qədər hündürlüyə malik sahəsində 14 ədəd oxunan-oxunmayan insan, heyvan və xətt qalığı qeydə alınmışdır (6-cı tablo, «A»1-14). Təsvirlərin 7 ədədi (№№ 1, 2, 6-8, 10, 14) insan, 4 ədədi (№№ 4, 5, 9, 13) öküz təsviri, qalanları (№№ 3, 11, 12) oxunması mümkün olmayan xətt qalıqlarıdır.

İnsan təsvirlərindən 5 ədədi (№№ 1, 2, 7, 8, 10) qadın təsvirinin pis saxlanmış qalığı, biri (№ 6) kişi və biri (№ 14) şaquli xətlə göstərilmiş oxatan adam təsviridir. Sonuncu yay-oxunu ondan soldakı 13 №-ilə qeydə alınmış öküzün boğazına tuşlamışdır.

1 №-li qadın və 6 №-li kişi təsvirləri çiyinlərindəki alət və ya silahla göstərilmişdir. Xətti üslubda verilmiş kişi təsviri (№ 6) xüsusilə real göstərilmişdir. Beldən aşağısı saxlanmamış qadın (№ 1) isə Qobustanda bir çox qədim qadın təsvirləri kimi uclarında çıxıntısı olan çiyin ağacı alət ilə göstərilmişdir. Təsvirlərdən biri (№ 5) tam və real çəkilmiş ibtidai öküz rəsmidir. Birinin (№ 4) bədəninin xətləri uyğun gəlməsə də buynuzları, alın xətti burada öküz təsvir olunduğunu göstərir. Üçüncü öküz təsvirində (№ 9) onun bel xətti, quyruq çıxıntısı və dal ayağından hissə bunların öküz təsvirinin qalıqları olduğunu göstərir.

13 №-li rəsmdəki öküz təsviri nisbətən bütöv olsa da ayaqları, quyruğu çox qısa saxlanmış, başı və buynuzları saxlanmamış, boynu və beli tərəfdə naməlum qədim şəkildən xətt qalıqları saxlanmışdır. 3, 11, 12 kimi nömrələnmiş və bir sıra nömrə ilə qeydə alınmamış xətt qalıqlarının mövzusu və aidiyyatı haqda söz demək çətindir. Bu cür xətt qalıqlarına Qobustanda qədim şəkillərlə bir yerdə çox təsadüf olunur. Onlar yumşaq əhəngdaşı üzərində çəkilmiş və minilliklər ərzində təbii təsirlər nəticəsində silinmiş qədim təsvirlərin qalıqlarıdır.

Qayaaltı sahənin 2 №-li daşındakı təsvirlərin dövrü, onların sel sularının təsiri ilə 1 metr dərinlikdən torpaq altından üzə çıxmasına, qayada qonşu «Qayaarası-2» düşərgəsinin alt mədəni təbəqəsi səviyyəsinə uyğun gəlməsinə, eləcə də, mövzusu və saxlanma dərəcəsinə əsasən yuxarı paleolit dövrünün sonlarına aid edilir.

DAŞ № 2^{A}

Kiçikdaş dağında Qayaaltı sahədə 2 və 6 №-li daşlar arasında «Qayaarası-2» düşərgəsində arxeoloji qazıntılar zamanı torpaq altından çıxmış və yerində saxlanmış 3 ədəd, şəkilli və 1 ədəd, üzərində iri yalaq qazılmış, daş da aşkar edilmişdir. Onların biri 2^{A}, üçü 6^{a}, 6^{b}, 6^{V} kimi nömrələrlə qeyd edilmişdir, (bax. 4-cü tablo, «Qayaarası-2»düşərgəsinin planı).

Daş 2^{A} düşərgədə B_{4-5} V_{4-5} kvadratları sahəsində, 6^{B} №-li daşdan 10 sm cənuba yerdən bitili, 1 kv. metrə qədər sahə tutan, 1 metr hündürlüyə malik, yuxarısı nisbətən yığılmış, qərb-şərq meyilli daşdır. Onun üzərində çoxlu xətt və şəkil qalıqları var. Onlardan daşın cənub-şərq tərəfində 4 rəsm qeydə alınmışdır (6-cı tablo, «B»1-4). Onların 3-ü (№ 1, 3,4) insan və biri (№ 2) heyvan təsviridir. Heyvanın başı saxlanmamış, bədən quruluşu və irtməkvarı quyruğuna görə onun ceyran olduğu aydındır. Adamlardan ikisi (№1 və 3), biri sağa və biri sola tərəf olmaqla, əlində yay-ox tutmuş, bədənləri şaquli xətlə və ayaqları aralı göstərilmişdir. Birinin (№ 1) başı da kiçik dairəciklə verilmiş kişi təsviridir. Üçüncü adamın (№ 4) da bədəni şaquli xətlə, başı girdə olmaqla, qolları və ayaqları yana və aşağı uzanmış, bədəninin alt ucu ayaqların arasından aşağı çıxmaqla, kişi olduğu göstərilmişdir.

«Qayaarası-2» düşərgəsində aşağısı alt mədəni təbəqədə, yuxarısı gəlmə torpaqla örtülmüş bu daş üzərindəki təsvirlərin burada daş dövrü adamları tərəfindən çəkildiyini göstərir.

DAŞ № 3

Qayaaltı kolleksiyasının 1, 5 və 6 №-li şəkilli daşlarının tutduğu sahənin ortasında, 2 №-li daşdan 150° altında 10 metr məsafədə, 5 №-li daşdan 4 metr qərb tərəfdə yerdən bitili, şimal üzü üçbucaqlı, yerdə uzunluğu 5 metr, ortada hündürlüyü 3,5 metr maili səthə malik daşdır. Daşın cənub üzü ortada 2,5 metr hündürlüyündə dikdir.

Daşın şimal üzünün qərb hissəsində 2 öküz və 2 adam təsviri qeydə alınmışdır (5-ci tablo «Q»,1-4). Təsvirlər qeydə alınan vaxt buradakı iri öküzün (№ 2) qabaq və dal ayaqları, eləcə də döşü ilə quyruğunun dibi arasındakı hissəsi torpaq altında olmuş, sonradan qazılıb açılmışdır (8-ci fotoşəkil). Bu öküz (№ 2) təbii ölçüdə, yönü sola, başı və döşü qabağa yönəlmiş, qabaq ayaqları dala dal ayaqları qabağa qaçış vəziyyətində təsvir edilmişdir. Onun buynuzunun biri dalğavariliyi ilə azca hiss olunmaqla, qabağa yönəlmiş, ikinci buynuzundan kiçik hissə saxlanmışdır.

İkinci öküz (№ 1) daşın yuxarı hissəsində, kiçik ölçülü (quyruğundan buynuzuna 90 sm), yönü sağa sakit vəziyyətdə təsvir edilmişdir. Ayaqları qismən və daldan ikincisi tamam silinib. Buynuzları dalğavarı olaraq qabağa uzanmışdır.

Adam təsvirləri əl-ələ tutmuş və qollarını yana açmış vəziyyətdə çəkilmişdir. Hər ikisi öndən başları dairəcik, bədəni şaquli xətt və ayaqları aralı qoyulmuş, baldırları nisbətən yoğun xətlə təsvir edilmiş, soldakı adamın başından yana maili çıxıntı - xətt (çox güman ki, saç topası) göstərilmişdir. Təsvirlərdən iri ölçülü öküz (№ 2) daha qədim olmaqla yuxarı paleolit dövründə, qalanları dövrün sonunda çəkilmişdir.

DAŞ № 4

Qayaaltı sahədə nəhəng qayanın 1 №-li daşdan 20-30 sm enində çatla ayrılmış cənub-şərq ucudur. Onun şimal-şərqə baxan üzü 45° şərqə tərəf dönüb 10 metrə qədər uzunluğu və 6-7 metr dikinə hündürlüyü olan sahə əmələ gətirir. Təsvir qalıqları onun 5 №-li şəkilli daşa baxan bu üzündə, ortada, yerdən 1,0-1,5 metr hündürdədir. Burada çox iri ölçülü öküzün başı, qabaq ayaqları, qarınaltı xəttinin yarısı və bel xətti olmaqla çox hissəsi, öküzün burnunun qabağında isə oxunması mümkün olmayan çoxlu xətt qalıqları saxlanmışdır (5-ci tablo, «V»). Öküzün kiçik başı çox yoğun verilmiş bədənindən ayrılmır. Onun burnu nazilərək bucaqvarı şəkildə qabağa uzanır. Buynuz əvəzi öküzün qaşı yerindən yuxarı iki kiçik qoşa xətt qalxır. Ümumi baxışda təsvirin səbatsız çəkilməsi nəzərə çarpır. Onun 1 və 3 №-li daşlardakı öküz təsvirlərindən gec olduğunu, «Qayaarası-2» düşərgəsində yaşayış dövrünün son mərhələsində (eneolit-tunc) çəkildiyini güman etmək olar.

DAŞ № 5

Kiçikdaş dağında Qayaaltı sahədəki qayalar yığınının cənub hissəsində, 4 №-li daşdan 45° altında 8 metr məsafədə, 3 №-li daşdan 4 metr şərqdə, 6 №-li daşın cənub ucundan 2,5-5,0 metr cənubda dayanmış nəhəng qayadır. Şimal üzünün şərq-qərb ölçüsü 9 metr, ortada hündürlüyü 8 metr olmaqla yuxarı qalxdıqca nazilib piramida şəkli alır. Daşın cənub və şərq tərəfdən altı uçurumdur (9-cu fotoşəkil). Qədim qayaüstü təsvirlər daşın qərb üzündə alçaqda, şimal üzündə və şərq tərəfinin əlçatmaz hündür yerində qeydə alınmışdır.

5 №-li daşın 3 №-li daşa baxan qərb tərəfində bədəni, ayaqları və boynundan hissələr qalmış bir naməlum heyvan təsviri (№ 1) və başqa bir şəkildən xətt qalıqları (№ 2) saxlanmışdır (6-cı tablo, «V» 1-2). Daşın 6 №-li daşa baxan şimal üzünün qərb və şərq uclarında olmaqla çox diqqət cəlb edən qədim təsvirlər var (7-ci tablo, № 1-20). Onlardan 9 ədədi (№ 1-9) daşın şimal üzünün şərq hissəsində, 11 ədədi (№ 10-20) şimal üzünün qərb hissəsində qeydə alınmışdır.

Daşın şimal üzünün şərq hissəsində qeydə alınmış təsvirlərdən ikisi (№ 2-3) adam, dördü (№ 4-7) öküz, ikisi (№ 8-9) öküz tipli heyvan təsvirinin qalığı, biri isə (№ 1) uzunluğu (burnundan quyruğuna) 4,3 metr, baş tərəfdə eni 1,0 metrdən çox balıq təsviridir (10-cu fotoşəkil).

Adam təsvirlərinin hər ikisi yumrubaş, uzun bədən və iki ayaqla (hündürlükləri 30 və 35 sm) göstərilmişdir. İkinci adamın (№ 3) ayaqlarından aşağıda, ayaqların davamına oxşar qoşa xəttin nə qalığı olduğunu demək çətindir. Öküz təsvirlərindən üçünün (№ 5, 6, 7) buynuzu və bədəni demək olar ki, tam, birinin (№ 4) isə yalnız arxa hissəsi saxlanmışdır. Hamısı təbii və mütənasib təsvir edilmişdir. İki qeyri-müəyyən heyvan təsviri qalığında (№ 8 və 9) ayaqlar, qarınaltı

xətt və sonuncunun burun hissəsi saxlanmışdır. Onların da öküz təsvirindən qalıq olduğu güman edilir. Öküz təsvirlərindən iki ədədinin (№ 6 və 7) aşağı hissəsi, iki ədədi (№ 8 və 9) isə tamam torpaq altından aşkar olunmuşdur.

Balıq rəsmi (№ 1) iti və bucaqvarı burnu qabağa çıxmış, boynu iki tərəfdən üzgəclə, bir üzgəc quyruğa yaxın üst tərəfində (alt üzdəkisi, görünür, aşınma ilə silinib) və 2 quyruq üzgəci ilə göstərilmişdir. Onun ümumi görünüşü və ölçüsü Xəzər dənizində uzunluğu 9 metrə, çəkisi 1,5 tona çata bilən nərəkimilər fəsiləsindən olan qiymətli ov balığı - bölgə (Niso-hiso) balığını andırır.

İtaliyalı alim Emmanuel Anati bu balığı balina adlandırmış və dövrünü buradakı başqa rəsmlərdən (və özünün əlavə etdiyi «rəsmlərdən») çox qədimə aid etmişdir (38). Anatiyə görə dəniz səviyyəsindən 150 metr hündürdə və hazırki sahildən 1 km aralıda yerləşən çox hündür qaya üzərindəki bu balıq təsviri qayanın suya yaxın, Xəzər dənizi ilə Qara dənizin bitişik olduğu dövrdə çəkilə bilərdi (39).

Əlbəttə, abidəni 10-15 dəqiqəliyə görüb fotosunu çəkən, Azərbaycanda Qobustan zonasının geologiyası və coğrafiyası ilə tanışlığı olmayan, haqq-nahaq özünü çox yüksək tutan adam şəkil üzərində ağzına gələni yazanda belə olur, çox şey başayaq düşür.

Bəli, Xəzər dənizi ilə Qara dənizin üçüncü geoloji dövrdə bir olduğu vaxt olub və o dövrün okeanında balina da yaşayıb. Lakin o vaxt Qobustan qayaları hələ qaya yox, balıqqulağı yığını adaları olub. O vaxt Qobustanda insan yaşamırdı və yaşaya da bilməzdi ki, balinanı görsün və çəksin.

Balina təsvirinin dövrünə gəldikdə isə rəsmlərə qayada yaxşı diqqət yetirmək lazımdır. O vaxt balığın öküzlərdən yox, öküzlərin balıqdan qabaq çəkildiyini və balığın öküzü (№ 5) kəsdiyini aydın görmək olar.

5 №-li daşın şimal üzünün qərb hissəsində 11 rəsm qeydə alınıb (7-ci tablo, 10-20). Onlardan biri (№ 10), daşın bu hissəsində əmələ gəlmiş iri çatdan sol tərəfdə, çox təbii təsvir edilmiş öküz rəsmidir. 10 ədədi daşın çatından sağ (qərb) tərəfdə - daşın qərb ucundadır. Onlardan 4 ədədi (№ 17-20) torpaq səviyyəsində çəkilmiş 2 qədim kişi (№ 17, 20), biri ceyran (№ 19) və biri (№ 18) qeyri-müəyyən heyvan təsvirindən ibarətdir. Onlardan 1,0-1,6 metr yuxarıda, adam boyu səviyyəsində çəkilmiş iri ölçülü öküz (№ 1 6) və onun üstündə çəkilmiş 5 ədəd qədim adam (№ 11-15) təsviri xüsusi diqqət cəlb edir (3-cü fotoşəkil). Öküzün quyruğunun ucu daşdan kənara düşdüyündən qısadır, buynuzları dalğavarı qabağa uzanıb kiçik qulaqları göstərilib, boynunun qabarıqlığı hiss olunur, bədəni yoğun və kök göstərilmişdir.

Adam təsvirlərindən 4 ədədi (№№ 12-15) yönü sola olmaqla, yandan kölgəvarı döyülmüş qadın rəsmləridir. Onlardan axırıncısının (№ 15) beldən aşağı hissəsi silinmişdir. Qalanları yuxarı paleolit dövrü üçün xas qadın fiqurları və təsvirlərini əks etdirir. Adam rəsmlərindən beşincisi (№ 11) də qadındır. Lakin, o öndən olmaqla, ayaqları aralı təsvir edilmişdir. Elə bil dönüb daldakılara müraciət edir.

Qayaaltı kolleksiyasının 5 №-li daşındakı təsvirlərdən 11-15 № ilə qeydə alınmış qadın rəsmlərini, eləcə də daşın şərq ucundakı 2 və 3, qərb ucundakı 17 və 20 № ilə qeydə alınmış kişi təsvirlərini, ceyran (№ 19) və öküz (№ 4-10, 16) rəsmlərini Qayaaltı kolleksiyanın 8 və 9 №-li daşları üzərində, qazıntı nəticəsində aşkar edilmiş yan görünüşlü döymə qadın, sxematik kişi və öküz təsvirləri ilə bir vaxta - üst paleolit dövrünə aid etmək olar.

Balıq təsvirinin öküz (№ 5) təsvirini kəsməsi və nisbətən yaxşı saxlanması, onun nisbətən gec, çox güman ki, «Qayaarası-2» düşərgəsində ikinci dəfə olmuş yaşayış dövrünün (ilk tunc) adamları tərəfindən çəkildiyini deməyə əsas verir.

5 №-li daşın şərq üzü uçurum üzərində dikinə divar əmələ gətirir. Bu üzün uçuruma baxan əlçatmaz yerində (yerdən təxminən 8-10 metr hündürdə), iki sahədə iki qrup çox səthi saxlanmış şəkil qalığı var. Onların surətini heç 10 metrlik nərdivanla da almaq mümkün deyil. Uzaqdan çəkilmiş fotolarda isə təsvirlər seçilmir. Təsvirlərin bu hündürlükdə necə çəkilməsinə gəldikdə, görünür, 5 №-li daşın şərq tərəfində bu daşa paralel başqa qaya da olmuş və o daşın köməyi ilə buraya əl çatmışdır. Sonradan, nə vaxtsa, o qaya aşmış və aşağı diyirlənmişdir. Ola bilsin ki, buradakı artıq silinmək üzrə olan təsvirlər qayaaltı sahədə ən qədim təsvirlərdəndir.

DAŞ № 6

Kiçikdaş dağı Qayaaltı kolleksiyasının 5 №-li daşından şimal tərəfdə, şərq ucda ondan 5 metr, ortada 2,5 metr aralı dayanmış şərq-qərb uzunluğu 20 metrə, qərb ucu «Qayaarası-2» düşərgəsinin şərq divarını təşkil edən nəhəng qayadır. Daşın cənub üzünün şərq yarısının orta hissəsi küləyin təsirindən aşınmaya uğrayaraq ovulub tökülmüş və girintili-çıxıntılıdır. Bu üzdə daşın hündürlüyü 10 metrə, şərq ucda eni 6 metrə yaxındır. Daş şimal tərəfindəki başqa nəhəng qaya parçasından iri çatla ayrılır.

Qədim qayaüstü təsvirlər daşın cənub üzü və qərb ucunda qeydə alınmışdır. Cənub üzdə dörd yerdə şəkil və şəkil qalıqları vardır. Onlardan bir qrupu cənub üzün şərq ucunda, yerdən bir metrə qədər hündürdə: bir öküz (№ 4), iki ceyran (№ 2 və № 3), iki heyvanın yarımçıq hissələri (№ 1 və № 5) və başqa xətt qalıqları kimi saxlanmışdır (8-ci tablo, «A»). Buradakı öküz (№ 4) təsvirinin çənəsi, qabaq ayaqları və belindən bir hissə, kiçik ölçülü ceyranın (№ 2) çənəsi və daldan ikinci ayağı, iri ölçülü ceyran (№ 3) təsvirinin arxadan çox hissəsi tökülüb saxlanmayıb. Yarımçıq heyvan təsvirlərindən birinin (№ 1) qabaq ayaqları və çənəsi, o birinin (№ 5) dal ayaqları ilə arxa hissəsi saxlanmışdır. Təsvirlərin pis saxlanmasına səbəb daşın aşınmaya məruz qalması olmuşdur.

Aşınmaya məruz qalmış ikinci bir təsvirlər qrupu birincidən 2-2,5 metr sola (qərbə) tərəf, yerdən 1,3-1,5 metr hündürdədir. Burada olmuş şəkillərdən qalıqlar çox pis saxlandığından (8-ci tablo, «B») onları müəyyənləşdirmək olmur.

İkinci qrup təsvir qalıqlarından sola (qərbə) 11-12 metr aralıda yerdən 2,5 metr hündürdə üçüncü bir qrup, üç ədəd qadın təsvirinin qalığı (8-ci tablo, «V», № 6,7,8) qeydə alınmışdır. Onlardan ortadakı qadının (№ 7) bədən, döş və baş hissələri saxlanmış, beldən aşağı hissəsi, o biri qadın təsvirlərindən (№ 6,8) isə, az hissə qalmaqla daşın lay-lay qopub tökülməsi üzündən bütöv saxlanmamışdır. Hər üç qadın rəsminin bədəni, öz vaxtında, dikinə və çəpinə xətlərlə doldurularaq bəzədilmişdir. Bu qadın təsvirləri bir növ Qobustanda Böyükdaş dağında yuxarı səki sahəsindəki 105 №-li daşdakı qadın (№ 8) və Aşağı səki sahəsindəki 2 №-li daşdakı, İ.M.Cəfərzadənin er.əvvəl VII-VI minilliyə aid etdiyi (40) qadın təsvirlərini andırır.

Qadın təsvirlərindən ortadakı (№ 7) ilə sağdakının (№ 8) arasında, XX əsrin ortalarında Kiçikdaş dağında daş karxanası açmaq üçün daşın keyfiyyətini yoxlamaq məqsədilə dərin şırım açılmışdır (11-ci fotoşəkil).

6 №-li daşın cənub üzündə göstərilən qadın təsvirlərindən yuxarıda, yerdən təxminən 8-9 metr hündürdə, əl çatmaz yerdə, real biçimli, kiçik ölçülü öküz təsvirinin qabaq hissəsi saxlanmışdır (8-ci tablo, «Q» № 9). Onun çiyin və buynuzlarının ifadə tərzi ibtidai öküz olmasına dəlalət edir. Bu öküzün buynuzları 2 qoşa paralel xətdən ibarət olmaqla qövsvarı şəkildə yuxarı qalxıb qabaqdan aşağı enir. Qulaqları buynuzların arxasında iki çıxıntı xətlə göstərilib. Boynu qabarıqdır. Onun qabaq ayaqları saxlanıb, qalan arxa hissəsi daşın lay-lay qopması ilə tökülüb.

6 №-li daşın qərb ucunda da, hələ «Qayaarası-2» düşərgəsində qazıntıya qədər iki ədəd kiçik ölçülü adam, bir ədəd təyinatı çətin olan heyvan təsvirindən pis saxlanmış qalıq və bir işarə şəkli qeydə alınmışdır (9-cu tablo, «A» №1-4). 6 №-li daşın «Qayaarası-2» düşərgəsinin şərq divarını təşkil edən qərb ucunda arxeoloji qazıntı nəticəsində torpaq altından da 12 təsvir (9-cu tablo, «A» 5-16) aşkar edilmişdir.

Burada qazıntıya qədər qeydə alınmış, əlləri yana açılmış ayaqları aralı qoyulmuş, bədən və başı şaquli xətlə göstərilmiş kiçik adam təsvirlərinin (№ 1 və 2) xətti təbii təsirlərdən (külək, su) ovulub genişlənmişdir. Heyvan təsvirinin (№ 3) başı, quyruğu və arxadan hissələr tökülüb saxlanmadığından onun hansı heyvana aid olmasını demək çətindir. İşarə (№ 4) paralel olaraq üç ədəd iç-içə çəkilmiş qövsvarı xətdən və onların qabarıq tərəfində bir ucu üst qövsə birləşən qarmaqvarı çıxıntıdan ibarətdir.

6 №-li daşın qərb ucunda, arxeoloji qazıntı ilə aşkar edilmiş qədim təsvirlərin 8 ədədi (9-cu tablo, 7-11, 14-16) öküz rəsmlərindən ibarətdir. Onların hamısı yönü sağa tərəf olmaqla təsvir edilmişdir (12-ci fotoşəkil). Beş ədədi buynuzludur. Bir ədədində (№ 14) qulaq da göstərilib. İki ədədinin (№ 10, 16) qabaq hissəsi - baş və buynuzu silinib, bir ədədi (№ 9) buynuzsuzdur. Onu başqa bir, buynuzunun biri saxlanmış öküz (№ 8) təqib edir. Ola bilsin ki, qədim rəssam bu rəsmdə (№ 9) inək nəzərdə tutub və ona buynuz çəkməyib.

Rəsmlərdən biri (№ 12) adamdır. O da bu səhnədə qazıntıdan üst səviyyədəki, adamın (№ 1, 2) oxşarıdır.

6 № ilə qeydə alınmış yönü sola heyvanın bədəninin forması onun öküz olmasını deməyə əsas vermir, kiçik quyruğunun dik qalxmasına baxmayaraq, bədənin qabaq hissəsinin çox yoğun olmasına görə onu keçi saymaq da olmaz.

5 və 13 № ilə qeydə alınmış xətt qalıqlarının da nə rəsmindən qalıq olmasını demək çətindir.

Təsvirlərin «Qayaarası-2» düşərgəsinin daş dövrü təbəqəsi səviyyəsindən aşkar edilməsi və mövzusunun öküz olması onların alt təbəqə sakinlərinin əsərləri olduğunu göstərir. Məqsədinə gəldikdə, demək lazımdır ki, «Qayaarası» və «Qayaarası-2» düşərgələrindən arxeoloji qazıntılarla əldə edilmiş sümük materialı içərisində öküz sümüyü çox az, yox dərəcəsindədir. Təsvirlərinin çox, sümüklərinin az olması, onların totem, öküz totemi kimi çəkildiyini deməyə əsas verir.

DAŞ № 6^{A}

«Qayaarası-2» düşərgəsində arxeoloji qazıntı nəticəsində, 6 №-li daşın cənub-qərb ucundan bir metr qərbdə, torpaq altından aşkar edilmiş uzunluğu 1,5 metr, eni 0,4-0,5 metr olan kiçik, yerdən bitili daşdır. Qazıntı ilə açılmış, ən çox hündürlüyü 0,5 metrə qədərdir.

Daşın üst üzü düz və hamardır. Onun üst üzünün şərq ucu üstündə bir öküz və bir neçə xətt qalığı saxlanmışdır (9-cu tablo, «B»). Öküzün (№ 2) bədəni qabaq hissədə çox yoğun, arxaya getdikcə nazilir. Başı bədənə simmetrikdir, buynuzları qabağa meyillənmiş, ucları qövsvari olaraq aşağı enmiş göstərilmişdir. Xətt qalıqlarının (№ 1) da başqa heyvana aid rəsm qalıqları olduğunu demək olar.

Daşın «Qayaarası-2» düşərgəsində alt mədəni təbəqə səviyyəsində olması təsvirlərin yuxarı paleolit dövründə çəkildiyini göstərir.

DAŞ № 6^{B}

«Qayaarası-2» düşərgəsində, Qayaaltı kolleksiyanın 6 №-li daşının cənub üzünün qərb ucu qabağında, ondan 15-20 sm aralıda, arxeoloji qazıntı ilə aşkar edilmiş, şərq-qərb uzunluğu 1,7 metr, yerdə eni 0,6 metr olan üstü iki çatlı daşdır. Şərq ucda hündürlüyü 0,8 metrdir və qərbə getdikcə alçalır. Daşın qərb ucunun bir hissəsi çatla ayrılır. Bu hissədə, çatdan hər iki tərəfdə olmaqla, 5 ədəd heyvan rəsmi çəkilmişdir (9-cu tablo, «V» 1-5). Onlardan 4-nün (№ 1-4) yönü sola, birininki (№ 5) sağadır. Onların üçü (№ 1, 3, 4) kiçik qoşa buynuzla və ikisi (№ 3, 5) kiçik irtməkvarı quyruqla göstərilib. Birinin (№ 2) ayaqları və başı tamam silinib. Hamısının bədən quruluşu onların ceyran rəsmi olduğunu deməyə əsas verir.

Ceyran «Qayaarası» düşərgəsinin qədim sakinləri tərəfindən ən çox ovlanmış, sümük qalıqları buradakı arxeoloji qazıntılar nəticəsində əldə edilmiş, sümük qalıqlarının 95%dən çoxunu təşkil edən heyvandır. Buradakı ceyran təsvirlərinin «Qayaarası» və «Qayaarası-2» düşərgələrinin yuxarı paleolit dövrü sakinləri tərəfindən çəkilməsi şübhə doğurmur.

DAŞ № 6[V]

«Qayaarası-2» düşərgəsinin şimal-şərq küncündə 6 №-li daşın şimal-qərb tininə toxunan daşdır. Arxeoloji qazıntı ilə açılmış hissəsinin üstü şimal-cənub 120x80 sm, qalınlığı 65 sm, yerdən bitilidir. Şimal ucu qazıntı sahəsindən kənarda, torpaq altında qalmışdır. Daşın üstündə diametri 45x35 sm, dərinliyi 16 sm olmaqla bir ədəd yalaq qazılmışdır (bax: 4-cü tablo, «Qayaarası-2» düşərgəsinin planı və kəsiyi). Yalaq düşərgədə üst mədəni təbəqə dövründə ilk tunc dövründə qazılmış, o dövrün düşərgə sakinləri üçün tərpənməz qab olmuşdur. Buna düşərgənin üst mədəni qatı səviyyəsində təsadüf edilmiş gil qab qırıqları da şahidlik edir.

Yalağın düşərgənin içərisində, atmosfer sularının düşə bilmədiyi örtülü sahəsində olması ondan yağış suyu yığmaq üçün yox, qızdırılmış çaydaşlarının köməyi ilə isti yemək hazırlamaq və ya ərzaq saxlamaq üçün qab kimi istifadə edildiyini göstərir.

6 №-li daşın cənub üzünün qərb hissəsindəki, qeyd olunan, bədəni xətlərlə bəzədilmiş üç qadın təsviri qalıqlarının da buradakı düşərgə sakinləri tərəfindən üst paleolitin sonunda çəkildiyini güman edirik.

DAŞ № 7

Kiçikdaş dağı, Qayaaltı kolleksiyası sahəsindəki 6 №-li daşdan 10-15 metr şimala, «Qayaarası» düşərgəsinin cənub divarını təşkil edən, 8 №-li daşdan cənubda onunla arası 1,5-2,0 metr enində dəhlizvarı sahə əmələ gətirən nəhəng qayadır. Onun şimal üzü şərq-qərb istiqamətində müəyyən əyintilərlə 14 metrə qədər uzanır və köndələn çatlarla kəsilir. Daşın uzunluğu cənub tərəfdə 9 metr, şimal tərəfdə 14 metr, şərq tərəfdə 17 metr, qərb tərəfdə 3 metr, hündürlüyü (ortada) 10-12 metrdir.

Daşın şimal üzünün şərq ucundan birinci çata qədər olan hissəsində qabaq-qabağa dayanmış, biri iri və biri kiçik ölçülü iki qədim öküz (10-cu tablo, 1, 2), onlardan sağa qayadakı çatdan bir metr qərbə tərəf 60 sm uzunluğunda, içərisində 11 şərti adam təsvir edilmiş, ucları yuxarı qalxıb içəriyə tərəf əyilmiş bir qayıq (№ 3); hamısının yönü sağa olmaqla 5 öküz (№ 4, 5, 7-9) və iki ədəd kiçik ölçülü sxematik insan təsviri (№ 6, 10) qeydə alınmışdır.

Birinci qrupdakı iri öküzün (№ 1) qarınaltı xətti tökülüb, dal ayaqlarının ucu qövsvarı birləşib. O buynuzları qabağa yönəlməklə, bədəninə nisbətdə kiçik başını aşağı əyərək qabağa hücum edəcək görkəmdədir. Onunla qarşı-qarşıya olmaqla çox real və simmetrik təsvir edilmiş öküz (№ 2) ayaqlarını irəli qoyub bədənini yığmış, qabaqkı iri öküzdən çəkinmək vəziyyətindədir. Təbii həyat səhnəsi əks etdirən hər iki öküzün boynu və başı ətrafında təyinatı çətin xətt qalıqları saxlanmışdır.

Qayıq (№ 3) rəsmindən sağa, ikinci qrupdakı öküz təsvirlərindən üç ədədi (№ 4, 7, 8) real görünüşdə dolu bədənlidir. Onların buynuzları qabağa yönəlib ucları yuxarı qalxır. Buynuzlardan dalda iki kiçik qoşa qulaq göstərilib. Onlardan daldakı öküzün (№ 4) dal ayaqları qayıq təsviri ilə kəsilir. Soldan ikinci iri ölçülü öküzün (№ 7) bədəninin içində isə kiçik ölçülü bir heyvan (№ 5, öküz?), onun da boynunda kiçik ölçülü bir adam (№ 6) təsvir edilmişdir. Siluet kimi qazılmış kiçik bir adam (№ 10) da başqa bir yarımçıq heyvan (№ 9) təsviri qalığının üstündədir.

7 №-li daşın şimal üzündə, göstərilən şəkillər №№ 3-10 qrupundan bir metr sağa və 3,5-4 metr hündürdə də bir ədəd kiçik ölçülü (uzunluğu 50 sm) qayıq və bir dağkeçisi qeydə alınmışdır. Qayığın hər iki başı maili olaraq yuxarı qalxmış, içində 4 ədəd şaquli xətlə şərti adam təsvir (6-cı tablo, 11) edilmişdir. Qayıqdan bir metr sağa və bir qədər aşağıda isə bir ədəd dağkeçisi (6-cı tablo, 12) təsvir edilmişdir. Tam real və simmetrik təsvir edilmiş keçinin dal ayaqlarının ucu qövsvarı birləşir, buynuzları yuxarı qalxıb arxaya tərəf uzanır və onlardan dala iki kiçik qoşa qulağı var. Rəsmin buynuzları və quyruğu onun keçi olmasını desə də bütöv Qayaaltı kolleksiyasında tək olması bəlkə də onun buynuzları və quyruğunun daş dövrü rəssamı tərəfindən səhv çəkilməsi nəticəsidir.

«Qayaarası» düşərgəsində arxeoloji qazıntı 7 №-li daşın şimal üzünün şərq hissəsi və daşın şərq ucu qabağında aparılmışdır. Daşın arxeoloji qazıntılarla açılmış sahələrindən yalnız şərq ucunun aşağı-alt səviyyəsində çox pis saxlanmış təsvir və xətt qalıqları qeydə alınmışdır (10-cu tablo, 13-17). Burada 3 heyvan rəsmindən qalıq, bir bucaqvarı xətt qalığı və bir adam təsviri saxlanmışdır. Heyvanlardan birinin (№ 16) başı, birinin (№ 13) başı və quyruğu saxlanmayıb, birinin (№ 15) isə yalnız dal ayaqları və qarınaltı xəttindən hissə qalmışdır. Adam təsviri (№ 17) elə bil sağa tərəf ox atır və ondan sağa 4 ədəd xətt qalığı da var. 7 №-li daş üzərindəki təsvirlərin «Qayaarası» düşərgəsi sakinləri tərəfindən çəkilməsi şübhə doğurmur.

Qayaaltı kolleksiyasında qayıq təsvirlərinə (№3 və 11) də 7 yalnız 7 №-li daş üzərində rast gəlinmişdir. Çox güman ki, onlar da «Qayaarası-2» düşərgəsinin üst təbəqəsi adamları tərəfindən çəkilmişdir. Qobustanda qayıq təsvirlərinin üst paleolit dövrünün sonundan məlum olduğunu deməyə hələlik əsas, dəlil yoxdur.

DAŞ № 8

Kiçikdaş dağı Qayaaltı kolleksiyası sahəsində nəhəng qayanın, 7 nömrəli daş çatla ayrıldıqdan sonra, qalmış hissəsi, «Qayaarası» düşərgəsinin şimal divarını təşkil edən nəhəng qayadır. Daşın qərb tərəfində iri qayadan çatla ayrılmışdır. Şimal tərəfi başqa nəhəng qaya parçalarına söykəndiyindən keçilməz və ölçülməzdir. 7 nömrəli daşdan ayrılmış cənub tərəfinin şərq-qərb uzunluğu 16 metr, hündürlüyü 12-13 metrdir. «Qayaarası» düşərgəsi daşın 7 №-li daşla arasındadır. Düşərgədə qazıntı aparılana qədər, yer səviyyəsindən üstdə olmaqla 8 nömrəli daşın cənub və qərb tərəflərində 4 qrupda 12 ədəd təsvir qeydə alınmışdır. Onlardan birinci qrupda, cənub üzün şərq hissəsində, B-6 kvadratına düşən yerində, torpaqdan bir metr hündürdə, 2 öküz və xətt qalığı (11-ci tablo, D-3) qeydə alınmışdır. Öküzlərin biri (№ 1) yönü sola, o biri (№ 2) sağa təsvir olunmuşdur. Birinci öküz (№ 1) kiçik ölçülü, bədən quruluşu və buynuzları real verilməklə təsvir edilmişdir. Burun hissəsi və qabaq ayaqları silinmişdir. Onun üstündə yönü sağa çəkilmiş ikinci öküz (№ 2) çox yoğun bədənlə və qeyri-semmetrik, boyun fırı göstərilmədən, başı bədənə boğazı olmadan bitişmiş təsvir edilmişdir. Dik qalxan buynuzları bucaq altında qabağa uzanır və s.

Birinci qrupdan 8 metr sola (qərbə), yer səviyyəsindən 1,3 metr hündürdə çəkilmiş bir heyvan (11-ci tablo, № 4) bədən quruluşuna görə ceyrana oxşayır. Lakin onun qövsvarı buynuzlarının birinin qabağa və birinin dala əyilməsi onun ceyran və ya keçi olmasını deməyə əsas vermir. Görünür, qədim rəssam ceyran kimi çəkdiyi bədənə buynuzları çəkməkdə səhvə yol verib və ya keçinin buynuzlarını öndən görünüşdə vermək istəyib.

8 nömrəli daşın qərb tərəfində də iki qrup təsvir qeydə alınmışdır. Onlardan biri qərb üzdə sol tərəfdə ayaqları torpaq səviyyəsində olan öküz və kiçik ölçüdə adam rəsminin qalığıdır (11-ci tablo, 5, 6). Öküzün (№ 5) belindən arxa hissəsi və qarınaltı xətti aşınmaya məruz qalıb tökülmüşdür. Başı bədəninə görə kiçik, burnu girdədir. İki qoşa buynuzu yuxarıdan qabağa tərəf çevrələnir. Kiçik çıxıntıvarı qulaqlar göstərilmişdir. İnsan təsviri (№ 6), şaquli bədənli, iki ayaqlı, lakin qolsuzdur.

Daşın qərb üzündəki ikinci qrup təsvirlər birinci qrup öküz və adam (№ 5 və 6) rəsmlərindən 1,3 metr sağa, cənuba tərəf, yerə yaxın aşkar edilmiş 6 ədəd şəkil qalığından (11-ci tablo, 7-12) ibarətdir. Burada bir öküz (№ 7), dördbucaqlı formada, qeyri-müəyyən xətt qalığı (№ 8), iki adam (№ 9 və 11), keçi (№ 10) və xətləri aşınmadan genişlənərək tanınmaz olan heyvan (№12) təsviri saxlanmışdır. Öküz (№ 7) və keçi (№1 0) rəsmlərində yalnız baş, döş və bel xətləri saxlanmış, adam təsvirlərindən biri (№ 9) ümumi baxışda siluet qadın rəsminə oxşayır. Onun xəttinin içərisi aşınıb genişlənmişdir. İkinci adam (№11) sxematik kişidir. Onun başı saxlanmayıb, bir qolu sağa açılmış, o biri belinə çevrələnmişdir. Bu qoldan

sola keçiyə (№ 10) tərəf uzanan 1 xətt, görünür, onun əl ağacıdır. Keçinin buynuzları yuxarı qalxıb dala çevrələnmişdir. Boynu kəsikdir.

8 №-li daşın cənub üzünün şərq hissəsində «Qayaarası» düşərgəsində arxeoloji qazıntılarla da 2 metr dərinliyə qədər davam edən çoxlu qədim şəkil aşkara çıxarılmışdır (12-ci tablo, «A» 1-17).

Burada üst səviyyədə (bel xətti qazıntıya qədərki yer səviyyəsində olan) çox iri bir heyvan (?) təsviri (№1), ondan aşağıda 2,0-2,5 metr dərinlik səviyyəsinə qədərki səthdə 11 ədəd siluet şəklində döyülmüş qədim rəmzi qadın (№№ 2, 4, 5, 8, 9, 10, 13, 14, 15, 16, 17) təsviri, iki ədəd kiçik ölçülü sxematik kişi təsviri (№ 6 və 12) və çoxlu qeyri müəyyən xətt qalıqları (№ 3, 7, 11 və. s) qeydə alınmışdır. Qadın şəkillərinin doqquzu yandan, ikisi (№ 2 və 5) ön görünüşdədir. Sonunculardan birində (№ 5) qadının ön görünüşdə ayaqları, ikincisinin (№ 2) ayaqları və bədəni saxlanmışdır.

İri heyvan təsvirinin (№ 1) çənəsi olduqca qalın və küt, qulaqları kiçik, quyruğu qısa, xətlə verilmiş ayaqları bədəninə görə qısa və xətlə verilmiş, bədəni çəlləkvarıdır. Ümumi baxışda gərgədanı xatırladan bu heyvan yönü sağa tərəf təsvir edilmişdir. Onun uzunluğu (quyruğunun dibindən burnuna) 158 sm, hündürlüyü (qabaq ayağının ucundan çiyninə) 105 sm-dir. Qarınaltı xətti silinib, ayaqları pis saxlanıb.

Qayaaltıda daş № 8-də yerüstü səviyyədən və «Qayaarası» düşərgəsində aparılmış qazıntılarla aşkar edilmiş təsvirlər «Qayaarası» düşərgəsində yuxarı paleolit dövrü adamları tərəfindən çəkilmişdir.

DAŞ № 9

Kiçikdaş dağında Qayaaltı sahədə 7 və 8 №-li daşlardan şərq tərəfdədir. İlk dəfə «Qayaarası» düşərgəsində əsas qazıntı başlanana qədər (1984) üstündə iki yalaq qeydə alınmış şimal-cənub uzunluğu 9 metr, hündürlüyü 2 metrə yaxın, üstü düz qaya daşdır. Yalaqlardan biri onun cənub ucunda (diametri 35 sm, dərinliyi 4-8 sm), ikincisi ondan 3,5 metr şimala, daşın orta hissəsində (diametri 35x33 sm, dərinliyi 15 sm) qeydə alınmışdır.

Daşın qərb və cənub-qərb tərəfləri üstünə qayadan qopub düşmüş iri daşlar «Qayaarası» sığınacağına şərqdən yolu bağlamışdı. 1984-cü ildə bu yolu açmaq üçün göstərilən daşlar sındırılıb götürüldükdə altdan, 9 №-li daşın üstündə bir ədəd sxematik adam təsviri açılmışdır. Onun əllərinin biri üfüqi, o biri maili olaraq yana uzanır, ayaqları yana açılmışdır. Başı bədənin davamı kimi verilmişdir. Başın ortasından sağa (arxaya?) tərəf, azca maili olmaqla, uca tərəf getdikcə nazilən xətt ayrılmaqla, çox güman ki, saç göstərilmişdir (12-ci tablo, B).

«Qayaarası» düşərgəsində arxeoloji qazıntı nəticəsində 9 №-li daşın qərb, torpaq örtmüş tərəfi açıldıqda daşın D_2 E_2 J_2 kvadratlarına düşən 3 metrə qədər uzunluğu, 1 metrdən çox eni olan zolaqvarı səthində qədim təsvirlər aşkar

edilmişdir. Onların çoxu, görünür, hələ daşı torpaq örtənə qədər təbii təsirlərlə silinərək oxunmaz olmuşdur. Burada 14 təsvir və xətt qalığı qeydə alınmışdır (12-ci tablo, V, 1-14). Onlardan 5 ədədi (№ 1-3, 10,12) insan, 2 ədədi (№ 9,13) insan təsvirindən qalıq, biri (№ 4) qaban, biri (№ 7) öküz, 2-ci (№ 5,8) ceyran təsvirindən ibarətdir.

Qeyd olunanlar daşın bu üzündə olmuş təsvirlərin az hissəsidir. Bu səthdə oxunması mümkün olmayan № 6, 11, 14 kimi qeydə alınmış xətt qalıqları çoxdur. Onlar yəqin ki, düşərgə torpaqla dolana qədər silinmiş çox qədim rəsmlərdən qalıqlardır.

9 №-li daş üzərində, qazıntı nəticəsində aşkar edilmiş adam təsvirlərindən üçü (№ 1-3) kişi, ikisi (№ 10, 12) qadın, ikisi (№ 9 və 13) qadın təsvirindən hissələrdir. Qaban (№ 4) təsvirinin burnundan çıxan kiçik xətlə onun çapıcı qılınc dişi göstərilmişdir. Ceyran təsvirinin birində (№ 5) qabaq buynuzunun ucu və dal buynuzu, qabaqdan ikinci ayağı, ikinci ceyranın (№ 8) ortadakı ayaqları və qarınaltı xətti silinmişdir. Öküz təsviri (№ 7) olduqca real planda çəkilmiş, lakin onun boynu üstündəki xətt qalıqlarına (№ 6) münasibəti və onların nə qalığı olduğunu demək çətindir. Təsvirlərin «Qayaarası» düşərgəsində üst paleolit dövrü sakinləri tərəfindən çəkilməsi sözsüzdür.

«Qayaarası» düşərgədə arxeoloji qazıntı nəticəsində düşərgənin divarlarını təşkil edən 7, 8 və 9 №-li daşların torpaq basmış səthlərində aşkar edilmiş şəkillərdən başqa 5 ədəd kiçik ölçülü daş üzərində də qədim təsvirlər və bir ədəd yan tilində kəsiklər açılmış daş qeydə alınmışdır. Onlardan üç ədədi qazıntı sahəsindən götürülmüş, üçü isə qazıntı yerində saxlanmış və 8^{A} 8^{B} və 8^{V} kimi qeydə alınmışdır.

Qazıntı sahəsindən kənara çıxarılmış daşlardan biri V_5 kvadratında 1,7 metr dərinlik səviyyəsində, üst qatdan aşkar edilmişdir. Bir üzü hamar və yastıtəhər olan bu daşın bir yan tilində 7 ədəd yan-yana kəsik-gəz açılmışdır. Başqa iş izi və ya şəkil qalığı yoxdur (15-ci tablo, «B»).

İkincisi, nisbətən uzunsov (80 sm) daş parçasıdır. O, B_4 Q_4 Q_3 kvadratları arasında 1,7-2,5 metr dərinlik arasında aşkar edilmişdir. Daşın bir üzündə, yuxarıda pis saxlanmış naməlum heyvanın arxa hissəsi və onun beli tərəfdə bir-birini kəsən iki xətt saxlanmışdır. Sonuncu bəlkə də yay-oxdur və ov səhnəsinin qalığıdır (13-cü tablo, Q, 1).

Onlardan altda isə bir cərgədə 4 insan (?) təsvirindən qalıqlar saxlanmışdır (13-cü tablo, Q, 2-5). Onlardan biri (№4) əllərini yuxarı qaldırıb. Başı və sağ qolunun ucu yumrudur. Qalan üç ədədi (№ 2,3, 5) insan təsvirlərindən qalıqlardır.

Üçüncü daş V_3 V_4 kvadratları arasında, ikinci daşın altında (2,5 metrdən aşağı səviyyədə) aşkar edilmişdir. O kiçik daş parçasıdır. Bir üzündə bir ədəd insan təsviri və ondan sola daşın tilindən üzünə tərəf dərin gəzvarı qarım açılmışdır (13-cü tablo, D, 1, 2). Onun sağ qolu yuxarı qaldırılmışdır. Qolunun altında sağda iki xətt qalığı saxlanıb.

«Qayaarası» düşərgəsində arxeoloji qazıntı ilə aşkar edilib inventar nömrəsi ilə qeydə alınmış və yerində saxlanmış daşlar aşağıdakılardır.

DAŞ № 9^{A}

«Qayaarası» düşərgəsində B_3 V_3 kvadratlarında 2,3 metr dərinlik səviyyəsində açılmış və altı torpaqda dərinə gedən iri daşdır. Üst üzü düz və hamardır. Onun şimal tərəfində öküzün başı və bel xəttindən hissə çəkilmişdir (13-cü tablo, «A»). Öküzün buynuzları dalğavarı olaraq qabağa tərəf uzanır. Qulaqları yerində iki xətt və onlardan dala bir iri xətt dik qalxır. Arxa hissəsində də şaquli və maili xətlər çəkilib. Öküzün yalnız başını təsvir etmək, görünür, daş dövründə insanların bütövü hissə ilə ifadə etmək adətindən irəli gəlmişdi. Qeyd edək ki, öküzün yalnız başını təsvir etmək dəlilinə Qobustanda tək bu daşda deyil, Böyükdaş dağında «Öküzlər-2» düşərgəsində 43 №-li; və «Ovçular» zonasında 46^{q} №-li daşlarda eləcə də Şonqardağda «Şonqar» düşərgəsində 2, 3, və 5 №-li rəsmli daşlarda, da təsadüf olunmuşdur.

«Qayaarası» düşərgəsində qazıntı ilə aşkar edilmiş 8^{A} №-li daşın düşərgənin çıxış yoluna tərəf baxan üzündə də şəkillər olub, lakin onların qalıqları çox pis saxlandığından oxunmur və surətini almaq mümkün olmamışdır.

DAŞ № 9^{B}

«Qayaarası» düşərgəsində arxeoloji qazıntı nəticəsində B_2 kvadratında 2,3 metr dərinlik səviyyəsindən aşkar edilmiş bitili daşdır. Onun cənuba, çıxış yoluna tərəf baxan üzündə 3 adam (qadın) (13-cü tablo, B, 5-7), cənub-qərb tərəfində bir xətt qalığı və iki adam (13-cü tablo, B,1-3), qruplar arasında isə diametri 6x7 olan dairə (№ 4) vardır.

DAŞ № 9^{V}

«Qayaarası» düşərgəsində arxeoloji qazıntı ilə 8 və 8^{A} №-li daşların arasında (B_3-B_4 kvadratları arasında) 2,35 metr dərinlik səviyyəsindən aşağıda, üst üzü düz və kiçik sahəyə malik daşdır. Onun üst üzündə iki sxematik adam (13-cü tablo,V, 2 və 5) və xətt qalıqları (13-cü tablo, V, 1, 3, 4, 6) vardır. Daşın cənub-qərbə baxan ucunda da bir adam (№ 7) və bir heyvan (№ 8) təsvirindən qalıqlar saxlanmışdır. Üst üzdəki sxematik adamın (№ 5) ayaqlarının arasını üfüqi xətt birləşdirir. Yan üzdəki adamın (№ 7) qolları, heyvanın (№ 8) isə başı, dal ayaqları və quyruğu saxlanmayıb.

«Qayaarası» düşərgəsindən arxeoloji qazıntı ilə üzə çıxmış, yuxarıda qeyd olunan daşlar üzərindəki təsvir qalıqlarının düşərgənin yuxarı paleolit dövrü sakinləri tərəfindən yaradıldığı şübhə doğurmur.

DAŞ № 10

Kiçikdaş dağı Qayaaltı kolleksiyasının 9 №-li daşından tam şərqə (enişə tərəf) 8 metr məsafədə, üstü şərqə tərəf eniş, uzunluğu 3 metr, hündürlüyü qərb ucda 1 metr, şərq ucda alçalan kiçik lay daşdır.

Daşın cənub üzünün qərb qurtaracağında yönü sağa olmaqla bir öküz təsvir edilmişdir (14-cü tablo, A). Öküzün bədəni üfüqi çəkilmiş əyri-əyri sınıq xətlərlə bəzədilmişdir. Uzunluğu 42 sm olan təsvir çox real və simmetrikdir. Qoşa buynuzu qabağa uzanıb ucları yuxarı qalxır. Quyruğu, quyruğunun dibindən hissə və daldan ikinci ayağı ilə qarınaltı xəttinin arasından hissə tökülüb saxlanmayıb (13-cü fotoşəkil).

Qobustanda Böyükdaş dağında, yuxarı səki sahəsində 78 və 105 №-li, aşağı səki səhəsində 2 №-li daşlarda (41), Qayaaltı sahədə isə yuxarıda göstərilən 6 №-li daşda (8-ci tablo, V, 6, 7, 8) bədəninin içərisi sınıq kəsmə xətlərlə bəzədilmiş qadın rəsmləri qeydə alınmışdır. Hər hansı üsul və ya xətlə bəzədilmiş öküz təsvirinə isə hələlik rast gəlinməmişdir. Bu öküz təsvirinin yuxarı paleolit dövrünün sonlarında çəkildiyini güman edirik.

DAŞ № 11

Kiçikdaş dağı Qayaaltı kolleksiyasının 10 №-li daşından 45-50° altında təxminən 10 metr məsafədə cənub-qərbdən şimal-şərqə tərəf yatmış uzunluğu 7,5 metr, cənub-qərb ucunda eni 3 metr, qalınlığı 2,5 metr iri qaya parçasıdır. Onun cənub-qərbə baxan dik ucu sarı rəngdədir və altında yastı daş var. Daşın cənub-qərbə baxan dik ucunda, yerdəki daşdan 1,9 metr hündürdə, 3 ədəd heyvan şəkli var (14-cü tablo, B, 1-3). Buradakı heyvan təsvirlərindən birinin (№ 1) boynunun qabağa tərəf uzun, qoşa buynuzlarının dik və dala tərəf olması onun aidiyyatını deməyi çətinləşdirir. İkinci heyvanın (№ 2) başı və bədəni real öküzə aiddir, lakin yalnız qulaqları var və quyruğu qeyri real - çıxıntıvarıdır. Üçüncüsü (№ 3), çox güman ki, ikincinin (№ 2) balası kimi, lakin səliqəsiz təsvir olunmuşdur. Onun qabaq ayaqlarının ucları dala tərəf əyilərək birləşir, quyruğu isə üfüqi olaraq dala uzanır. 11 №-li daşdakı təsvirlər də bütün başqa təsvirlər kimi qazma üsulu ilə çəkilmişdir. Lakin buradakı təsvirlərin qazma xətlərinin içərisində qırmızı oxra ilə boyanma izi qalmışdır. Qobustanda oxra ilə çəkilmiş rəngli təsvirlərə daha iki daşda, Böyükdaş dağında yuxarı səki kolleksiyasının 24^{A} və 181 №-li daşlarında da təsadüf olunmuşdur. Görünür, qədim rəssamlar çəkdikləri təsvirlərdən içi rənglə doldurulanlar və rənglə çəkilənlər də olmuş, çoxu isə açıq havada, yağışın və küləyin təsirindən silinmişdir. Qeyd olunan rəngli şəkil qaldıqları isə elə yerdədir ki, oranı nə yağış, nə gün və nə də ki, külək tutur. 11 №-li daşdakı içərisi rənglə doldurulmuş qazma rəsmlərin qeyd olunan rənglə çəkilmiş rəsmlərdən qədim olmasını, daş dövrünün sonlarında çəkildiyini güman edirik.

DAŞ № 12

Qayaaltı sahənin 9 №-li daşından («Qayaarası» düşərgəsinin şərqə çıxacağından) 15-20 metr şimalda nəhəng qaya daşdır. Onun cənub-şərq ucu altında dağdağan ağacı bitir. Şərq üzün şimal hissəsi qabağına iri qaya parçası düşüb, ona söykənib.

Daşın şərq üzü uzunluğu 1 metr, hündürlüyü 5 metr düz və dik divar kimidir. Şimal, qərb və cənub tərəfləri nəhəng qayalardan çatlarla ayrılır.

Daşın şərq üzündə 3 qrupda 8 ədəd təsvir və şəkil qalığı qeydə alınmışdır (14-cü tablo, V, 1-5 və 15-ci tablo, A, 6-8). Onlardan biri (14-cü tablo, V, № 1) daşın şərq üzünün cənub ucunda ceyran rəsmidir. Onun beli ilə ombası, qarınaltı xətti və döşündən hissə daşın aşınmaya məruz qalması nəticəsində silinmişdir.

İkinci qrup şəkillər daşın şərq üzünün şimal hissəsində öküz və adam təsviri və təsvirlərdən xətt qalıqlarından (14-cü tablo, V, № 2-5) ibarətdir. Onlardan biri (№ 3) siluet döyülmüş, ön görünüşdə insan təsviridir. O, başı yumru, boynu nazik, qolları yana açılmış, ayaqlarından hissələr aşınmaya məruz qalıb tökülmüş adam təsviridir. İkincisi (№ 5) real biçimli, yan görünüşdə xətlə çəkilmiş öküz rəsmidir. Daşın aşınması nəticəsində onun da quyruğu və ayaqlarından müəyyən hissələr saxlanmamışdır. Bu təsvirlər olan səthdə şəkillər çox olmuş, lakin, aşınma nəticəsində saxlanmamış və onlardan bəzi xətt qalıqları (№ 2 və 4 kimi) qalmışdır.

Üçüncü qrup təsvirlər daşın şərq üzünün şimal hissəsində, ikinci qrup kimi qeydə aldığımız təsvirlərdən aşağıdadır. Yuxarıda qeyd etdiyimiz, daşın şərq tərəfinə düşmüş və ona söykənmiş çox iri qaya parçası üçüncü qrup kimi üzünü çıxartdığımız (15-ci tablo, A, 6-8) şəkil və üzünü çıxartmadığımız şəkillərin üstünü örtür. Burada olmuş şəkillərin də bir hissəsi aşınmış və qalanları da daşın lay-lay qabarması üzündən qopub tökülmək qarşısındadır. Burada, əlimiz çatan yerdə, bir ceyran (№ 6) və iki şəkildən qalıq xəttlər (№ 7 və 8) qeydə ala bildik. Ceyran təsvirinin də xəttinin bəzi yerləri tökülmüşdür.

12 №-li daşdakı təsvirlərin (2 ceyran, ibtidai öküz və siluet adam) «Qayaarası» düşərgəsində üst paleolit dövrü adamları tərəfindən çəkildiyi şübhəsizdir.

DAŞ № 13

Qayaaltı kolleksiyasında 12 №-li daşın şimal-şərq tinindən bir metr şimalda, üst üzü şərqə tərəf maili iri daşdır. Şəkillər daşın 2,5x1,5 sahəyə malik üst üzündədir. Daşın üstünə düşmüş iki böyük qaya parçası bir növ daşın üstünü örtür və burada olan təsvirlərin nə fotosunu çəkməyə və nə də qrafik surətini tam çıxarmağa imkan vermir.

Daşın üstündə olan şəkillərdən 15 ədədini qeydə alıb surətini çıxara bildik (16-cı tablo, A, 1-15). Onlar üç ədəd öküz, bir keçi, dörd adam, üç ədəd naməlum

heyvan və üç qarışıq xətt qalıqlarından ibarətdir. Öküzlərdən biri (№ 1) başı, buynuzları, qulaqları, çiyin yumrusu və bədəni real verilməklə, quyruqsuz və sxematik ayaqlarla təsvir edilmişdir. İkinci öküz də (№ 14) ümumi baxışda realdır. Onun da quyruğu, bir qabaq ayağı və buynuzunun biri düşmüşdür. Üçüncü öküz (№ 15), quyruqladır, dal hissəsi real, lakin qabaq hissə təhrif olunmuş və başsızdır. Adam təsvirlərindən biri (№ 5) iri ölçülü, ön görünüşdə döymə qadın təsviridir. O, beldən nazik, baldırları yoğun, dizdən aşağısı yumrulanmış və çıxıntıvarı ayaqlarla, döşü iri, başı çiynindən yuxarı qalxdıqca ensizləşən təsvir edilmişdir. İnsan təsvirlərinin qalanı (№ 4, 11, 12) çox kiçik ölçülü, sxematik və pis saxlanmış təsvirlərdir. Keçi təsviri (№ 2) nisbətən real və simmetrikdir. Onun saxlanmış buynuzu yuxarı qalxıb dala çevrələnir və kiçik çıxıntıvarı quyruqla göstərilmişdir. 3, 8, 9 və 13 №-li rəsmlərdəki heyvanların aidiyyatını müəyyən etmək və 6, 7, 10 №-ilə qeydə alınmış xətt qalıqlarının nəyə aid olmasını müəyyənləşdirmək çox çətindir. 13 №-li daşın üstündəki iri daş, çox güman ki, nə vaxtsa, çox qədimdə baş vermiş təbii hadisə (ola bilsin, zəlzələ), nəticəsində, «Qayaarası» düşərgəsinin şərqə çıxış yolunu tutmuş (9 №-li daşın üstünü basmış) qaya-daşlarla bir vaxtda düşmüşdür.

Bu vəziyyəti nəzərə almaqla buradakı təsvirlərin ümumi dəst-xətti onların üst paleolit dövrünün sonlarında çəkildiyini göstərir.

DAŞ № 14

Qayaaltı şəkilli daşlar kolleksiyasının 12 və 13 №-li daşları arasında qalınlığı 0,8 metr olan kiçik, yastıtəhər daşdır. Onun 13 №-li daşa baxan 1,5x1,3 metr ölçülü üzü maili, dik və hamardır. Daşın bu üzü küləyin təsirindən mərmərləşmişdir. Onun bu üzündə iki heyvan (keçi və ceyran) rəsmi və xətt qalıqları vardır (16-cı tablo, B, 1-3).

Keçi (№ 1) rəsminin boğazının altından hissə, quyruğu və dal ayaqları, ceyran (№ 3) rəsmindən quyruq yeri və qabaqdan ikinci ayağı tökülüb, saxlanmamışdır. Hər iki heyvanın yönü sağadır və hər ikisi real təsvir edilmişdir. Keçinin bədəni qısadır. İri buynuzları dik qalxıb ucları dala əyilir. Qulaqları göstərilmişdir. Ceyranın bədəni uzunsov, boynu qabağa uzanmış, qoşa qısa buynuzları qabağa yönəlmişdir. Burada daha 3 xətt qalığı (№ 2) saxlanmışdır ki, onların nə məqsədlə çəkildiyini demək çətindir.

14 №-li daşın 12 və 13 №-li daşların arasına düşməsi, görünür, yuxarıda qeyd etdiyimiz 13 №-li daşın üstünə düşmüş daşlarla bir zamanda baş vermişdir. Bu səbəbdən onun üstündəki rəsmlərin də hadisədən qabaq, üst paleolit dövrünün axırlarında çəkildiyi şübhə doğurmur.

DAŞ № 15

Qayaaltı kolleksiyasının 13 №-li daşı ilə ondan şərqdəki nəhəng qayanın arasına düşmüş 1,0 metr x 75 sm ölçülü kiçik daş parçasıdır. Daşın qədim şəkil saxlanmış üst üzü 75x40 sm sahəyə malikdir. Daşın üstündə bir heyvan rəsminin orta hissəsi və sistemsiz xətt qalıqları var (16-cı tablo, V).

Təsvir yönü sola olmaqla başsızdır. Baş yerində maili və şaquli xətlər var. Qabaq ayaqlarının ucları qövsvarı birləşir. Boynu öküz boynu kimi qabarıqdır. Heyvanın quyruğu və omba hissəsi də silinmişdir.

15 №-li daş olduğu yerə 14 №-li daşla bir vaxtda düşsə də üzərindəki, boynuna görə öküzü andıran heyvan rəsmi çox güman ki, yerində sonradan, bir qədər gec çəkilmişdir.

DAŞ № 16

Qayaaltı kolleksiyasının 1, 2, 3 və 6 №-li daşlarının tutduğu sahənin ortasında, 6^a №-li daşdan 1,5 metr cənuba və 6^b №-li daşdan 1,5 metr cənub-qərbdə, qərb-şərq uzunsov və yerdən azca hündür, uzunluğu 4,5 metr, qalınlığı 0,9 metr, şərq üzdə eni 1,5-2,0 metr arasında daşdır. Onun şərq tərəf altı 2 №-li daşın qabağını yuyub açmış yağış suları ilə yuyulub açılmış və burada sxematik oxatan adam təsvirinin qalığı aşkara çıxmışdır. Qeyd edək ki, ilk dəfə buradakı şəkil qalığındakı, sxematik adam təsviri və onun yay oxunda 2 sxematik adam kimi qeydə almışdıq (42). Lakin sonuncu dəfə (bu iş çapa hazırlanarkən) yenidən nəzərdən keçirildikdə məlum oldu ki, burada oxatan adam təsvir edilmişdir (16-cı tablo, Q).

Onun şaquli xətlə göstərilmiş bədəninin aşağı ucundan düzbucaq altında sağa və sola aralanan iki xətlə ayaqları və onlar arasında kişilik əlaməti - kiçik çıxıntı verilmişdir. Adamın sağ qolu yarımçevrə əmələ gətirib belinə birləşir. Sağ tərəfində üfüqi uzanmış xətti (görünür, sol qolu və oxun çubuğu) yarımçevrə şəkilli kaman kəsir.

Təsvirdə adam rəsminin qədim tipli olması və yay-oxla silahlılığı onun üst paleolitin sonunda çəkildiyini göstərir.

DAŞ № 17

Qayaaltı kolleksiysında 8 №-li qaya daşın cənub-qərb tərəfində, ondan 1-2 metr enində böyük çatla ayrılmış, hündürlüyü 6-7 metr, cənub üzdə uzunluğu 10-12 metr nəhəng qaya parçasıdır. Qayaaltı kolleksiyasındakı 7, 8, 17 №-li daşlar əslində daha nəhəng bir qayanın şimal-şərq, cənub-qərb və şimal-şərq, cənub-şərq olmaqla dörd yerə bölünmüş hissələridir. 17 №-li daş onlardan şimal-qərb hissədir. Bu hissə (daş № 17) üzərindəki şəkillər onun orta nöqtəsi tilinin 8 №-li daşa baxan

şərq üzünün cənub qurtaracağında, yerdən 30-40 sm hündürdədir (16-cı tablo, D, 1-8, 14-cü fotoşəkil).

Burada 7 adam şəkli (№ 1-4, 6-8) və xətt qalığı (№ 5) saxlanmışdır. Onlardan ikisi (№ 2, 6) yandan, beşi (№ 1, 3, 4, 7, 8) öndən təsvir edilmişdir. Hamısı xətlə sxematik çəkilmişdir. Biri (№ 6) yan görünüşdə qadın şəklidir. Öndən verilmiş adamlardan biri (№ 3) - kişi bir əlində yay-ox tutmuş və onu yuxarı tuşlamışdır. Öndən təsvir edilənlərdən biri (№ 1) başı aşağı, çox güman ki, ölmüş təsvir edilmişdir. Görünür, rəsm № 2-dəki adam bu hadisə ilə əlaqədar əllərini ona tərəf qaldırmaqla, 3 №-li rəsmdəki adam bu hadisəyə görə ox atmaqla, 4 №-li rəsmdəki adam isə bir ayağını dizdən bükmüş və əllərini müxtəlif istiqamətə uzatmaqla hadisəyə münasibət bildirirlər. Buradakı 6, 7, 8 №-li rəsmlərdəki adamların bu hadisəyə münasibətdə olmamaları, çox güman ki, onların burada təsvir olunma tarixinin daha qədimə aid olması ilə əlaqədardır. Onların pis saxlanması da bu fikri təsdiq edir.

DAŞ № 18

Kiçikdaş dağının özül hissəsinin şərq döşündə, asfalt zavodundan 215° altında iri qalxmanın üstündəki topa qaya daşlardan biridir. Onun cənub-qərbə (dağa) tərəf baxan üzündə bir maral təsvir edilmişdir (16-cı tablo, E). Ola bilsin ki, daşın bu üzündə başqa şəkillər də olub, lakin daşın səthi aşınma ilə qopub töküldüyündən saxlanmamışdır. Maralın da buynuzunun əsas xətti saxlanmış, qabaq buynuzu və başının bir hissəsi silinmişdir. Bədəni və boynu simmetrik düz, quyruğu çıxıntıvarı irtməklə, ayaqları diz bükümləri göstərilməklə verilmişdir. Maralın uzunluğu (burnundan quyruğunun dibinə) 52 sm, hündürlüyü (çiyninə) 30 sm-dir. Təsvirin çəkilmə tarixi antik və ya ilk orta əsrlər dövrünə aiddir.

Kiçikdaş dağı ərazisinin «Qayaaltı» sahəsində 18 daş üzərində qeydə alınmış qədim təsvirlər kolleksiyası Qobustanda ən qədim kolleksiyalardandır. Sayca «Kiçikdaş» və «Daşqışlaq» kolleksiyalarından az olan bu kolleksiyadakı qədim təsvirlərin çoxu tarixin yuxarı paleolit dövrü mərhələsində çəkilmişdir.

Kiçikdaş dağı ərazisində sayca ən çox qədim qayaüstü təsvir «Kiçikdaş» kolleksiyasındadır.

«KİÇİKDAŞ» KOLLEKSİYASI

«Kiçikdaş» kolleksiyasının qədim qayaüstü təsvirləri Kiçikdaş damının özül hissəsindən (2-ci fotoşəkil) şərqə və cənub-şərqə, buradakı asfalt zavodundan Qaraatlı qəbiristanlığı və Çanaqqıran dağına qədər şimaldan cənuba təxminən 4 km uzanan dağətəyi «qayalıqlar dənizi»nin daşları üzərində qeydə alınmışdır.

Kiçikdaş dağının şərq və cənub-şərq yamaclarında, göstərilən qayalıqlar dənizini bu sahəyə səpələnmiş nəhəng, kiçik qaya və daşlar əmələ gətirir. «Kiçikdaş» kolleksiyasının qədim rəsmləri bu daş və qayalardan 150-dən çoxunun üzərində qeydə alınmışdır. Onlardan 62 ədəd daş və qaya İ.M.Cəfərzadə tərəfindən, qalanları müəlliflər tərəfindən qeydə alınıb nömrələnmişdir.

İ.M.Cəfərzadə Kiçikdaş üzrə qeydə aldığı 62 daşdan 3 ədədini (№№ 5, 15, 58) çap etmiş (43), 13 ədədinin (№№ 1-4, 16, 37-40, 42, 45, 47 və 59) təsvirini vermiş, 13 ədədinin (№№ 7, 8, 10, 11, 13, 14, 20, 30, 34, 46, 52, 53, 55) üzərində yalnız yalaq olduğunu və bir ədədinin (№12) daşqıranlar tərəfindən sındırılıb məhv edildiyini göstərmişdir (44).

İ. M.Cəfərzadənin qeydə aldığı nömrələnmiş daşlar tam yenidən nəzərdən keçrilmiş, təsvir olunanlar əlavə və dəqiqləşdirmələrlə yenidən işlənmişdir. Nəticədə onun təsvir etdiyi bəzi daşlarda təsvirlərin göstərildiyindən çox olduğu aşkar olunmuş (məsələn, 5 №-li daşda rəsmlərin sayı onun qeydə aldığı kimi beş ədəd yox, 39 ədəddir), yenidən işlənmiş, tarixləri dəqiqləşdirilmişdir.

Kiçikdaş sahəsinin qayalıqları arasında qədim düşərgə kimi istifadə oluna biləcək daşaltı sığınacaq azdır. Bu ərazidə hələlik bir daşaltı sığınacaq («Ceyranlar», 15-ci fotoşəkil), iki qayadibi düşərgə («Firuz», 16-cı fotoşəkil və «Firuz-2», 17-ci fotoşəkil,) və ondan çox tunc dövrü kurqanında arxeoloji qazıntı aparılmışdır. Kiçikdaş qayalıqlar zolağında üzərində qədim təsvirlər olan daşlar əsasən 2 sahədə: 1) «qayalıqlar dənizi» zolağının cənub baxarında, «Qaraatlı» qəbiristanlığından azca şimal-qərbdə, Çanaqqıran dağının şimal-şərq ətəyində və 2) Kiçikdaş qayalıqları zolağının şimal qurtaracağında, «Ceyranlar» düşərgəsi ətrafı və orta əsrlərdən XX əsrin ortalarına qədər maldarların qışlağı olmuş sahədə topa halında aşkar edilmişdir. Onların arasındakı düzən sahədə, eləcə də, «Firuz» və «Firuz-2» düşərgələri ətrafında rəsmli daşlar bir qədər seyrəkdir.

«Kiçikdaş» kolleksiyasının rəsmli daşları aşağıdakılardır:

DAŞ № 1.

Kiçikdaş dağı sahəsinin cənub-qərb qurtaracağında Çanaqqıran dağının şimal-şərq ətəyinə yaxın böyük qaya parçasıdır. Yerdə uzunluğu 950, hündürlüyü 390 sm-dir. Cənub-şərq üzü güclü aşınmaya məruz qalıb. Bu üzün şimal-şərq qurtaracağına yaxın səthi düzdür. Bu hissədə bir-birinin üstündə olmaqla 3 keçi təsvir edilmişdir (17-ci tablo, A, 1-3).

1 №-li şəkildə çox kobud, sadə və sxematik keçi təsvir edilib. Bədəni bir xətlə verilib, boynu və başı bədənin davamı kimidir. Çox iri qövsvarı buynuzlarının ucu birləşir. Quyruğu da bədən xəttinin davamıdır, lakin ucu dikinə yuxarı qalxıb. Ayaqları bədənə şaquli çəkilmiş iki cüt, qoşa xətlə verilib. Ortadakı (№ 2) şəkildə keçi dolu bədənli və dal ayaqlar dala, qabaq ayaqlar qabağa olmaqla, qaçış vəziyyətində çəkilib. Onun qısa boynu yuxarı, başı aşağı meyillidir. Boynu iki paralel xətlə kəsilib. Buynuzları iri və az qala dala tərəf çevrələnmişdir.

3 №-li şəkildəki keçi təsviri reallığa yaxın çəkilmişdir. Onun dal ayaqları ombadan aşağı və qabaq ayaqlarının ucları saxlanmamış, boynu uzun, başı girdədir. Çox iri, qövsvarı buynuzlarının ucu heyvanın belinə tuşlanmış, bel xəttinin ucu yuxarıya tərəf qalxıb. 1 №-li daşdakı 1-ci keçi şəkli çox cavan olub eramızın son əsrlərində - XVIII-XIX əsrlərdə çəkilmiş, 3-cü keçi şəkli er.əvvəl 1-ci minilliyin əvvəllərində, 2-ci şəkil ondan bir qədər gec çəkilmişdir.

DAŞ № 2.

Kiçikdaş dağı sahəsinin cənub-qərb qurtaracağında, 1 №-li daşdan 170 metr tam şərqə, 5 №-li daşdan təxminən 100 metr tam qərbdədir. O, buradakı, içində 6-7 adam rahatlana biləcək kiçik daşaltı sığınacağı əmələ gətirən, 3 şəkilli daşdan (2, 3, 4) biri, qərb tərəfdəkidir. Forması üçbucağı xatırladır, oturacağı 150, hündürlüyü 220 sm-dir, cənub-qərb tərəf səthi hamardır. Daşın bu üzündə 18 (17-ci tablo, B 1-18) və şərq tərəfində 2 təsvir qeydə alınmışdır. (17-ci tablo, V, 1-2).

Daşın cənub-qərb üzündə 9,11,12 №-li rəsmlərdən başqa təsvirlərin hamısı sadə və kobud keçi şəklidir. Onlarda 1, 5, 6, 16 № ilə qeydə alınmış təsvirlər təhrif olunmuşdur. 5, 6 və 16-cı heyvan rəsmləri başsız, 1 №-li isə başı və quyruğunu müəyyən etmək mümkün olmayan vəziyyətdə çəkilmişdir. Qalan 11 ədəd keçi adi qaydada təsvir olunub. Onlardan 5 ədədi (№№ 3, 4, 8, 13, 15) xeyli real çəkilib. 3 ədədinin (№№ 3, 4, 15) boynu qabarıq, bədənə nisbətən iri verilib, hamısının başı normal, qövsvarı buynuzları yuxarı qalxıb dala əyilmiş, qısa qarmaqvarı quyruq yuxarı qalxıb belinə tərəf əyilmişdir. №№ 2, 3, 5, 16-da qabaq, №№ 8, 10, 13, 15, 17, 18-də dal, №№ 4, 6, 7-də həm dal və həm də qabaq ayaqların ucu qövsvarı birləşib.

9 №-li şəkildəki qabaq (döş) hissəsi iri, keçi buynuzlu, quyruğu dala tərəf aşağı sallanmış rəsmi, aidiyyəti məlum olmayan heyvan rəsmini İ.M.Cəfərzadə Kanna, onun dövrünü isə II-I minilliklərin arası hesab etmişdir. 11 №-li, qabaq və dal ayaqlarının ucu birləşmiş, bədəni uzun, ağzı açıq, iri qoşa qulağı dik qalxmış, quyruğu dala tərəf maili aşağı uzanmış heyvan rəsmində, çox güman ki, uzunqulaq və ya gur təsvir edilmişdir.

12-ci şəkildəki bədəni xətlə çəkilmiş, baş tərəfi yuxarı qalxmış, quyruğu maili aşağı sallanmış sxematik heyvan rəsminin aidiyyatını təyin etmək çətindir.

2 №-li daşın cənub-qərb üzündəki 3, 4, 8, 13, 15 №-li şəkillər eramızdan əvvəlki I minilliyin əvvəllərinə, 5, 7, 9, 10, 14, 17 və 18 №-li şəkillər sonlarına, qalanları son əsrlərə aiddir.

2 №-li daşın şərq üzündəki iki heyvan rəsmi bir-birinin dalınca gedən vəziyyətdə təsvir edilmişdir. (17-ci tablo, V, 1-2), onlardan arxadakı uzunqulaq (ya da gur), 2 №-li sağdakı isə yenə də gur ya da atdır. Hər ikisi yönü sağa olmaqla ayaq üstə sakit yeriş vəziyyətində təsvir edilmişdir. № 1 ucları getdikcə aralanmış çox iri qulaqlar (və ya buynuzlar), № 2 isə kiçik, çıxıntıvarı, biri irəli yönəlmiş qulaqlarla verilmişdir. Hər ikisində quyruq uzun, dala getdikcə ucu aşağı sallanmış vəziyyətdə göstərilmişdir. Çox güman ki, heyvanlardan daldakı erkək, qabaqdakı dişidir və qədim rəssam onları nəsil artırmaq üçün cütləşmə dövrü vəziyyətində təsvir etmişdir. Təsvirlərin dövrü eradan əvvəlki II minilliyin sonu, I minilliyin əvvəli ərəfəsinə aid edilir.

DAŞ № 3.

Kiçikdaş dağı sahəsinin cənub-qərb qurtaracağında «Kiçikdaş» kolleksiyasında 1 №-li daşdan 170 metr, tam şərqə və 5 №-li daşdan təxminən 100 metr tam qərbə, Kiçik daşaltı sığınacağı əmələ gətirən 3 daşdan biri, sığınacağın örtük daşıdır. Onun cənub-şərq tərəfə yatıq, 660x340 sm ölçülü üzü sığınacağın tavanını təşkil edir. Qərb tərəfi 2 №-li daşın üstünə yatır, şərq tərəfi 4 №-li daşa toxunur. Daşın cənub-şərq üzündə yan görünüşdə, yönü sola olmaqla, 3 ədəd heyvan təsvir edilmişdir (17-ci tablo, Q, 1-3).

Onlardan 1-ci (№ 1) şəkildə başı iri, qulaqları qoşa, boynu uzun, quyruğu dala sallanmış halda at təsvir edilmişdir, (17-ci tablo, Q, № 1). Təsvirdə heyvanın bel xətti və ombasının girdələnməsi də onun at olmasına şübhə qoymur.

2-ci şəkildə şir təsvir edilmişdir (17-ci tablo, Q-2). Burada da şir üçün səciyyəvi əlamətlər çox reallıqla verilmişdir. O, 1-ci şəkildən azca dalda və hündürdə çəkilmişdir. Şirin başı iri, qabağa qoşalaşmış qulaqları çıxıntıvari, bel xətti düz və üfüqi, quyruğu bel xəttinin davamı olaraq ucu dala qatlanıb qotazlıdır. Heyvanın qarınaltı xətti atda və maralda olduğu kimi yığılmış, elə bil, öz ovuna hücum edəcək.

3-cü şəkildə düzbucaqlı şəkildə, ağır bədənli, hərəkətdə olan keçi təsvir edilmişdir (17-ci tablo, Q, 3), onun başı kiçik-yumru, çənəsi girdədir. Çənəsindən aşağı saqqal sallanıb. İri, qövsvarı buynuzları dala əyilib ucları, belinə yaxınlaşır. Quyruğu qarmaqvarıdır. Heyvanın həm dal, həm də qabaq ayaqları dala, bədəni isə qabağa meyillidir. Görünür, qədim rəssam onu bu vəziyyətdə - hərəkət edən kimi təsvir etmək istəmişdir.

3 №-li daşdakı təsvirlərin hər üçünün dövrü eramızdan əvvəlki I minilliyin ortalarına aiddir.

DAŞ № 4.

Kiçikdaş dağı sahəsinin cənub-qərb qurtaracağında 5 №-li daşdan təxminən 100 metr tam qərbə, 2 və 3 №-li daşlardan şərq tərəfdə, onlarla əmələ gətirdiyi kiçik sığınacağın və ona söykənən giriş yolunun sağ tərəfini tutan, qərb tərəfdə 3 №-li daşa söykənən dik dayanmış iri qaya parçasıdır. Onun qərb, sığınacağın içinə baxan üzü uzunluğu, 10, hündürlüyü 5 metr, hamar səthə malikdir. Daşın bu üzündə çoxlu heyvan və insan şəkilləri və şəkil qalıqlarının xətləri vardır (18-ci tablo, A).

Daşın şərq üzündə də 3 keçi şəkli və bir heyvan şəklindən xətt qalığı saxlanılıb (18-ci tablo, B).

Daşın qərb üzündəki şəkillərdən 7 ədədi insan təsviridir (18-ci tablo, A, №№ 2-5, 13, 14). Onlardan beşində baş, bədən və ayaqlar (18-ci tablo, A.,1-5), birində (№ 3) əlləri 5 barmaqla verilməklə, o həm də öndən, döymə üsulu ilə kölgəvarı çəkilmişdir.

İnsan təsvirlərindən ikisi (№ 13 və 14) xəttinin qalığına görə 1 və 2 №-li şəkillər tipində olub, aşınma nəticəsində pis saxlanmışdır. İnsan təsvirlərinin, № 3-dən başqa hamısı, qolsuz olmaqla sadə və sxematik, bir növ şərti verilmişdir. 2 №-li adam şəklinin kişilik cinsi əlaməti göstərilib. 4 №-li şəkildə adamın bədəni iki ayaq üstündə üst-üstə iki dördbucaqlı ilə göstərilir. Bu adam elə bil geyimdə verilmiş və ola bilsin ki, üst dördbucaqlının içindəki dikinə kiçik xətt adamın başındadır. 1, 2, 4 və 5 № ilə qeydə alınmış sxematik insan təsvirləri və 3 №-li şəkildəki siluet insan təsviri eramızdan əvvəl II minilliyə aid edilir.

4 №-li daşın qərb üzündəki 6-10 №-li şəkillərdə keçi təsvir edilib. Onların dördü yönü sola (№№ 6, 8-10) və birininki (№ 7) sağa olmaqla yan görünüşdə təsvir edilmişdir.

6 №-li şəkildəki keçi bədəni dördbucaqlı, ayaqları bədənə şaquli, iri buynuzları qövsvarı və bir-birindən aralı olmaqla çəkilmişdir. Buynuzlar dibə yaxın bir dikinə xətlə başa birləşir. Dikinə qısa quyruğu azca belinə tərəf əyilir. Qabaq ayaqlarının yuxarı hissəsi qarınaltı xəttin ucu ilə kəsilir.

7 №-li keçinin buynuzu, 8 №-linin dal ayaqları, 9 №-linin başı, buynuzları və quyruğu, 10 №-linin başı, boynu və qabaq ayaqları aşınma nəticəsində saxlanmamışdır.

11, 15, 16 № ilə qeydə alınanlar qədim təsvirlərdən xətt qalıqlarıdır. 12-ci şəkildə naməlum heyvan təsvir edilmişdir. Onun bədəni uzunsov ellipsvarıdır. 4 ayağı bədənə şaquli çəkilmiş və quyruğu dalğalı xətlə verilmişdir. Təsvir ümumi baxışda yırtıcı heyvan (pələng tipli) təsiri bağışlayır. O qabağındakı adama (№ 13) hücum edən yırtıcı və ya adamın iti ola bilər.

4 №-li daşın qərb tərəfindəki təsvirlər ümumən er.əvvəl II minilliyin 2-ci yarısına aid edilə bilər. 4 №-li daşın qərb üzündəki şəkillərdən 10 ədədi (18-ci tablo, A, 1-10) və şərq üzündəkilərdən 2-si (18-ci tablo, V 1,2) İ.M.Cəfərzadə

tərəfindən qeydə alınmış, qalanları son illərin tədqiqatları ilə aşkar edilmişdir. Daşın şərq tərəfindəki keçi şəkillərindən birinin (№ 1) bədəni uzun, boynu qısa və yoğundur. Buynuzları yuxarı qalxıb qövsvari dala, ucları heyvanın belinə tərəf əyilmişdir. Kiçik quyruğu dikinə qalxmış, ayaqlar bədəndən aşağı şaquli çəkilmişdir. İkinci keçi (№ 2) birincidən bədənin yoğun, qısa və ağır çəkili, quyruğunun qarmaqvari dala qatlanması ilə fərqlənir.

4 №-li daşın şərq üzündə sonradan qeydə aldığımız üçüncü heyvan (18-ci tablo, B-3) ümumi görünüşdə iti xatırladır. Onun quyruğu yuxarı qalxıb qabağa çənbərlənib, qısa qulaqları dikinə qalxıb. Bədəni və ona uyğun boynu uzun, çənəsi qabağa yönəlmişdir. Çox güman ki, keçinin sahibi onu təsvir edərkən itini də onun müdafiəsində qoymuşdur. Daşın şərq üzündəki təsvirlərdən 2-ci şəkildəki keçi və onun qabağındakı şəkil qalığı (№ 2 və 4) eradan əvvəlki 2-ci minilliyin ortalarında, it (№ 3) və keçi (№ 1) şəkilləri isə eradan əvvəl I minilliyin sonlarına yaxın çəkilmişdir.

DAŞ № 4 A

4 №-li daşın cənub-qərb ucundan tam qərbə 25 metr, 2 №-li daşdan 330° altında 15 metr məsafədə şimal-cənub uzunu 3 metr, şərq üzü maili, yerdən bitili, şimal ucu və şərq tərəfi dikinə (75 sm), şərq üzdə eni 1,5 metr kiçik daşdır. Şərq üzünün şimal ucunda tək bir şəkil qalığı saxlanmışdır. Təsvir ağır çəkili, uzun boyunlu heyvana aiddir. Onun başı, qabaq ayaqlarının aşağı hissəsi, qarnının altından bir hissə və dal baldırının yuxarı hissəsi (quyruqla birgə) saxlanmamışdır (18-ci tablo, V), göstərilən səbəbdən onun hansı heyvana aid olmasını söyləmək çətindir, dövrü isə ən geci tunc dövrünə aiddir.

DAŞ № 5

Kiçikdaş dağının cənub qurtaracağında Çanaqqıran dağı ilə Qaraatlı qəbristanlığı arasındakı sahədə, qayalıqların qəbristanlığa baxan cənub qurtaracağındakı Azərbaycan dilli mühafizə yazısı olan daşdan 35-40 metr qərbdə, «Kiçikdaş» kolleksiyasının 2,3,4 №-li daşlarından təxminən 100 metr tam şərqə, uzunluğu 20, eni 4 və hündürlüyü 3 metr olan nəhəng qaya parçasıdır. Daşın şimal-qərb və cənub-şərq tərəfləri dik divar əmələ gətirir.

Qobustan qayaüstü təsvirlərinin ilk tədqiqatçısı mərhum İ.M.Cəfərzadə 5 №-li daşın şimal-qərb tərəfi səthində 5 ədəd keçi təsviri qeydə almış (19-cu tablo, 1-5-ci şəkillər) və çap etdirmişdir (45).

Sonrakı tədqiqatlar zamanı daşın bu üzündə göstərilən 5 keçi təsvirindən sağa və sola olmaqla daha 31 ədəd (19-cu tablo, 6-36-cı şəkillər), daşın cənub-şərq üzündə bir keçi (19-cu tablo, 37-ci şəkil) və daşın cənub-qərb başında da 2 keçi təsviri (19-ci tablo, 38, 39-cu şəkillər) aşkar edilib qeydə alınmışdır.

Qeyd edək ki, İ.M.Cəfərzadənin qeydə aldığı 5 keçi rəsmindən 3-ü (№ 1, 3, 5), onun özünün qeyd etdiyi kimi, Kiçikdaş dağı sahəsində olan şəkillər arasında iri ölçülülüyü (uzunluğu 120, hündürlüyü 75 sm), əzəməti, xətlərinin dərinliyi və enliliyi (3 sm və 3-5 sm) ilə daha çox gözə çarpır və diqqəti cəlb edir. Onlar yönü sola olmaqla yan görünüşdə, təbii reallıqla təsvir edilmişdir. Hər üçündə boyun irəli uzanmış, başları kiçik, çənələri aşağı, ağız kəsiyi, gözü və qulaqları göstərilməklə təsvir edilmişdir. Orta ölçülü buynuzları yuxarı qalxaraq ucları dala tərəf əyilmiş və bir növ qılıncvarıdır. Nisbətən uzun quyruqları yuxarı qalxıb qarmaqvarı şəkildə belinə tərəf əyilir. Uzun ayaqlarının ucları qövsvarı birləşir. 5 №-li şəkildəki keçinin dal ayaqları və bud hissəsi zamanın təsirindən silinib, saxlanmamışdır. 3 №-li şəkildəki keçinin qarnının altındakı 4 №-li, kiçik ölçülü keçi təsvirini İ.M. Cəfərzadə 3 №-li şəkildəki iri keçinin çəpişi (balası), 3 və 4 №-li şəkillərdəki keçilərin belinin kəsiyini isə ovsunlamaq əlaməti hesab etmişdir. Şəkillərdən 1, 3, 4, 5 №-li rəsmlərin dövrü er.əv. III minilliyin ortalarına aiddir. 2 №-li şəkildəki kiçik keçinin isə sonralar çəkildiyi qeyd edilmişdir (46).

Kiçikdaş dağı 5 №-li şəkilli daşın şimal-qərb üzündəki, sonradan qeydə alınmış 31 rəsmdən 14-ü keçi (№№ 6-10, 12, 13, 27, 29-32, 35 və 36) təsvirindən, 12-si (№№ 11, 14, 16-18, 19, 21, 23-26, 33 və 34) aidiyyətini müəyyən etmək çətin olan heyvan rəsmi və başqa şəkil qalığından, 2-si (№ 17 və 22) adam, biri (15) öküz, biri (20) maral və biri (28) şir rəsmindən ibarətdir.

Keçi təsvirindən 7 ədədi (№№ 10, 27, 29, 30, 31 və 36) nisbətən real təsvir edilmişdir. Onlardan 5 ədədinin (№№ 10, 30, 31, 32, 36) yönü sola, ikisininki (№№ 27, 29) sağa tərəfdir. Keçi təsvirlərindən 4 ədədinin (№№ 10, 27, 29, 36) qabaq və dal ayaqlarının ucu qövsvarı birləşir.

10 №-li şəkildəki keçinin bədəni uzun, ortadan nazik, kiçik başı qabağa yönəlmiş halda, qoşa buynuzu qabağa meyilli olaraq dik yuxarı qalxıb ucları arxaya tərəf əyilmiş, quyruğu dala tərəf uzanaraq qarmaqvarı şəkil almış vəziyyətdə təsvir edilmişdir.

30 və 31 №-li şəkillərdəki keçilər başqaları ilə nisbətdə çox kiçik ölçülüdür (uzunluqları 15-20 sm arasında), yönləri soladır, başları xüsusi ayrılmadan buynuzları bədənə birləşir. 31 №-li təsvirdə keçinin yalnız bir buynuzu var, ikinci buynuz silinib.

Onların hər ikisi 5 №-li şəkildəki iri keçinin qarnının altındadır. Bəlkə də qədim rəssam onları iri keçinin (№ 5) əkiz çəpişləri kimi vermiş və onların keçi balaları olmasını onlara buynuz əlavə etməklə göstərmək istəmişdir.

32 №-li şəkildə keçinin quyruğu və ombasından qalıq saxlanmışdır. Qalığın ölçüsü və səciyyələrinə görə o da 1, 3, 5, 10 №-li şəkillərdəki keçilərdən olmuş, lakin aşınma nəticəsində yalnız göstərilən hissəsi qalmışdır.

36 №-li şəkildəki keçinin bədəninin qabaq hissəsi iri, başı çox kiçikdir. Buynuzları iki paralel xətlə dik qalxıb, ucları dala tərəf əyilmiş və azca saxlanmışdır. Heyvanın dal ayağı, quyruğu və ombası da qopub saxlanmamışdır.

27 №-li şəkildəki keçi reallığa yaxın, nisbətən mütənasib, kiçik quyruğu dik yuxarı qalxmış, buynuzlarının ucu qövsvarı birləşmiş, normal görünüşdə təsvir edilmişdir.

29 №-li keçi təsviri bir növ 27 №-li şəkildəki keçiyə oxşayır, onun quyruğu yoxdur, boynu və başı irəli uzanmış iki qoşa xətlə verilib, buynuzları dala meyillənmiş olmaqla qılıncvarıdır.

5 №-li daşın şimal-qərb üzündəki şəkillərdən 4 ədədi (№№ 6-9) daşın bu üzünün şərq ucunda (9 №-li keçi şəkli ondan sağdakı 11 №-li naməlum fiqur qalığından 5 m 40 sm sağa olmaqla) çəkilmişdir. Dörd ayaq, iki qoşa paralel xətlə verilmiş nazik-uzun bədən və çıxıntıvarı şərti başla ifadə edilmiş bu sxematik keçi təsvirləri formalarına görə Qobustanda orta əsrlərdə çəkilmiş keçi təsvirləri tipindədir. Onların 5 №-li daşın şimal-qərb üzündəki başqa, qədim, təsvirlərdən gec, sonuncu minilliyin son əsrlərində çəkilmiş olduqları şübhə doğurmur. Keçi rəsmlərindən daha üçü (№№ 12, 13 və 35) sxematik çəkilmişdir. Onlardan birincilər (№ 12 və 13) bədənləri üfüqi xətlə verilməklə və buynuz qoyulmaqla ifadə olunmuşdur. Üçüncüsü (№ 35) dördbucaqlı bədənlə, qoşa dalğalı xətlə buynuz və arxaya kiçik xətlə göstərilmiş quyruqla ifadə olunmuşdur.

5 №-li daşın şimal-qərb üzündəki aidiyyətini müəyyən etmək çətin olan 9 ədəd rəsmdən 8 ədədinin baş və quyruq kimi əsas təyinedici hissələri yoxdur, birinin isə (№ 16) duruşuna görə ata, qulaqlarına görə uzunqulağa, quyruğuna görə isə keçiyə oxşaması onun nə olmasını deməyi çətinləşdirir.

5 №-li daşdakı insan təsvirlərindən biri (№ 17) 1 №-li şəkildəki iri keçi təsvirinin çənəsi altındadır. Onun ayaqları dikinə kiçik xətlə ayrılır, beli sağ tərəfdən balıqla nazildilmiş, sol tərəfdən qolu yuxarı qalxmış vəziyyətdə saxlanmış, ayaqlarının aşağı hissəsi, başı və sağ tərəf qolu silinmişdir.

İkinci, insan təsviri (№ 22) daşda siluet (kölgə) kimi döyülmüşdür. O, öndən (və ya arxadan) olmaqla mütənasib görünüşdə təsvir edilmişdir. Başı çox kiçik və yumrudur. Qolları düz xəttlə yana açılmış, sonra dirsəkdən bükülüb yuxarı qalxmış və barmaqları göstərilmiş halda çəkilmişdir. Adamın 1 və 3 №-li, iri ölçülü keçi təsvirlərinin arasında, xüsusən 3 №-li keçinin çənəsi altında əllərini yuxarı qaldırmış vəziyyətdə olması belə bir fikir yarada bilər ki, o, 3 №-li beli xətlə kəsilmiş keçi təsvirinin qabağında ibadət edir.

Yeri gəlmişkən, qeyd edək ki, Qobustanda beli şaquli xətlə kəsilmiş keçi təsvirləri Böyükdaş və Cingirdağ-Yazılıtəpə sahələrində çoxdur. Kiçikdaş dağında isə yalnız haqqında danışdığımız 5 №-li daşda 3 və 4-cü şəkillərdəki keçilərdən başqa biri də bu daşın yaxınlığındakı (10 metr qərb tərəfdəki) 29 №-li daşda var (cəmi 3 ədəd). Bunlardan başqa Kiçikdaş dağı sahəsində - Kiçikdaş, Qayaaltı və Daşqışlaq kolleksiyalarının 200-dən çox rəsmli qaya-daşlarının heç birində beli kəsik keçi təsviri yoxdur.

Bizə qədər, qayaüstü təsvirlərdə keçilərin belinin xətlə kəsilməsi qayaüstü təsvirlərlə məşğul olan tədqiqatçılar tərəfindən (o cümlədən İ.M.Cəfərzadədə də)

ovsunçuluq əlaməti, ovdan qabaq, ovun uğurlu olması üçün həyata keçirilən adət kimi izah edilmişdir(47). Əslində keçi təsvirlərinin belinin kəsilməsinə Qobustanda Böyükdaş və Cingirdağ-Yazılıtəpə sahəsində, əsasən, keçmiş pir olmuş sahələrdə rast gəlinir. Bu istiqamətdə axtarışlarımızın nəticələrinə əsasən biz belə nəticəyə gəlmişik ki, Qobustandakı keçi təsvirlərindəki beli kəsiklik heç də ovsun əlaməti deyil, əslində pirə qurban əvəzi kəsilmiş keçi rəsmləridir.

Məlum olduğu kimi iri ölçülü və çox sayda keçi təsvirlərinə Qobustanda ən çox müsəlman pirləri ətrafında rast gəlinmişdir. Kiçikdaşdakı 5 №-li daşda və onun yaxınlığında qeydə alınmış keçi təsvirləri də islam dövründə əsas sitayiş obyekti olan keçilərdir. Onların qarşısında, yaxınlığında sitayiş tərzində çəkilmiş insan təsvirləri də deyilənləri təsdiq edir. Birdəki Böyükdaş, Cingirdağ, Şıxıqaya pirlərində olduğu kimi buradakı keçi təsvirləri də «Qaraatlı piriylə», «Qaraatlı qəbristanlığı» yaxınlığında yerləşir. Bu keçi təsvirləri müqəddəs keçi təsvirləri olub ilk orta əsrlərdən başlayıb bu günə qədər fəaliyyətdə olan «Qaraatlı piri» və yaxınlığındakı «Qaraatlı qəbristanlığı» ilə bağlıdır.

Ola bilsin ki, buradakı keçi təsvirlərinin bir qismi də tunc dövründə çəkilmişdir. Heyvan rəsmlərindən birinin (№ 15) quyruğu dala uzanır, başı kiçikdir, iri qoşa buynuzu dik qalxıb azca dala meyillənir, bədəni iki paralel xətlə verilib, qabaq ayaqları qarınaltı xətdən ayrılır və heyvanın boynunda kiçik donqar göstərilib. Bu rəsmin ümumi görünüşü bir qədər savadsız çəkilmiş sxematik öküz təsviri olduğunu deməyə əsas verir.

Təsvirlərdən birində (№ 20) yönü sağa olmaqla, dal və qabaq ayaqlarının ucu qövsvarı birləşmiş adi heyvan rəsminin baş yerindən yuxarı çəkilmiş iki qoşa xəttin sağındakından sağa, və soldakından sola olmaqla, hərəsindən kənara 4 kiçik, paralel xətt ayrılmaqla, sxematik maral rəsmi düzəldilmişdir.

Daha bir heyvan rəsmində siluet (kölgəvarı) döyülmüş şir təsvir edilmişdir. Şir 5 №-li şəkildəki iri keçi təsvirinin çənəsi altında çəkilmişdir (№ 28). Kiçik ölçülü bu siluet şir elə bil iri keçinin boğazından tutmaq istəyir. Onun boynunun qabarıq, quyruğunun dala uzanıb ucunun yuxarı qalxması ümumi planda şir olmasına dəlalət edir.

5 №-li daşın cənub-şərq üzündə, orta hissədə, daş üçün qazılmış inventar №-nə (№ 5) yaxın, yerdən 1 metrə qədər hündürdə də bir sxematik naməlum heyvan (keçi?) təsviri qeydə alınmışdır (19-cu tablo, 37). Onun bədəni, dal və qabaq ayaqları qoşa paralel xətlə göstərilmiş, baş göstərilmədən heyvanın bel və qabaq ayaq xətlərinin yuxarı qalxıb dala meyillənməsi ilə buynuzlar alınmışdır. Təsvir XIX əsrdə çəkilmişdir.

Daha iki heyvan təsviri qalığı (19-cu tablo, 38 və 39) daşın cənub-qərbə baxan başında qeydə alınmışdır. Təsvirlərdən qalıqların əsas hissəsi aşınma nəticəsində tökülmüş və pis saxlanmışdır. Təsvirlərin saxlanmış hissələrinə görə onlar çox qədim, daşın şimal-qərb üzündə sonradan aşkar edilmiş təsvirlərlə bir dövrdə eradan əvvəlki III-II minilliklərdə çəkilmişdir.

DAŞ № 6

Kiçikdaş dağı qayalıqları daş qalığının cənub baxarında, orta hissədə, Kiçikdaş qayaüstü təsvirləri kolleksiyası üzrə 5 №-li daşdan cənuba 180° altında 27 metr məsafədə, 27 №-li daşdan 90° altında 10-12 metr məsafədə 45x65 sm ölçülü kiçik daş parçasıdır. Daşın qərb tərəfi dikinə və düzdür. Bu üzdə iki qeyri-müəyyən heyvan təsviri saxlanmışdır (20-ci tablo, A). Onların hər ikisində bədən və boyun ensiz və nisbətən uzundur. Hər ikisində baş və quyruq saxlanmayıb. Bu səbəbdən onların hansı heyvana aid olmasını söyləmək çətindir. Şəkillərin qazılma texnikası və reallıq elementlərini nəzərə almaqla dövrünü tunc dövrünün sonlarına aid etmək olar.

DAŞ № 7

Kiçikdaş dağı qayalıqlarının cənub baxarının orta hissəsində, 5 №-li daşdan 180° altında 30 metr məsafədə, 6 №-li daşdan 3 metr cənuba tərəf, formaca səkkizbucaqlını xatırladan, 70x75 sm ölçülü, üst üzü yastı və qərbə tərəf maili daşdır. Daşın üst üzünün şərq yarısında bir ədəd, diametri 22 sm, dərinliyi 18 sm, yarımşar formalı yalaq qazılmışdır.

DAŞ № 7^{A}

Kiçikdaş dağı qayalıqlarının cənub baxarında, 7 №-li daşdan 60-70 sm cənubda, üstü yer səviyyəsində, yerdən bitili kiçik daşdır. Daşın üstünün ölçüsü 1 metr x 60 sm-dir. Burada 3 şəkil qalığı (20-ci tablo, B, 1-3 şəkil) və bir ədəd diametri 22x17 sm, dərinliyi 3-4 sm olan yalaq qeydə alınmışdır (20-ci tablo, B, şəkil 4). Onlardan şəkil 1 və 2-də heyvanın başı və buynuzları, şəkil 3-də isə dal ayaqlarla bədəninin arxa hissəsi saxlanmışdır. 1 və 2-ci şəkillərdə başı və buynuzları saxlanmış keçilər qabaq-qabağa vəziyyətdə kəllə-kəlləyə dayanmışdır. 1 №-li şəkildə keçinin buynuzları azca arxaya meyilli olmaqla düz, dikinə qılıncvarı çəkilmiş, 2 №-li şəkildəki keçinin buynuzları isə azca dikinə qalxdıqdan sonra dala tərəf dönmüş və heyvanın boynuna tuşlanmışdır. 1 və 2 №-li şəkildəki heyvanların boğazdan dala olan hissəsi, 3-cü şəkildə isə heyvanın qabaq ayaqları və başı daşın qırağından kənara çıxır. Görünür, onlar çəkilərkən daş çox iri və enli olmuş, sonradan kənarları heyvanların çatışmayan hissələri ilə birlikdə qopub tökülmüşdür.

Təsvirlərin saxlanma vəziyyəti, 2 №-li şəkildəki keçinin baş və buynuzlarının təsviri dəst-xətti onların tunc dövrünə aid olmasını deməyə əsas verir.

DAŞ № 8

Kiçikdaş dağı qayalıqlarının cənub baxarı sahəsində, 5 №-li daşdan 7 metr şimalda və 9 №-li daşdan 18 metr tam cənubda qərb-şərq uzunluğu 13 metr, eni təxminən 8 metr olan iri qaya parçasıdır. Hündürlüyü 5 metrdir. Daşın şərq tərəfi 3 metr irəli çıxıb örtülü sahə əmələ gətirir və bu sahənin çöl tərəfində vaxtilə burada yaşayış olduğunu göstərən hörgü qalığının izi var.

8 №-li daşın üstündə, cənub kənarına yaxın, şərqdən qərbə bir qarım və 3 ədəd yarımşar formalı yalaq qazılmışdır. Onlardan ikisinin diametri 26x27 və 22x24 sm, dərinliyi 15 və 17 sm olmaqla, daşın qərb kənarına yaxın sahədə diametri 6x17, dərinliyi 8 sm olan üçüncü yalaq isə daşın cənub kənarına yaxın qazılmışdır.

DAŞ № 9

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında 5 №-li daşdan 25 metr və 8 №-li daşdan 18 metr tam şimalda, nəhəng qaya parçasının altında, orta ölçülü daşdır. Üst üzü cənuba tərəf mailidir və oturacağı 130, hündürlüyü 225 sm olan bərabəryanlı üçbucağı andırır. Daşın bu üzündə 17 şəkil və bir xətt qalığı qeydə alınmışdır (20-ci tablo, B).

Buradakı təsvirlərin ikisi adam (№ 1 və 5), 13 ədədi keçi (№№ 2-3, 5-16), 2 ədədi (№ 4, 17) qeyri-müəyyən heyvan şəkilləri və bir xətt (№ 18) qalığıdır. Keçilərin 10 ədədi (№№ 3, 6-10, 12-14 və 16) yönü sola və 3 ədədi (№№ 2, 11, 15) yönü sağa olmaqla təsvir edilmişdir. Adam təsvirlərindən biri (№ 1) ayaqları və qolları yana açılmaqla öndən verilmiş, çox kiçik ölçülüdür (hündürlüyü 10 sm). Bu tip adam təsvirlərinə Qobustan qayalarında daş dövrünün sonlarından rast gəlinir. Keçi təsvirlərinin tam təsvir edilmişləri bu sahədən qərbdə, Göyərçin dağının şimal dibində qazıntı apardığımız Qobustan üzrə qazılmış son tunc dövrünə aid 28 №-li kurqanın qəbirüstü daşındakı keçi təsvirləri ilə eyni forma və dəst-xəttə malikdir. İkinci adam təsviri (№ 5) şaquli xətlə bədən və 2 ayaqdan ibarət çox sxematikdir, başı, qolları verilməmişdir. Onun dövrü haqda söz demək çətindir, 16 № ilə qeydə alınmış keçi şəkli metal alətlə çapılmışdır və dövrü son əsrlərə aiddir.

DAŞ № 10

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında orta hissədə 5 №-li daşdan 90° altında 19 metr məsafədə daş № 33-dən 9 metr tam şərqə və 11 №-li daşdan 19 metr tam qərbə, torpaqdan azca çıxmış, yastı və şimal-qərb-cənub-şərq uzunu 7 metr, eni 2 metr böyük qaya parçasıdır. Daşın üst üzü cənub-qərbə meyilli olmaqla hamardır.

Daşın şimal kənarına yaxın üst üzündə, ağzının diametri 21x23, dərinliyi 12 sm olan bir ədəd yarımşar formalı yalaq qazılmışdır. Yalağın ətrafında vaxtilə daşın üstündə qalanmış ocağın təsirindən qırmızı ləkələr qalmışdır.

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında orta hissədə «Kiçikdaş» kolleksiyası üzrə 10 №-li daşdan 19 metr şərqdə, Azərbaycan dilində «qayaüstü təsvirlərin mühafizəsi» yazısı yazılmış daşın cənub-şərq dibində, yerdən hündürlüyü 40-80 sm, üstü yastı və ovalvarı, uzunu 7, eni 5 metr qaya parçasıdır. Daşın üstündə bir neçə yarımşar formalı yalaq qazılmışdır. Onlardan qeydə alınmış 4 ədəd ən irisinin ölçüsü: 1) diametri 17x18, dərinliyi 3 sm; 2) diametri 38x40, dərinliyi 18 sm (ona cənub tərəfdən dayaz qarım birləşir; 3-cü yalaq oval formalıdır, diametri 42x20 sm, dərinliyi 5 sm; 4) yalağın diametri 18x19, dərinliyi 8 sm-dir. Daşın şimal-qərb kənarı üstündə şərqə tərəf olan üzü hamar və dik səth əmələ gətirən daş dayanır ki, onun şərqə tərəf üzündə kiril əlifbası ilə Azərbaycan dilində «Azərb. SSR EA adından qayaları mühafizə» mətni-reklam yazı həkk olunmuşdur.

DAŞ № 12

Kiçikdaş dağı sahəsinin cənub baxarının şərq hissəsində, 11 №-li daşdan 250 metr şimal-şərqdə, 13 №-li daşdan 85 metr cənub-qərbdə, 35 №-li daşdan 20 metr cənub-şərqdə, cənub tərəfi 2x3 metr dikinə hamar səthə malik orta ölçülü qaya parçası olmuşdur. İ.M.Cəfərzadənin dediyinə görə daşın şərq kənarına yaxın səthində 2 keçi təsviri olmuş və 1955-ci ildə daş hələ tam işlənib təsvirlərinin estamp surəti və fotosu alınmamış, daşqıranlar tərəfindən tikintidə istifadə olunmaq üçün sındırılmışdır.

DAŞ № 13

Kiçikdaş dağı sahəsinin cənub baxarının şərq hissəsində 14 №-li daşdan 250° altında 125 metr, 15 №-li daşdan 220° altında 110 metr 34 və 35 №-li daşlardan 110° altında 95 metr məsafədə, «Araba» daşından (48) 100 metr qərb tərəfdə, şimal tərəfi yerdən 40-50 sm, cənub ucu 250 sm hündür, üstü 11x7 metr ölçülü şimala tərəf maili böyük qaya parçasıdır. Daşın üst üzünün şimal-şərq hissəsində diametri 30x31, dərinliyi 18 sm yarımşar formalı yalaq qazılmışdır. Qərb tərəfdən 13 №-li daşın üstünə yatmış yastı daşın üstündə də diametri 22x26, dərinliyi 6-7 sm ölçülü bir yalaq qazılmışdır.

DAŞ № 14

Kiçikdaş dağı sahəsinin cənub baxarının şərq hissəsində «Araba daşı»ndan 70° altında 25 metr məsafədə, 13 №-li daşdan 70° altında 125 metr, 15 №-li daşdan 130° altında 58 metr məsafədə, cənuba tərəf axırıncı, cənub tərəfi yerdən 70 sm hündür, üstü 11x4 metr ölçülü və şimala tərəf maili, torpağa enən uzunsov ovalvarı

daşdır. Daşın üstündə, cənub kənarına yaxın diametri 22x23, dərinliyi 7 sm olan bir ədəd yarımşar formalı yalaq, ondan cənub-qərbə tərəf isə 60x60 sm ölçülü, 9 sm dərinliyində bir dördbucaqlı çarhovuz qazılmışdır (foto).

DAŞ № 15

Kiçikdaş dağı sahəsinin cənub baxarının şərq hissəsində 13 №-li daşdan 40° altında 110 metr, 14 №-li daşdan 310° altında 58 metr cənub-şərq tərəfi üçbucaqlı formalı düz divar, yuxarı hissəsinin cənub tərəfi iti və böyük donqar əmələ gətirən (yerdən uzunluğu 6 metr, hündürlüyü 3,5 metr), böyük qaya parçasıdır. Daşın şərq üzündə 5 rəsm var (21-ci tablo) və (18-ci fotoşəkil). Qobustan qayaüstü təsvirlərinin ilk tədqiqatçısı İ.M.Cəfərzadə onlardan ikisinin (21-ci tablo, A-1, 2) surətini çıxarmış və təsvir edərək çap etdirmiş, üçüncüsünün (21-ci tablo, A-3) isə varlığını qeyd edərək dini mərasimdə rəqs edən adam adlandırmışdır (49).

Şəkillərdən ikisi (tablo, A, 4-5) son tədqiqatlar vaxtı qeydə alınmışdır, 1 və 2-ci şəkillərdə yönü sola olmaqla, yan görünüşdə ağır çəkili (İ.M.Cəfərzadənin hesab etdiyi kimi) qoyun (şəkil 1) və qoç (şəkil 2) döl dövründə təsvir edilmişdir. Onlar yönü sola olmaqla yan görünüşdə, iri bədənli, ağır çəkili, boyunları qısa və nazik, başları kiçik çəkilmişdir. Qoyunun çox da iri olmayan buynuzları yuxarı qalxıb ucları geri əyilmiş, qoçunku azca yuxarı qalxıb arxaya tərəf yönəlmiş və ucu spiralvarı burulmuşdur. Qısa quyruqları qoyunda aşağı sallanır, qoçunku qarmaqvarı olaraq buduna tərəf qatlanır. Heç birində ayaqlar verilməyib. Hər iki heyvanın boynundan sağrısına qədər, bədəni boyu, iki paralel dalğalı xətt çəkilmiş, qoyunun bel xətti ilə dalğalı xətt arasında alınmış üç üçbucaq sahənin ikisi kiçik nöqtələrlə doldurulmuşdur. Qoçda isə çənəsinin altı ilə qabaq ayağının ucunu birləşdirən, döş xəttinə paralel dikinə xətt çəkilmişdir. Onun qarınaltı xəttinin arxa hissəsi altında da dalğalı xətt qalığı vardır.

İ.M.Cəfərzadə 1-ci və 2-ci şəkillərin kompozisiyasını eradan əvvəlki III minilliyə aid etmişdir. Hesab edirik ki, 3-cü şəkildəki insan təsviri də o dövrə aiddir və heyvanların artımı üçün dölün başlanmasını göstərir.

Bizcə təsvirlərin üstündəki naxış son tunc ilk dəmir dövrünə aid maddi-mədəniyyət nümunələrində, xüsusilə gil qablarda təsadüf olunur. Qoyun və qoç təsvirlərini də həmin dövrə aid etmək olar.

4-cü və 5-ci şəkillər 1-ci və 2-ci şəkillərə oxşatmadır. 4-cü şəkildəki heyvanın buynuzu 1-ci şəkildəki heyvanın (qoyun) buynuzunun eynidir. Lakin 4 və 5-ci şəkillərin yarımçıq qoyulması başqa oxşar əlamətlərin də verilməməsinə səbəb olmuşdur. Dövrü isə 1 və 2-ci şəkillərdən, söz yox ki, gecdir.

DAŞ № 15[A]

Kiçikdaş dağı qayalıqları sahəsinin şərq baxarının cənub hissəsində, daş № 15-lə daş № 16 arasında, burada təbii olaraq qat-qat, görünüşcə Çin arxitekturasını andıran nəhəng qaya, daşdan 50-60 metr cənubda, bu sahədə şimal-cənub dağın cənub qurtaracağına gedən torpaq yoldan 9 metr qərbdə nəhəng qaya parçasıdır. Onun cənub-qərbə baxan üzü təxminən 5 metr enində düz divar əmələ gətirir. Cənub-şərq tini və şərq tərəfi iki tərəfdən bərk aşınıb və şərq tərəfin şimal küncündən kiçik bir hissə çatla ayrılıb düşüb.

Daşın cənub-qərb üzündə yerdən bir metr hündürdə iki keçi təsviri saxlanıb (20-ci tablo, Q, 1-2 və 19-cu foto şəkil). Keçilərin hər ikisi yönü sola olmaqla, yan görünüşdə təsvir edilmişdir. Onların qabaq və dal ayaqlarının ucu qövsvarı olaraq birləşib, boyunları nisbətən uzun, quyruqları qarmaqvarıdır. Birinin (№ 1) yuxarı qalxıb qövsvarı dala əyilmiş buynuzlarından üstdəki və bel xəttinin yarıdan dala hissəsi tökülmüş, beldən dala sağrı hissəsi beldən qabağa hissəyə görə yoğun, boynu bir qədər yuxarı qaldırılmış vəziyyətdə təsvir edilmişdir. İkinci keçi təsvirində (№ 2) bel və boyun xətti düz xətlə göstərilmişdir. Ümumi baxışda 15 A №-li daşdakı keçi təsvirləri başqa arxeoloji abidələr ilə tutuşdurmaya əsasən oxşarını Qobustanda er.əvvəl II minilliyin sonlarına aid 28 №-li kurqanda qəbrin örtük daşındakı keçi rəsmlərində tapır.

DAŞ № 16

Kiçikdaş dağı sahəsinin cənub qolunun şərq ətəyində 15 №-li şəkilli daşdan 640 metr şimalda, 17 №-li daşdan 20° altında 170 metr, 61 №-li daşdan həmin istiqamətdə 40 metr məsafədə, Bəylər qışlağına (Daş qışlağa) gedən yoldan bir qədər cənubda şərq tərəfdə uzunluğu 20, hündürlüyü 8-9 metr, nəhəng bir qayanın əmələ gətirdiyi talvarvarı örtülü sahənin şərq hissəsinin altında, şimal-şərq cənub-qərb düşmüş uzunsov, 8x4 metr, hündürlüyü cənub üzdə 2 metr, şimalda 1 metr qaya parçasıdır. Daşın cənub üzünün kənarına yaxın, diametri 20 və 13 sm, dərinlikləri 14 və 6 sm olan 2 yalaq qazılmış, onlardan qərbə, daşın yuxarı hissəsində cənub ucun qərb baxarının yuxarısında isə kiçik ölçülü, hündürlüyü 24 sm olan bir sxematik insan təsviri və ya bu tipli damğa həkk edilmişdir (21-ci tablo, B). Bu təsvirdən 1 metr şimala və kiçik ölçülü yalıqdan 60-70 sm qərbə də qırıq xətlərlə damğaya oxşar bir dalğavarı təsvir qazılmışdır (surəti çıxarılmamışdır).

Daşın şərq üzündə yazılmış 16 nömrəsindən sola, son onilliklərdə çəkilmiş papaqlı insan başı sol tərəfdə kiril qrafikası ilə yazı qalıqları, işarə və balta təsviri qazılmışdır. 16 №-li daşdakı sxematik adam şəkli (21-ci tablo, B) və 2 ədəd yalağın dövrü eneolitdən sonrakı ilk tunc dövrünə aiddir.

DAŞ № 17

Kiçikdaş dağı sahəsinin cənub qolunun şərq ətəyində 16 №-li daşdan 20° altında 170 metr və təxminən həmin istiqamətdə 61 №-li daşdan 20° altında 132 metr məsafədə nəhəng qayadan çatla ayrılmış 6x6 metr ölçülü, 3 metr hündürlükdə iri daşdır. Daş cənub tərəfdən dik və hamardır. Bu səthin şərq hissəsində bir ədəd iri ölçüdə (burnundan quyruğunun ucuna 1 metr) keçi təsvir edilmişdir (21-ci təblo, V). Heyvanın buynuzları kiçik, yarımçevrə şəklində boynuna əyilir. Başı normal ölçüdədir, boynu dal buynuzun dibindən boğazına düz xətlə kəsilir. Kiçik quyruğu aşağıya meyilli olmaqla dala tərəf uzanır və heyvanın keçi olmasını inkar edir. Onun bədəni dolğundur, quyruqla bədən heyvanın öküz olmasına dəlalət edir. Qabaq ayaqları aralarına çəpinə çəkilmiş xətlə ayrılır. Təsviri tunc dövrünə aid etmək olar.

DAŞ № 18

Kiçikdaş dağı sahəsində «Firuz-2» düşərgəsindən (19 №-li daşdan) 160° altında 12 metr, 99 №-li daşdan 90° altında 3,5 metr məsafədə şərq-qərb 6 metr, şimal-cənub 5 metr ölçülü, ortasından nazik çatı olan böyük qaya parçasıdır. Daşın cənub üzü vaxtilə dibində həyat olduğundan sarımtıl rəng alıb və bu tərəfində torpaq, kül qarışıqlıdır, son əsrlərin keramika qırıqları və yanmış daş parçalarına rast gəlinir. Daşın cənub üzündə daş boyu bir cərgədə 11 ədəd pərdi ucu qoymaq üçün səkicik qazılıb. Daşın çatı bu üzdə nisbətən enli görünür və ondan sola bir ədəd keçi təsviri var (22-ci tablo, B). Keçinin dal və qabaq ayaqlarının ucları birləşir. Kiçik quyruğu dikdir. Bədəni adi qaydadadır. Boynu başa tərəf getdikcə nazilir. İki paralel və düz xətdən ibarət, çox uzun buynuzlarının ucu azca dala əyilir.

Daşın cənub tərəfində yanmış sahələr və hörgü qalıqlarının olması ilk orta əsrlərdə bu sahədə yaşayış olduğunu deməyə əsas verir. Çox güman ki, cənub üzdəki keçi təsviri də o zamanlar çəkilmişdir.

Dövr etibarı ilə qədim təsvirlər 18 №-li daşın şimal üzündədir. Burada 8 ədəd şəkil (20-ci fotoşəkil) və şəkil qalığı: üç ədəd öküz (22-ci tablo, A, şəkil 3, 5, 8) üç ədəd adam (yenə orada 2, 6, 7-ci şəkillər), bir keçi və ya o tipli heyvan (1-ci şəkil); 1 ədəd şəkil və ya naməlum xətt qalığı (şəkil № 4) qeydə alınmışdır. Öküzlərdən biri (şəkil № 3) yönü sola olmaqla qabağa uzanmış buynuzları, ucları aşağı meyillənmiş, qulaqsız boynu donqarsız, kiçik quyruğu aşağı sallanmış halda təsvir edilib.

Öküzlərin ikisi (şəkil № 5 və 8) yönü sağa olmaqla təsvir edilmişdir. Hər ikisində kiçik qulaq və çiyin donqarı göstərilmişdir. Birinin (şəkil № 5) bədəni yoğun və ağırçəkilidir. Buynuzları qabağa uzanmaqla yuxarı meyillidir. Başı normal ölçüdə aşağı əyilmiş, quyruğu qısadır.

Üçüncü öküzün (şəkil № 8) belinin dal, hissəsi saxlanmayıb, qabaq ayaqları, döşü, boyun donqarı və başının yuxarı qalxaraq qabağa uzanması ümumi görünüşdə onun, nə isə, qabağa can atmasını göstərir. Öküzün buynuzları qabağa meyilli yuxarı qalxaraq, yandan uca tərəf hissəsi qabağa uzanmışdır. Qabaqdan ikinci ayağının ucu kiçik üfüqi xətlə kəsilmişdir.

Adam rəsmlərindən biri (şəkil № 2) 3-cü şəkildəki öküzün qabağında, çənəsinin altında, biri (şəkil № 6) 5-ci şəkildəki öküzün, biri (şəkil № 7) isə 8-ci şəkildəki öküzün qarnının altında çəkilmişdir. Adam rəsmlərinin hər üçü başı yumru, əlləri yana açılıb yuxarı qaldırılmış və kiçik ayaqları aralı qoyulmuş, tək rəqs edən adam kimi təsvir edilmişdir. Onlardan ortadakı (şəkil № 6) adamın dizlərinin azca qatlanması və ayaq pəncələrinin yanlara açılmasında onun rəqs vəziyyətində olması daha aydın görünür. Burada öküzə pərəstiş ilə əlaqədar hər adamın bir öküzə pərəstiş etməsini dini oyun keçirməsi səhnəsini görürük.

18 №-li daşda 1-ci şəkildəki heyvan təsviri bədəninə görə keçini andırır. Onun uzun boynu başa tərəf getdikcə nazilir, heyvanın quyruğu verilməyib. Başının üstündən dala getdikcə yuxarı qalxan düz xətt çəkilib.

16 №-li daşdakı üç öküz və 3 adam şəkilləri kompozisiyasının çəkilmə tarixini «Firuz-2» düşərgəsində 19 №-li daşın qərb dibində və 97 №-li daşın şərq dibində aparılmış qazıntıların nəticələri və Qobustanın qədim qayaüstü təsvirləri kolleksiyası üzrə ümumi tədqiqatların nəticəsinə görə er.əvvəl V-IV minilliyə, şəkil № 1-dəki keçi təsvirinin III minilliyə aid olduğunu deyə bilərik. 18 №-li daşın şimal üzünün şərq hissəsindəki şəkillərin torpaq basmış hissəsini təmizləyərkən adam (şəkil № 2) və öküz (şəkil № 3) təsvirlərinin altında açılmış yastı sal daşın üstündə bir yalaq və bir spiral şəkli (21-ci tablo, Q, 1-2) aşkar edilmişdir. Diametri 35x27 sm olan yalağın (şəkil № 1) içərisindən də kiçik diametrli bir dərin yalaq qazılmışdır.

Qeyd edək ki, cənub tərəfdən 19 №-li daşa söykənmiş və 97-ci daş kimi qeydə alınmış daşın şərq üzündə, 25 ədəd bir-birinin içərisində çəkilmiş iç-içə dairəciklər (günəş rəmzi) və 19 №-li daşın şərq üzündə 4 çevrənin iç-içə çəkilməsi ilə bir günəş simvolu (23-cü tablo, B, şəkil 1) qeydə alınmışdır. 18 №-li daşda 3 öküzə 3 adamın səcdəsi, qarşısında yerdən açılmış sal daşda təmizlik suyu üçün qazılmış yalaq və yanında spiral, onlardan 10-12 metr əks tərəfdə 19 və 97 №-li daşlardakı günəş simvolları bu sahənin ibadət yeri olduğunu deməyə əsas verir (50).

DAŞ № 19

«Firuz-2» düşərgəsinin şərq divarını təşkil edən, 18 №-li daşdan 340° altında 12 metr məsafədə, 20 №-li daşdan 8 metr qərbdə, şimal-cənub uzunluğu 6 metr, şərq-qərb eni 2,5 metr, hündürlüyü 5 metr iri qaya parçasıdır («Firuz-2» düşərgəsinin şimal tərəfini 96 №-li daş, cənub tərəfini 97 №-li daş, qərbə - dağa

tərəfini kiçik, alçaq bitili daş tutur). Qədim təsvirlər, əsasən, 19 №-li daşın qərb, «Firuz-2» düşərgəsinə baxan üzündə (23-cü tablo, A) 88 ədəd və az miqdarda, 6 ədəd, daşın şərq üzündə (23-cü tablo, B) qeydə alınmışdır.

19 №-li daşa cənub-qərb tərəfdən 97 №-li daş söykənir və daşın qərb üzünün sağ tərəfdən yuxarı hissəsində olan rəsmləri örtür.

19 №-li daşın qərb üzündə qeydə alınmış (17-ci foto şəkil) 88 rəsmdən 19 ədədi (şəkil №№ 3, 4, 18, 20, 26, 36, 37, 39, 42, 51, 66, 69, 70, 73, 74, 75, 79, 83, 85) qadın və 11 ədədi (şəkil №№ 7, 16, 32, 35, 48, 54, 58, 59, 61, 81, 86) kişi olmaqla 30 ədədi insan; 30 ədədi (şəkil №№ 2, 9, 10, 11, 15, 22, 23, 24, 25, 27, 28, 29, 31, 41, 43, 44, 45, 46, 47, 49, 50, 52, 53, 55, 56, 57, 63, 68, 76, 82) qayıq; 13 ədədi (şəkil №№ 1, 5, 8, 17, 40, 60, 62, 71, 72, 77, 78, 80, 87) heyvan; 2 ədədi (şəkil №№ 6, 13) tələ təsviri, 3 ədədi (şəkil №№ 19, 21, 65) günəş simvolu və 10 ədədi (şəkil №№ 12, 14, 30, 33, 34, 38, 64, 67, 84, 88) naməlum şəkil qalığından ibarətdir. Onlardan 40 ədədi (şəkil №№ 49-88) «Firuz-2» düşərgəsində aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edilmişdir.

19 №-li daşda ən çox diqqət cəlb edən qadın və gəmi təsvirləridir. Qadın təsvirləri Qobustanda başqa qədim düşərgələrdə də çoxluq təşkil edir. Onların çoxluğu Qobustanda həyatın hələ üst paleolit dövründən başlanmasına şahidlik edir. Onu da qeyd edək ki, şəkillərin çoxu zamanın təsirindən eroziyaya məruz qalaraq pis saxlanmış və ya bir hissəsi daşın üz layı ilə qopub düşmüşdür. Qobustanda ən qədim qadın rəsmləri əsasən yan və ön görünüşdə, döşləri, oturacağı və baldırları qabarıq verilməklə, əsasən kiçik ölçülü (daha qədim şəkil №№ 83, 85 tipində) kölgəvarı təsvir edilmişdir.

19 №-li daşda qadın təsvirlərinin çoxu öndən iri döşlü, iri oturacaqlı olmaqla, bəzən çiyinlərində çəpinə dayanmış alətin bir və ya hər iki ucunda alətə şaquli dişlər (şəkil №№ 51, 73, 79 da olduğu kimi) çəkilmişdir.

Qadın təsvirlərinin çoxluğu, sözsüz ki, matriarxat dövrünün anaya olan pərəstiş, onun qəbilə ocağının sahibi, uğursuz ovdan sonra qəbilə üzvlərinin yığıcılıqdan əldə etdikləri nemətlərlə yedizdirə bilmələri, qəbilənin artımını təmin etmələri qarşısında aldıqları imtiyazların, hörmətin müqəddəsliyinin nəticəsidir.

Kişi təsvirləri (hündürlükləri 20-70 sm arasında) nisbətən kiçik ölçülüdür. Onların bədəni, qolu, ayağı əsasən nazik xətlə çəkilmişdir. Bir ədəd, ilk tunc dövründə çəkilmiş kişi təsviri (şəkil № 16) sol əlində 5 barmaq göstərilməklə ya şüa saçan günəş tutmaqla və sağ əlinin xətti ilgəkvarı qıvrılmaqla verilmişdir. 54 № ilə qeydə alınmış adam təsvirində sol əl saxlanmamış, sağ qolu isə əli yerində yuxarıya olmaqla dörd dişcikli alətlə 53 №-ilə qeydə alınmış qayığın arxa ucuna bitişik göstərilmişdir. 32 və 35 nömrə ilə qeydə alınmış kişi təsvirləri kəmərçinli göstərilmiş, qalanları Qobustan üçün səciyyəvi, xətlə verilmiş kişi təsvirlərindən ibarətdir.

19 №-li daşdakı qayıq təsvirlərindən 11 ədədi «Firuz-2» düşərgəsində arxeoloji qazıntı nəticəsində torpaq altından, 19 ədədi yer səviyyəsindən yuxarıda

olmaqla aşkar olunmuşdur. Qayıqların hamısı xətlə çəkilmiş və müxtəlif ölçülüdür. Ən kiçiyi, içərisində 1-5 adam olmaqla, (şəkil №№ 2, 24, 52, 56, 63, 68) qövsvarı çəkilmişdir.

Ən iri qayıq təsvirinin (şəkil № 43) baş-ucu çevrə və ondan sallanan xətlə qurtarır. Uzunluğu təxminən 1,5 metr olan bu qayığın içərisində xətlə 19 adam simvolu çəkilmişdir.

Qayıq təsvirlərinin çoxundan (şəkil №№ 10, 15, 23, 25, 27, 28, 29, 41, 45, 46, 49, 50, 57 və s.) aşınma və əhəng daşının lay-lay qopması nəticəsində yalnız hissə saxlanmışdır. Bir ədəd qayıq təsvirinin (№ 53) burnunda 11 şaxəli günəş təsvir edilmişdir. Günəşdən aşağı sallanmış xəttin ucu çevrələnmiş və çox güman ki, ağırlıq (lövbər) daşı verilmişdir.

Qayıqdan sağ tərəfdəki adamın (şəkil № 54) əlindəki (yuxarıda göstərilən) alətin ucu sağ tərəfdən qayığın arxa ucuna toxunur.

Qobustanda burnunda günəş təsviri verilmiş qayıq şəkli çoxdur (25 ədəd). Qayıq təsvirləri əsasən neolit və ondan sonrakı eneolit və ilk tunc dövrlərində çəkilmişdir.

Böyükdaş dağı qayaüstü təsvirlər kolleksiyasında 15 daş üzərində qeydə alınmış 60-dan çox qayıq təsvirindən 25 ədədinin, Kiçikdaş dağında isə 13 daş üzərində qeydə alınmış 80-dən çox qayıq təsvirindən yalnız bir 19 №-li daş üzərində bir qayığın (№ 53) burnunda günəş təsvir edilmişdir.

Qədim insanlar tərəfindən günəşin təsvir edilməsi, ümumiyyətlə, həyat mənbəi olan günəşə - yaradıcıya, allaha sitayiş obyekti olaraq baxılması nəticəsində meydana çıxmışdır.

Qayıqların burun hissəsində günəş təsviri o dövr adamlarının bir növ günəşə - allaha inamı, ona səcdəsi, günəşin dənizdə onlarla birgə olmaqla, onları bəlalardan hifz edəcəyinə inamla və dənizdə yol göstəricisi olması ilə bağlıdır (51).

19 №-li daşda 55 nömrə ilə qeydə alınmış qayıq, orta hissəsi aşağıya meyilli olmaqla, üfüqi xətdən ibarətdir. Onun sağ tərəf ucuna yaxın 2 nəfər silahlı (və ya avarlı) adam, sol hissəsində bir ucu qayığın gövdəsinə bitişik və bir-birinə paralel iç-içə qövsvarı xətlər çəkilmişdir. Qayığın orta hissəsi 59 №-ilə qeydə alınmış kişi təsvirinin başını kəsir.

Qayıqlardan 14 ədədinin təsviri tam, yaxşı saxlanmışdır. Onların içərisində adamların sayı müxtəlifdir. Onlardan bir qayıqda (№ 63) 1 adam, bir qayıqda (№ 56) 3 adam, üç qayıqda (şəkil №№ 24, 52, 68) hərəsində 4 adam, üç qayıqda (şəkii №№ 2, 11, 47) hərəsində 5 adam, qalanlardan - 22 № ilə qeydə alınmış qayıqda 10 adam, № 31-də 20 adam, № 43-də 19 adam, №- 44-də 6 adam, № 76-da 7 adam və № 82-də 8 adam təsvir edilmişdir.

Qobustanda Böyükdaş dağı ərazisində qeydə alınmış qayıq təsvirlərində də adamların sayı müxtəlifdir. Qayıqlarda adamların sayı qayıqların ölçüləri və onları çəkən rəssamların istəyinə uyğun çəkilmişdir.

Bu baxımdan 1998-ci ildə Azərdövlətteleradioşirkətin çəkib ekrana buraxdığı «Qobustan» adlı filmdə irəli sürülən, guya Böyükdaş dağı yuxarı səki sahəsində 29 №-li daşın cənub üzündəki qayıq təsvirindəki adamların sayı tarixdə sayın yaranması işində əsas olmuşdur fikri cəfəngiyyatdır.

19 №-li daşın qərb üzündə qeydə alınmış heyvan təsvirlərindən 5 ədədi (şəkil №№ 1, 5, 8, 17, 40) «Firuz -2» düşərgəsində qazıntıya qədərki üst səviyyədən, 8 ədədi isə (şəkil №№ 60, 62, 71, 72, 77, 78, 80, 87) qazıntı nəticəsində daşın mədəni təbəqə örtmüş səthində aşkar edilmişdir. Onlardan bir təsvirdə (şəkil № 5) öküz, birində (şəkil № 17) at, birində (şəkil № 60) ceyran, birində (şəkil № 62) keçi, üçündə (şəkil №№ 72, 77, 78) qaban təsvir edilmiş, 6 şəkildə (№№ 1, 8, 40, 71, 80, 87) nə təsvir olduğunu söyləmək çətindir. Onlardan birinin (şəkil № 1) bədəni boyun fırına görə öküz təsvirini xatırladır. Lakin quyruğu və buynuzuna görə öküzlüyü təsdiqlənmir. Şəkillərdən biri (№ 8) ceyranı xatırladır, qalan 40, 71, 80 və 87 №-li şəkillərdəki heyvan təsvirləri eroziyaya uğramış və yarımçıq saxlanmışdır.

Təsvirlərdən şəkil № 19, 21 və 65-də iç-içə çəkilmiş dəirəciklərdən ibarət günəş simvolu qeydə alınmışdır. Onlardan 19 (bir ədəd) və 65 (üç ədəd) №-li şəkillərdə dairəciklərin yarısı töküldüyündən iç-içə qövslər şəklində, № 21-də isə bütöv saxlanmışdır. Qeyd edək ki, bir ədəd günəş simvolu daşın şərq üzündə (23-cü tablo, B, şəkil № 1) və qonşu 97 №-li daşda da 25 ədəd iç-içə çəkilmiş 3 dairəcikdən ibarət günəş simvolları çəkilmişdir (52).

19 №-li daşın qərb üzündə 6 və 13 № ilə tələ təsviri qeydə alınmışdır. Təsvir, yuxarıdan aşağıya çəkilməklə, bir-birini kəsən, iki uzun xətdən ibarətdir. Onların arası, yuxarı uca yaxın, üfüqi çəkilmiş düz xətlə birləşir. Yuxarı ucda sağdakı, kəsişdikdən sonra sola keçən xəttin aşağı ucunda qabarıq tərəfi yuxarıya olmaqla yarım çevrəyə oxşar ağırlıq daşı verilmişdir. Ağırlıq daşından aşağıya 4 ədəd və onun asıldığı xəttin o biri xətlə kəsişmə nöqtəsindən aşağıya qədərki hissəsində də 4 ədəd çox qısa xətlərdən asılmış dairəciklər - tarazlayıcılar verilmişdir. Bu tipli, öküz düşmüş, tələ təsviri «Kiçikdaş dağı» kolleksiyasının 58 №-li daşında da qeydə alınmışdır (53).

19 №-li daşın qərb üzündə qeydə alınmış 10 ədəd şəkildə (№№ 12, 14, 30, 33, 34, 38, 64, 67, 84, 88) və bir sıra qeydə alınmış (nömrəsiz) xətt qalıqlarında nə təsvir olunduğunu demək çətindir. Onların bəziləri anlaşılmaz, mücərrəd şəkildən və ya şəkil qalığından ibarətdir.

19 №-li daşın şərq üzündəki şəkillərdən bir ədədində (23-cü tablo, B, şəkil № 1) günəş simvolu, şəkil № 2-də keçi, şəkil № 3-də bədəni və quyruğu yırtıcı heyvanı andıran, buynuzları keçi buynuzu olmaqla sxematik naməlum heyvan, 4-cü şəkildə pis saxlanmış, ayaqlarından biri silinmiş adam, 5-ci şəkildə yan görünüşdə sxematik naməlum heyvan, 6-cı şəkildə isə sxematik atlı çəkilmişdir.

19 №-li daşın şərq üzündəki günəş simvolunun (şəkil № 1) tarixi ilk tunc dövrünə aiddir. Qalanları tunc və orta əsrlər dövrlərində çəkilmişdir. Daşın qərb

üzündəki təsvirlər əsasən mezolitin sonu neolit dövrü ilə ilk və tunc dövrü (II minilliyin başlanğıcı) arasında çəkilmişdir. Təsvirlərin ən qədimləri siluet qadın, kişi və qaban şəkilləridir. Qayıqlar, əsasən, ilk tunc dövründə çəkilmişdir. Lakin mədəni təbəqə altında aşkar edilmiş qayıqlardan daha qədimləri də var.

DAŞ № 19[a]

«Firuz-2» düşərgəsində qazıntı sahəsinin cənub-qərb küncündə, arxeloji qazıntı nəticəsində düşərgəyə baxan üzü açılmış, cənub-qərb tərəfdən torpaq altında qalmış, yerdən bitili daşdır. Onun düşərgəyə baxan üzündə, bir-birinin altında olmaqla, bir bütöv və iki qalıq hissədə qayıq təsviri aşkar edilmişdir (22-ci tablo, B, 1-3).

Qayıqlardan ən üstəkinin (№ 1) qalığı içərisində 2 adam, ortadakı qayığın (№ 2) hissəsi içərisində 6 adam, bütöv qayıq təsvirinin (№ 3) içərisində isə 19 adam simvolu saxlanmışdır.

Qayıqlardan birinin (№1) hər iki ucu sınmış, ikincisinin (№ 2) sağ tərəf ucu və sol ucu ilə qalmış gövdə arasından hissə silinmişdir. Üçüncü, bütöv saxlanmış qayığın (№ 3) hər iki ucu azca yuxarı əyilmişdir. Onun sağ tərəf ucundan kiçik bir hissə daşın bu ucunda əmələ gəlmiş çatla əsas hissədən ayrılmışdır.

Qayığın düşərgədə açılması, iri ölçülülüyü 19 №-li daşdakı 23 №-li qayıqla oxşarlığı (23-cü tablo, A, 23) və içərisində onun kimi 19 adam olması onların hər ikisinin düşərgə sakinlərindən eyni adam tərəfindən neolit dövrünün sonlarında çəkildiyini deyir.

DAŞ № 20

Kiçikdaş dağı sahəsində «Firuz-2» düşərgəsindən (daş № 19) 8 metr şərqdə 18 №-li daşdan şimala 9 metr məsafədə yerdən bitili üstü yastı (0,9 x 1 metr); yerdən az yuxarı qalxan daşdır. Onun üstündə iki ədəd, biri yarımşar formalı iri və biri kiçik yalaqlar qazılmışdır. (21-ci fotoşəkil).

Daşın üstünün ölçüsü və qabarıqlığı onun əsasən yağış suyu yığmaq üçün qazılmasını inkar edir. Daş 19, 97 və 18 №-li daşların arasında, öküzə və günəşə ibadət sahəsindədir və görünür, ibadət üçün təmizlik suyu saxlamaq üçün qazılmışdır.

DAŞ № 21

Kiçikdaş dağının cənub qurtaracağının qərb hissəsində 2 və 3 №-li daşlardan 7 metr qərbdə şimal-cənub yatmış (ölçüsü 14x5 metr), şərq tərəfi 3,5 metr hündürlükdə dikinə və hamar iri qaya parçasıdır. Daşın şərq tərəfinin şimal qurtaracağına yaxın yönü sağa olmaqla iki keçi təsviri və 2 xətt qalığı saxlanmışdır (24-cü tablo, A, 1-4).

Keçilərdən birinin (№ 2) çənəsi və daldan ikinci ayağı, ikinci keçinin (№ 3) quyruğu və dibindən hissə tökülüb saxlanmamışdır. 3 №-li keçinin dal ayaqlarının ucu qövsvarı birləşir. Xətt qalıqlarının (№ 1, 4) nə rəsmindən qalıq olduğunu söyləmək çətindir. Keçi təsvirlərinin hər ikisində iri buynuzlar dala tərəf maili olaraq yuxarı qalxır və ucları qövsvarı şəkildə keçinin belinə əyilir. Şəkil № 2-də keçinin quyruğu qarmaqvari dala, keçinin belinə tərəf əyilir. Keçi təsvirləri, ümumən, «Böyükdaş» yaşayış yerindən olan (inv. № 99 və 206), «Firuz-1» düşərgəsinin tunc dövrü hörgü daşında (inv. № 586) 28 №-li kurqanın qəbir örtüyü daşında olan orta tunc dövrünə aid keçi təsvirləri ilə eyniyyət təşkil edir.

DAŞ № 22

Kiçikdaş dağı sahəsinin cənub qurtaracağının qərb hissəsində 4 №-li daşdan 12 metr cənubda, 23 №-li daşdan 5-6 metr şimala, hündürlüyü 40-60 sm, tilli piramida formalı kiçik daşdır.

Daşın şərq üzündə bir ədəd keçi təsviri saxlanmışdır (24-cü tablo, B). Heyvan boynu uzun, çiyni xeyli qabarıq, bel nazik, omba iri olmaqla, qeyri mütənasib çəkilib. Buynuzları iri, dal buynuzunun ucu gödəkdir. Ayaqlarının ucu qövsvarı birləşir. Quyruğu dik qalxıb heyvanın ombasına tərəf dala əyilir. Qarınaltı xətti kiçik, dikinə xətlə kəsilir və xətdən sağa bir hissə çatmır. Dövrünü er.əvvəl II minilliyin ortalarına aid etmək olar.

DAŞ № 22-A

Kiçikdaş dağı sahəsinin cənub qurtaracağının qərb hissəsində 22 №-li daşdan 5 metr tam şərqdə, 25 №-li daşdan 320° altında 10 metr məsafədə, cənub ucu dik və hamar, qərb ucda qopub çökəlmiş, uzunluğu 3 metr, hündürlüyü 2,3 metr daşdır. Daşın cənub üzünün aşağı hissəsində 2 heyvan (keçi) təsviri saxlanmışdır. Onların hər ikisinin yönü sağadır (24-cü tabio, B,1-2). Daldakının (№ 1) yalnız buynuzlarından, bel xəttindən hissələr və arxadakı dal ayağı saxlanıb. O biri heyvan (№ 2) kök bədənlidir, çox kiçik quyruğu keçi quyruğudur (arxaya tərəf meyilli olaraq dik qalxır). Heyvanın buynuzu və başının alın xətti (üst çənə ilə birlikdə) saxlanmayıb. Təsvirlərdə bəzi hissələrin saxlanmaması onların qədimliyinə işarə edir. Onların tarixini er.əvvəl II minilliyə aid etmək olar.

DAŞ № 22-B

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağının qərb hissəsində, 22 №-li daşdan 4, 5 metr tam qərbdə, 25 №-li daşdan 320° altında 10 metr məsafədə, cənub üzü 2 metr hündür və hamar, yuxarısı qərbə tərəf əyilmiş daşdır. Daşın cənub üzü yerdə 2 metrdir və üstü şərqə tərəf mailidir. Daşın bu üzündə bir ədəd

naməlum heyvan təsviri saxlanıb. Təsvirdə heyvanın yönü sağa verilmişdir. Onun bədəninin qabaq hissəsi yoğundur, arxa hissəsi nazilir. Ümumiyyətlə, təsvirin ümumi görünüşü və şəkildəki duruşuna görə onun öküz təsvirindən qalıq olmasını güman etmək olar (24-cü tablo, Q). Təsvirin dövrünü isə er.əvvəl II minilliyə aid etmək olar.

DAŞ № 23

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağının qərb hissəsində 22 №-li daşdan 7 metr cənuba, 28 №-li daşdan bu istiqamətdə 10 metr məsafədə piramida formalı nəhəng qayadır. Onun şimal-şərq tərəfində, daşın nömrəsindən (23) cənuba naməlum bir heyvan şəkli saxlanıb (24-cü tablo, D). Dolu bədənli bu heyvanın yönü sola olmaqla, dal ayaqlarının ucları birləşir. Başı və quyruğu zamanın təsirindən saxlanmamışdır.

Daşın şəkil olan səthinin alt kənarında, heyvan şəklinə yaxın, yağış suyu yığmaq üçün 2 qarım qazılıb. Daşın cənub tərəfi daşqıranlar tərəfindən qırılıb. Daşın qalan hissəsində, gəlmə torpaqla örtülü sahədə də şəkillər olması izlənir. 23 №-li daşdakı heyvan təsvirini Qobustanda başqa şəkillərlə tutuşdurmaqla eradan əvvəlki II minilliyə aid etmək olar.

DAŞ № 24

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağında 23 №-li daşdan 1 metr cənubdadır, A, B №-li daşdan 11 metr şərqə yerdən azca çıxmış alçaq daşdır, şimai-şərq-cənub-qərbə yatıq, üst üzü düz və qərbə mailidir. Şərq tərəfi dik və düzdür. Onun aşağı hissəsində qismən şəkil qalıqları görünür.

Daşın üst üzünün qərb kənarına yaxın müxtəlif tipli heyvan şəkilləri var (24-cü tablo, J). Onlar daş alətlə döyülüb və bəzilərini gəlmə torpaq basıb. Bir öküz və yeddi müxtəlif şəkil qalığı qeydə alınmışdır. Öküz (№ 3) yönü sağa üzü yuxarı hərəkət edən vəziyyətdə təsvir edilmişdir. Çiyinin donqarı gözə çarpacaq dərəcədə iridir. Başı bədəninə nisbətdə kiçik, çox iri olmayan buynuzları qabağa tərəf olmaqla dikdir. Kiçik quyruğu uzanıb yarıdan aşağı sallanır. Qalan şəkil qalıqları (24-cü tablo, J,1-2, 4-8) elə kiçik hissələrlə təmsil olunurlar ki, onların aidiyyətini demək çətindir. 24 №-li daşdakı öküz şəkli ümumi baxışda Qobustanda 3 №-li kurqanda 10 №-li daşdakı öküz təsvirinə oxşayır. Ona görə onu er.əvvəl III minilliyin ortalarına, ətrafındakı şəkil qalıqlarını (№ 1, 2, 4-8) isə daha qədimə aid etmək olar.

DAŞ № 25

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağında 23 №-li daşdan 4 metr şərqdə, 26 №-li daşdan 27 metr qərbdə yerdən bitili qaya parçasıdır. Üst üzü yastı və qərbə tərəf mailidir. Cənub-şərq tərəfi hamar və dikdir. Bu üzün şimal ucuna yaxın, yerdən bir qədər hündürdə nəməlum bir heyvan rəsminin qalığı var. (24-cü tablo, şəkil E). Onun başının üst hissəsi (qulaq, buynuz sahəsi), dal ayağının aşağı hissəsi saxlanmayıb. Heyvanın yönü soladır. Qabaq hissəsi yoğun, özü kök, quyruğu yoxdur. Rəsmin at təsviri olmasını güman etmək olar. Dövrünü demək çətindir, ümumi görünüş və texnikasına görə tunc dövrünə aid etmək olar.

DAŞ № 26

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağında 25 №-li daşdan 27 metr şərqdə, 27 №-li daşdan 4 metr qərbə yerdən çıxan iri qaya parçasıdır. Üst səthi şərqə və qərbə meyilli olmaqla, düz təhərdir. Şimal ucun şərq tərəfi yerdən 50-60 sm hündürdür və düz səthlə dik dayanır. Burada çoxunu torpaq basmış keçi təsvirləri var. Onlardan 11 şəkil qeydə alınmışdır (25-ci tablo, A). Bunlardan 6 ədədi (№№ 1, 2, 3, 7, 9, 11) keçi, biri adam (№ 4), biri naməlum heyvan (№ 6) və üçü (№ 5, 8,10) heyvan şəkillərindən qalıqlardır. Keçi şəkillərindən biri (№ 3) yönü sola, qalanları sağa təsvir edilmişdir.

1 №-li şəkildəki keçinin yarıdan dala bel xətti quyruqla birgə və buynuzlarının ucu tökülüb, 9 №-li şəkildəki keçinin də quyruğu verilməyib. Onun dal ayaqlarının və 1 №-li keçinin qabaq ayaqlarının ucu birləşir. 6 №-li şəkildə heyvanın quyruğu, quyruğun dibindən hissə və başından hissələr saxlanmayıb. Başı bədənə nisbətən iridir, boynu qabağa meyillidir, başından yuxarı qalxmış 2 kiçik, dala əyilən xətdən ibarət buynuzu var. Bu heyvanın və 7 №-li keçinin qabaq ayaqlarını qarınaltı xətdən şaquli olaraq aşağı endirilmiş 2 paralel xətt təşkil edir.

26 №-li daşdakı 4-cü şəkildə kiçik ölçülü (hündürlüyü 10 sm) adam təsvir edilmişdir. Onun başı yumru, bir qolu çıxıntıvarı, sol tərəfdəki ayağı qısa verilib. Şəkil bir növ kölgəvarı döyülüb və bir qolu verilməyib. 26 №-li daşdakı keçi təsvirləri Qobustanda tunc dövrü kurqanları, yaşayış yerləri və qayalarındakı şəkillərlə yaxınlıq təşkil edir və dövrünü tunc dövrünün əvvəllərinə aid etmək olar.

DAŞ № 27

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında 26 №-li daşdan 4 metr şərqə, 6 və 7 №-li daşlardan 10 metr tam qərbə iri və uzun (10 metr) qaya parçasıdır. Qərb tərəfini torpaq basır. Şərq tərəfi dik və hamardır. Şərq üzün cənub hissəsində üst səthin şimal ucunda və cənub səthin aşağı hissərində heyvan şəkilləri nəzərə çarpır, onların çoxunun üstünü gəlmə torpaq basıb.

27 №-li daşda 2 təsvir, bir keçi və bir sxematik heyvan (25-ci tablo, V, şəkil № 1,2) təsviri qeydə alınmışdır. Onlardan biri (şəkil № 2) daşın üstündə aşkar edilmişdir. Daşın üstündə ocaq qalandığından onun yeri yanıqdır. Şəkil, üstünü örtmüş gəlmə torpaq təmizləndikdə aşkar olundu. Təsvirdə keçinin başı bədənin davamıdır. Qabaq ayaqları qarınaltı xətdən aşağı çəkilmişdir. İkinci şəkil (№ 1) daşın şərq üzünün şimal hissəsində aşkar edilib. Bədəni düz, üfüqi xətdən ibarətdir. Yönü sola olan heyvanın bədəninin sağ ucundan aşağı iki, sol ucundan üç xətt ayrılır. Soldan 1-ci «ayaq», çox güman, quyruq əvəzidir. Başı yoxdur. Bədən xəttinin sağ ucundan yuxarı qalxıb qövsvarı dala uzanan və ucu yuxarıdan qabağa tərəf əyilən xətlə buynuz göstərilmişdir. Təsvirin hansı heyvana aid olması və dövrü haqda fikir demək çətindir. Şəkil № 2-dəki keçi təsviri ümumi görünüşündə Qobustanda dövrü qazıntılarla müəyyənləşdirilmiş tunc dövrünün keçi təsvirləri ilə oxşardır.

DAŞ № 28

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında, 26 və 27 №-li daşlardan 18-20 metr şimalda, 29 №-li daşdan 3 metr qərbə, kiçik ölçülü, 90x80 sm yer tutan, Şimal qərbdə hündürlüyü 5-10 sm, üstü düz və cənuba maili kiçik daşdır.

28 №-li daşda 3 heyvan, bir keçi və iki yarımçıq heyvan şəkli qeydə alınmışdır (25-ci tablo, B). Onlardan keçi (şəkil № 2) ayaq üstə, yan görünüşdə, yönü sağa olmaqla real təsvir edilmişdir. Onun başı kiçik və qabağa uzanmış çox iri buynuzları yuxarı qalxıb dala tərəf çevrələnir. Çox güman ki, qədim rəssam bu buynuzlarla keçinin dağ keçisi və ya dibir olmasını göstərmək istəmişdir.

Bu şəkildə (№ 2) keçinin bel xətti orijinaldır, kiçik qövsvari quyruğu yuxarı və keçinin belinə tərəf əyilir. Qabaq və dal ayaqları qarınaltı xətlə birgə yarım çevrə əmələ gətirir. Ombası yuvarlaqdır.

28 №-li daşda 1-ci şəkildə hansısa heyvanın belindən dala hissəsi, quyruqsuz və iki kiçik dal ayaqları qalmışdır. 3 №-li şəkildə hansı heyvan çəkildiyini demək çətindir. Onun girdə başı qulaqsız və buynuzsuzdur, quyruğu və ombasının bir hissəsi tökülüb, ayaqları pis saxlanıb.

28 №-li daşdakı təsvirlərin dövrünü «Böyükdaş» yaşayış yerindən 99 №-li şəkilli daşdakı 28 №-li kurqanın qəbir örtüyü daşındakı 19 №-ilə qeydə alınmış keçi təsvirləri ilə yaxınlığına əsasən er.əvvəl II minilliyin əvvəllərinə aid etmək olar.

DAŞ № 29

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında, 28 №-li daşdan 2 metr şərq tərəfdə, 5 nömrəli daşdan 10 metr qərbə, 26 və 27 №-li daşlardan 18-20 metr şimalda, 40-50 sm qalınlığında qaya parçasıdır. Daşın şərq tərəf üzündə 7 ədəd rəsm qeydə alınmışdır (25-ci tablo, Q). Onlardan 1, 5, 6, 7 №-li şəkillərdə keçi təsvir edilmişdir.

1-ci şəkildə keçinin bel xətti düz, qarınaltı xətti yarım qövs və ayaqlarının ucu birləşmiş çəkilmişdir. O yan görünüşdədir, lakin yönünün sağa və ya sola olmasını demək çətindir. Çünki heyvanın sol tərəfdə bel xətti ilə sol ayağının birləşdiyi yerdən yuxarı qalxıb qövsvari olaraq belinə tərəf əyilən xətti həm çox iri quyruq, həm də başsız olsa da, tək buynuz saymaq olar.

5-ci şəkildə keçinin buynuzları, başı və bədənindən bir hissə saxlanıb, qalan hissələri aşınma nəticəsində tökülüb. Qalan hissəsi onun real keçi təsviri olduğunu göstərir.

6-cı və 7-ci şəkillərdə kök və qısa bədənli iki oxşar keçi təsvir edilmişdir. Onlardan birinin (şəkil № 6) buynuzları qövsvarı yuxarı qalxmış, 7-ci şəkildəki keçinin çox iri buynuzları yuxarı qalxıb yarım çevrə əmələ gətirərək, ucları heyvanın çiyninə çatır, quyruğu və ombasının bir hissəsi aşınıb tökülüb. Hər iki şəkildə heyvanın başı bədənə nisbətən çox kiçik, real və qabağa yönəlmiş vəziyyətdədir. Hər iki keçinin beli şaquli xətlə kəsilmişdir.

2-ci şəkildə əcayib və naməlum bir heyvan təsvir edilmişdir. Onun bədəninin altı düz, beli yarımçevrə olmaqla kölgəvarı döyülmüşdür. Ayaqlarını bədəndən şaquli olaraq aşağı çəkilmiş 4 düz xətt təşkil edir. Dibdə yoğun quyruğunun ucu dala tərəf nazilir və ucu yuxarı qalxır. Heyvanın boynu da dibdə yoğun olub başa tərəf nazilir və ucu kiçik yumru başla tamamlanır. Daldan ikinci ayağının ucu adamın (№ 3) sola uzanmış qolunun ucuna toxunur. Qabaqdan ikinci ayağının ortasından dala uzanan kiçik xəttin ucu isə düzbucaq altında aşağı dönür.

29 №-li daş üzərindəki təsvirlərin dövrünü analoji materiallar və müşahidələrimizin məntiqinə əsasən (1-5-ci şəkilləri) er.əvvəl II minilliyin əvvəllərinə, 6-ci yə 7-ci şəkillərdəki keçilərin dövrünü I minilliyə aid etmək olar.

DAŞ № 30

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında 5 №-li daşdan 2 metr cənub-qərbə, 6 №-li daşdan 24 metr şimal-şərqdə 29 №-li daşdan 10 metr şərqdə iri, yastı, üstü duz qaya parçasıdır. Daşın üstündə, cənub-şərq hissəsində bir-birindən 225 sm aralı olmaqla 2 yalaq qazılmışdır. Onlardan biri yarımşar formalı, 33x35 ölçülü, 30 sm dərinlikdə, ikincisi ovalvarı formada, diametri 90x35, dərinliyi 10 sm-dir. Onlara yağış suyu yığmaq üçün qarım çəkilmişdir.

DAŞ № 31

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında 5 №-li daşdan 3 metr qərb tərəfdə, 29 №-li daşdan 31 metr şimal-qərb tərəfdə və 31 №-li daşdan 5 metr cənub-şərq tərəfdə yerdən çıxma piramida formalı iri qaya daşdır. Cənub tərəfi şimala əyilməklə mailidir. Bu tərəfdə ortanı aşınma çökəldib. Ondan azca şimala tərəf iki keçi rəsmi və xətt qalığı qeydə alınıb (25-ci tablo, D, 1-3 şəkillər). Daşın kənarında isə heyvan bağlamaq üçün 2 dəlmə açılıb (onlardan biri sınıb).

31 №-li daşda hər iki keçi rəsmi reallıqdan uzaq, kobud və sxematik çəkilmişdir. Birinin (№ 1) boynu çox uzun, başı kiçik, çox iri buynuzları dik yuxarı qalxaraq, ucları dala tərəf əyilmiş, ayaqlarının ucları birləşmiş, çox iri quyruğu (pişik quyruğu kimi) yuxarı qalxıb qabağa əyilmiş kimi verilmişdir.

İkinci keçinin (№ 2) bədəni, eləcə də, dal və qabaq ayaqları səliqəsiz çəkilmiş qoşa-qoşa xətlərdən ibarətdir. Quyruq yerindən yuxarı dikinə xətt çəkilmişdir. Başına və belinə çatmayan bir qövsvari xətt də buynuz yerinə çəkilib. Keçidən arxa tərəfdə də nə üçün olduğunu izah etmək mümkün olmayan dikinə 2 qoşa xətt (№ 3) çəkilib.

Hər iki keçi rəsminin son 18-19-cu əsrlərdə çobanlar tərəfindən çəkildiyi şübhə doğurmur.

DAŞ № 32

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub baxarında 8 №-li daşdan 2 metr qərbdə, 31 №-li daşdan 5 metr şimal-qərbdə, şimal-cənub uzunluğu 15-16 metr, eni 7-8 metr nəhəng qaya parçasıdır. Üst üzü şərqə və qərbə tərəf maili olmaqla hamar səthə malikdir. Hündürlüyü 5 metrə çatan cənub tərəfi aşınmaya məruz qalıb. Şimala getdikcə nazilir və alçalır. Daşın şərq üzünün şimal ucunda iki şəkil var (26-cı tablo, B). Onlar bir heyvan (şəkil №1) və qeyri-müəyyən xətt qalığından ibarətdir.

Heyvanın ölçüsü çox kiçikdir (çənəsindən quyruğunun ucuna 25 sm). İki qoşa uzun qulağı qabağa meyillidir. Qulağını, bel xəttini və dala tərəf aşağı sallanmış quyruğunu bir dalğavari xətt təşkil edir. Qabaq qulağının aşağı ucu qabağa tərəf çıxaraq sonra qövsvarı olaraq dala əyilib baş əmələ gətirir. Heyvanın yönü soladır. Qabaq ayağı sola tərəf, dal ayağı sağa tərəf meyilli çəkilmişdir. İçəri ayaqlar qarınaltı xəttə birləşir. Təsvir ümumən sxematik olsa da, reallığı nəzərə çarpır və onun uzunqulaq balası (xötək) olması şübhə doğurmur.

Bu rəsmin dövrünü er.əvvəl I minilliyə aid etmək olar. 2-ci şəkildəki «Fiqur», görünür, axıra qədər işlənib qurtarmayıb, yarımçıq qalıb,

Kiçikdaş dağı sahəsinin cənub baxarında, 32 №-li daşdan 285-290° altında 30 metr məsafədə, 5 №-li daşdan 300° altında 50-55 metr, 4 №-li daşdan 45° altında 40 metr məsafədə uzunluğu 5 metr, hündürlüyü 2,5 metr daşdır. Onun

cənub-şərq tərəfinin cənub hissəsində 7 şəkil qeydə alınıb (26-cı tablo, V, 1-7). Onlardan şəkil № 2 yarımçıqdır və onun nə təsviri olduğunu demək çətindir. Qalan 5 şəkildə №№ 1, 3, 6) keçi təsvir edilmişdir. Onların hamısında, demək olar ki, heyvanın başı verilməyib. Üçündə (şəkil №№ 1, 3, 5) buynuzlar iri, bir növ qövsvarıdır. Birində (şəkil № 6) buynuz (və ya qulaq) baş əvəzi kiçik xətdən yuxarı qalxan çox kiçik düz xətlərlə verilib. 4 №-li şəkildə heyvanın başı, buynuzu (və ya qulağı) və qarnının xəttindən bir hissə çatmır. Lakin quyruğunun vəziyyəti onun keçi şəkli olduğunu deməyə imkan verir.

Təsvirlərin hamısında bədən 2 qoşa xətlə, ayaqlar isə onun ucundan aşağı çəkilmiş şaquli xətlərlə verilib. 3 və 5-ci şəkillərdə heyvanların quyruğu yuxarı qalxıb heyvanın belinə tərəf meyillənir, 1-ci şəkildə quyruq tökülüb - yoxdur. № 4 6-cı şəkillərdə dik qalxan çıxıntıdan ibarətdir. Şəkil № 7, 6-cı şəkildəki keçinin ayaqları arasında, qarnının altında 2 ədəd bucaqvarı xətdən ibarətdir. Heyvan təsvirlərinin dövrü son əsrlərdən (19-20) qabağa getmir.

DAŞ № 33

Kiçikdaş dağı qayalıqlarının cənub baxarında 5 №-li daşdan 7 metr şərqdə, 10 №-li daşdan 9 metr qərbdə şərq-qərb yatmış, uzunluğu 17 metr, eni 4 metr, hündürlüyü şimal-qərb ucda 1 metr, cənub-şərq ucda 3 metr, şərq ucda 2 metr nəhəng qaya daşdır. Daşın şərq ucundan 4 metr sola olmaqla, cənub üzündə (yerdən 0,5 metr) hər ikisinin yönü sola olmaqla, 2 ədəd reallığa yaxın keçi təsviri qeydə alınmışdır (26-cı tablo, Q, 1-2).

Hər iki heyvanın bədəni və boynu uzun, bədəni ortada nazikdir. 1 №-li şəkildə heyvanın qabaq ayaqlarının, 2 №-li şəkildə isə həm qabaq, həm də dal ayaqlarının ucları qövsvarı birləşir. Hər ikisində buynuzlar qabağa tərəf meyilli olaraq yuxarı qalxır və yarıdan dala tərəf uzanır. 2 №-li şəkildə keçinin qabaq buynuzunun bir hissəsi eroziyadan tökülüb və buynuzların dibi başın xətti ilə birləşir. 1 №-li şəkildə heyvanın quyruğu üfüqi olaraq dala uzunır, dal ayaqları aralıdır. Lakin bunlar ümumi görünüşdə təsvirin keçiyə aid olmasını inkar etmir.

33 №-li daşda qeydə alınmış hər iki keçi təsvirini, Qobustanın qədim qayaüstü təsvirləri fonunda, tunc dövrünün əvvəllərinə aid etmək olar.

33 №-li daşın üstündə, qərb uca yaxın diametri 60x63, dərinliyi 10 sm bir yalaq da tarixin ilk orta əsrlər dövründə qazılmışdır.

DAŞ № 34

Kiçikdaş dağ sahəsinin cənub-şərq ətəyinin şimal-şərq hissəsində, 13 №-li daşdan 290° altında 95 metr məsafədə, Azərbaycan dilində Mühafizə yazısı olan 11 №-li daşdan 240-250 metr şimal-qərb tərəfdə, ölçüsü 7x4 metr, hündürlüyü 30 sm, yerdən bitili yastı qaya parçasıdır.

Daşın üstündə diametri 23, dərinliyi 11-12 sm olan bir ədəd yarımşar formalı yalaq qazılmışdır.

DAŞ № 35

Kiçikdaş dağı sahəsinin cənub ətəyinin şimal-şərq hissəsində 13 №-li daşdan 290° altında 100 metr məsafədə, 34 №-li daşdan 3 metr cənub-qərbdə, Araba daşından 40° altında nəhəng qaya-daşın şimal-şərq tərəfi altında şimal-cənub düşmüş uzunluğu 130, hündürlüyü 40-50 sm yerdən bitili kiçik daşdır. Daşın şərq tərəfinin dik və hamar səthində 2 heyvan təsviri qeydə alınmışdır (26-cı tablo, A, şəkil №1,2) və (22-ci fotoşəkil).

Onların hər ikisi eyni üsulla: 4 xətlə (1) qabaq qulağı-başı-qabaq ayağı; 2) arxa qulağı-bel xətti-quyruğu; 3) dal əyağı; 4) daldan və qabaqdan ikinci ayaqları ilə qarınaltı xətti) çəkilmişdir.

Hər ikisində qısa qulaqlar qabağa meyilli yuxarı qalxır, quyruq aşağıya meyilli olmaqla dala uzanır. Bütün bunlara baxmayaraq 1 №-li şəkildəki heyvanın bel və qarınaltı xətti, boynu uzun olmaqla, başını yuxarı qaldırmış duruşu onun at, 2 №-li şəkildəki heyvanın boynunun görünüşü ilə bədəninin duruşu onun öküz olmasını söyləməyə imkan verir.

Təsvirlərin çəkilmə texnikası və dəst-xətti, daşın nəhəng qayaya tərəf baxan üzündə (araları cəmi 1 metr) torpaq səviyyəsində saxlanması, reallığı və s. onların tunc dövründə çəkildiyini göstərir.

DAŞ № 36

Kiçikdaş dağı qayalıqları sahəsində şərq ətəyin şimal hissəsində, «Ceyranlar» düşərgəsindən təxminən 150-200 metr cənub tərəfdə, 37 №-li daşdan 130° altında 70 metr, daş № 46-dan 240° altında 40 metr məsafədə, daş № 53-dən 80° altında təxminən 100 metr məsafədə şimal-şərq-cənub-qərb uzunluğu 11 metr, hündürlüyü 1,5 metr torpaqda uzun daşdır. Onun cənub-şərqə baxan maili tərəfində bir sarvan və 4 dəvədən ibarət karvan səhnəsi var (26-cı tablo, D).

Karvan başı (şəkil № 1) qabaqdakı dəvənin ipini çəkir, qalan 3 dəvə də özündən qabaqkı dəvəyə iplə bağlanmışdır. Dəvələrin yönü soladır. Onların hamısı ayrılıqda sxematik olsalar da, kompozisiyada karvan kimi çox təbii təsvir edilmişdir. Hətta ən axırdakı heyvanın (dəvə şəkil № 5) ayaqlarının dördünün də dala meyilli olması onun getmək istəmədiyini, lakin özündən qabaqdakı dəvəyə (şəkil № 4) bağlı olmasına görə çəkinəcəkli getməsini göstərir.

Səhnənin reallığı onun Qobustan ərazisinin qədim karvan yolu üstündə olması ilə yerlilərin dəvə karvanını çox görmələri ilə bağlıdır. Dövrü orta əsrlərə (10-12-ci əsrlərə) aiddir.

DAŞ № 37

Kiçikdaş dağı qayalıqları sahəsində şərq ətəyin şimal hissəsində «Ceyranlar» düşərgəsindən 210° altında 200 metr, 36 №-li daşdan 310° altında 70 metr; 38 №-li daşdan 70° altında 30 metr; 39 №-li daşdan 110° altında 15 metr məsafədə yerdən bitili, şimal-cənub iri qaya parçasıdır. Daşın cənub-şərq tərəfi səthi iki yastı pillə əmələ gətirir. Burada maral, keçi, dəvə karvanı və s. olmaqla 17 rəsm qeydə alınmışdır (27-ci tablo) və (23-cü fotoşəkil).

1 və 11 №-li şəkillərdə sadə, kobud, sxematik keçi təsvir edilmişdir. Onlardan birinin (şəkil № 1) yönü sola, o biri (şəkil № 11) sağa təsvir edilmişdir. Baş və boyunları verilməyib. Buynuzları iri və qövsvarıdır. 1 №-li şəkildə buynuzun ucları keçinin belinə tərəf əyilir. Qoşa paralel xətlə çəkilmiş bədənləri ensizdir. Orta ölçülü quyruqları qövsvarı yuxarı qalxıb dala əyilir.

12 №-li şəkildə sadə və kobud, yüklü at çəkilmişdir. Onun da yönü 11-ci şəkildəki keçi kimi sağadır və keçinin qabaq ayağı ilə atın dal ayağı bir xətlə göstərilmişdir.

2-8-ci şəkillərdə karvan səhnəsi təsvir edilmişdir. Səhnədə 3-8-ci şəkillərdə bütün heyvanların yönü sola, yüklü, bədənləri üfüqi xətlə, ayaqları bədənə şaquli, kiçik başında qoşa qulaq, dala uzanmış quyruq aşağıya meyilli, hər biri özündən qabaqkı heyvana bağlı, qabaqdakının ipi karvan başının (şəkil № 2-dəki adamın) əlində olmaqla göstərilmişdir. Karvanbəşı əlləri və ayaqları yana açılmış, kiçik yumru başlı, kiçik ölçülü sxematik adam rəsmindən ibarətdir.

Karvandakı tipli yüklü iki heyvan da daşın bu üzündə, sağ tərəfinin aşağı hissəsində təsvir edilmişdir. Eyni tipli yüklü heyvanlardan karvan təsviri Qobustanda Böyükdaş dağında yuxarı səki üzrə 7 №-li, aşağı səki sahəsində 155 №-li daşlarda da qeydə alınmışdır.

İ.M.Cəfərzadə bu daşda və 155 №-li daşdakı bu tip heyvanları dəvə, səhnəni dəvə karvanı adlandırmışdır (54). Lakin qeyd edək ki, nə Böyükdaş dağı aşağı səki sahəsi, üzrə 155 №-li, nə də haqqında söhbət açdığımız Kiçikdaş dağı, 37 №-li daşdakı karvanlar dəvə karvanı yox, yüklənmiş atların karvanıdır. Belə ki, 1) Heyvanın boynu dəvəninki kimi əyri deyil; 2) Başları kiçik və qabağa şəklənmiş qoşa qulaqlıdır; 3) Əsl dəvə karvanı səhnəsi, bu işdə, arxada «Daşqışlaq» qayaüstü təsvirlər kolleksiyasında 2 №-li daşdakı karvan səhnəsidir. Sözsüz ki, ola bilsin, həm burada (daş № 37-də), həm də 155 №-li və başqa daşlardakı karvan səhnələrini çəkən orta əsrlərin yerli rəssamları dəvə çəkmək istəmiş, lakin bacarmamışlar. Onların savadsızlığı heyvanların boynunun düz və qulaqlarının qoşa verilməsindən başqa 11 və 12 №-li şəkillərdə keçi ilə atın eyni ölçüdə (hündürlükdə) çəkilməsində də görünür.

37 №-li daşda 10 və 14 №-li şəkillər tam deyildir. Onlardan şəkil №10-da görünür yüklü at təsvir olunmuşdur, 14 №-li şəkildəki heyvanda isə rəssamın hansı heyvan təsvir etmək istədiyini demək çətindir. 37 №-li daşda 9, 13 və 15 №-li

rəsmlərdə maral təsvir edilmişdir. Onların ikisi (№№ 9 və 13) yönü sola, biri (№15) isə sağa, yan görünüşdə, hərəkətdə verilmişdir. Onlardan 9-cu şəkildəki maralın bədəni çox real və düzgün verilmiş və beldən kəsilmişdir.

Qobustanda heyvanın, xüsusən də, keçilərin xətlə belindən kəsilməsi bizə qədərki tədqiqatçılarda və İ.M.Cəfərzadədə ovun uğurlu olması üçün cadugərlik nişanəsi sayılır (55.) Bizim Qobustanda apardığımız arxeoloji qazıntı və tədqiqat işlərinin nəticələri bu cür izahın doğru olmadığını göstərir. Bir də ki, arxeoloji tədqiqatlar göstərir ki, Qobustanda təsvirlər yaranan dövrdə maral olmayıb ki, onlara ov da etsinlər və bunun üçün şəkillərdə onları ovsunlasınlar. Beli kəsilmiş keçi rəsmlərinin tarixi isə maldarlığın inkişaf etmiş, keçilərin əsas ev heyvanlarından olduğu dövrə aiddir. Maldarlıq təsərrüfatı yaranandan qabaqkı dövrə aid keçi rəsmlərinin isə belində kəsik yoxdur (56).

37 №-li daşda hər üç maralın (şəkil №№ 9, 13, 15) buynuzu qabaqdan görünüşdə və bədənləri də savadsız çəkilib. Hətta quyruqları da keçi quyruğu kimi dik qalxıb dala əyilib. Bədənləri ortada nazilir. 13 №-li şəkildəki maralın buynuzlarının şaxələri də çölə tərəfdir. Bütün bunlar rəssamın maralı təbiətdə görmədən, onu gördüyü başqa maral təsvirləri və öz təsəvvürü əsasında çəkdiyini göstərir.

37 №-li daşda əsasən iki kompozisiya - karvan səhnəsi və marallar əsas mövzudur. Səhnədəki bütün rəsmləri orta əsrlərə aid etmək olar.

DAŞ № 38

Kiçikdaş dağı qayalıqları sahəsində şərq ətəyin şimal hissəsində 37 №-li daşdan 250° altında 30 metr məsafədə, 39 №-li daşdan 190° altında 20 metr məsafədə, 41 №-li daşdan 150° altında 42 metr məsafədə yerdən çıxma, üstü yastı və alçaq daşdır. Onun üstünün şimal-şərq hissəsində keçi və süvari ovçudan ibarət 2 fiqurlu ov səhnəsi verilmişdir (28-ci tablo, A).

Keçi rəsmi (şəkil № 1) yan görünüşdə, yönü sola olmaqla, yavaş qaçış vəziyyətində təsvir olunmuşdur. Onun mütənasib bədəni nazik, bel xətti çiynində yatıq, boynu uzun və (atlarda olduğu kimi) çox yuxarı qalxmış, iri ayaqları nisbətən uzun göstərilmişdir. Onun arxasında at və üstündə ayaq üstə dayanmış adam verilmişdir. At yönü sola olmaqla yan görünüşdə, yəhərsiz və qantarğasız verilib. Onun bədəni nazik (arıq), yuxarı qaldırılmış, boynu çox uzun, qulaqları qabağa şəklənmiş və ağzı açıq göstərilib. Atın erkəkliyi göstərilməklə quyruğu dala uzanmış və ucu düyülmüş kimi çəkilmişdir. Qabaq ayaqlarının arası (yuxarı hissədə) xətlə kəsilmişdir. Atın üstündəki adam ön görünüşdə təsvir edilmişdir. Onun sadə, kobud və sxematik bədəni xətti, səciyyəlidir. Başı kobud girdələnmişdir. Sağ əlində qılınca oxşar silah var. Sol qolu qabağa uzanmış və dirsəkdən bükülmüşdür. Ümumi baxışda səhnə Qobustanın qədim qayaüstü təsvirlərinə xas reallıq və həyatilikdən uzaqdır, islamdan sonrakı dövrün - orta

əsrlərin yaratdığı səhnədir. Səhnəni əli qılınclı süvarinin keçiyə ov etməsi kimi başa düşmək olar. Lakin o dövr üçün Qobustanda keçilər yalnız ev heyvanları idi, ov ediləsi vəhşi keçi yox idi. Ona görə bu səhnədə keçi ovu səhnəsi o dövr üçün Qobustan ərazisində simvolik səciyyə daşıyır.

DAŞ № 39

Kiçikdaş dağı qayalıqları sahəsində şərq ətəyin şimal hissəsində «Ceyranlar» düşərgəsindən təxminən 215° altında 150 metr məsafədə, 38 №-li daşdan 10° altında 20 metr, 37 №-li daşdan 290° altında 13 metr, 41 №-li daşdan 115° altında 33 metr məsafədə yerdən bitili üstü yastı və üçbucaq formalı nəhəng qaya parçasıdır. Daşın cənub-qərbə baxan üst üzündə çoxlu heyvan və insan təsvirləri var. Onlardan 27 ədəd rəsm qeydə alınmışdır (28-ci tablo, B). Onlar sadə, kobud, sxematik, bəzən də olduqca korlanmış şəkillərdir. Rəsmlərin hamısı yan görünüşdə, 18, 22, 24 nömrəli şəkillər isə həm də yüngül qaçış vəziyyətində təsvir edilmişdir. 6 və 9 №-li şəkillər insan təsviridir. Şəkil № 6-da adam ayaqları geniş açılmış ön görünüşdə, rəqs edən vəziyyətdə göstərilmişdir. Əlləri yana açılmış, boynu və başı bədənin davamı kimi verilmiş, kişilik əlaməti göstərilmişdir. Şəkil № 9-dakı adam şəkli № 10-dakı maralla kompozisiya təşkil edir. Adam ayaq üstə, ayaqları aralı, başı kiçik, bədəni uzun, boynu qısa təsvir edilib. Belindən aşağı sallanan xətt ağac və ya ip ola bilər. Adam (şəkil № 9) bir əli ilə maralın buynuzundan tutub çəkir, maralın ayaqlarının vəziyyəti isə onun getmək istəmədiyini göstərir. Bədəni uzun, ortada nazik və xətlə kəsilmişdir. Çox iri dik qalxmış buynuzlarının budaqları buynuzların arasına yox, çöl tərəfdən çəkilmişdir. Quyruq keçi quyruğu kimi yuxarı qaldırılıb qabağa tərəf əyilmişdir.

№ 2 və № 7-li şəkillərdə də maral təsvir edilmişdir. Onlardan 2 №-li olduqca sxematik və kiçik ölçüdədir (hündürlüyü 10 sm), 7 №-li isə həddən artıq təhrif olunmuş rəsmlərdir, 1, 3, 5, 8, 12, 14, 15, 19, 20, 24, 26 və 27 №-li rəsmlərin hamısında sxematik və xətti çəkilmiş keçi təsvir edilmişdir. 14 və 15 №-li keçi rəsmləri döyüş vəziyyətində (buynuz-buynuza), 26 və 27 №-lilər isə çox güman ki, döl dövrü vəziyyətində göstərilmişdir.

18 №-li şəkildəki rəsmdə çox kobud, savadsız və təhrif olunmuş şir təsvir edilmişdir. Onun uzun, donqarlanmış bədəni onu ac və arıq göstərir. Başı iri, ağzı açıq və quş dimdiyi kimi verilmişdir. Uzun quyruğunun ucu yuxarı qalxmış və topa tüklə qurtarır. Qabaq ayağı qabağa, dal ayağı dala olmaqla qabağa hücum vəziyyətində çəkilmişdir. Boynu və qabaq ayaqları xətlə kəsilmişdir.

22 №-li fiqurda nazik, uzun bədənli, quyruğu yuxarı qalxıb qabağa əyilmiş it təsvir edilmişdir. Yaxşı verilmiş başında qısa qulaqları dikinə qalxmış, sifəti kölgəvari döyülmiş, uzun üfüqi boynu arxa hissədə xətlə boyun xaltası ilə kəsilmişdir. Sağ qabaq ayağı çənəsindən aşağı çəkilməklə onun qabağa hərəkətdə olmasını (çox güman ki, 18-ci şəkildəki şirin dalısınca getməsini göstərir.

13, 16, 17, 21, 23, 25-ci şəkillərdə təyinatı çətin, qeyri-müəyyən formalı heyvan təsvir edilmişdir.

Daşın sağ hissəsinin yuxarısında, şəkillərdən yuxarıda 7 müxtəlif ölçülü yalaq var (şəkil № 4). Onlardan biri özünün iri ölçülülüyü ilə başqalarından fərqlənir və içinə yağış suyu yığmaq üçün kiçik nazik novça açılmışdır.

İ.M.Cəfərzadə 39 №-li daşdakı 5, 6, 9, 10 №-li təsvirləri eramızın başlanğıcına, 22 №-li it təsvirini ilk orta əsrlərə, qalanlarını 18-19-cu əsrlərə aid etmişdir.

Əslində isə elə 6, 9, 10 və 22 №-li rəsmlər də, qalanlar da eyni dövrdə son əsrlərdə çobanlar tərəfindən çəkilmişdir.

DAŞ № 40

Daş № 39-dan 270° altında 60 metr məsafədə, daş № 41-dən 230° altında 20 metr məsafədə, daş № 42-dən 170° altında 41 metr məsafədə, şimal tərəfi maili və yerə yatmış uzunluğu 13 metr, cənub tərəfdə hündürlüyü 3,5 metr nəhəng qaya parçasıdır. Bu daşla ondan qərbdəki nəhəng qaya arasında olan sığınacaqvarı yerin üstü orta əsrlərdə maldarlar tərəfindən tikilərək, qışlaq damı kimi istifadə olunmuşdur. İ.M.Cəfərzadə daşın şimal üzündə 3 keçi şəkili qeydə alıb (29-cu tablo,1, 2, 3 №-li şəkillər) təsvir etmişdir.

Son tədqiqatlar nəticəsində daşın üst üzünün şərq tini üstündə də 2 keçi və bir xətt qalığı (29-cu tablo, 4, 5, 6 №-li şəkillər) və qərb tərəfinin şimal hissəsinin üst tininə yaxında 2 naməlum fiqurdan xətlər (29-cu tablo, 7, 8-ci şəkillər) qeydə alınmışdır.

1-ci rəsmdə keçinin başı və boynundan bir hissə eroziyaya məruz qalıb. Bədəni normaldır. Ayaqları, quyruğu və boynu nisbətən uzundur. Quyruq dala tərəf yuxarı qalxıb qövsvarı qabağa əyilir. Buynuzları da bədənə nisbətən iri olub qövsvarı olaraq keçinin quyruğuna tərəf əyilmişdir.

3-cü rəsmdə bədən və boyun üfüqi xətlə, buynuz kiçik, boyunun qabaq hissəsindən dala tərəf uzanmış xətlə verilib. Qabaq ayaqlar yuxarı ucda bucaq altında birləşərək, ən dal ayaq bədənin bucaq altında davamı kimi və nisbətən iri, dal ayağın qabaqdakı isə bədəndən şaquli olmaqla aşağı çəkilmişdir. Bu keçi rəsmi çox kiçik (dal ayağının ucundan çənəsinə 12 sm) ölçülüdür.

2-ci şəkildə keçi nazik bədənli, uzun və yoğun boyunludur. Başı təbii, yuxarı qalxıb dala əyilmiş buynuzları qövsvarı, quyruğu qısa və qarmaq şəkillidir. İ.M.Cəfərzadə 1 və 2-ci keçini er.əvvəl II-I minillik arasına, 2-ci keçini 14-15-ci əsrlərə aid etmişdir.

40 №-li daşın üst üzünün şərq tinindəki hər iki keçi (şəkil № 4 və № 5) reallığa yaxın təsvir edilmişdir. Yalnız 5-ci şəkildəki keçinin alnı ilə buynuzu bir düz xətlə verilib. Bədən və ayaqlar sxematikliyə yaxın olsalar da simmetrikdir. Onlardan 1-cinin (№ 4) yönü sola, 2-cininki, (№ 5) sağadır. Hər ikisində boynun

yuxarı qalxıb, başın qabağa tuşlanması hiss olunur. Keçilərin dövrü er.əvvəl I minilliyin sonlarına aiddir.

6 №-ilə qeydə alınan, keçilərin dal ayaqlarından aşağı səviyyədə saxlanmış, ucundan düzbucaq altında kiçik xətt ayrılır.

Daşın qərb tərəfinin şimal hissəsində, üst üzə yaxın sahədə 2 naməlum şəkildən xətt qalıqları (şəkil № 7 və № 8) saxlanmışdır.

Xətlərin xüsusiyyətinə əsasən onların qədim rəsm qalıqları olduğu aydındır. Lakin nə qalığı və dövrü haqda qəti söz demək çətindir.

DAŞ № 40-A

40 №-li daşdan cənub tərəfdə 180° altında 8 metr; 43^{A} №-li daşdan 310° altında 60-70 metr; daş № 41-dən 220° altında 20 metr məsafədə; daş № 40^{b}-dən 270° altında 13 metr məsafədə yerdən bitili, hündürlüyü 80 sm şimal-şərq-cənub-qərb uzunluğu 3 metr, şimal-qərb ucda eni 1,5 metr, cənub-şərqdə 30 sm daşdır. Daşın şərq üzündə, yönü sola olmaqla 2 keçi təsvir edilmişdir.

Hər iki keçi normal ayaq üstə, iri buynuzlu, dik qalxıb qabağa əyilmiş quyruqlu verilmişdir (29-cu tablo, B, 1, 2). 2 №-li keçinin buynuzları buruq-buruqdur və özü qabağa meyilli olmaqla hərəkətedici vəziyyətdədir.

Ehtimal ki, bu şəkildə qədim rəssam yaylaq mövsümündə dağlıq rayonda gördüyü dağ keçisini təsvir etmək istəmişdir. Hər iki keçinin eyni vaxtda bir adam tərəfindən, son tunc dövründə çəkilməsi şübhə doğurmur.

DAŞ № 40-B

Daş № 40-dan 135° altında 26 metr məsafədə, daş № 40^{A}-dan 90° altında 13 metr məsafədə, daş № 41-dən 195° altında 24 metr məsafədə yerdən bitili kiçik daşdır. Yerdə yanları 3-3-2 metr olan bərabəryanlı üçbucaq şəkilli sahəni tutur, hündürlüyü 170 sm-dir, Daşın şimal-şərq tərəfi üzündə 3 şəkil (29-cu tablo, V,1, 2, 3-cü şəkillər) və şimal-qərb tərəfinin sol ucunda yerə yaxın 1 heyvan (29-cu tablo, şəkil № 4) təsvir edilmişdir. Onlardan № 1 və № 2 ilə naməlum şəkillərdən xətt qalıqları qeydə alınmışdır. 3 №-li şəkildə, ümumi görünüşü, uzun boynunu yuxarı və qabağa uzatması, ağzı açıq, kiçik başında qabağa şəklənmiş qoşa qulaq olması onun at olduğunu göstərir. Təsvirdə heyvanın bədəni çox nazik və quyruğu arxaya tərəf qısa çıxıntıdan ibarətdir.

4 №-li şəkildə sxematik, uzun və dalğavarı boyunlu naməlum heyvan təsvir edilib. Boyun xəttinin qabaq ucunun əyrisi ilə qeyd olunmuş başın ağzı - boyun xətlərinin ucları açıqdır. Başında buynuzlardan qabaqdakı azca yuxarı qalxıb qabağa əyilərək, üst çənəyə paralel uzanmış ikinci buynuzu dik qalxmış qısa xətdən ibarətdir. Bel xəttinin davamı arxadan maili olaraq aşağı uzanır. O dal ayaqdan çox quyruğa oxşayır və bu halda heyvanın dal ayağı çatmır. 40^{B} №-li

daşdakı rəsmlərin çəkilmə dövrü də 40^{A} №-li qonşu daşdakı təsvirlərlə bir dövrə - son tunc dövrünə aiddir.

DAŞ № 41.

Daş № 40-dan 50° altında 20 metr, № 39-dan 330° altında 35 metr, № 40^{a}-dan 40° altında 33 metr, № 43-dən 215° altında 35 metr məsafədə, cənub-şərq tərəfində uzunu 9 metr dik divar əmələ gətirən, cənub və qərb tərəfdə hündürlüyü 3,0-3,5 metr, eni 10 metr, çox iri daşdır. Şimal tərəfi alçalıb yerə enir, şimal-şərq səthi böyük əyinti ilə kələ-kötürdür.

Daşın cənub-şərq üzündə 15 şəkil və şəkil qalığı, daşın şərq və qərb ucunda olmaqla 2 ədəd heyvan bağlamaq üçün deşik qeydə alınmışdır (30-cu tablo, A). Onlardan 9 ədədində keçi təsvir edilmiş, 6 ədədi isə (№№ 1, 9, 12-15) oxunması mümkün olmayan şəkil qalığından ibarətdir.

Keçi təsvirlərinin hamısında (№№ 2-8, 10,11) nazik bədən və ayaqlar П şəkilli paralel xətlərlə qövsvarı dala əyilən quyruqla sxematik təsvir edilmişdir. İkincisinin yönü sola (№ 2 və 8), qalanlarınkı sağadır. Birində (№ 3) baş çəkilmədən, buynuzlar qabaq ayağın üst ucundan çıxıb dala tərəf qövslənir. Birində baş və quyruqla quyruq dibi hissə tökülüb (№ 8), tək buynuzu qövsvarı dala əyilir. İki keçi rəsmində (№№ 10,11) baş yerində alt çənə, bir keçi rəsmində (№ 5) quyruq verilməyib.

41 №-li daşdakı keçi və xətt qalıqlarından ibarət təsvirlərin sxematikliyi və xüsusən, şəkillərin daşda qazılmış xətlərinin vəziyyəti onların 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərində çəkildiyini göstərir.

DAŞ № 42

«Ceyranlar» düşərgəsindən 200-250 metr qərbdə, daş № 40-dan 315° altında 41 metr, daş № 41-dən 350° altında 45 metr, 43 №-li daşdan 270° altında 60 metr məsafədə, Daşqışlağa gedən torpaq yolun sağ kənarında yerdən bitili çox iri daşdır. Şimal və şimal-qərb tərəfi daşqıranlar tərəfindən sındırılıb. Cənub-qərb tərəfi dik və hamardır. Burada 4 şəkil qeydə alınmışdır (30-cu tablo, B, şəkil № 1-4). Onların hamısı sadə, kobud və sxematik, təhrif olunmuş vəziyyətdə çəkilibdir.

1-ci şəkildə süvari atın üstündə, bir əli atın yalmanından yapışmış, dala uzanmış əlində isə hansısa əşya (silah), atın ağzı qoşa üfüqi xətlə açıq, yuxarı qalxıb qabağa şəklənmiş qulaqlarının ucları birləşmiş, qısa quyruğu dala uzanmış üfüqi xətlə verilmişdir. Süvari ümumən sağa keçiyə tərəf hərəkət vəziyyətindədir. Keçini də sağa tərəf hərəkətdə, hesab etmək olar. Onun bir-birinə paralel 2 üfüqi xətlə verilmiş nazik bədəni 3 yerdən xətlə kəsilib, yuxarı qalxıb arxaya tərəf uzanmış buynuzları çox iridir. Qabaq buynuzunun alt ucundan qabağa tərəf çəkilmiş iki qoşa xətt heyvanın ağzını göstərir.

3-cü şəkildə maral, 4-cü şəkildə keçi təsvir olunub. Sonuncunun (№ 4) başı iri, burnu küt, iri buynuzları yuxarı qalxıb dala əyilmiş, iri ayaqları nazik bədənin qabaq hissəsindən şaquli olaraq aşağıya çəkilmişdir. Keçinin dal ayaqları və arxa hissəsi yoxdur. Onun bu hissəsi qayada heyvan bağlamaq üçün açılmış iri deşik nəticəsində qopardılıb məhv edilmişdir. Tabloda keçinin arxa hissəsini əhatə edən dairə deşiyin görünən ucunu, qövs isə deşiyin o biri, yarımçıq görünən ucunu göstərir.

3-cü şəkildə maral təsvirinin ağzı 2 paralel üfüqi xətlə, buynuzları çox iri, bədəni nazik uzunsov göstərilib. Maralın çox savadsız çəkilməsini onun quyruğunun keçi quyruğu kimi yuxarı qalxıb qarmaqvari qabağa tərəf əyilməsi də göstərir.

42 №-li daşın cənub-qərb üzündəki şəkillərdən 1, 2 və 3 №-ilə qeydə alınmışlar. Onlar 18-19-cu əsrlərdə, 4 №-li şəkildəki keçi isə onlardan çox qabaq, er.əvvəlki I minillikdə çəkilmişdir.

42 №-li daşın qərb üzündə də bir heyvan şəklinin bədəni və ayaqları saxlanmışdır (3-cu tablo, B, şəkil № 5). Rəsmin hansı heyvana aidiyyətini müəyyənləşdirmək çətindir. Onun başı və quyruq hissəsi hələ qədimdən aşınıb tökülüb. Son vaxtlar isə belinin, boynuna yaxın hissəsindən kiçik hissə qopub düşüb. Təsvirin dövrünü daşın cənub üzündəki 4 №-ilə qeydə alınmış keçi təsviri ilə bir vaxta, eradan əvvəl I minilliyə aid etmək olar.

DAŞ № 43

«Ceyranlar» düşərgəsindən qərb tərəfdə (təxminən 100 metr), 41 №-li daşdan 30° altında 35 metr məsafədə, 42 №-li daşdan 90° altında 60 metr məsafədə, 44 №-li daşdan 280° altında 35-40 metr, məsafədə yerdən bitili, kvadratvarı sahə tutan, cənub-şərq tərəfində uzunluğu 8 metr, ümumi hündürlüyü 6-7 metr çox iri, dik qaya daşdır.

43 №-li daşın cənub-şərq və şimal-qərb tərəflərində çoxlu (9-24) şəkil və şəkil qalıqları qeydə alınmışdır (31-ci tablo, A və B). Daşın cənub-şərq üzü güclü aşınmaya məruz qalmışdır. Bu üzdə 7 ədəd keçi təsviri və 2 ədəd rəsmdən xətt qalığı var.

Keçilərin altısının yönü sağa (31-ci tablo, A, 1, 3-6 və 8-ci şəkillər), birinki (9-cu şəkil) soladır. Şəkillərin üçündə (№№ 3, 6, 9) baş göstərilmədən, qabaq ayaq və bel xətlərinin ucu yuxarı qalxıb dala əyilməklə buynuz düzəldilib. Yalnız 5 №-li şəkildəki keçi təsviri reallığa yaxındır. Keçi təsvirlərinin altısında quyruq çıxıntıvarı kiçik xətlə göstərilib və yalnız 9 №-li şəkildəki keçinin quyruğu nisbətən iri və qarmaqvaridir. 8 №-li şəkildə heyvanın qabaq ayağı və bel xəttinin ucu birləşib baş əvəzi irəli çıxmış, lakin buynuz yerində çəkilmiş xətlər buynuz üçün uyğun deyil. 43 №-li daşın cənub-şərq üzündəki təsvirlər çox sxematik və az reallıqla çəkilmişdir. Onların, dövrünü daşın bu üzünün güclü aşınmasından sonra

çəkildikləri və sxematiklik dəst-xəttini nəzərə almaqla 18-19-cu əsrlərə aid etmək olar.

Qeyd edək ki, daşın cənub-şərq üzündə şəkillər 2 qrupda, sol (qərb), hissədə №№ 1-6 və sağ (şərq) hissədə №№ 7-9 çəkilmişdir. Qruplar arasında soldan şəkil № 4 ilə sağda şəkil № 7 arası 190 sm-dir və onların araları tabloda masştabın çox kiçildilməməsi üçün yaxınlaşdırılmışdır.

43 №-li daşın şəkil olan ikinci, şimal-qərb, üzü dikinə divar kimi hamar səthə malikdir. Bu tərəf səthinin yerdə uzunluğu (eləcə də ortada hündürlüyü) 7 metrdir. Qədim təsvirlər bu üzdə bir metrə qədər hündürdə olmaqla, daşın o başı bu başı arasında 3 qrup halında çəkilmişdir. Burada sol (şərq) uca yaxın qrupda 5 şəkil (№№ 1-5), orta hissədə 6 şəkil (№№ 6-11) və sağ (qərb) ucda 13 şəkil (№№ 12-24) olmaqla 24 şəkil və şəkil qalığı (31-ci tablo, B) qeydə alınmışdır.

Qeyd edək ki, daşın bu üzünün təsvirlərini göstərən 15-ci tabloda da daşın cənub-şərq üzü rəsmləri arasında olduğu kimi qruplar arası yaxınlaşdırılmışdır. Belə ki, sol qrupdakı 4 №-li şəkillə, orta qrupdakı 6 №-li şəkil arası 150 sm, orta qrupda sağdan 11 №-li xətt qalığının sağ ucu ilə 12 №-li heyvan rəsmi qalığının sol tərəf ayağı arasında məsafə 110 smdir.

43 №-li daşın şimal-qərb üzündə qeydə alınmış təsvirlərdən 8 ədədi təyinatı çətin olan yarımçıq heyvan rəsmindən (şəkil №№ 1, 5, 6, 9, 10, 12, 16, 22), 4 ədədi at rəsmindən, (şəkil №№ 4, 13, 17, 23), 2 ədədi dəvə rəsmindən (şəkil № 7 və 20), 4 ədədi adam rəsmindən (şəkil №№ 14, 18, 19, 24), bir qövs (№ 2), bir dairə (№ 3) və 4 ədədi rəsmdən xətt qalığından (№№ 8, 11, 15, 21) ibarətdir. Təsvirlərin hamısı sxematik və tam reallıqdan uzaqdır. At rəsmlərindən birini (şəkil № 4) boynunu yuxarı və qabağa tərəf qaldırmaqla, qoşa qulaqlarını qabağa şəkləməsinə, belində yük (bəlkə də adam) çəkilməsi və quyruğunun düz xətlə dala uzunmasına görə at hesab etmək olar. İkinci bir sxematik at təsviri (şəkil №16) quyruq hissəsi tökülsə də, döş hissəsinin iriliyi, boynunun yuxarı və qabağa uzunması ilə başqa heyvanlardan seçilir.

Atlardan ikisi (şəkil № 13 və 23) bədənləri üfüqi xətlə, belində yük göstərilməklə, 2 adamın (şəkil №14 və 24) yedəyində çəkilmişdir. Hər iki halda atlar ayaqlarını qabağa verməklə, elə bil getmək istəmirlər. Bu səhnələrdə adamlar başları yumru, qolları və ayaqları yana açılmış göstərilmişdir.

Üçüncü bir sxematik adam (şəkil № 18) qolları göstərilmədən, başqa bir atın və ya dəvənin (şəkil № 17) ipini çəkir. Bu heyvan qabaqkı (№ 13 və № 14) şəkillərlə bədən və yükünün oxşarlığına görə tam eynidir. Lakin onu 7 və 20 №-li şəkillərdə verilmiş eyni cür qulaqsız çəkilmiş dəvə də hesab etmək olar.

Daha iki, eyni üsulla, lakin qulaqsız çəkilmiş rəsmdə də (şəkil 7 və 20) dəvə təsvir edildiyi aydındır.

Qeyd edək ki, Qobustanda bir çox daşlarda karvan halında və tək-tək təsvir edilmiş, Kiçikdaşda daş №№ 36, 37, 43 və s. daşlardakı at və ya dəvə şəkillərinin hamısı eramızın orta əsrlər dövründə, Qobustanın şimalla cənub arasında və qərbə

gedən ipək yolunun üstündə olması ilə əlaqədar çəkilmiş dəvə rəsmləridir. Dəvələrin ata oxşar qulaqlı çəkilməsi isə dəvəçiliklə məşğul olan karvançılar tərəfindən yox, dəvə karvanına kənardan tamaşa etmiş yerlilər tərəfindən icra edildiyini göstərir.

Bir məqamı qeyd edək ki, 2-dən çox yüklü atın dəvə kimi qatarlaşıb karvan düzəltməsi at xasiyyətinə görə mümkün deyil. Yüklü at, sahibinin altında, ikincisi süvarinin yedəyində və ya tək olaraq, adamın yedəyində olar. Bu baxımdan söhbət açdığımız 43 №-li daşın şimal-qərb üzündəki 13, 7, 23 №-li şəkillərdəki heyvanların at olduğunu da demək olar.

DAŞ № 43-A

«Ceyranlar» düşərgəsindən 295° altında, daş № 37-dən 320° altında 36 metr, daş № 39-dan 15 metr şimala, daş № 43-dən 135° altında 22 metr məsafədə, daş № 44-dən 280° altında 37 metr məsafədə cənub-şərq və şimal-qərb tərəflərində sığınacaqvari oyuqlar olan nəhəng qaya daşdır. Təsvirlər daşın cənub-qərb tərəfinin sağ hissəsində, yerə yaxın ucundadır. Burada 6 rəsm qeydə alınmışdır (24-cü fotoşəkil və 32-ci tablo, A). Təsvirlərdən dördü keçiyə aiddir (şəkil №№ 1, 2, 3, 5). Onlardan 1 №-li şəkildəki keçinin başı və buynuzları, 2 №-lidə baş və qabaq ayaq, 3 №-li keçidə baş, 2 qabaq, 1 dal ayaqlar və quyruq çatışmır. 1 №-li keçinin bədəni 2 qoşa xətlə, qalan üçününkü bir xətlə verilib. 2 və 3 №-li şəkillərdə keçilərin bynuzları yuxarı qalxaraq, qövsvari dala əyilir. 5 №-li şəkildə keçinin başı verilməyib. Bədənin baş tərəfindən çıxan buynuzlar qılıncvarı yuxarı qalxır. 4-cü şəkildəki təsvirdə çox güman ki, yüklü at və ya dəvə çəkilməsi yarımçıq qalıb.

6 №-li şəkildə maral təsvir edilib. Onun bədəni və ayaqları qoşa xətlərlə çəkilib, kiçik quyruğu dala uzanıb. Başı nisbətən yoğun və ağzı açıqdır. Buynuzları başdan qabağa və boyundan arxaya tərəf istiqamətdə yuxarı çəkilmiş xətlər və onlardan iç araya tərəf 2-si aşağı, biri yuxarı və 2-si yuxarı, biri aşağı istiqamətdə çəkilmiş xətlərlə şaxələnmişdir.

43^{A} №-li daşdakı şəkillər olduqca sxematik və şərti rəsmlərdən ibarətdir. 18-19 əsrlərdə maldarlar tərəfindən çəkildiyi şübhəsizdir.

DAŞ № 44

«Ceyranlar» düşərgəsindən 100 metrə qədər cənub-qərb tərəfdə, 43 №-li daşdan 100° altında 37 metr, 45 №-li daşdan 295° altında 60 metr məsafədə 37 №-li daşdan 53 metr şimal-şərqdə, 52 №-li daşdan 120° altında 30 metr məsafədə yerdən bitili alçaq (1,0-1,1 metr), yerdə yanları 3,3-3,5 metr ölçülü piramida formalı daşdır. Daşın şərq üzündə 5 ədəd və şimal-qərb tərəfi üstündə bir ədəd çox sxematik, kobud və savadsız çəkilmiş (32-ci tablo, B, şəkil №№ 1-5 və 6) keçi təsviri qeydə alınmışdır. Təsvirlərin çəkilməsi dövrü 18-19-cu əsrlərə aiddir.

DAŞ № 44-A

«Ceyranlar» düşərgəsindən 240° altında 100 metrə qədər məsafədə, daş № 43[a]-dan 50° altında, 30 metr məsafədə, 44 №-li daşdan 335° altında 8 metr məsafədə, 52 №-li daşın şərq tinindən 110° altında 7 metr məsafədə şimal-cənub uzunluğu 9 metr, üstü 2 çatlı 3 hissədən ibarət daşdır. Onun cənub hissəsinin şərq üzündə bir ədəd sxematik, başsız, iri buynuzları baş yerindən çıxıb yuxarı qalxaraq, qırıq xətlərlə dala əyilib quyruğa qədər uzanan keçi (32-ci tablo, V), daşın orta hissəsinin şərq üzündə bir ədəd sxematik olduqca kobud və savadsız çəkilmiş maral (32-ci tablo, Q) daşın şimal hissəsinin şərq üzündə yönləri sağa və sola olmaqla, bir-birinə əks tərəfə baxan 2 keçi və aralarında əlləri onlara tərəf açılmış adam şəkli (32-ci tablo, D, şəkil 1-3), daşın orta hissəsinin qərb üzündə də çox sxematik 2 keçi təsviri qeydə alınmışdır (32-ci tablo, E).

Ümumi baxışda 44[a] №-li daşdakı şəkillərin də 44 №-li daşdakı şəkillərlə bir dövr çərçivəsində 18-19-cu əsrlərdə çəkildiyini söyləmək olar.

DAŞ № 45

«Ceyranlar» düşərgəsindən təxminən 100 metr cənub tərəfdə, 44 №-li daşdan 115° altında 60 metr məsafədə, 46 №-li daşdan 53 metr tam şimala, 47 №-li daşdan 270° altında 13 metr məsafədə yerdən bitili böyük qaya parçasıdır. Qərb-şərq uzunluğu 7 metr, hündürlüyü 2,5 metrdir. Daşın cənub tərəfi üzü hamar və dikdir. Bu üzdə 8 ədəd sadə və kobud çəkilmiş sxematik şəkil qalığı qeydə alınmışdır (33-cü tablo, A, №№ 1-8).

45 №-li daşın bu üzündəki 2 və 3 №-li şəkillər yüklü dəvə və ya at rəsmləridir. Onlardan şəkil № 2-də heyvanın yönü sola, şəkil № 3-də sağa olmaqla (həm də qaçış vəziyyətində) hər ikisi yan görünüşdə təsvir edilmişdir. Şəkil № 2-də heyvanın əyilərək yuxarı qalxmış boynu çox uzun, ağzı açıq, dibdə birləşən qulaqları sağa və sola maili olaraq dik qalxmış qısa xətlərdən ibarət, quyruğunun ucu aşağı istiqamətlənmiş, uzun ayaqları bədəninə şaquli təsvir edilmişdir. İkinci heyvanın (şəkil № 3-də) qabaq ayaqları qabağa, dal ayaqları dala (qaçış vəziyyətində), çənəsi girdə, boynu qısa, quyruğu uzun və üfüqi təsvir olunmuşdur. Hər iki təsvirin texniki və saxlanma əlamətləri onların orta əsrlərdə çəkildiyini göstərir.

4 və 6-cı şəkillərdən birincisi yönü sağa və № 6-da yönü sola olmaqla yan görünüşdə 2 keçi təsvir edilmişdir. 4 №-li şəkildə keçi boyunsuz, başı iki kiçik qoşa xətlə, ağzı açıq, azca dala meyilli qalxmış, iri buynuzlarının ucu birləşmiş, qarmaqvarı quyruqla, ayaqları belinə tərəf əyilmiş təsvir edilmişdir.

Şəkil № 6-da keçi təsviri olduqca təhrif olunmuş çəkilmişdir. Arxa hissədə kök, quyruğu 2 xətlə verilmişdir. Hər iki (№ 4 və № 6) keçinin və 1, 5, 7 və 8 №-li

şəkillərdəki təsvir qalıqlarının dövrü 2 və 3 №-li şəkillərdəki yüklü heyvanlardan qədimə aiddir.

Qeyd edək ki, 1 №-li şəkil qalığı ilə 2 №-li şəkildəki heyvanın başı arasında məsafə 2 metr 45 sm aralıdır və tabloda 70 sm-ə qədər yaxınlaşdırılmışdır.

DAŞ № 45-A

«Ceyranlar» düşərgəsindən 80-90 metr cənub tərəfdə 44 №-li daşdan 90° altında 52 metr məsafədə, 47 №-li daşdan 300° altında 22 metr məsafədə uzunluğu 3,5-4,0 metr, hündürlüyü 1,1 metr və eni 2,0 metr olan yerdən bitili kiçik daşdır. Daşın cənub-qərb tininə yaxın, üstündə kiçik ölçülü bir keçi təsviri (33-cü tablo, B) qeydə alınmışdır.

Onun boynu, başı və buynuzları bel xəttinin qabağa getdikcə yuxarı qalxıb, sonra yarımçevrə kimi dala paralel çəkilmiş xətlə verilmişdir. Heyvanın başı yerindən qabağa çəkilmiş iki qoşa xətlə dimdikvarı ağız ifadə edilmişdir. Heyvanın bədəni dala tərəf nazilir və bel xəttindən döşünə tərəf maili xətt çəkilib. Onun nisbətən uzun quyruğu dik qalxıb ucu qabağa tərəf əyilir. Ayaqları normal görünüşdə, yönü sağa tərəfdir.

Təsvir, bu sahədə son əsrlərdə (19-20) olmuş qışlağın sakinləri tərəfindən çəkilmişdir.

DAŞ № 46

«Ceyranlar» düşərgəsindən 150-180 metr qədər cənubda, 36 №-li daşdan 60° altında 40 metr məsafədə, 45 №-li daşdan 53 metr tam cənubda, dördbucaqlı formada yer tutmuş, hündürlüyü qərb tərəfdə 1,5-2,0 metr, şərq tərəfdə 3 metrə qədər, üstünün ölçüsü 9x10 metr nəhəng qaya parçasıdır. Daşın üst üzü cənuba tərəf maili olmaqla düz səthə malikdir. Daşın üstünün cənub tərəfinin qərb hissəsi kənarında tərəfləri 185-107 və 195-108 sm dərinliyi 54-75 sm arasında, dördbucaqlı formada iri, çapma hovuz qazılıb və yağış sularını ona yığmaq üçün qərb və şərq tərəflərinə birləşən qanovlar qazılmışdır (25-ci fotoşəkil).

DAŞ № 46-A

Daş № 46-dan 110° altında 135 metr məsafədə, «Ceyranlar» düşərgəsindən 140° altında 200 metr, 64 №-li daşdan 255° altında 350 metr məsafədə şərq-qərb uzunluğu 13 metr, şimal-cənub 7 metr, şərq-tərəfdə hündürlüyü 6 metr və qərb tərəfdə 2 metr olan, cənub tərəfi 2 pilləli, şimal tərəfi dik divar əmələ gətirən, üstü düz və hamar nəhəng qaya parçasıdır. «Ceyranlar»dan cənub-şərqdə - düzdəki, daş № 46-dan yaxşı görünən 5 iri topa daşın şimal tərəfdən ən irisidir. Şərq tərəfdə daşın üstü irəli çıxır. Üstünün cənub-qərb küncündə qərb-şərq uzunluğu 2 metr, eni

qərb tərəfdə 100, şərq tərəfdə 110 sm, dərinliyi 50-55 sm dördbucaqlı çapma qazılmışdır (25-ci fotoşəkil). Çapma hovuz iti metal alətlə qazılıb və yağış suyunu yığmaq üçün daşın üstünü şimal tərəfdən qövsvari əhatə edərək axar ucu çapmaya daxil olan dərin qarım qazılmışdır.

Çapmanın şimal-şərq küncündən azca aralıda onun qazıldığı tarix 1820 rəqəmi yazılıb.

DAŞ № 47

«Ceyranlar» düşərgəsindən təxminən 100 metr cənubda, 45 №-li daşdan 60° altında 13 metr məsafədə və həmin istiqamətdə 46 №-li daşdan 62 metr məsafədə cənub-qərb olmaqla, uzunluğu 8 metrədən çox, eni 2 metrə qədər, şərq tərəfdə hündürlüyü 50-60 sm, yanı üstə uzun, yerdən bitili qaya parçasıdır.

Daşın cənub ucunun qərb tərəfi üstündə sadə, kobud və sxematik çəkilmiş 3 rəsm - 1 maral və 2 keçi qeydə alınmışdır (33-cü tablo, V). Maral (№1) yönü sola olmaqla yan görünüşdə, bədəni uzun və nazik, uzun boynu bədəninin davamı kimi, başı irəli, səliqəsiz və ağzı açıq, quyruğu keçi quyruğu kimi yuxarı qalxıb belinə tərəf əyilmiş təsvir edilmişdir. Buynuzlarından biri heyvanın başından, o birisi boynundan çıxmaqla, düz xətlə yuxarı qalxır və hərəsindən çölə tərəf 3 kiçik budaq ayrılır. Qabaqdakı buynuzun üst budağının ucu dairəciklə qurtarır. 2-ci və 3-cü şəkillərdəki keçi rəsmlərindən birinin (№ 2) bədəni bir üfüqi xətlə verilib. Dal ayağının biri çəkilməyib. O biri dal ayağı və qabaq ayaqları bədənə şaquli xətlərlə ifadə olunub. Quyruğu kəskin dala qatlanır. Buynuzları dik qalxır və azca dala meyillidir. Boynu və başı bədənin davamı olub, ucda (çənəsi) aşağı əyilir. Buynuzunun biri heyvanın başından, biri çiynindən çıxır. Hər iki keçi yönə sağa çəkilmişdir.

2-ci keçinin (şəkil № 3) bədəni 2 paralel və üfüqi xətdən ibarətdir. Ayaqları bədənə şaquli çəkilmiş xətlərlə verilib. Qabaq ayaqların üst ucu arası bədənin davamı xətlə, boynu isə ən qabaqkı ayağın davamı xətt ilə kəsilir. Buynuzları nisbətən iri və arxaya tərəf yatımlıdır. Quyruğu kiçik, qarmaq şəkillidir.

Bu keçi rəsmindən (şəkil № 3) 5,2 metr sağa şimala tərəf daşın tinində bir ədəd iri ölçülü, heyvan bağlamaq üçün deşik açılıb. Göstərilən şəkillər də, deşik də son əsrlərdə bu sahədən qışlaq kimi istifadə etmiş maldarların işidir.

DAŞ № 48

«Ceyranlar» düşərgəsinin girəcəyindən 12 metr, 49^{A} №-li daşdan 1 metr şərqdə, 45 №-li daşdan 100 metr şimala, 50 №-li daşdan 150° altında 16 metr məsafədə şərq-qərb uzunluğu 14 metr, eni 6 metr, cənub-şərqə baxan üzündə hündürlüyü 2 metr, şimal-qərb tərəfi torpağa enən yerdən bitili daşdır.

Daşın cənub-şərq tərəfinin şərq hissəsi 20-ci əsrin 80-ci illərinə qədər, vaxtı ilə burada qışlaq salmış maldarların qışlaq damının şimal-qərb divarını təşkil etmişdir. Sonralar yaxın qəsəbə və kəndlərin adamları damı söküb daşını aparmış, daşın üstü açılmışdır.

Daşın bu üzündə 21 ədəd qədim rəsm qalığı (26-cı fotoşəkil) (34-cü tablo, A) aşkar edilib qeydə alınmışdır. Qeyd edək ki, daşın cənub-şərqə baxan üzündə qədim şəkillərin çoxu aşınma və daşın üzündən təbəqələr qopub düşməsi nəticəsində silinmiş və xətlər şəklində, həm də oxunması çətinləşmiş halda qalmışdır.

48 №-li daşın cənub-şərq üzündə saxlanmış şəkillərdən 7 ədədi (34-cü tablo, A, şəkil №№ 8, 9, 17, 21) qadın, 3 ədədi kişi (34-cü tablo, A, şəkil №№ 7, 9, 12), 8 ədədi (yenə orada №№1, 2, 5, 6, 13-16) qayıq, bir ədəd sxematik keçi (şəkil № 11) təsviri və 2 qrup heyvan təsvirlərinin xətt qalıqlarından (şəkil №№ 3-4) ibarətdir.

Qadın təsvirləri Qobustanda, əsasən, ən qədim qadın təsvirləri tipində, döş, oturacaq və ayaq hissələri qabarıq verilməklə, yan görünüşdə təsvir edilmişdir. Onlardan biri (şəkil № 20) yarımçıqdır, birinin (№ 21) yönü sola, qalanlarınkı sağa olmaqla təsvir edilmişdir.

Göstərilən tip qadın təsvirləri Qobustanda ən qədim təsvirlər tipinə aiddir. Qobustanda Böyükdaş dağı yuxarı səki sahəsində 29 №-li daşın şimal üzündə, eləcə də yuxarı səki sahəsində 33, 42, 46, 49, 51, 105 №-li daşlarında və Böyükdaş dağı aşağı səki kolleksiyasının 1^{A}, 2, 8 №-li daşlarında olan bu tip qadın təsvirləri İ.M.Cəfərzadə tərəfindən paleolit dövrünün qadın heykəlciklərinə oxşadılsa da, eradan əvvəlki VIII-V minilliklərə aid edilmişdir. (57).

Göstərilən tip qadın təsvirləri qonşuluqdakı «Ceyranlar» düşərgəsində aparılmış arxeoloji qazıntı nəticəsində 49 №-li daşın mədəni təbəqə basmış səviyyəsindən də aşkar olunmuşdur (bax: daş № 49). Beləliklə, son tədqiqatların nəticələri göstərilən qadın təsvirlərinin tarixini daha qədim dövrlərə - yuxarı paleolit dövrünün sonlarına - eramızdan əvvəlki 18-15-ci minilliklərə və daha qədimə aid etməyə imkan verir.

Kişi təsvirlərinin hər üçü öndən olmaqla, ikisi (№ 10, 12) siluetvarı, biri (№ 7) kiçik ölçülü və silahlı təsvir edilmişdir. 10-cu şəkildəki təsviri qadın da hesab etmək olardı. Lakin onun döşsüz təsvir olunması kişi olmağına dəlalət edir. Bu, 10 və 12 №-li kişi təsvirləri mezolit dövründə qadın təsvirlərindən bir qədər gec dövrdə, 7 №-li şəkildəki kişi isə mezolit dövründə - qayıq təsvirləri ilə bir dövrdə çəkilmişdir.

48 №-li daşın cənub-şərq üzündəki qayıq təsvirlərindən biri (2-ci şəkil) siluet döymə üsulu ilə, qalanları xətti səciyyəli çəkilmişdir. 1, 2 və 16 №-li şəkillərdəki qayıqların bir ucu əhəng daşının ovulması və aşınması nəticəsində saxlanmamış, 6-cı şəkildəki kiçik ölçülü, içərisində 4 adam simvolu verilmiş qayığa isə özündən kiçik ölçülü, boş (adamsız) bir qayıq bağlanmışdır.

Sxematik keçi təsviri (şəkil № 11) son əsrlərdə daşın üst üzündəki sxematik keçi təsvirləri ilə eyni dövrdə, son əsrlərin qışlaq maldarları tərəfindən çəkilmişdir. Qeydə alınmış hər iki xətt qalığı da (şəkil № 3 və № 4) eneolit dövründə rəsm edilmiş və zamanın təsiri ilə daşın çox hissəsinin lay-lay qopması və eroziyaya məruz qalması ilə silinmişdir.

48 №-li daşın üstü düz, hamar və şimala tərəf meyillidir. Daşın üst üzündə də üç keçi, bir atlı və 2 təsvir qalığı qeydə alınmışdır (34-cü tablo, B). Hər üç keçinin (№ 1, 2, 6) bədəni paralel xətlərlə, qarmaqvarı quyruqla və baş olmadan, bel xətti və qabaq ayağının ucunun yuxarı və dala əyilməsilə düzəldilmiş buynuzla, ikisinin (№ 1 və № 2) yönü sola, birinki (№ 6) - sağa olmaqla təsvir edilmişdir. Süvarinin (№ 5) atının qoşa xətlə verilmiş uzun boynu maili olaraq yuxarı və qabağa uzanır, kiçik, qoşa qulağı dik qalxır, bədəni bir xətlə, quyruq bədən xəttinin davamı kimi azca dala çıxır. Süvari atın üstüncə qoşa şaquli xətlə çəkilib, yuxarı ucunda yarımçıq çıxıntılar və boyun hissəsindən atın qulağına kimi uzanmış xətdən (cilovdan) ibarətdir. Daşın üst üzündəki şəkil qalıqlarından biri (№ 3) «П» şəkilli xətt qalığından və biri (№ 4) dörd ayaq və bədəndən ibarət naməlum heyvan qalığından ibarətdir. Onun da üstündə bir ucu boynunda və bir ucu ombasında olmaqla yenə «П» şəkilli xətt çəkilmişdir. Bu xətt qalığından üstdə və atın qabağında aidiyyəti məlum olmayan nöqtə və xətt qalıqları var.

48 №-li daşın üstündə 1-ci keçi təsvirindən bir qədər sola olmaqla bir ədəd, diametri 17, dərinliyi 10 sm yalaq qazılmış, cənub-şərq üzdəki şəkillərdən azca sağa, daşın şərq ucu tinində isə heyvan bağlamaq üçün bir ədəd iri deşik açılmışdır.

Daşın üst üzündəki təsvirlər, yalaq və deşik, bu ərazidən qışlaq kimi istifadə olunarkən maldarlar tərəfindən, 19-20-ci əsrlərdə çəkilmişdir.

DAŞ № 49

«Ceyranlar» düşərgəsinin girəcəyindən (15-ci foto şəkil) sol tərəfə onun cənub-qərb divarını təşkil edən, 8-10 metr hündürlüyündə nəhəng qaya-daşdır. Daşın düşərgənin içinə baxan üzü dik və hamardır. Bu üzün uzunluğu girəcəkdən dibə (daş № 49^{v}-yə) 7 metrdir. Daşın bu üzündə 94 qədim rəsm və rəsmlərdən xətt qalıqları qeydə alınmışdır (35-ci tablo və 27-ci foto şəkil).

35-ci tabloda təsvirlərin ümumisi nömrəsiz verilmiş, sonra isə, 2 hissədə (tablo 35^{a} və 35^{b}) olmaqla, böyüdülərək nömrələnmişdir.

Təsvirlərdən 25 ədədi (№№ 1-25) düşərgədə arxeoloji qazıntı aparılana qədər yer səviyyəsindən yuxarıda, qalanları 69 ədədi (№№ 26-94) və bəzi nömrələnməmiş qeydiyata alınmayanlar arxeoloji qazıntı nəticəsində daşın torpaq altında qalmış səthində aşkar edilmişdir.

Onların əksəriyyəti qadın (33 ədəd), öküz (17 ədəd) və ceyran (16 ədəd) rəsmlərindən ibarətdir. Qalanlardan 3 ədədi (№№ 8, 9, 65) kişi, ikisi (№№ 2, 10) qayıq, biri (№ 25) keçi, biri (№ 50) gur, biri (№ 43) balıq, 14 ədədi (№№ 5, 6, 7,

23, 26, 28, 30, 32, 42, 68, 69, 70, 81, 90) aidiyyətini müəyyən etmək olmayan heyvan təsviri, bir ədəd ortasında nöqtə qoyulmuş (№ 21) dairə və çoxlu (№ 11,12 kimi) xətt qalıqlarından ibarətdir.

Qadın təsvirlərindən 10 ədədi (№№ 20, 35, 39, 41, 44, 48, 59, 60, 64, 80) yönü sola, 12 ədədinin (№№ 14, 36, 40, 45, 46, 58, 61, 66, 72, 82, 83, 92) yönü sağa olmaqla, yan görünüşdə başı kiçik, döşü və ombası iri, ayağı əzələli təsvir edilmişdir. Bu tip qadın təsvirləri yuxarı paleolit dövrünün qadın fiqurlarını andırır.

Qadın rəsmlərindən 7 ədədi (№№ 27, 31, 47, 57, 62, 71, 73) ön görünüşdə, çiyinlərində (№ 27-də soldan sağa, qalanlarında sağdan sola olmaqla) maili dayanmış əmək aləti ilə təsvir edilmişdir. Onlardan beş ədədinin alətinin hər iki ucundan aşağıya tərəf 2, 3 və ya 4 ədəd çıxıntıvarı xətt, birinin (№ 62) alətinin yalnız sağ tərəf ucundan 5 ədəd çıxıntıvari xətt çəkilmiş, birinin (№ 71) alətinin ucları isə çıxıntısız təsvir edilmişdir. Bu tip, çiyinlərində alət olmaqla öndən çəkilmiş qadınları da kişi rəsmlərindən döşünün iri və baldırlarının yoğun olması fərqləndirir. Təsviri öndən verilmiş daha 4 qadın rəsminin (№№ 15, 37, 38, 67) çiyinləri alətsizdir. Onların da qadın olması, yenə də, döşünün və baldırının, xüsusən, iri verilməsilə seçilir.

49 №-li daşda yalnız üç rəsmi (№№ 8, 9, 65) kişi təsviri hesab etmək olar. Onlar döşsüz, bədənə görə yoğun olmayan baldırlarla, birinin (№ 8) qolları çəpinə, birinki (№ 9) düzünə yana açılmış, birinin (№ 65) bir qolu maili aşağı sallanmış, sol qolu saxlanmamış təsvir olunmuşdur. Qeydiyyata alınmış daha 4 ədəd insan təsvirinin (№№ 51, 55, 56, 78) cinsiyyətini müəyyənləşdirmək mümkün deyil.

49 №-li daşda qeydə alınmış öküz rəsmlərindən iki ədədinin (№ 6, 93) yönü sola, qalanlarınkı (№№ 1, 3, 4, 13, 16, 17, 22, 49, 52, 53, 54, 63, 74, 77, 94) yönü sağa tərəf olmaqla təsvir edilmiş, 5 ədədinin (№№ 1, 3, 4, 13, 52) bədəninin beldən və ya döşdən dala yarısı, birinin isə (№ 49) buynuzu, alnı, çənəsi və qabaq ayağı saxlanmaqla bədəni bütövlükdə silinmişdir. Qobustan qayalarındakı başqa öküz rəsmləri kimi 49 №-li daşda da öküz təsvirləri başqa heyvanlardan bədənlərinin doluluğu, süksününün seziləcək qabarıqlığı və boynunun qısalığı ilə seçilir.

49 №-li daşda ceyran rəsmlərinin hamısının yönü sağadır. Onlardan birinin (№ 84) buynuzu və qulağı düşüb. Dörd ədədi (№№ 18, 19, 29, 86) buynuzsuz, yalnız qulağı ilə (onlar çox kiçik ölçülü olduqlarından hesab etmək olar ki, hələ çox cavan, buynuzu çıxmamış vaxtlarıdır) təsvir edilmişdir.

18 və 19 №-li rəsmlərdə orta ayaqlar və qarınaltı xətt silinmişdir. 19 №-li rəsmdə ceyranın yönü sağa olsa da o boynunu döndərməklə başını dala çevirmişdir. Görünür, real vəziyyətli çəkilişlə qədim rəssam öz məharətini göstərmək istəmişdir.

Təsvirlərdən birində (№ 86) görünüşünə görə ceyran təsvir olunsa da, ona, dala tərəf üfüqi uzanmış, ceyrana xas olmayan uzun quyruq qoyulmuşdur. Ceyran təsvirlərindən 11 ədədinin (№№ 24, 33, 34, 74, 75, 79, 85, 87, 88, 89, 91) buynuzu dik yuxarıya burulmuş vəziyyətində verilmişdir.

Qədim Qobustanda ən çox ovlanmış heyvan ceyrandır. Belə ki, Kiçikdaş dağında «Qayaarası» düşərgəsindən arxeoloji qazıntılar nəticəsində toplanmış sümük qalığının 98%-i, Böyükdaş dağında «Anazağa» düşərgəsindən aşkar olunmuş sümük qalıqlarının isə 40%-i ceyran sümüyüdür. Buna baxmayaraq, Qobustan qayalarında ceyran rəsminə tək-tək hallarda təsadüf olunur. Bu baxımdan ən çox ceyran rəsmi «Ceyranlar» düşərgəsinin divarlarında qeydə alınmış və ona görə də düşərgəni onların şərəfinə «Ceyranlar» düşərgəsi adlandırmışıq.

49 №-li daşda cəmi bir ədəd buynuzları yuxarı qalxmaqla açıq qövs şəklində arxaya tərəf istiqamətlənmiş keçi (№ 25) rəsmi qeydə alınmışdır. Onun quyruğu və dibindən hissə tökülmüşdür. Cəmisi dörd xətlə, yönü sağa olmaqla təsvir edilmiş bu keçi rəsmi bədəninin ümumi görünüşü və mütənasibliyi ilə seçilir. Onun çəkilmə tarixini eneolit dövrünə aid etmək olar.

Heyvan rəsmlərindən biri (№ 50) boynunun görünüşü, başı və qulaqlarının qabağa şəklənməsinə görə at və ya gur təsviridir. Onun bel xətti və qabaq ayağından başqa bütöv arxa hissəsi saxlanmamışdır. Qobustanda üst paleolit dövründə atın olmaması onun gur olmasına işarə edir. Qobustan qayalarında ceyran kimi gur təsviri də tək-təkdir, lakin onlar da ceyran kimi Qobustanda ən çox ovlanmış heyvandır. «Anazağa» düşərgəsində arxeoloji qazıntılarla əldə edilmiş sümük qalığının 40%-i də gur sümüyüdür (58). «Qayaarası» düşərgəsindən isə ceyran sümüyü 98% olduğu halda gur sümüyü tək-təkdir. Deməli Qobustanda gur yuxarı paleolit dövrünün sonlarından etibarən yayılmışdır. Haqqında danışdığımız 50 №-li gur təsvirinin isə «Ceyranlar» düşərgəsində arxeoloji qazıntıların nəticələri və başqa rəsmlər arasında tutduğu yerə görə orta daş dövrünün əvvəllərinə, eradan əvvəlki XIV-XIII minilliklərə aid etmək olar.

49 №-li daşda həkk olunmuş təsvirlərdən biri də (№ 43) balıq rəsmidir. Onun qabaq hissəsi tökülüb, yalnız quyruğuna yaxın üstündə üzgəci qalıb. Quyruğunda üzgəcin üst qanadı alt qanadından uzundur. Bu göstərici və balığın ümumi görünüşü onun «ağ balıq» olmasına dəlalət edir. Ümumiyyətlə, qədim qobustanlılar ovçuluqla yanaşı balıqçılıqla da məşğul olmuşlar. Böyükdaş dağı yuxarı səki sahəsində 104 və 105 №-li qayalarda ağ balıq rəsmi «Anazağa» düşərgəsində qazıntıdan balıq toru üçün ağırlıq daşlarının, ağ balığın bel üzgəci sümüyünün və suiti sümüyünün tapılması (59), eləcə də Qobustanda müxtəlif tarixi dövrlərə aid çoxlu qayıq rəsminin saxlanması qədim Qobustanda balıqçılığın təsərrüfatın əsas sahələrdən olmasını göstərir.

Kiçikdaş dağında «Qayaaltı» kolleksiyanın 5 №-li daşında uzunluğu 4 metr 30 sm olan balıq rəsmi, Bakı yaxınlığında Şıxov çimərliyindəki qaya üzərində ilk orta əsrlərə aid müxtəlif balıq rəsmləri və hündürlüyü 3 metrdən çox olan balıqçıların onları torla tutma səhnəsi də Qobustanda hələ daş dövründən başlanmış və daima əsas təsərrüfat sahələrindən olmuş balıqçılıqdan xəbər verir.

49 №-li daşda qeydə alınmış, lakin aidiyyatını müəyyən etmək çətin olan heyvan rəsmlərindən iki ədədi (№№ 23 və 28) yönü sola, 10 ədədi (№№ 5, 7, 26,

30, 32, 68, 69, 70, 81, 90) yönü sağa təsvir edilmişdir. Bir ədəd heyvan hesab etdiyimiz rəsmin (№ 42) isə yönünün səmtini demək çətindir. Bu heyvanların mənsubiyyətinin təyinedici göstəriciləri ya çatmır, ya da olduqca şərti və qeyri normal çəkildiyindən bu haqda söz demək mümkün deyil.

İçində nöqtə çəkilmiş dairə (21-ci şəkil) nə nəzərdə tutulduğu və ya nəyin işarəsi olduğu haqda da söz demək çətindir.

49 №-li daşda iki ədəd də qayıq təsviri saxlanmışdır (№ 2 və № 10). Onlardan birinin (№2) qabaq və arxa ucları aşınıb, qopub saxlanmayıb, qalmış orta hissəsində adam ifadə edən 5 çıxıntı vardır. İkinci qayıq təsvirinin (№ 10) ucları tam saxlansa da, orta hissəsi aşınıb saxlanmayıb, arxa (sol) hissəsinin içində 5, qabaq (ağ) hissəsində 3 adam simvolu saxlanmışdır. Sonunculardan sağdakı adam başqalarından hündürdür, görünür, bu qayıqdakı başçıdır.

Qayıq təsvirləri Qobustan qayalarındakı başqa qədim qayıq təsvirləri ilə mezolit, neolit dövründə çəkilmişdir.

49 №-li daşda qeydə alınmış 4, 11, 12 №-li şəkillərdəki və onlar kimi daha bir neçə №-ilə qeydiyyata alınmamış, qədim təsvirlərdən qalmış xətt qalıqları burada vaxtı ilə daha çox təsvir olduğundan xəbər verir.

«Ceyranlar» düşərgəsinin divarlarını təşkil edən 49, 49^{B} və 49^{v} №-li daşlarda keçmişdə, indi bizim qeydə aldığımız rəsmlərdən daha çox təsvir olmuş və çox şübhəsiz ki, bizim görüb qeydə ala bilmədiyimiz təsvirlər də yox deyildir.

49 №-li daşda qeydə aldığımız təsvirlərin dövrü haqda qeyd etmək lazımdır ki, burada ən qədim təsvirlər yan görünüşdə qadın, ceyran və öküz (№№ 52, 53, 54, 63, 93, 94) rəsmləridir. Onların dövrünü üst paleolit dövrünün axırlarına, eradan əvvəlki 18-15-ci minilliklərə aid etmək olar. Onlardan bir qədər sonra isə qalan öküzlər və təsvir edilmiş qadınlar XII-X minilliklərdə çəkilmişdir.

Kişi rəsmləri (№№ 8, 9) mezolit, neolit dövründə VIII-VII minilliklərdə, balıq rəsmi isə hələ yuxarı paleolit dövründə eramızdan əvvəlki 18-15-ci minilliklərdə çəkilmişdir.

DAŞ № 49-A

«Ceyranlar» düşərgəsinin girəcəyindən (15-ci fotoşəkil) 7-8 metr şərqə, 48 №-li daşdan 1 metr qərbə, 48 və 49^{B} №-li daşların arasında, yerdən bitili, iri daşdır. Qərb tərəf üzü mailidir və bu üzdə «49^{a}» yazılmış inventar nömrəsindən sola və azca aşağıya 5 ədəd sxematik keçi təsviri qeydə alınmışdır (36-cı tablo, A). Onlardan birinin (№ 1) yönü sola, qalanlarınkı sağadır. Sonunculların hamısı eyni formada, iç ayaqları və qarınaltı xətti «П» hərfi şəklində olmaqla çöl ayaqları və bel xətti onlara paralel çəkilmişdir. Alınmış uzun və dördbucaqlı bədənin sol küncündən yuxarı qalxıb sağa əyilən quyruq, sağ küncündən, başsız olaraq, qövsvari dala tərəf yuxarı qalxan qoşa buynuz düzəldilmişdir. 1 №-li keçi

təsvirindən isə qabaq ayaqlar qarınaltı xətdən, buynuzlar isə bel xəttindən ayrılmaqla çəkilmişdir.

49[a] №-li daşdakı keçi təsvirlərinin sxematikliyi və xəttinin təzəliyi hamısının eyni vaxtda, son əsrlərdə maldarlar tərəfindən çapıldığını göstərir.

QEYD: Qobustanın qədim qayaüstü təsvirlərinin ilk tədqiqatçısı İ.M.Cəfərzadə Kiçikdaş dağı sahəsində «Kiçikdaş» kolleksiyasından 64 ədəd rəsmli daş qeydə alıb, 62 ədədinə №№ 1-62 kimi, birinə 49[a] və birinə № A-B kimi nömrə yazdırmışdı. Beləliklə, «Ceyranlar» düşərgəsinin (girişdən sola) cənub-qərb divarı daş № 49 kimi qeydə alındığı halda, sığınacağın girəcəyindən sağa və sığınacağın arxa divarları ayrıca qeydiyyata düşməmişdi. Ona görə də hazırkı işdə həmin daşların haqqında ayrılıqda söhbət açmaq üçün onlardan sığınacağın girəcəyindən sağ tərəfə divar daşını 49[B] və sığınacağın arxa divarını tutan daşı 49[v] kimi qeydə aldıq.

DAŞ № 49-B

«Ceyranlar» düşərgəsinin (15-ci fotoşəkil) şərq divarını tutan daşdır. Üstü 8x8 metr ölçülü, cənuba tərəf meyilli, düz səth əmələ gətirir. Hündürlüyü «Ceyranlar»a baxan cənub-qərb tərəfində 3-4 metr, cənub-şərq tərəfində 3,0-0,5 metrdir. Şərq və şimal tərəfləri torpağa enir. Daşın «Ceyranlar»ın içərisinə baxan cənub-qərb üzündə 36, (37-ci A tablo, 1-17; 37-ci b tablo, 17-36) və üstündə də 7 (36-cı tablo, B 1-7) şəkil və xətt qalıqları qeydə alınmışdır. 49[B] nömrəli daşın cənub-qərb üzündəki təsvirlər bir tabloda masştabla çox kiçik alındığından, yarı-yarı olmaqla 2 səhifədə (37-ci A tablo və 37-ci B tablo) kimi verilmişdir.

49[B] №-li daşın cənub-qərb üzündəki şəkillərdən 10 ədədi (37-ci tablo, №№ 6-11, 24, 28, 33, 35) qadın, iki ədədi (№№ 5, 25) kişi, 15 ədədi (№№ 1-4, 12-15, 17, 19, 20, 22, 26, 27, 29) heyvan, 3 ədədi (№№ 30, 31, 32) qayıq təsvirləri, bir ədədi damğa (№ 23), 5 ədədi (№№ 16, 18, 21, 34, 36) qeyri-müəyyən məqsədli xətt qalıqlarından ibarətdir.

Kişi təsvirlərindən biri (şəkil № 5) ön görünüşdə bədəni düz olmaqla, siluet (kölgə) şəklində döyülmüşdür. Onun yumru başından sola tərəf yuxarı kiçik xətt uzanır. Onu baş örtüyünün ucu və ya baş bəzəyi üçün lələk hesab etmək olar. Onun azca yuxarıya olmaqla, yana açılmış qollarının altından da məqsədini deməyə çətinlik çəkdiyimiz kiçik xətt sallanır. Təsvirdə kişi olmasını göstərən əlamət də göstərilmişdir.

İkinci kişi (№ 25) yönü sola, ayaqları qısa, qolları qabağa uzanmış təsvir olunmuşdur. O qabağa və yuxarı uzatdığı əlində nə isə tutur, başı yumru, bədəni qamətlidir.

Qadınlardan 7 ədədi (№№ 6, 7, 9, 10, 11 33, 35) yan, 3 ədədi (№№ 8, 24, 28) ön görünüşdə təsvir olunmuşdur. Yan görünüşdə onlar əsasən döş, oturacaq və baldır hissələri qabarıq, bədənləri qabağa tərəf meyilli verilmişdir. Onlardan 9-11

№-li şəkillərdəki 3 qadın oturacaqlarının üç dairəvi hissədən ibarət olması ilə fərqlənir.

8 №-li şəkildəki qadının çiynində sağdan sola enən alətin hər ucundan aşağıya 3 ədəd dişcik (xətti çıxıntı) ayrılır. 24 №-li şəkildəki qadının baş və döş hissələri çatmır. Qalmış hissə bədəndən və yoğun baldırlardan ibarətdir. 28 №-li şəkildəki qadının da çiynindən soldan sağa olmaqla düz xətlə verilmiş alət asılmışdır. Lakin onun uclarında 8 №-li şəkildə olduğu kimi, dişciklər yoxdur.

Heyvan təsvirlərindən 4 ədədi (şəkil №№ 13, 14, 17, 29) öküz şəklidir. Onlardan üçünün yönü sağa birinki (№ 29) sola, buynuzu keçi buynuzu kimi arxaya qövslənmiş təsvir edilmişdir. Sonuncunun başı daşdan təbəqə qopması nəticəsində düşmüşdür. 17 №-li şəkildəki öküz boynunu aşağı uzadıb su içən və ya otlayan vəziyyətdə təsvir olunmuşdur.

Öküzlər dolu bədənli, çiyinləri seziləcək qədər qabarıq, boyunları qısa, buynuzlar dik, quyruqları aşağı sallanmış kimi çəkilmişdir. Bu baxımdan 1 №-li şəkildəki heyvanı da öküz saymaq olar.

Rəsmlərdən birinin (şəkil № 3) keçi olması şübhə doğurmur. 4 ədəd rəsmdə (№№ 4, 22, 26, 27) ceyran təsvir olunmuşdur. Onlarda buynuz dala meyilli olmaqla dik qalxmış quyruq yerində irtmək göstərilmişdir.

49^{B} №-li daşda qeydə, alınmış təsvirlərdən ikisi (№№ 12, 15) boynunun uzun və irəliyə tərəf yuxarı qaldırılmış olması, qulaqlarının qoşalığı və quyruğunun aşağı sallanmış olmasına görə ata oxşayır. Görünüşcə ata oxşayan bu heyvan, Qobustanda vaxtilə ceyran kimi ən çox ovlanmış, sümüyü «Anazağa»dan tapılmış osteoloji material arasında 40% təşkil edən, lakin təsvirlərinə az təsadüf olunan gurdur.

Heyvan rəsmlərindən üç ədədinin mənsubiyyətini deməyə çətinlik çəkirik. Onlardan ikisinin (№ 19 və 20) yalnız başı saxlanmış, biri isə (№ 2) qulaq və quyruğu olmadan (və ya silinmiş) uzun boyunla, yönü sağa olmaqla yan görünüşdə ayını xatırladır. Lakin Qobustanda daha başqa bir ayı təsviri olmadığından, ayı sümüyü tapılmadığından onu ayı saymaq olmaz.

49^{B} №-li daşın cənub-qərb üzünün sağ hissəsində, düşərgəyə girişdən sağ tərəfdə 3 ədəd qayıq (№№ 30, 31, 32) rəsmi də qeydə alınmışdır. Onlardan birinin (№ 30) arxa ucu saxlanmayıb, yönü sola olmaqla, içərisində 4 adam olan qalmış hissəsinin baş tərəfi yuxarı qalxıb dala tərəf çevrələnib.

İkinci qayıq (№ 31) bir növ siluetvari kölgə döyülmüş, başı kiçik çevrə kimi verilməklə, içərisində 5 adam göstərilmişdir.

Üçüncü qayıq (№ 32) təsviri içərisində 3 adam olan çox kiçik xətti qayıqdır.

49^{B} №-li daşın cənub-qərb üzündəki təsvirlər arasında bir ədəd də damğa (№ 23) qazılmışdır. O kiçik dairəcik və onun altından, bir nöqtədən aşağı çəkilmiş üç şüavari xətdən ibarətdir. Bu tip damğalar Qobustan qayalarında, xüsusən Cingirdağ-Yazılıtəpə kolleksiyasının daşları (misal üçün daş № 123, 143 və s.) üzərində çoxdur. İ.M.Cəfərzadə bu tip damğaları 1-ci qrup damğalara ayırır və

dövrünü, eramızın 10-13-cü əsrlərinə və ola bilsin ki, daha qədimə aid edir (60). Biz onun göstərdiyi tarixlə razıyıq və hesab edirik ki, o ilk orta əsrlərdə «Ceyranlar» düşərgəsindən istifadə etmiş şəxs tərəfindən, düşərgənin onunku olduğunu göstərmək üçün vurulmuşdur.

49^{B} №-li daşda 16, 18, 21, 34 və 36 №-ilə qeydə alınmış kimi və tabloda qeydə alınmamış xətt qalıqları da var.

Onu da qeyd edək ki, «Ceyranlar» düşərgəsinin divarlarını əmələ gətirən 49, 49^{B} və 49^{v} №-li eləcə də qonşu 48 №-li qədim təsvirlər saxlanmış daşlarda texniki imkanımızın olmaması üzündən görüb aşkar edə bilmədiyimiz, qeydiyyata alınmamış başqa təsvirlərin olması da istisna deyil. 49^{B} №-li daşın cənub-qərb üzündəki rəsmlərin təxmini yaranma tarixini də düşərgənin əks divarını təşkil edən 49 №-li daşdakı rəsmlərin tarixi ilə bir dövrə aid etmək lazımdır.

Bu baxımdan ceyran rəsmləri (№№ 4, 22, 26, 27) və yan görünüşdə (№№ 6, 7, 33, 35) qadın rəsmlərinin yuxarı paleolitin sonunda, təxminən eramızdan əvvəlki XVIII-XV minilliklərdə, ön görünüşdə və silahlanmış qadınların, eləcə də qədim öküz (№ 14, 29) rəsmlərinin XII-X minilliklərdə, kişi təsvirlərinin 13, 17 №-li şəkillərdəki öküz rəsmlərinin neolit (eradan əvvəl 7-6 minilliklər) dövründə çəkildiklərini göstərmək olar.

Qədim qayaüstü təsvirlərin dövrü məsələsində nəzərə almaq lazımdır ki, onların tək-tək hallarda birinin (qədiminin) o biri (sonrakı) tərəfindən kəsilməsinə görə hansının hansından qabaq və ya sonra çəkildiyini demək olar. Lakin bu qabaq - sonrakılığın müddətini (10 il, 100 il, 1000 il) qəti demək çətindir.

Qədim qayaüstü təsvirlərin dövrü üçün isə, əsasən, heyvanın növü, yaşadığı (əgər nəsli kəsilibsə) geoloji dövr, Qobustan kimi arxeoloji qazıntılardan tapılmış təsvirlərin hansı dövrün mədəni təbəqəsi ilə əlaqəsi və ayrı-ayrı dövrlərin müəyyənləşdirilmiş dəst-xətti əsas götürülür. Lakin bu halda da mədəni təbəqələrin, tapılmış materialların hansı tarixi dövrə - minilliklərə aid olduğu baxımından onların da dövrü tarixi minilliklər çərçivəsində müəyyənləşdirilir.

49^{B} №-li daşın üst üzü cənub-şərq tərəfə maili səthə malikdir və bu səthdə 7 ədəd sxematik keçi təsviri (36-cı tablo, B) qeydə alınmışdır. Onlardan 5 ədədi (№№ 1-4 və 7) qonşuluqdakı 49^{A} №-li və 48 №-li daşın üst üzündə qeydə alınmış sxematik keçi təsvirləri ilə eyniyyət təşkil edir. Görünür, bunlar da onlarla bir vaxtda, bəlkə də eyni adam tərəfindən çəkilmişdir.

Burada qeydə alınmış təsvirlərdən ikisi (№№ 5, 6) isə öz dəst-xətti və reallığı ilə seçilir. Bunlar keçi təsvirləridir. Onların hər ikisinin yönü sağadır. Birinin (№ 5) bədənini əmələ gətirən paralel üfüqi xətlərin ucları yaxınlaşaraq iti bucaq altında birləşir. Onun da qabaq və dal ucundan aşağıya bədənə şaquli olaraq ayaqlar, qabaq ucun üstündən yuxarı qalxaraq dala meyillənən qoşa, qövsvari xətlərlə buynuzu və bədənin dal ucundan iri, qövsvari quyruq çəkilmişdir. Bu keçi rəsminin daşdakı başqa rəsmlərdən bir qədər əvvəl təsvir olunduğunu söyləmək olar.

49^{B} №-li daşın üstündə, rəsmlərdən bir metrə qədər şərqə tərəf, yağış suyu yığmaq üçün, diametri 18, dərinliyi 8 sm olan bir ədəd də yalaq qazılmışdır.

DAŞ № 49-V

«Ceyranlar» düşərgəsinin arxa divarını təşkil edən, (15-ci foto şəkil) 8-10 metr hündürlüyündə qaya-daşdır. «Ceyranların» içinə baxan üzü dikinə və hamar divar əmələ gətirir. Daşın bu üzündə yerdən 1 metr hündürlüyə qədər səviyyədən, «Ceyranlar»da aparılmış arxeoloji qazıntılar nəticəsində aşkar edümiş 6 ədəd şəkil və qədim təsvirlərdən 4 qrup xətt qalığı qeydə alınmışdır (36-cı tablo, B, 1-10).

Təsvirlərdən biri (№ 1) kölgəvari döyülmüş qadın, ikisi (№№ 2, 3) öküz, üçü isə (№№ 6, 7, 10) qabaq hissələri saxlanmamış, quyruq, bədən və süksün hissələrinə görə, yenə öküz tipli heyvan rəsmləridir. Oxunması çətin olan xətt qruplarından biri (№ 5) kiçik dairə və bir qədər aralıda kiçik qövsdən ibarətdir. 4 və 9 №-li xətt qrupları da, çox güman ki, hansısa heyvan rəsmindən qalıqlardır. Burada aparılmış arxeoloji qazıntıların nəticələrinə əsasən buradakı təsvirlərin çox qədimdə üst paleolit dövründə çəkildiyini demək olar.

«Ceyranlar» düşərgəsində arxeoloji qazıntı nəticəsində üzərində təsvirlər olan 2 ədəd də kiçik ölçülü daş tapılmışdır. Onlardan biri qazıntı materiallarının qeydiyyatı sırasında 22 №, ikincisi 23 №-ilə qeydə alınmış, hər ikisi Qobustan Dövlət tarixi-bədii qoruğunun fondunda saxlanır.

22 №-li daş qazıntıda, düşərgənin içində qarışıq təbəqədən, 23 №-li isə sığınacağa girəcəkdən sağ tərəfdə, 49 №-li daşın düşərgədən çıxış yoluna tərəf qum qarışıqlı lilli alt təbəqədən tapılmışdır.

22 №-li ellipsvari, 36x23 sm ölçülü daşın bir üzündə 2 ədəd rəsm döyülüb (38-ci tablo, Q). Rəsmlərin birində (№ 1) bir qolunu belinə qoymuş, o biri qolunu qabağa uzadıb dirsəkdən yuxarı qaldıraraq, əlində nə isə yumru bəlkə də sapand (dairəvi) əşya tutmuş, başı yumru, boynu nazik, ayaqları aralı qoyulmuş adam, ikincisində (№ 2) adamın qabağında olmaqla naməlum heyvan təsvir edilmişdir. Rəsmlər birlikdə adamın heyvanı qovması səhnəsini təşkil edir.

23 №-li inventar daş uzunsov, ucları şiş olmaqla, 2 adamın yerdən qaldıra biləcəyi 3 üzlü daşdır. Onun hər 3 üzündə təsvir qalıqları qeydə alınıb (39-cu tablo, a, b, v, 1-16). Onlardan birinci üzdə (a) iki qədim qadın (1,3), bir qayıq (2) rəsmi və iki xətt (4,5) qalığı vardır. Qadın rəsmləri daş dövrü üçün səciyyəvi təsvirlərdir. Onlar yan görünüşdə, yönü sola olmaqla, çıxıntıvari baş, iri döş, nazik bədən, yumru oturacaq və yoğun baldırla göstərilmişdir.

Daşın ikinci üzündə (b) iki keçi (№ 6, 7), bir heyvan (№ 10) və iki qrup (№ 8, 9) xətt qalığı saxlanmışdır. Keçilər ağır bədənlidir, biri (№ 7) baş və buynuzlarla, ikincisi (№ 6) baş və dal ayaqlarının hissəsi aşınma nəticəsində pis saxlanmışdır. 10 №-li şəkildəki heyvan real baş, qoşa qulaq və qabağa hərəkət edən kimi, qabaq ayaqlarla verilmişdir. Onun arxa hissəsi saxlanmayıb.

Daşın üçüncü üzündə (v) bir kişi (№ 15), bir öküz (№ 16) 4 xətt qalığı saxlanıb. Adam qolları yana açılmış, sol əlində nə isə tutmuş, ayaqları aralı, ön görünüşdə təsvir edilmişdir. Öküz yumru çiyinli, kök, qısa quyruğu aşağı sallanmış, başı daşın kənarına düşdüyündən verilməmiş təsvir edilmişdir.

Qobustanda daşaltı sığınacaqlarda aparılmış arxeoloji qazıntıların nəticələrinə əsaslanmaqla daşın üzərindəki qadın təsvirlərini (№ 1, 3) mezolitin əvvəllərində, adam rəsminin (№ 15) və öküzün er.əvvəl VIII-VII minilliklərdə, naməlum heyvanın (№ 10) və keçi (№ 6,7) təsvirlərinin ilk tunc dövründə, qayığın isə (№ 2) mezolit-neolit dövründə çəkildiyini demək olar. Qeyd edək ki, bu daş (39-cu tablo) minilliklərlə «Ceyranlar» düşərgəsindən istifadə etmiş qədim qobustanlıların öz dövrlərində istifadə etdikləri inam daşı olmuş və özündə müxtəlif dövr adamlarının inamını saxlamışdır. Onun üzərində hər dövrün düşərgə sakinləri öz rəsmlərini həkk etmişlər.

DAŞ № 50

«Ceyranlar» düşərgəsindən 345° altında 23 metr, 48 №-li daşdan 315° altında 16 metr, 51 №-li daşdan 90° altında 25 metr məsafədə, yerdən bitili, şimal-qərb - cənub-şərq uzunluğu 9,5 metr, eni 1,5 metr, daşın cənub başında hündürlüyü 1,8 metr, üstü iki çatlı və getdikcə yerə enən daşdır.

Daşın cənub tərəfi dik və hamardır. Burada 4 ədəd qədim təsvir: bir qayıq və 3 adam təsviri qeydə alınmışdır (38-ci tablo, V, 29-cu fotoşəkil). Qayıq təsviri (şəkil № 1) içərisində 4 şərti adam olmaqla, qövsvarı formada, siluet şəklində döyülmüşdür.

İkinci şəkildəki (№ 2) qadının döşləri və baldırları yoğun verilmiş, çiynində sağdan sola maili uzanmış və hər iki ucundan aşağıya iki çıxıntısı olan alət, belində sağ tərəfə bir xətlə kəmərçin göstərilmişdir. Onun baldırları yuxarı hissədə yoğun, aşağıya getdikcə nazilir və ayaqları yana açılır. Sağ tərəf ayağının altından aşağıya iki kiçik xətt çəkilmişdir ki, onun nə məqsəd güddüyünü demək çətindir.

Üçüncü şəkildə (№ 3) yumru başlı, iri döşlü, nazik və uzun bədənli qadın təsvir edilmişdir. Onun ayaq hissəsi və dördüncü şəkildəki qadının sol tərəf ayağının uzununa yarısı daşdan təbəqə qopması ilə düşüb saxlanmamışdır.

Dördüncü şəkildəki (№ 4) qadının kəmərçindən yuxarı bədəninin uzununa sağ tərəfi, döşünün çox hissəsi, çiynindəki alətin sağ tərəfə olmuş hissəsi və adamın başı da daşdan qopmuş başqa təbəqə hissə ilə düşüb saxlanmamışdır. Qadının çiynindəki alətin sağ tərəf hissəsindən aşağıya dörd ədəd çıxıntısı, belində hər tərəfə iki xətlə kəmərçini, baldırlarının yoğunluğu göstərilmişdir.

50 №-li daşın «Ceyranlar» düşərgəsinə yaxın qadın təsvirlərinin oradakı qadın təsvirləri ilə oxşarlığı bu təsvirlərin də «Ceyranlar» düşərgəsinin son dövrü adamları tərəfindən, üst Paleolit, qayığın isə neolit dövründə çəkildiyini deməyə əsas verir.

DAŞ № 51

«Ceyranlar» düşərgəsindən 315° altında 27 metr, 50 №-li daşdan 270° altında 25 metr, bu sahədəki rus dilində mühafizə yazısı olan daşdan 120° altında 87 metr məsafədə, şimal-qərb-cənub-şərq uzunluğu 14 metr, eni 9 metr olmaqla dördbucaqlı sahə tutan, 6-7 metr hündürlüyündə nəhəng qaya daşdır. Daşın cənub-qərb tərəfi güclü aşınmaya məruz qalıb və daşın bu tərəf üzünün şimal (sol) hissəsində uca yaxın, yerdən 1 metr hündürlükdə 6 ədəd sxematik heyvan təsvir edilmişdir (38-ci tablo, A, 1-6, 30-cu fotoşəkil).

Onlardan biri (№ 1) ümumi baxışda nisbətən reallığa yaxın təsvir edilmiş heyvan şəklidir. Onun alt və üst çənəsinin və qabaq ayaqlarının ucları bucaq altında bir-birinə yaxınlaşır, dal ayaqlarını dikinə və paralel xətlər təşkil edir. Quyruq çəkilməyib. Alın xəttinin yuxarı ucu azca dala əyilməklə kiçik buynuz (1 ədəd) əmələ gətirir. Təsvirin hansı heyvana aid olmasını demək çətindir. Qalan təsvirlərin dördünün (№№ 2, 3, 4, 6) buynuzuna və birinin (№ 5) quyruğuna görə keçiyə aid olması şübhə doğurmur. Təsvirlərdən 1 №-li şəkildəki heyvanın çəkilmə dövrü ilk orta əsrlərə, qalanları son əsrlərə aiddir.

DAŞ № 51-A

51 №-li daşın cənub-qərb tinindən 4 metr qərbdə, yuxarıya doğru nazilən, yerdən bitili kiçik daşdır. Daşın qərbə baxan maili və hamar üzündə, yerdən 1,3 metr hündürdə bir at təsvir edilmişdir (38-ci tablo, B). At boynunu yuxarı qaldırmış və qoşa qulaqla, bədəni, dal və qabaq ayaqları iki paralel xətlə verilmiş, üfüqi olaraq dala uzanmış quyruğunun ucu üç dişli yaba formasını almışdır.

Təsvirin xətlərinin çəkilmə texnikası və saxlanma vəziyyəti onun son əsrlərdə çəkildiyinə dəlalət edir.

DAŞ № 52

«Ceyranlar» düşərgəsindən 245° altında 130 metr, 51 №-li daşdan 240° altında 70 metr məsafədə, 43 №-li daşdan 60° altında 31 metr məsafədə, 43ª №-li daşdan 30 metr şimala 20x15 metr olmaqla düzbucaqlı sahəni tutan, 6-7 metr hündürlüyündə nəhəng qaya parçasıdır. Ensiz çatlarla bir neçə yerə bölünmüşdür. Onlardan şimal-şərqdəki ən böyük hissənin üstündə yağış suyu yığmaq üçün böyük su hovuzu qazılmışdır (31-ci fotoşəkil). Daşın üstünə çıxmaq vasitəsiz mümkün deyil. Görünür, hovuzun suyunu götürmək üçün çox uzun ağac nərdivandan və ya asma ip nərdivandan istifadə olunmuşdur. Hazırda daşın üstünə çıxmaq üçün vasitəmiz olmadığından hovuzun dəqiq ölçülərini almaq mümkün olmadı. Hovuzun aralıdan - yerdən görünüşü onun bu sahədəki 46, 46ª, 53 və 123a №-li daşlardakı hovuzlarla analoji olmasını göstərir.

52 №-li daşın qərb tərəfində, daşda nisbətən iri çatdan sağ tərəfdə 8 ədəd sxematik təsvir (40-cı tablo, A, 1-8 və 32-ci foto şəkil) və yerdən 30 sm yuxarı daşın tili üzərində bir ədəd yalaq qeydə alınmışdır. Təsvirlərdən birinin (№ 1) yönü sola, dördününkü (№№ 5-8) sağa olmaqla 5 ədəd sxematik keçi, bir atlı (№ 2), bir sxematik dəvə (№ 3) tipli dördayaq heyvan və naməlum xətt qalığı (№ 4) çəkilmişdir. Keçilərdən birinin (№ 1) başı buynuzu ilə qabaq ayağını əmələ gətirən şaquli xətdən qabağa iki kiçik, dimdikvari xətlə göstərilmişdir. 5 №-li şəkildə keçi nisbətən reallığa yaxın olsa da qabaq ayağının biri çatmır, lakin boynu irəli uzanmış və buynuzları ondan yuxarı çıxmışdır. 6, 7, 8 №-li şəkillərdəki keçilər başsız və birisinin, (№ 8) dal ayağının biri olmadan, bədəni bir xətlə verilmişdir.

2 №-li şəkildə atlı təsvir edilib. Atın boynu irəliyə və yuxarıya uzanmaqla, qulaqları qabağa şəklənmişdir. Üstündəki adam bir uzun və qısa xətlə, uzun xəttin yuxarı ucunda dairəciklə verilmiş, onun sinəsindən qabağa uzanan düz xətt (yüyən) atın boynuna çatır və sonra atın alt çənəsinin davamı kimi qabağa uzanır.

3 №-li şəkildə üfüqi xətdən aşağıya dörd şaquli xətlə heyvanın ayaqları verilmiş, bədəninin sağa uzanıb yuxarı qalxaraq çıxıntı ilə qurtaran ucu, başı əvəz etməklə, ümumi baxışda dəvə təsvirini andırır. Onun çiynində yuxarıda və 4 №-li şəkildə qeyri-müəyyən şəkil qalıqlarından xətlər saxlanmışdır.

52 №-li daşın üzərində qeydə alınmış, yuxarıda göstərilən təsvirlər iti metal alətlə çapılmışdır. Onların texniki təzəliyi və mövzusu son əsrlərdə çəkildiyini deməyə imkan verir.

52 №-li daşın cənub-qərb üzündə bir-birindən üç və dörd metr aralı, yer səviyyəsindən 1 metrə qədər hündürdə olmaqla, heyvan bağlamaq üçün üç ədəd də deşik açılmışdır.

DAŞ № 52 - A

51 №-li daşdan 220° altında təxminən 40 metr, 52-b №-li daşdan 210° altında 10 metr qərbə, 52 və 52-b №-li daşların arasında nəhəng qaya parçasıdır. Üstü qərbə tərəf mailidir. Şimal-şərq tərəfi dikdir. Uzunluğu 10 metrdir. Şimal-qərb-cənub-şərq (7-3 metr) olmaqla, çatla iki bölünmüşdür.

Daşın şimal-qərb tərəfində üstünə çıxmaq üçün 6 ədəd ayaq yeri qazılıb və bu hissənin qərb tərəfində, ən hündür yerində bir ədəd sxematik keçi (40-cı tablo, B) və daşın şərq hissəsinin zirvəsində də bir ədəd yenə sxematik atlı təsviri (40-cı tablo, B) qeydə alınmışdır.

Keçi təsvirinin bədəni və ayaqları iç-içə iki «П» hərfi formalı xətdən ibarətdir. Onun sağ küncündən dal ayağın davamı kimi yuxarı uzanan xətlə quyruq, qabaq ayağın yuxarısından irəli çıxıb sonra düzbucaq altında dala dönən qoşa xətt isə baş və buynuz əmələ gətirir.

Atlı təsvirində atın bədəni və ayaqlarını paralel və qoşa xətt təşkil edir. Qabaq ayağından düzünə yuxarı və bel xəttinin qabaq ucundan düzbucaq altında

yuxarı qalxan xətlər onun dik qalxmış boynunu təşkil edir. Baş yeri iki, qoşa qulaq və bucaq əmələ gətirən açıq ağızla qurtarır. Quyruğu dala uzanır və ucu yumrulanaraq düyüldüyünü göstərir.

Süvarinin bucaq əmələ gətirən qısa ayaqları atın belinə birləşir və onların birləşdiyi yerdən yuxarı qalxan düz xətt süvarinin bədənini göstərir. Süvarinin ortasından keçən üfüqi uzun xəttin bir ucu atın başına birləşir, əks ucu isə atın quyruğu bərabərində dala uzanır. Bu xəttin atın yüyəni, adamın qolu və ya nizəsi olmasını söyləmək çətindir.

52^{A} №-li daşdakı keçi və süvari təsvirinin son əsrlərin maldarları tərəfindən çəkilməsi şübhə doğurmur.

DAŞ № 52-B

«Ceyranlar» düşərgəsindən 100 metr tam qərb tərəfdə, 51 №-li daşdan 240° altında 40 metr, 52 №-li daşdan 120° altında 24 metr məsafədə, 52^{A} №-li daşdan şərqə, onunla yanaşı (ara 10 metr) şərq-qərb uzunluğu 12 metr, hündürlüyü 6-7 metr nəhəng qaya parçasıdır.

Daşın cənub-şərqə baxan, ortadan çatı olan, düz divar əmələ gətirən üzündə, çatdan sağa (şərqə) 110-120 sm hündürlüyündə, 1 qatar, 6 ədəd pərdi yeri qazılmış və bu üzdə daşın çatından 1 metr sola yerdən 110 sm hündürdə 1 ədəd naməlum, sxematik heyvan təsviri (40-cı tablo, Q) qeydə alınmışdır. Təsvirdə heyvanın ayaqları uzun, bədəni qısa paralel xətlərlə verilmişdir. Heyvanın qabaq ayağının ucu ilə bel xəttinin qabaq ucu maili yuxarı qalxaraq birləşib, boyun və baş əmələ gətirmişdir. Başın arxasından yuxarı qalxan kiçik düz xətt daha iki qırıq xətlə yuxarı davam edir, lakin buynuz təsəvvürü yaratmır. Quyruğu belinə paralel olaraq «buynuz» xəttinə qədər uzanır. Belə quyruğa görə onun it olduğunu demək olardı. Lakin bədəninin qısalığı, ayaqlarının isə çox uzun olması belə oxşatmanı inkar edir. Beləliklə, onu çəkən savadsız «Rəssamın» nə çəkmək istədiyi məlum olmur.

Qeyd edəd ki, 52^{B} №-li daşda qazılmış pərdi yerləri, şəkil qalığı da son 19-20-ci əsrlərdə qışlaqda yaşamış maldarın fəaliyyətiylə bağlıdır.

DAŞ № 53

«Ceyranlar» düşərgəsindən 220° altında təxminən 250-300 metr, 36 №-li daşdan 260° altında 80 metr, 38, 39, 43^{A}, 52 №-li daşlardan cənuba 75-145 metr məsafədə nəhəng qayadır. Şərq tərəfi bir qədər irəli çıxaraq, altında uzunluğu 10, eni 5-1 metr üçbucaqlı sahəni örtür. Bu sahə cənub-şərq və şimal tərəfdən kobud yonulmuş daşlarla hörülmüş divarla əhatə olunaraq yaşamaq üçün sığınacaq düzəldilmişdir (33-cü fotoşəkil).

Daşın cənub-şərqə baxan üzündə, örtülü sahənin üstündə yağış sularını yana ötürmək üçün qanov və ondan aşağı pərdi ucu qoymaq üçün oyuqlar açılmışdır.

53 №-li daşın üstünün şərq kənarına yaxın yağış suyunu yığmaq üçün böyük bir su hovuzu və yağış suyunu ona qaytarmaq üçün qarımlar qazılmışdır. Hovuzdan azca aralıda, «1932» və ərəb əlifbası ilə hovuzun sahibinin və ya onu qazan ustanın adı «Hacı Xəlil» yazılmış, Xəlil sözündən sonra isə latın əlifbası ilə oxunması çətin və aydın olmayan bir söz yazılmışdır. Məlumatları yoxlamaq və hovuzun ölçülərini götürmək üçün tutduğu ərazi təxminən 20x20, hündürlüyü 7-8 metr olan daşın üstünə çıxmaq indiki vəziyyətdə lazımi vasitəsiz çətindir.

Qeyd edək ki, 53 №-li daşla 40, 42, 43, 52, 51, 50, 48, 123, 47, 45, 46 və 36 №-li daşların əhatələdiyi, diametri təxminən 250-300 metrlik sahə keçən əsrlərdə qışlaq sahəsi olmuşdur. Bu ərazidə hər yerdə yanıq torpaq sahələrinə, qaya və kiçik daşlarda yalaqlara və heyvan bağlamaq üçün dəlmələrə rast gəlmək olur. Bu ərazidə 46, 46^{a}, 52, 53 və 123^{A} №-li qayalar üzərində uzunluğu 1 metr və daha çox olan nəhəng su hovuzları qazılmışdır. Bütün bunlar bu ərazidə son əsrlərdə qışlaq həyatının qaynar olduğunu göstərir. 53 №-li daşın üstündəki böyük su hovuzu qeyd olunan sahənin çox yerindən görünür.

DAŞ № 53-A

53 №-li daşın şimal tərəfində, onun çölə meyillənmiş hissəsinin altında, 8x4 metr ölçülü yer tutmuş, 3 metr hündürlüyü olan yerdən bitili qaya parçasıdır. Onun 53 №-li daşa baxan üzünün yerdən 2-3 metr hündür yerində bir ədəd sxematik at təsvir edilmişdir (41-ci tablo, A).

Onun bədəni və boynu paralel qoşa xətlə verilmiş, ayaqları da qoşa xətlə göstərilmişdir. Atın boynunun uca yaxın hissəsində qabaq xətt düzbucaq altında sınıb baş əmələ gətirmiş, boyun xətlərinin ucu isə qoşa qulaq təşkil edir. Atın quyruğu üfüqi olaraq arxaya uzanan kiçik xətlə göstərilmiş və bu xətt (quyruq) ortada yumrulanıb, düyülmüş təsəvvürü yaratmışdır. At təsvirinin burada son əsrlərdə çəkilməsi şübhə doğurmur.

İ.M.Cəfərzadənin qeydə aldığı daşlardan 36-53 №-lər arasında olanlar keçən əsrlərdə qışlaq olmuş bu ərazidədir və çoxunun təsvirləri qışlağın adamları tərəfindən çəkilmişdir. Bu ərazidəki qayaüstü təsvirlərdən ən qədimləri yalnız «Ceyranlar» düşərgəsini təşkil edən 49, 49^{B} və 49^{v} №-li, eləcə də qonşuluqda 48, 50 və 123 №-li daşlarda qeydə alınmışdır.

DAŞ № 54

Kiçikdaş dağı qədim qayaüstü təsvirlər kolleksiyasının 53 №-li daşından 155° altında 170 metr məsafədə və 55 №-li daşdan 30° altında 410 metr məsafədədir. Cənub-qərb-şimal-şərq olmaqla, uzunluğu 10 metr, eni 4 metr, yerdən, alçaq qaya parçasıdır. Cənub-qərb tərəfi uzununa qopub aralanıb. Aralanmış çatın eni üst səviyyədə 1 metrdir və alta getdikcə daralır. Daşın cənub

ucunda yerdən 30 sm hündürdə iki yüklü heyvan, çox güman ki, «dəvə» təsvir edilmişdir (41-ci tablo, B). Onlar olduqca sxematik, bədənləri üfüqi, ayaqları bədənə şaquli xətlə verilmiş, hər ikisinin belində kvadrata yaxın yarımdairəvi yük göstərilib. Hər ikisində boyun bir xətdən ibarət olub, bədənin qabaq ucu ilə qabaq ayağın yuxarı ucunun birləşdiyi yerdən çıxıb, maili olaraq qabağa tərəf yuxarı uzanır. 1-ci şəkildə boyunun ucu haçalanıb açıq ağız təsəvvürü yaradır. 2-ci şəkildə boyun alt üzə tərəf dairələnir və yuxarı 2 qoşa xətlə baş və qulaqlar göstərilib.

Təsvirlərin olduqca sxematik olması və iti alətlə yaxın vaxtlarda çəkilmiş olması aydındır.

DAŞ № 55

Kiçikdaş dağı 54 №-li daşdan 240° altında 410 metr, 56 №-li daşdan 295° altında 174 metr məsafədə bu istiqamətdə dağın üstündə görünən, bir-birindən 25-30 metr aralı 2 nəhəng qayanın arasındadır. Daşın şimal-şərq tərəfi nə vaxtsa sındırılıb və bu tərəfdə daş iki laydır. Ən çox hündürlüyü 110 sm-dir. Onun üstündə 2 qazanvarı yalaq qazılmış, şərq tərəfində alt layın cənub ucuna yaxın tinində isə heyvan bağlamaq üçün bir ədəd iri deşik açılmışdır.

Yalaqlardan şimal hissədəkinin diametri 30x33 sm, dərinliyi 16 sm-dir. Ondan 113 sm cənub-şərqdəki 2-ci yalağın diametri 30, dərinliyi 18 sm-dir.

DAŞ № 56

Kiçikdaş dağı sahəsində 55 №-li daşdan 115° altında 174 metr, 57 №-li daşdan 315° altında 190 metr məsafədə, «Firuz» düşərgəsindən (daş № 80) 290°, 78 №-li daşdan 260° altındadır. Şimal-şərq-cənub-qərb uzunluğu 8 metr, eni 4 metr, küncləri qövsvariyə yaxın yerdən bitili daşdır. Qərb tərəfi və cənub tərəfinin bir hissəsini torpaq basıb, qalmış hündürlüyü 1 metrə qədərdir. Daşın şərq üzü hündürlüyü 2,5 metrə qədər düz və dikdir. Bu üzün şimal hissəsində yerdən 1 metr hündürlük səviyyəsində 1 ədəd içərisi xaçvari kəsilmiş dairə və ondan sağa, yönü sağa olmaqla, çox kobud və savadsız çəkilmiş keçi təsvir edilmişdir (41-ci tablo, V). 1-ci şəkildə dairə azca uzunsov təhərdir, içərisi üfüqi və şaquli xətlə 4 yerə bölünür və üst (yuxarı) tərəfindən 4 kiçik və paralel xətt qalxır. Təsvirin mövzusunu və nə məqsəd daşıdığını demək çətindir.

Keçi təsvirində (şəkil № 2) heyvanın qabaq və dal ayaqlarının ucları bucaq altında birləşir, qarınaltı xətti içəriyə batıq olmaqla, bədəni bir növ dördbucaqlını xatırladır. Onun ağzı iki üfüqi xətlə və buynuzları yuxarı qalxıb dala dönmüş iki xətlə verilmişdir.

Hər iki təsvirin 19-cu əsrə aid olması şübhə doğurmur.

DAŞ № 57

«Firuz» düşərgəsindən (daş № 80) 270° altında tam qərbə və 360 metr məsafədə, 56 №-li daşdan 135° altında 190 metr, 83 №-li daşdan 255° altında 250 metr məsafədə, şərq tərəfində uzunluğu 9 metr, hündürlüyü 2 metr, şimal ucda 90 sm olmaqla şərq tərəfi düz divar əmələ gətirən, qalmış hündürlüyü maili olaraq 70-80 sm olan, qərb tərəfini torpaq basmış yerdən bitili uzun daşdır.

Daşın şərq üzünün orta hissəsində 6 ədəd şəkil qalığı vardır (41-ci tablo, Q və 34-cü foto şəkil). Onlardan ikisi maral (şəkil №1, 4), biri keçi (şəkil № 5), biri süvari (şəkil № 6), ikisi isə xətt (şəkil № 2 və 3) qalıqlarıdır.

Maralların hər ikisinin yönü sağa, keçi və süvarininki soladır. Birinci şəkildəki maralın bədəni və buynuzları, keçi təsviri (şəkil № 5) reallığa yaxındır. Lakin maralın quyruğu keçi quyruğu kimi verilib, 4-cü şəkildəki maral daha çox sxematikdir. Onun bədəninin sağdan yuxarı küncündən çıxan xətt uzanaraq, boyun və heyvanın qabaq buynuzunu əmələ gətirir. Baş yerində boyun xəttindən çıxan, ucu yumrulanmış kiçik xətt maralın alt çənəsini, heyvanın belindən çıxıb maili olaraq qabağa uzanan xətt onun qabaq buynuzunu və boynunu kəsib, ucu üst çənə əmələ gətirir. 4-cü şəkildə daldan ikinci ayaq da qeyri-normaldır.

Süvari təsvirində atın başı və qulaqları boyunun qurtaracağında kiçik xətlə göstərilib, sağrısı yoğundur. Quyruğu aşağı sallanmış kiçik qövsvari xətlə verilib və ucuna yaxın yumrulanıb, quyruğun düyüldüyü göstərilmişdir. Süvari, ucları yuxarıda yarımqövsvari birləşən və atın belini kəsməklə aşağı enən iki qoşa xətlə göstərilmişdir. Atın boynunu kəsən bir xətt yanda qırılıb və sonra süvarinin çiyninə birləşməklə atın yüyənini tutması ifadə olunmuşdur. 57 №-li daşdakı təsvirlərin öz çəkilmə texnikası və Qobustanın başqa qayaüstü təsvirləri ilə müqayisəyə əsasən son 8-19-cu əsrlərdə çəkilmiş olduğunu göstərmək olar.

DAŞ № 58

Kiçikdaş dağı sahəsinin cənub hissəsinin şərq ətəyində, «Firuz-2» düşərgəsindən təxminən 550 metr cənuba, bu səmtdə çatı olan Sarı qayadan cənuba - düzə tərəf 250-300 metr, 59 №-li daşdan 330° altında 204 metr məsafədə, şərq tərəfdə uzunluğu 35 metr, hündürlüyü 7-8 metr olan nəhəng qaya daşdır. Qərb-şərq olmaqla 1-1,2 metr enində çatla iki bölünmüşdür. İ.M.Cəfərzadə daşın şərqə baxarında 4 qrup rəsm qeydə almışdır. Onlar daşın şimal hissəsinin çata baxan üzünün şərq ucunda öküzün tələyə düşməsi səhnəsi, gur və xətt qalığından, daşın şərq üzünün cənub ucunda bir gur, şimal ucunda 2 it və cənub hissənin şərq üzünün çata yaxın səthində 3 keçi və 1 at təsvirindən ibarətdir.

58 №-li daşda 1-ci qrup təsvirlərdə (42-ci tablo, A) əsasən öküzün (№ 1) tələyə (№ 2) düşməsi səhnəsi verilir. Səhnədə öküzün bədəni (uzunluğu 80 sm, çiynində hündürlüyü 55 sm) dəqiq xətlərlə təbii verilmişdir. O iri və kökdür, boynu

qabarıqdır, qabağa uzanmış boğazı bir az nazilir, alnı düz, başı iridir. Qabağa uzanmış dalğavari buynuzlarının ucu dik qalxır. Buynuzların dalında iki kiçik xətlə qulaqları göstərilmişdir. Döşü qabağa qabarmışdır. Uzun quyruğu aşağı sallanır.

Öküz tələdən çıxmaq üçün qabağa dartıldığından qabaq ayaqları azca dala tərəf əyilmiş, ağzından öküzün yorulmasını göstərən köpüyü ifadə edən iki xətt çıxır.

Tələ (№ 2) yuxarıdan haçalanaraq, birinin ucuna ağırlıq daşı bağlanmış iki xətdən ibarətdir. Onların ayrıldığı ana xəttin ucu yuxarıda nəyəsə bağlanıb, birinin ucu açıqdır.

Səhnədə öküzün arxa hissəsi tələyə düşüb, öküz çıxmaq üçün dartınır, ağzından köpük gəlir. İ.M.Cəfərzadə bu səhnəni eramızdan əvvəlki VI minilliyə aid edir. Şəkil № 3-dəki rəsm at hesab olunub. Onun bədəninin yandan görünüşünü verən xətlərin bəzi yerləri daşın aşınmaya məruz qalması ilə, tökülüb. Heyvan ayaq üstə, yönü sola olmaqla, ağır çəkili təsvir edilib. Onun yuxarı qalxmış boğazı uzun, qulaqları kiçik və dikdir. Sağrısı yumru, qısa quyruğu maili olaraq aşağı sallanmışdır.

Aşağı hissəsində ilgək alınmış şaquli xətdən ibarət 4-cü şəkli İ.M.Cəfərzadə bəlkə də yenə heyvan ovlamaq üçün tələ olduğunu güman etməklə, səhnənin bir qədər gec, öküz tələdə səhnəsinə oxşatma olaraq eradan əvvəl IV-III minilliklərdə çəkildiyini hesab edir (61).

Öküz tələdə səhnəsi üçün göstərilmiş tarixi dövrün doğruluğuna etiraz etmirik. Bəli, öküz tələdə səhnəsinin Qobustanda qaramalın əhliləşdirilməsi dövrünə, 6-cı, bəlkə bir qədər də qədimə, VIII-VII minilliklərə aid ola bilməsi təbiidir. Lakin 4-cü şəkildəki xətt qalığının 3-cü şəkil (at?) üçün tələ olması real deyil, bu şəkildə tələ başa düşülmür və təsvir üçün göstərilən dövr - IV-III minilliklər artıq heyvanların, əsasən, əhliləşdirilmiş olduğu dövrdür. Burada 3-cü şəkildəki təsviri isə at yox, bədənin doluluğu, quyruğunun qısa və nazik olmasına görə gur, dövrünü isə öküz tələdə səhnəsi ilə dal-qabaq olmaqla eyni dövrə aid olmasını göstərmək olar.

58 №-li daşın şərq tərəfinin cənub ucundakı gur yönü sağa olmaqla dolu bədənli, boynu qısa, yoğun çənəsi azca aşağı olmaqla, iri başla, qoşa qulaqla, dala uzanmış qısa və nazik quyruqla təsvir edilmişdir (42-ci tablo, B). Onun ayaqlarının ucu daşın aşınması nəticəsində tökülmüşdür.

58 №-li daşın şərq tərəfinin cənub ucundakı gur rəsminin 42-ci tablo, A, 3-cü şəkildəki gur təsviri ilə bir dövrdə, hətta dəst-xəttinə görə bir rəssam tərəfindən, eramızdan əvvəl VI minillikdə, bəlkə bir qədər də qabaq çəkilmiş hesab etmək olar.

58 №-li daşın şərq üzünün şimal ucunda yan görünüşdə, yönləri sola olmaqla, bir-birinin dalınca 2 it təsvir edilmişdir (42-ci tablo, V, 1-2). Onlardan qabaqdakı (№ 1) daldakından (№ 2) iridir. Qabaqdakının (№ 1) başı, boynu və qabaq ayağının yuxarı hissəşi, daşın aşınması nəticəsində pozulmuşdur. Daldakının

(№ 2) yumru çənəli başı qısa boynu üstündə düzgün verilib, iki qoşa xətlə göstərilmiş qulaqları yuxarı qalxmış və qabağa şəklənmiş göstərilmişdir.

Hər iki heyvanın ayaqları arxadan görünüşdəki kimi ikili verilib. Yuxarı qaldırılmış quyruq orta ölçülüdür və ucları çənbərlənib.

Daldakı itin qabaq və dal ayaqlarının ucu qövsvari birləşib. Onlar heyvandarlığın bərqərar olduğu dövrdə, eradan III minillikdə çəkilmişdir.

58 №-li daşın şərq üzünün çata yaxın yerində qeydə alınmış təsvirlər çox kobud və sxematik çəkilmişdir (43-cü tablo, A, 1-4). Onlardan üçü (№№ 1, 2, 3) yan görünüşdə, yönü sağa çəkilmiş keçi təsviridir.

Birinin (№ 1) başı, boynu və buynuzları yoxdur. İkisində (№№ 2, 3) orta ölçülü buynuzlar baş yerindən qalxıb dala tərəf qövslənir, dik qalxmış quyruqları, nisbətən iri və qabağa yatıqdır.

4-cü şəkildə yönü sağa olmaqla yan görünüşdə, bədən quruluşu qeyri normal heyvan çəkilmişdir. Səliqəsiz çəkilmiş, tutumlu bədəni elə bil iki (alt və üst) hissədən ibarətdir. Yoğun boynu yuxarı qalxıb aşağıya əyilir və çənəsi irəli, açıq ağızlı baş əmələ gətirir. Dik qalxıb arxaya tərəf əyilmiş qulaqları xeyli uzundur. Ucu aşağıya - maili dayanmış quyruğu iki xətlə göstərilmişdir.

Başı, qulaqları və quyruğuna görə atı andıran bu heyvanın dalında nə isə yük və ya yəhər qalığı var.

Daşın şərq üzünün çata yaxın yerində qeydə alınmış, göstərilən 4 ədəd heyvan təsvirinin 18-19-cu əsrlərdə çəkildiyini söyləmək olar.

DAŞ № 59

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub hissəsində, 58 №-li daşdan 150° altında 234 metr, 60 №-li daşdan 330° altında 120 metr məsafədə, dördüzlü piramida formalı böyük qaya daşdır. Qalan tərəflərdən enli olan qərb tərəfi dik və hamar səthə malikdir. Burada qeyri müəyyən heyvanın, ola bilsin ki, itin təsviri verilib (43-cü tablo, B).

Heyvan hücumedici qaçış vəziyyətində, yönü sağa olmaqla, yan görünüşdə göstərilib. Bədəninin qabaq hissəsi yoğun və güclüdür. Qısa və güclü boynu axırda heyvanın başı ilə tamamlanır, burnu qabağa yönəlir, çənəsindən qabağa uzanmış iki uzun xətt elə bil, ağzını açıb hürməsini göstərir. Başında bucaqvarı qoyulmuş iki düz xətt, qulaqları göstərir. Heyvanın ombası dairəvidir. Qarmaqvari quyruğu dik dayanır. Qabaq ayaqları qabağa uzanıb 3 dırnaqlı pəncələrlə qurtarır. Dal ayaqlarının ucları aşınma nəticəsində tökülmüşdür. O son əsrlərdə çəkilmişdir.

DAŞ № 60

Kiçikdaş dağının şərq ətəyinin cənub hissəsində 58 və 59 №-li daşlardan 150° altında və uyğun olaraq 350 və 120 metr məsafədə, 61 №-li daşdan 377 metr şimal-qərbə şimal-cənub dayanmış və çatla bir neçə hissəyə bölünmüş böyük qaya daşdır. Onun çox nazik bir hissəsinin qərb üzündə 10 ədəd şəkil və şəkildən xətt qalıqları qeydə alınmışdır (44-cü tablo, B, 1-10).

Onlardan üçü (şəkil №№ 1, 2, 9) keçi, biri (şəkil № 5) hansısa siluet döyülmüş yırtıcı, biri (şəkil № 6) adam, biri (şəkil № 10) heyvan şəklinin başsız qalığı, qalanları (şəkil №№ 3, 4, 7, 8) təsvirlərdən naməlum xətt qalıqlarından ibarətdir. Keçi təsvirlərindən № 1 və 9 Qobustanda 3-cü və 7-ci kurqanlardan tapılmış daşlar üzərindəki keçi təsvirlərinə oxşardır. Adam (şəkil № 6) qollarını yana açmış olmaqla ön görünüşdə verilmişdir. 5-ci şəkildə quyruğuna görə tülkü, lakin ümumi görünüşdə canavarı andıran yırtıcı təsviri daşda kölgə döyülmüşdür. Daşın üzərində hissə və xətt qalıqları halında saxlanmış təsvirlərin oxunması və təsviri izahı çətindir.

60 №-li daşdakı təsvirlərin saxlanma dərəcəsi və nisbi oxşarlığına görə dəmir dövründə (eramızdan əvvəlki I minilliyin əvvəllərində) çəkildiyini söyləmək olar.

DAŞ № 61

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub qurtaracağının şərq tərəfində 16 №-li daşdan 40 metr şimala, 17 №-li daşdan 132 metr cənuba, 60 №-li daşdan 377 metr cənub şərqdə, şimal-şərq tərəfdə uzunluğu 21 metr, cənub-şərq tərəfi 11 metr olmaqla, şimal-qərbə tərəf getdikcə nazilən, şərq tərəfdə hündürlüyü 9-10 metr nəhəng qayadan qopub, şərq tərəfdə qayanın altına düşmüş lay daşdır. Daşın uzunluğu şimal-cənub 6 metr, eni cənub ucda 35 sm-dir.

Daşın üstü düz və hamardır. Burada bir ədəd diametri 23x21, dərinliyi 8 sm yalaq qazılmış və qayaya tərəf baxan üzündə 2 ədəd aidiyyətini təyin etmək mümkün olmayan, şaxəli hissə və xətdən ibarət təsvir (44-cü tablo, A, şəkil 1, 2) qeydə alınmışdır.

DAŞ № 62

Kiçikdaş dağının şərq tərəfi dibində, 63 №-li daşdan 280° altında və bu istiqamətdə dağın ətəyindəki nəhəng qayadan 260° altında 50 metr məsafədə «Ceyranlar» düşərgəsindən şimal-qərb tərəfdəki rus dilli mühafizə yazısından təxminən 700 metr şimal-qərbdə, şərq üzü üçbucaq formalı, oturacağı 7,0, ortada hündürlüyü 4,5 metr, qalınlığı 1,0-1,3 metr daşdır. Şimal başını kol basıb, şərq tərəfdən aralıdan yaxşı görünür.

Daşın şərq, dik və hamar üzündə iri ölçülü qayığın bir böyük hissəsi və sağ tərəfdə ucundan kiçik qalıq saxlanmışdır (44-cü tablo, D və 35-ci fotoşəkil).

Qayığın qalmış hissəsinin uzunluğu 2 metrdir və içərisində 15 ədəd adam işarəsi var. Sağ tərəf ucundan qalmış hissə ilə arası aşınmaya məruz qalıb silinmişdir. Qayıqdan altda və silinmiş sahədən üst tərəfdə nə məqsəd daşıdıqlarını demək mümkün olmayan xətt qalıqları var. Təsvir, Qobustanda ən iri ölçülü qayıqlardandır. Təsviri saxlanma dərəcəsi və başqa cəhətdən tunc dövrünün sonlarına aid etmək olar.

DAŞ № A-B

Kiçikdaş dağı sahəsinin cənub qurtaracağında Qaraatlı qəbrstanlığından qərbə, 23 №-li daşdan 220° altında 8 metr, 24 №-li daşdan 11 metr qərbə, qalın lövhəvari, yerdən qaldırılıb atıla biləcək, 2 yerə bölünmüş və yan-yana qalxmış kiçik qaya daşıdır. Hissələrinin bir yerdə ölçüsü 1,0 x 0,7 metrdir.

Daşın üstü hamar və yastıdır. Burada 19 rəsm qeydə alınmışdır (43-cü tablo, V, 1-19). Onlardan 1, 2 və 14 nömrəlilər şəkillərdən xətt qalığı, 16-sı keçi rəsmidir. Rəsmlərdən 5 ədədi (№№ 4, 5, 7, 10, 16) yönü sağa, qalanları (11 ədədi) yönü sola təsvir edilmişdir. Onlar kök olmaqla, bədənləri mütənasib və real təsvir edilmişdir. 11-ci şəkildəki keçinin dal ayaqları daşın 2 bölünməsi ilə silinmişdir. Hamısında boyun qısa və yoğundur. Başları iri, çənələri kütdür. 9 və 19 №-li rəsmlərdə keçilərin boynu nazikdir, birində (№ 9) yuxarı qaldırılıb, ikincisininki aşağı, otlayan vəziyyətdədir. Hər ikisində baş düzgün verilmişdir. Hamısında buynuz iri, qövsvarı yuxarı qalxıb dala əyilir və ucları heyvanın belinə tərəf istiqamətlənir. Quyruqları yuxarı qalxıb, qarmaqvarı dala əyilir. 9-cu keçinin quyruğu aşınıb tökülüb, 10-cununku 2 xətlə göstərilib. 12 №-li keçinin bədəni uzununa dalğalı xətlə bəzənib.

Daşda olan keçi təsvirləri Qobustanda er.əvv. III minilliyin sonuna aid, 3-cü kurqandan inv. №-si 6, 7, 10 və 14 olanlar 30 №-li kurqandan tapılmış daşlardakı keçi təsvirləri ilə eyni üslubda çəkilmişdir. Bunu nəzərə alaraq A-B №-li daşdakı keçi təsvirlərini er.əvvəl III minilliyin sonu, II minilliyin əvvəllərinə aid etmək olar.

DAŞ № 63

Kiçikdaş dağı, şərq ətəyi sahəsinin şimal qurtaracağında «Ceyranlar» düşərgəsindən tam şimala (360°) 250 metr, rus dilində mühafizə yazısı olan daşdan 15° altında 150 metr, 63^{A} №-li daşdan 300° altında 200 metr məsafədə, düz sahədə tək dayanmış, üstü qərbə yatıq, tünd qaramtıl rəngdə çox nəhəng qaya daşdır. Onun cənub üzünün şərq ucuna yaxın, yerdən 2 metr hündürdə yönü sola olmaqla bir keçi təsviri qeydə alınmışdır. Heyvanın başı aşınma nəticəsində tamam tökülmüş, yarımqövs şəkilli, ucları birləşən buynuzları, nazik və dik qalxmış uzun boynundan hissə qalmışdır. Quyruğu dala tərəf uzanaraq ucu aşağıya tərəf qövslənmişdir (44-cü tablo, V).

Bu rəsmdə keçinin quyruğunun vəziyyəti, bədəni və boynunun nisbətən uzun verilməsi onun savadsız təsvir olunduğunu göstərir. Təsvir son orta əsrlərdə maldarlar tərəfindən çəkilmişdir.

DAŞ № 63-A

Kiçikdaş dağının şərq ətəyi sahəsinin şimal hissəsində, 63 №-li daşdan 120° altında 200 metr, 48 №-li daşdan 40° altında 150 metr məsafədə düzdəki şimal-cənub laylarla ayrılmış daş topasının şərq tərəfdəki hissəsidir. Şərq tərəfdə hündürlüyü 2 metrdir. Bu üzün cənub ucunda bir keçi təsvir edilmişdir (44-cü tablo, Q).

Keçinin boynu uzun, açıq qövs kimi dala əyilmiş buynuzları vardır. Kiçik qarmaqvari quyruğu keçinin belinə tərəf yönəldilib. Təsvir ümumi baxışda real görünür. Təsviri çəkilmə dəst-xəttinə görə son tunc dövrünə aid etmək olar.

DAŞ № 64

«Ceyranlar» düşərgəsindən 90° altında 260-270 metr, 46 №-li daşdan 75° altında 350 metr, 63^a ilə arası boş və ondan yaxşı görünən, 4 hissədən ibarət daş topasının 63^a nömrəli daşa tərəf olan hissəsidir. Ölçüləri şərq-qərb 6, şimal-cənub 5, hündürlüyü 2 metrdir. Daşın cənub üzünün ortasında bir ədəd heyvan təsvir edilmişdir. Onun bədəni, yönü sağa olmaqla, arxa tərəfdə nazik, döş və çiyin arası nəzərə çarpacaq dərəcədə yoğundur. Başı uzunsov, qabağa yönəlmiş vəziyyətdə, çiyni öküz çiynini andıran, quyruğu arxaya tərəf kiçik çıxıntıdan ibarətdir. Ayaqlar kiçik və qısa olsa da normal görünür. Təsvir ümumi baxışda öküzü andırır. Lakin buynuzları maili olaraq arxaya tərəf açıq qövs şəklində uzanmış və az qala belinə çatır (45-ci tablo, A). Bu heyvanın bədəninin öküzə, buynuzlarının keçi buynuzuna oxşaması təsvirin savadsız çəkilməsinə dəlalət edir.

Təsvirin dövrünü də mövzusu və texnikasına əsasən qədim, eramızdan əvvəlki III-II minilliklərə aid etmək olar.

DAŞ № 65

Kiçikdaş dağı qayalıqları ərazisinin şərq ətəyində 64 №-li daşdan 150° altında, təxminən 180-200 metr məsafədə, bu istiqamətdə dəmir yoluna tərəf, 64 №-li daşdan rahat görünən axırıncı daşlardan biridir. 66 №-li daşdan 335° altında 130 metr məsafədədir. Daşın qərb və şimal tərəfləri yerə yatır, cənub tərəfdə hündürlüyü 125 sm, ən çox uzunluğu 5 metrdir. Onun üstündə 2 adamın qaldıra biləcəyi, yanları sındırılmış kiçik daş var. Qədim təsvirlər daşın qərb ucundan 1-2 metr arasındadır.

Burada 4 şəkil qalığı saxlanmışdır (45-ci tablo, B, 1-4). Onlardan № 2-də adam təsvir edilmişdir. Onun bədəni (siluet) kölgəvari döyülmüş, ön görünüşdədir. Sağ əli yana açılıb aşağı sallanmış, sol qolu yana uzanmış və dibdə bir hissəsi tökülüb bədəndən ayrılmışdır. Ayaqları geniş açılmış halda qoyulmuşdur. Belindən sağa tərəf (adama görə sola tərəf) xətt uzanır.

3 №-li şəkil adamın beldən aşağı hissəsini andırır, lakin onun adam rəsmindən qalıq olmasını, eləcə də 1 və 4 №-li şəkil qalıqlarının aidiyyətini demək çətindir.

Təsvirlərin pis saxlanması, adam rəsminin kölgəvari döyülməsini nəzərə alaraq, dövrünü ən azı er.əvvəlki III minilliyin sonlarına aid edirik.

DAŞ № 66

Kiçikdaş dağı qayalıqları sahəsinin şərq ətəyində 65 №-li daşdan 155° altında 130 metr, 64 №-li daşdan 125° altında 250 metr, daş № 67-dən 50° altında 370 metr, 78-li daşdan 30° altında 370 metr məsafədə 11x8 metr ölçülü, cənub-şərq tərəfində hündürlüyü 280 sm cənub-şərq tini 1,2 metr qabağa çıxan iri daşdır.

Qədim şəkil qalıqları daşın cənub-şərq tininin orta səviyyəsində, daşın №-si «66» yazısından aşağıdadır. Burada 6 şəkil qalığı qeydə alınıb (45-ci tablo, V, 1-6). Onlardan № 1-də naməlum heyvanın qabaq ayaqları ilə bədəni saxlanıb, çox hissəsi silinib. 3 №-li rəsmdə heyvanın quyruğu və boynuna görə keçi təsvir edilmişdir. Onun şəkildə orta ayaqları qarınaltında düz bucaq kimi birləşir, başı iridir, çənəsinin ucu azca tökülüb. 5-ci şəkildə keçinin quyruğu və quyruq yeri, eləcə də boynunun xəttindən hissələri aşınıb tökülüb. 6-cı rəsmdə cinsi məlum olmayan heyvanın başında dikinə qalxmış, tək buynuzu saxlanıb. Ümumiyyətlə, təsvirlər çox pis saxlanmışdır. Ona görə də təsvirlərin dövrünü müəyyənləşdirmək çətinlik törədir.

DAŞ № 67

Kiçikdaş dağı qayalıqları sahəsinin şərq ətəyində 66 №-li daşdan 230° altında 370 metr, 64 №-li daşdan 180° altında 400 metr, 68-72 №-li daşlardan 290° altında 340 metr, 78 №-li daşdan 0°-də 215 metr məsafədə, şimal-qərb cənub-şərq 10 metr, cənub-şərq ucda hündürlüyü 110 sm, şimal-qərbə və şimal şərq tərəflərə alçalıb yerə enən, yerdən bitili daşdır.

Daşın üstündə diametri 50x38, dərinliyi 5-10 sm arasında, formasını itirmiş yalaq var.

Qədim şəkillər daşın cənub-qərb üzünün sağ tərəfi yarısındadır. Burada 9 ədəd şəkil və şəkil qalığı qeydə alınmışdır (45-ci tablo, Q, 1-9 və 36-cı foto şəkil).

Təsvirlərdən 5 ədədi (№ 5-9) tək oynayan adam, 2-si (№ 3-4) keçi rəsmi və 2-si (№ 1-2) rəsmlərdən xətt qalığından ibarətdir. Adam (kişi) təsvirlərinin hamısı

çıxıntıvarı (№ 6 və 7 yumrulaşmış) baş, şaquli xətlə verilmiş bədən, qolları yana açılmaqla yuxarı qaldırılmış, beldən sağa və sola uzanmaqla ortadan aşağı enmiş ayaqlarla sxematik göstərilmişdir. Onlardan ikisində (№ 6 və 9) bədənin aşağı ucu baldırların ortasından aşağı sallanır və onlarda kişilik əlaməti yaradır. Keçilərdən biri (№ 3) kiçik və savadsız, o biri (№ 4) çox iri baş və buynuzla, lakin hər ikisində reallıq baxışı saxlanmaqla, təsvir edilmişdir. 4 №-li şəkildəki keçi ümumi baxışda inventar nömrələri 3 №-li kurqandan 12, «Böyükdaş» yaşayış yerindən 103 və «Firuz» düşərgəsindən 586 №-li qazıntıdan aşkar edilmiş ilk tunc dövrünə aid şəkilli daşlardakı keçi təsvirlərilə eyni dəst-xətdən ibarətdir. Adam rəsmlərindən birinin «№ 9» dizlərindən də qollara paralel qövsvari qollar çıxır.

Adam təsvirləri Böyükdaş dağı yuxarı səki sahəsində 24 №-li daşdakı, İ.M.Cəfərzadənin er.əvvəl IV-III minilliklərə aid etdiyi rəqs edən adam təsvirlərinin eynidir (62). 1 №-li rəsm adam təsvirlərinin hər iki qolunun yuxarı qaldırılmış hissəsini təşkil edir. Yarımçıq qalmış 2 №-li təsvirin aidiyyəti məlum deyil.

DAŞ № 68

Kiçikdaş düşərgəsindən 40° altında, 66 №-li daşdan 170° altında 300 metr, daş № 67-dən 110° altında 340 metr məsafədə 69, 70, 71 və 72 nömrəli daşlarla topa daş yığını əmələ gətirmiş daşlardan biri, ortadakı, nəhəng daşdır. Onun şimal tərəfində uzunluğu 18, cənub-qərb tərəfində 20 metr, hündürlüyü 3 metrdir.

Daşın şimal tərəfinin altı 5 metr uzunluğunda örtülü sahə əmələ gətirərək, 69 və 70 №-li daşların üstünü qismən örtür. Daşın cənub-qərb tərəfi bir növ divar kimidir və altı kiçik sığınacaq əmələ gətirir. Onun girəcəyində qərb ucu 68 №-li daşın altına girən daş № 72, ondan qərbdə daş № 71 durur.

68 №-li daşın cənub-qərb tərəfində 3 ədəd sxematik insan təsviri qeydə alınmışdır. Onların üçü də yerdən 80-110 sm hündürlük arasında, bir cərgədə rəsm edilmişdir (46-cı tablo, A, 1-3). Onlardan soldakı adamla ortadakı adamın arası 255 sm, ortadakı adamla sağdakı adamın arası 290 sm-dir (Adamların arasındakı məsafə çox olduğundan onları tabloda yerləşdirmək üçün yaxınlaşdırılmışdır, lakin adamların ölçüsü masştaba uyğundur).

Onların hər üçü xətti olaraq sxematik çəkilmişdir. Bədənlərinin hündürlüyü uyğun olaraq 10; 8; 12,5 sm-dir. № 1-də ayaqlar, № 3-də baş çox qısa çəkilib. Şəkildəkilərin hər üçü bir növ tək rəqs edən adam təsəvvürü yaradır. Qobustanda bu tip adam təsvirləri Böyükdaş dağında yuxarı səki sahəsinin 24 №-li və aşağı səki sahəsinin 54 №-li daşlarındakı, er.əvv. IV-III minilliyə aid, ibadət rəqs edən adamları xatırladır.

DAŞ № 69

68 №-li daşın şimal tərəfinin qərb hissəsi altında yerdən bitili, şərq-qərb uzunluğu 7 metr, eni 3 metr, hündürlüyü qərb tərəfdə 1,3 metr olan, üstü şimal və cənuba yatıq daşdır. Daşın şərq ucundan 1,5 metr aralı, üstünün ən hündür yerində bir yalaq və ətrafında rəsm qalıqları saxlanıb (46-cı tablo, B, 1-7). Rəsmlərdən ikisində (№ 1, 2) adam, ikisində (№ 4, 5) heyvan təsvir edilmiş, № 3 və 6-dakı qalıqlarda nə təsvir olunduğunu demək çətindir, 7 №-ilə yalaq göstərilmişdir. Adam rəsmləri sxematik və xətti olmaqla, 68 №-li daşdakı adamlar tipindədir. № 1-də sağ əli çox yuxarı qalxıb, № 2-də beldən aşağı hissəsi saxlanmayıb.

4 №-li şəkildəki heyvanın başı, quyruğu və dal ayağının biri ilə arxa hissəsi saxlanmayıb. Ayaqları altında ortadan əyilmiş, dal ayaq altında ucu halqalanmış xətt çəkilib. Burada hansı heyvan çəkildiyini demək çətindir. 5 №-li rəsmdə heyvan qabaq ayaqlarını qoşa qoyub boynunu yuxarı və qabağa uzatmış qoşa qulaqlar ilə təsvir edilmiş atı xatırladır. Lakin onun quyruğu keçininki kimi yuxarı qaldırılmış və çox kiçikdir. Bu səbəbdən onun at və ya keçi olması mübahisəlidir. Yalağın (№ 7) diametri 20x25, dərinliyi 12 sm-dir.

69 №-li daşdakı şəkillərin dövrü də 68 №-li daşdakı adamlarla bir dövrə er.əvvəl IV-III minilliyə aiddir.

DAŞ № 70

68 №-li daşın şimal-şərq tərəfi altında qərb tərəfi yerlə bərabərləşən, şərq tərəfi 80 sm hündürlükdə, üst üzdə qərb-şərq uzunluğu 3,8 metr, eni 2 metr, yastı, yerdən bitili daşdır.

Daşın şimal tini üstündə 2 ədəd ellipsvarı (forması bir qədər korlanmış) 60x28 sm və 45x28 sm ölçülü, çox da dərin olmayan yalaq var. Yalaqlardan cənuba tərəf çoxlu rəsm və rəsm qalıqları qeydə alınmışdır. Onların çoxu daşın üstünün cənub hissəsindədir və bu hissəsinin üstü ilə üstdəki 68 №-li daşın arası 20-30 sm-dən artıq olmadığından əl çatmır. Ona görə yalnız şimal hissədə olan bir sıra qədim təsvirlərdən xətt qalıqlarının üzünü çıxarda bildik (46-cı tablo, V). Burada 4 qrupda (№№ 1, 2, 4, 6) izahı mümkün olmayan xətt qalıqları, bir halda (№ 5) ox işarəsi və bir heyvan (№ 3) rəsmi qeydə alınmışdır. Sonuncunun bel xəttinin dal ucu aşağı sallanan kiçik quyruq əmələ gətirir. Bel xəttinin əks ucu buynuz yerində dala tərəf meyilli olaraq, azca yuxarı qalxır. Qabaq ayaqları bucaq altında birləşir. Heyvanın üstündə, bir ucu sağrısına birləşərək qabağa maili, ellipsə yaxın çevrə əmələ gətirən xətt qalığı cızılıb. Onun ikinci ucu heyvanın bel xəttinə paralel boynundan keçməklə bədəninə uzanır. Savadsız çəkilmiş bu rəsmi quyruğuna görə ceyrana və ya keçiyə aid etmək olar.

70 №-li daşda qeydə alınmış təsvir qalıqlarının tarixini də eləcə də 68, 69 №-li, sonra söhbət açacağımız 71 və 72 №-li daşlardakı təsvir qalıqları ilə bir dövrə er.əvvəlki IV-III minilliklərin arasına aid etmək olar.

DAŞ № 71

68 №-li daşdan qərb tərəfdə, ucu azca onun altında, iri qaya parçasıdır. Daşın üstü şimala tərəf alçalır, şərq hissəsi 69 №-li daşın qərb ucu altına girir. Daşın cənub və cənub-qərb tərəfi dikdir, uzunluğu 7 metr, hündürlüyü 2,8 metrdir.

Daşın cənub üzü ortada azca qarınlıdır. Qədim şəkillər də bu üzün şərq hissəsində, yerdəki sal daşdan 80 sm hündürdədir. Qeydə alınmış şəkil və qalıqlar 4 ədəddir (47-ci tablo, A, 1-4). Onlardan 1-ci şəkil bir ucunda ilgəkvari çıxıntısı olan yarımçevrə xətt qalığından ibarətdir, 2-ci şəkildə hansısa heyvanın boynunun üst xətti ilə bədəni saxlanmışdır. Başının və quyruğunun olmaması rəsmin hansı heyvana aid olmasını deməyi çətinləşdirir. 3-cü şəkildə yönü sağa olmaqla keçi təsvir edilmişdir. Onun başı və qabaq ayağı bir xətlə verilmişdir. Quyruğu dik və dala tərəf qalxmış çıxıntıvaridir. Kobud başının alnından və qabağa tərəf uzanmaqla getdikcə aralanan 2 qısa xəttin ucu ellipsvari çevrəyə çatır. Arxaya tərəf meyilli, yuxarı qalxan buynuzları qılıncvaridir.

4-cü şəkildə də keçi təsvir edilmişdir. Onun yönü soladır, ayaqlarının ucu birləşir, başı kiçik bədənə nisbətdə normal və kiçikdir. Qoşa və çox iri buynuzları dik qalxaraq, elə bil qabağa meyillidir.

Təsvirlərin dövrü 68-70 №-li daşların şəkilləri ilə bir dövrə er.əvvəlki III minilliyə aiddir.

DAŞ № 72

Daş № 71-dən şərqdə, şimal ucu 68 №-li daşın cənub tərəfinin qərb hissəsi altına girən, şimal-cənub uzunluğu 2,3 metr, eni 1,2 metr, cənub ucda hündürlüyü 1,5 metr, kəsikdə rombvari daşdır. Onun şərqə baxan üzünün şimal ucunda işarələr qazılıb (47-ci tablo, B, 1-6). Buradakı işarələr şaquli düz xəttin ucuna üfüqi olaraq 4 ədəd (№ 4-də 3 ədəd) kiçik, dişvari paralel xətlər çəkilməklə düzəldilmişdir. Onların əsas xəttinin əks ucu qövsvari qatlanıb dəstək əmələ gətirir. 1 №-li şəkildəki işarədə dəstək tökülüb, 5 №-li işarədə dəstəyin dala qayıtmış ucu uzanıb az qalır dişciklərə çatsın. 1-4 №-li işarələrdə dişciklər sağa, № 5-də sola tərəfdir. 6 №-li işarə yarım çevrəvari xətdən bir kiçik və bir iri döymə xəttin çıxmasından alınmışdır.

Daş və qayalarda qazılmış işarə və damğalar ideoqramalar, simvollar, qayaüstü təsvirlər arasında xüsusi yer tutur. Onlar Qobustan qayaları üzərində çoxdur. Bu işarələr Qobustanda olan başqa işarə və damğalardan həm forması və həm də dövrünə görə fərqlənir.

DAŞ № 73

8-72 №-li şəkilli daşlardan 145° altında 50 metr, 74 №-li daşdan 345° altında təxminən 150 metr məsafədə, şərq-qərb uzunluğu 6 metr, cənub tərəfdə hündürlüyü 2 metr, şimal tərəfini torpaq basmış, (qalmış hündürlük 40-50 sm) üstü şərq-qərb düz, kiçik, yerdən bitili daşdır.

Daşın cənub-şərq tərəfində, yerə yaxın, 0-40 sm hündürlük arasında üç rəsm var (47-ci tablo, V, 1-3). Onlar bir adam (№ 1) və iki keçi (№ 2, 3) təsvirindən ibarətdir. Rəsmlər yan görünüşdə hər üçü yönü sağa olmaqla verilmiş və bir növ adamın keçilərin dalınca getməsi səhnəsini təşkil edir. Adamın qabağa uzadılmış əlləri yay-ox tutur və elə bil irəliyə, 2 №-li şəkildəki keçiyə tərəf, hərəkət vəziyyətində verilmişdir.

Keçilərdən biri (№ 2) iri başı boyunsuz bədənə bitişik, iri, yarımçevrə buynuzları dik qalxıb, dala çevrələnərək, ucları belinə tuşlanmış, düz qalxıb ucu qabağa əyilmiş kiçik quyruq və heyvanın təkə (erkək) olmasını göstərən əlamətlə təsvir edilmişdir.

İkinci keçi (№ 3) birincidən (№ 2) qabaqda, eyni istiqamətdə bədəni çox yoğun, boynu nazik, başı kiçik, qabaq ayaqlarının ucu birləşmiş, dik qalxmış buynuzlarının ucu azca dala qatlanmış, dik qalxmış nisbətən iri quyruğu da yuxarı qalxmış və ucu heyvanın buynuzuna tərəf dönmüş vəziyyətdə təsvir edilmişdir.

Səhnədəki şəkillərin ümumi görünüşü 73 №-li daşla qonşu daşlar üzərindəki şəkillərin müəyyən vaxt çərçivəsində er.əvvəlki III minilliyin sonu, II minilliyin əvvəllərində çəkildiyini göstərir.

DAŞ № 74

Kiçikdaş dağı qayalıqları sahəsinin şərq ətəyində, 68-72 №-li daşlardan 165° altında 200 metr, 73 №-li daşdan həmin istiqamətdə 150 metr, 75 №-li daşdan tam şimala 45 metr məsafədə şimal-cənub uzunluğu 2 metr olan, eni 90 sm və şərq tərəfi 90 sm dikinə, kiçik, yerdən bitili daşdır. Qərb tərəfi maili olaraq yerə enir, ucları şimala və cənuba getdikcə nazilir.

Daşın şərq tərəfində bir ədəd qarınaltı xətti və dal ayağının biri aşınma ilə silinmiş keçi təsviri qeydə alınmışdır (47-ci tablo, Q). Onun ayaqları nisbətən uzun, başı kiçik, boynu qısa və nazik, buynuzları çox iri və qılıncvari, quyruğu çıxıntı şəklindədir.

Təsvir son tunc dövründə er.əvvəlki II minilliyin axırlarında çəkilmişdir.

DAŞ № 75

«Firuz» düşərgəsindən 75° altında 370 metr, 74 №-li daşdan 180° altında 45 metr, daş № 77-dən 50° altında 170 metr məsafədə şərq-qərb uzunu 8 metr, eni 5 metr, hündürlüyü 3 metr, şərq tərəfdən ucu itiləşən (ensizləşən) iri qaya parçasıdır.

Daşın cənub-qərb tərəfi səthində yerdən 15-50 sm hündürdə olmaqla 4 keçi və bir adam rəsmi (47-ci tablo, E, 1-5) və daşın şərq ucunda da yerdən 20 sm hündürdə bir heyvan rəsmi və 2 xətt qalığı (47-ci tablo, D) qeydə alınmışdır.

Sonuncunun mənsubiyyətini təyin etmək çətindir. Onun qabaq qulağı (və ya buynuzu) ilə başı və qabaq ayağı bir qövsvari xətlə verilib. Qabaq qulağının ucu, qabaq ayağı və dal ayaqlarının ucları eroziya ilə silinib saxlanmamışdır. Quyruq yerində kiçik çıxıntı göstərilib. Ümumi baxışda keçini andırır. Lakin başı və quyruğu onun keçi olmasının əleyhinədir.

Daşın cənub qərb tərəfində çəkilmiş keçi rəsmlərindən bir ədədi (№ 1) yönü sola, 3 ədədi (№№ 2, 4, 5) yönü sağa olmaqla verilmişdir. Rəsm № 1, 2, 4-də keçilər dolu, kök bədənli, qarmaqvarı quyruq, arxaya meyilli iri qılıncvari buynuzla, başları kiçik, boyunları nazik verilib, 1 №-li rəsmdə keçinin buynuzlarının ucu birləşir. 5 №-li rəsmdə heyvanın başının qabaq (alın) xətti aşınıb, buynuzları saxlanmayıb, quyruğu yoxdur, lakin ümumi görünüşdə keçi təsviri olduğu şübhə doğurmur. Daşın bu üzündə 3 №-ilə ön görünüşdə adam rəsmi qeydə alınıb. Onun kiçik dairəvi başı çiyninə birləşir, qolları yana açılıb əlləri yuxarı qaldırılıb, aralı qoyulmuş ayaqlarından sağdakında içəriyə tərəf pəncə göstərilib.

Təsvir edilmiş keçilər (№ 1, 2, 4, 5) eramızdan əvvəlki III minillikdə, adam təsviri və daşın şərq ucundakı heyvan (47-ci tablo, D) bir qədər qabaq, III minilliyin əvvəllərində çəkilmişdir.

DAŞ № 76

Kiçikdaş dağı qayalıqları sahəsinin şərq ətəyində 75 №-li daşdan 7 metr cənub-qərb tərəfdə, «Firuz» düşərgəsindən 75° altında 370 metr, 74 №-li daşdan 180° altında 45 metr, 77 №-li daşdan 50° altında 170 metr məsafədə şərq-qərb uzunluğu 7 metr, eni 4, ən çox hündürlüyü 2,5 metr uzunsov, yastıtəhər iri daşdır.

Daşın cənub-şərq tərəfində, yerdən 35-100 sm hündürlük arasında 18 ədəd və daşın qərb ucunda 2 ədəd rəsm və rəsm qalığı qeydə alınmışdır (48-ci tablo, A və B və 37-ci fotoşəkil).

Daşın cənub-şərq tərəfində qeydə alınmış təsvirlərdən 10 ədədi (№№ 1, 2, 5, 6, 8, 13, 14, 16, 17, 18) keçi rəsmi, biri naməlum heyvan (№ 3), 3 ədədi (№№ 4, 10, 11) heyvan (keçi?) rəsmindən qalıq, 3 ədədi (№№ 7, 12, 15) naməlum fiqur qalığı və biri (№ 9) ox atan adamdır. Keçilərdən 6 ədədinin (№№ 1, 2, 5, 6, 8, 13)

yönü sola, 4 ədədininki (№№ 14, 16, 17, 18) sağadır. Keçilərdən şəkil № 2-dəki rəsm № 1-dəki keçinin, № 17-dəki isə № 18-dəki keçinin dalınca, onun balası kimi verilib. Hamısında buynuzlar iri qılıncvaridir. 5 №-li rəsmdəki keçinin isə buynuzunun ucları tökülüb.

3 №-li rəsmdə heyvanın bədəni yoğun və çox qısa, başı iri və girdə, qulaqsız və buynuzsuz, ayaqlarının ucları bir-birinə yaxınlaşmış verilib. Quyruğu keçi quyruğu kimidir. Bədəninin çəkilişi də keçiyə yaxındır. Lakin baş görünüşünü heç cür keçiyə aid etmək olmaz. Dövrü eramızdan əvvəlki minilliyin axırlarına aiddir.

Təsvirlərin orta hissəsində adamın (№ 9) keçiyə (№ 8) ov səhnəsi maraq doğurur. Buradakı keçinin boynunda buynuzunun arxa dibi ilə belini qövsvari xətt birləşdirərək süksün fırı göstərilib. Buynuzları başqalarından fərqli olaraq dik qalxıb dala çevrələnir. Ümumi görünüşdə qabağa meyilli göstərilib. Arxadakı adam ona yay-ox tuşlayıb. Kaman dikinə yarımçevrə ilə göstərilib. Oxu adamın qol xətti əvəz edir. 8 №-li rəsmdəki keçi çəkilmə üslubu və səciyyəsinə görə başqalarından qədimdir və er.əvvəlki III minilliyin ortalarında çəkilibdir.

Ox atan adam (№ 9) üç xətlə - sağ qolunun üst xətti, başı və sol qolunun üst xətti; Sağ tərəf qolunun alt xətti və bədəninin sağ tərəf xətti ilə sağ ayağı; Sol tərəf qolunun alt xətti ilə bədəninin sol tərəf xətti və sol ayağı göstərilmişdir. Onun sol tərəf qolunun üst xətti qabağa uzanaraq kamandan keçib qabağa çıxır və oxu əvəz edir.

Daşın bu üzündəki təsvirlər yay oxla keçi ovu səhnəsindən sonra II minilliyin sonlarında, 16, 17, 18 №-li rəsmlərdəki keçilər isə er.əvvəl I minilliyin sonlarında çəkilmişdir.

Daşın qərb ucundakı 2 ədəd çox pis saxlanmış rəsm aidiyyətini müəyyən etmək çətin olan heyvan təsvirləridir (48-ci tablo, B).

Zamanın təsirindən çox pis saxlanması onların aidiyyəti kimi dövrünün də müəyyənləşdirilməsini çətinləşdirir.

DAŞ № 77

Kiçikdaş dağı qayalıqlarının şərq ətəyində «Firuz» düşərgəsindən 90° altında 200 metr, 76 №-li daşdan 230° altında 170 metr, daş № 86-dan 30° altında 230 metr məsafədə, şimal-qərb-cənub-şərq uzunluğu 11 metr, eni 3 metr, şimal tərəfini torpaq basmış, cənub-qərb tərəfi maili dik, qərb ucu getdikcə alçaq, şərq ucu və cənub-qərb tərəfin ortasında hündürlüyü 2 metr olan iri qayadır.

Daşın cənub-şərq tinində bir ədəd yönü sağa və ayaqları torpaqda olmaqla keçi rəsmi (48-ci tablo, V) və ondan 3 metr sola, daşın cənub üzünün orta hissəsində ayaqlarını torpaq basmış, çox pis saxlanmış başqa bir heyvan (48-ci tablo, Q) təsviri qeydə alınmışdır.

Daşın cənub-şərq tinindəki keçi yoğun bədənli, ayaqları qısa, buynuzları başdan düz yuxarı qalxmış və ucları dala dönmüş, quyruğu dal ayağının bədəndən yuxarı qalxmış kiçik ucu ilə göstərilmiş, göz nöqtə ilə təsvir edilmişdir. Rəsm er.əvvəlki III minilliyin sonu, II minilliyin əvvəllərində çəkilmişdir.

Daşın cənub tərəfində qeydə alınmış heyvan rəsmindən qalıq yönü sağa olmaqla, heyvanın alın xətti və çənəsi, qabaq ayaqları və arxa hissəsində dikinə xətdən ibarətdir. Onun dövrünü demək çətindir, lakin daşın cənub-şərq tinindəki rəsmdən qabaq olması sözsüzdür.

DAŞ № 78

«Firuz» düşərgəsindən tam şimala 240 metr, 66 №-li daşdan 210° altında 370 metr, 67 №-li daşdan tam cənuba 115 metr, 68-72 №-li daşlardan 255° altında 315 metr məsafədə 26-12 metr, ölçülü, 8-10 metr hündürlüyündə, şimala meyilli lay-lay nəhəng qaya parçasıdır.

Daşın şimal-qərb tərəfi bir qədər içəriyə batıq kimi, hamar səthə malikdir. Bu üzdə yerdən, 2 metr hündürlüyə qədər sahədə 16 ədəd rəsm və rəsmlərdən xətt qalıqları qeydə alınmışdır (49-cu tablo, A, 1-16).

Daşın bu üzündəki təsvirlərdən 7 ədədi (49-cu tablo, A, №№ 3-8 və 15) qayıq, 3 ədədi (№№ 1, 2, 14) öküz, bir ədədi (№ 12) pişik və ya it, 2 ədədi (№ 11 və 16) təyinatı çətin olan heyvan və 3 ədədi (№№ 9, 10, 13) xətt qalıqlarından ibarətdir.

78 №-li daşın şərq tərəfində də iri başlı, qabaq buynuzu ortadan aralanmış, quyruğu dal ayağının üst ucunun davamı kimi verilmiş bir ədəd keçi təsviri (49-cu tablo, B) qeydə alınmışdır.

Qayıq təsvirlərindən biri (№ 16) içərisində 2 adam olmaqla dərin gövdəlidir. Onun altından aşağı və sağa çəkilmiş xəttin lövbər ipi olduğunu güman etmək olar (Qeyd edək ki, Qobustanda arxeoloji axtarışlar zamanı bir ucundan bağlanmaq üçün deşik açılmış və ortasından gəz açılmış ağır lövbər daşlarına rast gəlinmişdir).

3 №-li rəsmdəki qayıq təsvirinin içərisində 2 adam olmaqla sol tərəfindən hissəsi saxlanmış, sağ tərəfi 2 №-li rəsmdəki öküz təsvirinin qabaq hissəsi ilə birlikdə aşınmaya məruz qalıb silinmişdir. Bu sahədəki aşınma nəticəsində 4 və 8 № -li rəsmlərdəki qayıq təsvirlərinin də sağ tərəfindən hissələri silinmişdir. Onlardan 4 №-li qayıqda 8 adam, 8 №-li qayıqda 2 adam göstərən simvollar qalmışdır.

5 və 7 №-li rəsmlərdəki qayıqlar yaxşı saxlanmışdır. 5 №-li qayıqda 2 adam simvolu var. 7 №-li qayıqda da iki, 15 №-li qayıq təsvirinin içində 15 adam simvolu saxlanmışdır. Bu qayığın sağ tərəf başı çox yuxarı qalxmış və qayığın dərin oturumlu olduğunu göstərir. Qayıq təsvirlərinin saxlanma vəziyyəti və

«Firuz» düşərgəsinə qonşuluqda olması onların neolitin sonu - eneolit dövrünə aid olmasını göstərir.

78 №-li daşın şimal-qərb tərəfindəki öküz təsvirlərindən ikisi (№ 1 və 2) yönü sağa, biri (№ 14) sola olmaqla çəkilmişdir. 1 №-li rəsmdəki öküz tam bütöv saxlanıb, yalnız qabaqdan ikinci ayağı qismən silinib. Başından yuxarı, dala meyilli uzanmış qoşa buynuzunun ucu azca dala əyilir. Buynuzun arxa dibində 2 kiçik çıxıntı ilə qoşa qulaqları verilib. Quyruğu uzun, təbiidir və aşağı sallanır. Öküzün bədəni çox dolu (kök), ayaqları olduqca qısa verilmişdir.

2 №-li öküz rəsminin qabaqdan çox hissəsi eroziya ilə silinib. Dal ayaqları, qarınaltı xəttinin arxa hissəsi, bel xətti saxlanmışdır. Bu öküzün quyruğu kiçikdir. Boyun fırı güclə seçilir və rəsmdə öküz təsvir olunduğuna şübhə qoymur.

14 №-li rəsmdəki öküzün beldən dala hissəsi saxlanmayıb. Onun qabaq ayaqları, başı, qarınaltı və bel xətlərindən hissələr qalıb. Onun başı aşağıya meyilli, dalğavari buynuzları qabağa yönəlmiş halda qulaqsız, süksünü nəzərə çarpacaq qabarıqla təsvir edilmişdir.

14 №-ilə qeydə alınmış öküz təsviri qayıq təsvirlərindən qabaq, 1 və 2 nömrə ilə göstərilənlər sonra çəkilmişdir.

12 №-li rəsmdə heyvanın yumru başı bədəninə nazik boyunla birləşir, qabaq ayaqları döş xəttindən ayrılır, uzun quyruğu qövsvari olaraq heyvanın belinə tərəf uzanır və buna görə onu pişik və ya it təsviri hesab etmək olar.

11 №-li başsız və 16 nömrə ilə qeydə alınmış, qabaq yarısı silinmiş heyvan rəsmlərinin aidiyyətini demək çətindir. O cümlədən 9, 10 və 13 №-ilə qeydə alınmış və nömrələnməmiş xətt qalıqlarının da hansı rəsmdən qalıq olduğu və nə məqsədlə çəkildiyini söyləmək çətindir.

78 №-li daşın şimal-qərb tərəfindəki rəsmlərdən 14 №-li öküz təsviri neolit dövründə er.əvv VII-VI minilliklər arasında, 1 və 2 №-li rəsmlər və qayıq təsvirləri neolit dövrünün sonlarında, VI minillikdə, 12 №-li rəsmdəki pişik təsviri IV minillikdə, daşın şərq tərəfindəki keçi rəsmi isə er.əvvəlki III minilliyin sonu II minilliyin başlanğıcında çəkilmişdir.

DAŞ № 79

78 №-li daşdan 2 metr qərbdə, kiçik ölçülü kubvari, üstü şimala tərəf maili, cənub tərəfinin altı azca boş təhər daşdır. Daşın cənub tərəfinin alta yaxın sağ hissəsində bir sxematik adam təsviri qeydə alınmışdır. Onun başı, bədəni, qolları və ayaqları xətlə verilmişdir. Ayaqları aralı qoyulmuşdur. Sol tərəfdəki ayağı dizdən aşağı silinmiş, sağ tərəfdəki ayağı dizdən yüngülcə bükülərək rəqs edən adam təsəvvürü yaradır (49-cu tablo, V). Adamın çiynini soldan sağa maili düz xətt kəsir və sol tərəf ucunda çox kiçik çıxıntısı var. Onun, adamın qolu və ya kaman əvəzi çəkildiyini demək çətindir. Təsvir neolit dövründə, eradan əvvəlki VI minililyin əvvəllərində çəkilmişdir.

Daşın şimala baxan üst üzündə də çox iri ölçülü rəsm qalığının izləri var. Lakin çox silindiyindən onun aidiyyəti və dövrü haqqında fikir söyləmək çətindir.

DAŞ № 80

Kiçikdaş dağı qayalıqlarının şərq ətəyinin orta hissəsində «Firuz-2» düşərgəsindən («Kiçikdaş» kolleksiyasının 19 №-li daşından) 25° altında 385 metr, 57 №-li daşdan tam şərqə 360 metr məsafədə başqa qayalardan aralı, tək dayanmış nəhəng qaya, «Firuz» düşərgəsinin örtük daşıdır (16-cı foto şəkil). Daşın qərb-şərq uzunluğu 20 metr, şimal-cənub eni 13, hündürlüyü 5 metrə qədərdir. Şimal və şərq tərəfində altı 3 metrə qədər eni olan talvar (örtülü sahə) əmələ gətirir ki, bu sahələrdə arxeoloji qazıntılar aparılmış düşərgə tədqiqatçılar tərəfindən «Firuz» düşərgəsi adlandırılmışdır.

Düşərgədə 2 tarixi mərhələnin - mezolitdən neolitə keçid və tunc dövrünə aid mədəni təbəqə, çaxmaq və çay daşından əmək alətləri, tunc dövrünə aid saxsı qab qırıqları və düşərgənin qaya divarında qayaüstü təsvirlər aşkar edilmişdir.

Qazıntıya qədər daşın şimal tərəfində 4 qrupda: daşın şimal tərəfinin qərb qurtaracağında 10 ədəd rəsm və xətt qalığı, ondan 3,5 metr sola, daşın şimal tərəf örtüyü altında xətt qalıqları və ondan 2,2 metr sola gəmi şəkilləri və xətt qalıqları, sonuncudan da 3 metr şimala, qayanın örtük əmələ gətirdiyi hissəsinin üstündə 3 adam və xətt qalıqları qeydə alınmışdır.

1-ci qrupda (50-ci tablo, A-10) 4 ədəd (№ 2-5) kölgəvarı insan (qadın) təsviri və ondan qalıq, 3 ədəd (№№ 6, 7, 10) qayıq və 3 (№№ 1, 8, 9) qeyri-müəyyən xətt qalığı qeydə alınıb. Qadın təsvirləri daş dövrü qadınları tipində olub çox pis saxlanmışdır. Gəmilərdən birinin (№ 6) içərisində 11, birində (№ 7) 5 və birinin (№ 10) içərisində 8 adam göstərilib.

2-ci qrupda (50-ci tablo, B) 17 ədəd şaquli və bir üfüqi xətt qalığı qeydə alınıb. Burada qayıq təsvir olunduğunu və onun çox pis saxlandığını güman etmək olar.

3-cü qrupda (50-ci tablo, V-7) 4 qayıq (№№ 1, 2, 3, 6) bir heyvana bənzər rəsm (№ 7) qalığı və 2 qrup xətt qalıqları (№ 4, 5) qeydə alınmışdır. Qayıqlardan rəsm № 1-in içərisində 5, № 2-də 7, № 3-də 16 və № 6-nın içərisində 6 adam göstərilmişdir.

4-cü qrupda (50-ci tablo Q-3) 3 rəsm qeydə alınmışdır. Onlardan biri (№1) 2 ayağı aralı göstərilməklə döşü iri və dairəvi, baş xətti çıxıntıvari verilmiş qadın təsviridir. № 2 və № 3-də ayaqları aralı, şaquli xətlə bədən və yana açılmış qollarla kişi təsvir edilmişdir. Onlardan əlavə burada daha üç şaquli xətt saxlanmışdır.

80 №-li daşın şərq tərəfinin örtülü sahəsində də üç şəkilli daş var idi. Onlardan biri, üstündə çox iri və dalğalı buynuzlu keçi rəsmi olan daş (51-ci tablo, Q) yerin üstündə idi. O 1970-ci ilin qazıntı materiallarının çöl inventar №-si ilə № 259 kimi qeydə alınmışdır. Qalan 2 daşın, düşərgədə qazıntının gedişində burada

qalığı saxlanmış tunc dövrü hörgü daşlarından olduğu aydınlaşdırılmışdır. Onlar 586 və 587 çöl inventar №-si ilə qeydə alınmışdır. Daşlardan birinin (№ 586) (51-ci tablo, D) üzərində öküz (№ 1), 2 keçi (№ 2, 3) və nöqtələrlə çəkilmiş çox kiçik və quyruğunun belinə qalxmasına görə pişiyə oxşayan (№ 4) rəsmlər qeydə alınmışdır. Qeyd edək ki, daşın şəkillər olan ucu yer səthindən üstdə, qalan (çox) hissəsi hörükdə idi. İkinci daşın (şəkil № 587) (51-ci tablo, E) bir üzündəki 2 keçi (№ 1, 3) və naməlum fiqur qalığından ibarət 3 ədəd rəsm də yer səviyyəsindən üstdə idi. Daşın o biri alt üzündə də bir keçi (№ 4) təsviri olması daş qazılıb üzə çıxarıldıqda aşkar olundu.

Sonuncu hər 3 daşdakı təsvirlərin tunc dövrü hörük daşı üzərində və düz vəziyyətdə təsvir edilməsi onların elə tunc dövründə çəkildiklərinə şübhə qoymur və qazıntıların nəticələrinə görə er.əvvəl IV-III minilliyin 1-ci yarısında çəkilmişdir.

80 №-li daşın şərq tərəf örtüyü altında apardığımız arxeoloji qazıntı nəticəsində daşın bu üzündə 50 №-ilə qeydə alınmış rəsm və xətt qalıqları (52-ci tablo) aşkar olunmuşdur.

Səhnədəki şəkillər mezolitin sonu və gil qaba qədərki neolit dövrü təbəqəsi ilə örtülmüşdür. Onun üstündən tunc dövrü təbəqəsinin qalıqları başlanır. Burada tunc dövrünün əvvəllərinə qədərki dövrün təbəqə və qalıqlarına təsadüf olunmamışdır ki, bu, alt təbəqə dövrü sakinlərinin həyatının birdən-birə kəsilməsi ilə izah oluna bilər.

Qayanın təsvirlərlə örtülmüş hissəsinin qabağında, alt mədəni təbəqə səviyyəsində açılmış kollektiv dəfn qəbri bu məsələyə aydınlıq gətirir və məlum olur ki, qəbirdə skeletləri aşkar edilmiş 10 nəfər iri adam və bir uşaq elə bu düşərgənin alt mədəni təbəqəsi dövrünün sakinləri olmuş və hansısa səbəb üzündən eyni vaxtda dünyalarını dəyişmişlər, düşərgə sahibsiz qalmış, onda həyat uzun müddət dayanmış və buradan tunc dövründə yenidən istifadə olunmuşdur.

Alt mədəni təbəqə daşın örtülü sahələrindən əlavə, daşdan şərqə tərəf xeyli yayıldığı halda, tunc dövrü qalıqlarına daşın altında, çöl tərəfi hörüklə bağlanmış qapalı sahədə təsadüf olunmuşdur. Görünür, düşərgənin tunc dövrü sakinləri burada məskən salarkən yaşayış sahələrini dövrlər arası təbii əmələ gəlmiş və düşmüş daş-torpaqdan təmizləmişlər ki, nəticədə onlar bir növ birbaşa alt təbəqənin üstündə yaşamalı olmuşlar.

«Firuz» düşərgəsində arxeoloji qazıntılar nəticəsində 80 №-li daşın şərq tərəfi dibində aşağı hissəsini qismən alt mədəni təbəqə basmış, uzunluğu 5 metrdən çox, hündürlüyü 50-60 sm arasında sahədə 50-yə qədər rəsm və xətt qalıqları aşkar edilib qeydə alınmışdır (52-ci tablo). Onlardan 12 ədədi (№№ 3, 5, 6, 9, 14, 15, 16, 22, 25, 27, 46, 48) heyvan, 11 ədədi sxematik adam (№№ 2, 4, 7, 12, 19, 20, 21, 24, 26, 29, 49) rəsmindən, iki ədədi (№№ 32, 43) qayıq təsvirindən, qalan 25 ədədi nömrələnmiş və bəzi qeydə alınmamış, nə qalığı olmasını müəyyənləşdirmək mümkün olmayan rəsmdən, xətt qalıqlarından ibarətdir.

Heyvan rəsmlərində əsasən ceyran təsvir olunmuşdur. Belə ki, 12 heyvan rəsmindən 8 ədədinin (№№ 3, 5, 6, 9, 14, 22, 25, 27) ceyran olması onların bədən quruluşu, boynunlarının, bəzən buynuzlarının da görünüşü ilə inkar edilməzdir. Qalan 4 ədəd heyvan rəsmindən ikisinin də (№ 15, 16) başqa ceyran təsvirləri arasında çəkilməsi, ölçüsü və pis saxlanmasına görə ceyran olduğunu güman etmək olar. 46 və 48 №-li rəsmlərdə isə bədənlərinin iriliyi, baş və boyun hissələrinə görə, öküz təsvir olunduğunu ehtimal etmək olar. Lakin 48 №-li heyvanda onun ümumi görünüşündən asılı olmayaraq, quyruğu keçi quyruğu kimi irtmək vardır və çox güman ki, təsadüfən düşmüş xətt qalığıdır. 46 №-li rəsmdə də heyvanın quyruğu yoxdur.

İnsan təsvirlərindən 4 ədədi (№№ 2, 4, 7, 24) yay-oxla silahlı, 7 ədədi (№№ 12, 19, 20, 21, 26, 29, 49) silahsızdır. 2 №-li rəsmdə 1 şaquli xətlə verilmiş adam yay-oxunu 3 №-li şəkildəki heyvana, 7 №-li şəkildəki adam 6 №-li heyvana tuşlayıb, 4 və 24 №-li rəsmlərdə adamın qabağa uzanmış əlindəki şaquli xəttin kaman olması şübhə doğurmur. Qalan adam təsvirləri sxematik olaraq bədənini təşkil edən şaquli xətdən yana açılmış qol və ayaqlarla ifadə olunmuşdur.

Qayıqların (№ 32 və 43) hər ikisi qövsvari gövdəyə malikdir. Onların içərisində 12 və 11 adam simvolu göstərilmişdir.

80 №-li daşın şərq tərəfində arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılmış göstərilən insan, heyvan və qayıq təsvirləri ilə yanaşı 25-dən çox xətt qalığı - saxlanmışdır.

Arxeoloji qazıntılar zamanı apardığımız müşahidələrə əsasən söyləyə bilərik ki, bu təsvirlər alt mədəni təbəqənin əmələ gəlmə dövründə, mezolit-neolit dövrlərində çəkilmişdir və düşərgədə alt mədəni təbəqə dövrünün həyatı kəsildikdən sonra uzun müddət ərzində - tunc dövrünün mədəni təbəqəsi örtənə qədər açıq qalmış, havanın, küləyin təsirindən aşınma nəticəsində çoxunun hissələri qopub düşmüş və silinmişdir. Ona görə də buradakı rəsmlərin yaranma tarixi alt mədəni təbəqə son mezolit, ilk neolit dövrünə, er.əvvəlki VIII-VII minilliklərə aiddir.

32 və 43 № ilə qeydə alınmış qayıq təsvirləri isə onlardan bir qədər sonraya, tunc dövrünün əvvəllərinə aiddir.

«Firuz» düşərgəsində qazıntı nəticəsində üzərində təsvirlər olan daha 5 daş aşkar edilmiş, 257, 258, 285, 288 inventar №-si ilə və biri nömrəsiz kimi qeydə alınmışdır.

Onlardan biri, inv. № 258 düşərgədə alt və üst mədəni təbəqələrin arasında, çox hissəsi alt təbəqənin içərisindən, yer səviyyəsindən 55 sm dərindən aşkar edilmişdir (35-ci tablo, V). O üzərində çox təsvirlər (№ 1-7) olan qabarıq, üzü yuxarı, yalaq (№ 8) olan, yastı üzü isə aşağı dayanmışdır. Daşın üst üzündə 4 ox atan (№ 1-4), bir heyvan (№ 5) və 2 qeyri-müəyyən şəkil qalığı qeydə alınmış, əks üzündə uzunluğu 30, eni 18 sm ölçülü ovalvari dayaz yalaq və şəkil (№ 9) qalığı qeydə alınmışdır. Daşın üzərində qeydə alınmış ox atan adam rəsmləri və yalağın

düşərgənin alt mədəni təbəqəsi dövrü adamları tərəfindən neolit dövründə çəkildiyi sözsüzdür.

Qazıntıdan tapılmış ikinci, şəkilli daş (inv. № 257) yer səviyyəsindən 45 sm dərinlikdən tapılmışdır. O qalınlığı 3 sm olan əhəng daşı təbəqəsindən dördbucaq şəklində kiçik qırıqdır. Tərəfləri 16, 19x15 və 18 sm-dir.

Daşın bir üzündə 2 ədəd kiçik ölçülü qayıq və bir neçə xətt qalığı var. Qayıqlar bir-birinin altında çəkilib (51-ci tablo, A). Onlardan altdakının uzunluğu 14,5 sm-dir. Qabaq ucu (sol tərəfdə) qayığın içinə tərəf geri qatlanır, qayığın içərisində (№ 2) əlləri kürəkli 3 adam simvolu çəkilmişdir. Bu qayığın sağ ucunda dikinə çəkilmiş xəttin ucu gövdədən aşağı çıxır və bu ucun sol tərəfində kiçik çıxıntısı var. Çox güman ki, bu xətt qayığın sükanını təmsil edir. Bu daşda ikinci qayıq (№ 1) 2 №-li şəkildəki qayıqdan üstdə və ona paraleldir. Onun ucları daşdan kənara çıxmış və sınmışdır. Qalmış hissəsində yenə əlləri kürəkli 3 adam simvolu var. Altdakı (№ 2) qayıqdan alt sahədə isə bir neçə oxunması mümkün olmayan xətt qalığı var (№№ 3, 4, 5). Təsvirin dövrü neolitə aiddir.

585, 588 nömrəli və nömrəsiz qeydə alınmış şəkilli daşların hər üçü «Firuz» düşərgəsində tunc dövrü hörük qalığının daşları arasından tapılmışdır. Görünür, onların hər biri hörükdə adi daş kimi istifadə olunmuşdur və üzərlərindəki təsvirlər daşlar hörüyə qoyulmazdan hələ çox qabaq çəkilmişdir.

Onlardan inv. №-si 585 olan, kiçik (38x33 sm) ölçülü yastı əhəng daşı parçasıdır. Onun hamar üzündə yuxarı hissədə bir qayıq təsviri (51-ci tablo, B) və ondan altda döymə üsulu ilə qarışıq xətt qalıqları saxlanmışdır. Sonuncuların ucları daşın sınmış kənarlarından çölə çıxdığından onların nə ifadə etdiyini demək çətindir. Qayığın gövdəsi açıq qövsvaridir, içində 4 adam simvolu verilmiş və onların üçü dikinə xətlə, biri isə qollarını yana açmış kimi göstərilmişdir.

Daşın divara qoyulduğunu nəzərə alsaq, onun dövrü tuncdan qabaqkı son neolit dövrü ilə səslənə bilər.

İnventar №-si 588 olan şəkilli daş dördbucaqlı formada kiçik əhəng daşı parçasıdır, qalınlığı 5-6 sm, tərəfləri 21-23 sm-dir. Daşın bir üzündə öküz təsvirinin qabaq yarısı (50-ci tablo, D, № 1), əks üzündə bir sxematik adam təsviri (50-ci tablo, D, № 2) saxlanmışdır.

Öküzün buynuzları bir-birinə paralel olaraq əvvəlcə qabağa uzanır və böyük bucaq altında dönüb yuxarı qalxır. Buynuzlardan dala 2 ədəd kiçik, dikinə çıxıntı ilə qulaqlar qeyd olunmuşdur. Öküzün qədim öküz təsvirlərinə xas boynunun qabarıqlığı hiss olunur. Başı real və bədənə mütənasib çəkilib. Qabaq ayağının biri verilməyib, biri isə döş xəttinin davamı kimi bir xətdən ibarətdir. Öküzün beldən dala tərəfi daşın qırılması ilə saxlanmamışdır. Qabaq hissəsində çiyinlə döş arasında 2 şaquli xətt çəkilmişdir. Şəkildə öküzün hündürlüyü 17, qalmış uzunluğu 20 sm-dir.

Sxematik adam təsviri (№ 2) daşın əks üzündə öküz şəklinin normal durumu müqabilində üfüqi vəziyyətdə çəkilib.

Onun sağ tərəf ayağı dizdən aşağıya silinib, ya da heç çəkilməyib. Bədən xəttinin yuxarı ucunda başın yanları çıxıntılarla qeyd olunub. Çiynində sağdan sola və aşağıya olmaqla çəpəki xətt çəkilmişdir. Xətti ümumi vəziyyətinə görə qol hesab etmək olmaz. Çox güman ki, o kaman ifadə edir. Rəsmin ümumi hündürlüyü 18 sm-dir. Təsvirləri, ümum Qobustan qayaüstü təsvirləri fonunda və adi daş kimi tunc dövrü hörüyü qalığına qoyulduğunu nəzərə alaraq, neolit dövrünə aid etmək olar. «Firuz» düşərgəsində tunc dövrü hörük qalığının dağıdılmış yerindən sonradan (1980 ildə) tapılmış və nömrəsiz götürülmüş şəkilli daş, kiçik, yastı 55x35 sm ölçülü, 9 sm qalınlığa malik dördbucaqlıya yaxın əhəng daşı parçasıdır (50-ci tablo, E, 1, 2, 3).

Görünür, o, tunc dövrü divarı hörülərkən adi daş kimi divara qoyulubmuş. Daşın bir üzündə yan görünüşdə kiçik ölçülü, kölgəvari döymə qadın rəsmi (şəkil № 1), əks üzündə kiçik qayıq (şəkil № 2) və xətt qalığı (şəkil № 3) saxlanmışdır.

Qadın, başı çıxıntıvarı, döşü iri və azca sallaq, beli nazik, oturacağı ilə baldırı bir yerdə yarpaqvarı görünüşdə təsvir edilmişdir. Hündürlüyü 25,5 sm döş hissədə eni 6 sm-dir.

Daşın əks üzündəki (şəkil № 2) qayıq təsvirinin sağ ucu hələ qədimdə, daşın hissəsi ilə birlikdə sınmışdır. Qalmış uzunluğu 13,5 sm-dir. İçində 2 şaquli xətt, adam simvolu, qalıb. Gəmi təsvirinin sağ tərəf altından aşağıya, aşağı ucu sağa əyilməklə, qövs əmələ gətirən xətt çəkilmişdir. Uzunluğu 23 sm-dir.

Daşın tunc dövrü hörük qalığının daşları arasından tapılması və hesab etsək ki, bu daşın üzündəki şəkillər öz çəkilmə əhəmiyyətini çoxdan itirib, adi daş kimi hörüyə atılmışdır, eləcə də təsvirlərin tipoloji tutuşdurmaları əsasında qadın təsvirinin yuxarı paleolit dövründə, qayıq təsvirinin neolit dövrünün sonlarında çəkildiyini göstərmək olar.

DAŞ № 81

«Firuz» düşərgəsindən (daş № 80) 290° altında 140 metr məsafədə, 82 və 83 №-li daşlardan 195° altında 35 metr məsafədə piramidavari yerdən 4,5x2,5 metr sahə tutan, 3 metrə qədər hündürlükdə, tək dayanmış dik daşdır. Şəkillər daşın «Firuz» düşərgəsinə tərəf (110° ilə) baxan üzünün sol tərəfdən aşağı hissəsində, yerdən 1 metrə qədər hündürdədir. Burada üç heyvan rəsmi (№№ 2, 3, 4) və bir heyvan rəsmindən qalıq (№ 1) saxlanmışdır (53-cü tablo, B).

Heyvanların hər üçünün yönü soladır. 2 №-li rəsmdəki heyvanın baş yerindən çıxan qoşa buynuzu bədəni boyda yarımçevrə ilə belinin axırına çatmaqla rəsmin keçiyə aid olmasına dəlalət edir. Ancaq heyvanın bel xətti də buynuzlara paralel yarım çevrədir və quyruğu göstərilməyib. 3 №-li rəsmdə əsl keçi təsvir edilmişdir. Onun dik qalxan qoşa buynuzunun ucu geri döndərilmiş, heyvanın çiyninə tuşlanmışdır. Bədəni ətli və mütənasibdir. Quyruğu çıxıntıvari irtməklə göstərilmişdir.

4 №-li şəkil ümumi baxışda və saxlanmış dal buynuzuna görə keçiyə oxşayır, lakin quyruğunun vəziyyəti və ölçüsü, qarın və bel xətlərinin yığılmaqla yaxınlaşması bu fikri təsdiqləmir və rəsmin hansı heyvana aid olmasını deməkdə çətinlik çəkirik.

81 №-li daşdakı şəkillərin hər üçünün (№ 2-4) «Firuz» düşərgəsi tunc dövrü sakinləri tərəfindən çəkildiyini demək olar. 1 №-li şəkildəki rəsm qalığı isə çox güman ki, daha qədimə aiddir.

DAŞ № 82

«Firuz» düşərgəsindən 310° altında 150 metr, daş № 81-dən 15° altında 35 metr, daş № 57-dən 75° altında 250 metr məsafədə, şimal-qərb-cənub-şərq 10x9 metr, hündürlüyü 3-3,5 metr, şimal və şimal-şərq tərəflərinin altı boşluq olan nəhəng qayadır. Şimal-şərq tərəfi bir növ 83 №-li daşın üstünü örtür. Daşın şərq tərəfi dikinə hündür divar əmələ gətirir. Bu sahədə yönü sağa olmaqla, pis saxlanmış iki öküz təsviri və onlardan sağa iri ölçülü insan təsvirində beldən aşağı baldırların təsviri saxlanmışdır (53-cü tablo, A).

Təsvirlərin tipi və saxlanma dərəcəsi onların yaxındakı «Firuz» düşərgəsinin ilk sakinləri tərəfindən mezolitin sonu neolit dövründə b. e. əvvəlki VIII-VII minilliklər dövründə çəkildiyini göstərir.

DAŞ № 83

82 №-li şəkilli daşın şimal-şərq ucu altında cənub və şərq tərəfləri tini arasında hündürlüyü 90 sm üstü şimala tərəf maili, daş № 82-nin altına baxan cənub tərəfi qat-qat eroziyaya məruz qalmış, şimal və qərb tərəflərini torpaq basmış, yerdən bitili, yastı qaya parçasıdır.

Daşın üst üzündə 9 ədəd (53-ci tablo, V, №№ 1-9) və şərqə baxan üzündə 3 ədəd (№ 10-12) rəsm və rəsm qalığı qeydə alınmışdır. Daşın üst üzündə 1 və 2 №-li şəkillərdə daşın əks tərəfindən olmaqla qayıq təsvir edilmişdir. Onlardan birinin (№ 1) içində 5, ikincisinin (№ 2) 12 adam işarəsi verilmişdir. 3, 4, 5 №-li şəkillər işarəyə oxşar xətt qalıqlarından, 6 №-li şəkil heyvanın (öküzün) başı, boynu və qabaq ayağını göstərən hissədən; 7 №-li rəsm qalığı heyvanın ucları birləşmiş dal ayaqları, bel və qarınaltı xətlərdən hissələrdən, 8 və 9 №-li qeydə alınmış, eroziyaya məruz qalmaqla çox pis saxlanmış naməlum rəsm qalıqlarından ibarətdir.

Daşın şərq tərəfində qeydə alınmış və olduqca pis saxlanmış 10 və 11 №-li şəkillərdən xətt qalıqlarında nə təsvir olunduğunu demək mümkün deyil, 12 №-li qalıqda isə quyruğu, dal ayağı, bel xətti və boynunun qabarıqlığını göstərən xətlərin öküz təsvirindən qalıq olduğu aydın görünür.

83 №-li daşdakı şəkil qalıqlarından №№ 6-12 ilə qeydə alınmış rəsm və rəsm qalıqlarının «Firuz» düşərgəsinin neolit dövrü sakinləri tərəfindən, qayıq təsvirləri (№ 1 və 2), eləcə də, işarəvarı xətt qalıqlarının təzəliyini nəzərə almaqla, tunc dövrünün əvvəllərində er.qabaq IV minillikdə çəkildiyini demək olar.

DAŞ № 84

«Firuz» düşərgəsindən (daş № 80) 180° altında 100 metr, daş № 85-dən 315° altında 27 metr; 91 №-li daşdan 15° altında 28 metr məsafədə, üstü azca qərbə tərəf maili iri və yastı daşdır. Şərq tərəfi 2,5 metr hündür, qərb ucu alçaqdır (0,5). Qərb-şərq uzunluğu 10 metr, eni ən çoxu 7 metrdir. Daşın qərb ucunda, yerdən 80 sm qədər hündürdə bir iri yalaq, ondan 3 metr şərqə, daşın üstündə ikinci bir iri yalaq və ondan 1,5 metr cənub-şərqə üçüncü bir iri yalaq var. Onların ölçüsü 1) diametri 35x40, dərinliyi 18 sm, 2) diametri 50x55 sm, dərinliyi 25 sm, 3) diametri 28 sm, dərinliyi 10 sm-dir. Bu yalaqların hamar diblərində yenidən kiçik yalaqlar açılıb (göstərilən dərinlik ölçüləri ümumi dərinliklərdir).

Yalaqların üçüncüsündən cənuba tərəf bir cərgədə daha 4 ədəd və onlardan bir az qərbdə daha bir kiçik yalaq qazılmışdır. Onların diametri 8-15 sm, dərinliyi 5-8 sm arasındadır.

DAŞ № 85

«Firuz» düşərgəsindən (daş № 80) 170° altında 120 metr, daş № 84-dən 135° altında 27 metr və daş № 86-dan 295° altında 70 metr məsafədə şərq-qərb uzunluğu 14 metr, eni 7 metr yerdən bitili yastı daşdır. Cənub tərəfi daşın uzununa, dərinliyi 0,5-1,0 metr, hündürlüyü 1 metrə qədər talvar əmələ gətirir. Daşın bu üzündə torpağa yaxın qayıq şəkilləri, (38-ci foto şəkil) üstündə isə araları 110 sm, diametri 50x40 və 35x25 dərinliyi 10 və 8 sm olan 2 yalaq var.

85 №-li daşın cənub tərəfində 2 metr enində, 1 metr dərinə qədər yoxlama qazıntısı aparılmış və bu üzdə 18 qayıq təsviri (54-cü tablo, A, № 2-19) və bir neçə xətt qalığı (№ 1, 20 kimi) qeydə alınmışdır.

Qayıqlardan birinin (№ 5) içində 2 adam və ortasında qayığın yükü göstərilmişdir. Daha 4 qayıqda (№№ 9, 12, 13, 14) 2, 2 qayıqda (№ 10, 17) 3, 2 qayıqda (№ 3, 15) 4, 2 qayıqda (№ 8,18) 5, 2 qayıqda (№ 2, 6) 6, 2 qayıqda (№ 7, 11) 10, bir qayıqda (№ 16) 15, bir qayıqda (№ 4) 17 adam simvolu verilmiş, bir qayıq isə (№ 19) boş, adamsızdır.

Qayıqlardan birində (№ 4) ortada iki hissə silinib. Onun içində sağdan 5-ci və 6-cı adam simvolları arasından uzun şaquli xətt qalxır ki, onu qayığın dor ağacı hesab etmək olar. 6, 12, 13 №-li qayıqlarda sol uc, 15, 16 №-li qayıqlarda sağ uc aşınıb saxlanmamışdır.

85 №-li daşdakı qayıq təsvirləri bu ərazidə «Firuz» və «Firuz-2» düşərgələrində yaşamış yerli sakinlər, balıqçı qəbilələri tərəfindən b.er.əvvəl VIII-VI minilliklərdə çəkilmişdir. Buna «Firuz» düşərgəsindən (mezolitin sonu) gil qaba qədərki neolitin əvvəllərinə aid kollektiv qəbirdə fərdlər yanından tapılmış balıqçı toru toxumaq və dayaz sularda balıq vurmaq üçün sümükdən alətlər, daşdan ağırlıq daşları (pərsənglər) kimi tapıntılar şahidlik edir.

DAŞ № 86

«Firuz» düşərgəsindən (daş № 80) 150° altında 170 metr, daş № 85-dən 120° altında 70 metr, daş № 77-dən 210° altında 200 metr məsafədə iri ölçülü, şərq-qərb uzunluğu 7 metr, eni 4,5 metr, cənub tərəfdə hündürlüyü 1,7 metr, şimal tərəfi maili yerə enən (və torpaq basmış) daşdır.

Onun cənub üzünün şərq hissəsində pis saxlanmış 5 qayıq rəsmi, 4 xətt qalığı (№ 1) var (54-cü tablo, B, 1-6). Daşın qərb başında cənub ucdan 25 sm sola və yerdən 55-80 sm arasında adam təsviri (54-cü tablo, şəkil № 7) saxlanıb. Qayıq təsvirlərindən biri (№ 4) içərisində 6 adam olmaqla tam yaxşı, üçü (№№ 3, 5, 6) içərilərində 5, 2, 6 adam simvolu olmaqla, qabaq və arxa ucdan hissə silinib saxlanmamışdır. 2 №-li şəkildə isə qayıq iki şaquli və iki üfüqi xətdən ibarət kiçik hissə qalmışdır. Adam təsviri (№ 7) iki qoşa şaquli xətlə göstərilib, üst uclar qövsvari şəkildə birləşib boyun və oturacaq yerində ayaqların arası üfüqi xətlə kəsilmişdir. Boyun xəttinin sağ tərəf ucunun sağ qol kimi uzanmış ucundan paralel xətlərin birləşməsindən əmələ gəlmiş qeyri-müəyyən əşya sallanmışdır.

86 №-li daşda saxlanmış qayıq təsvirləri Qobustanda I tip xətti qayıqlardandır və bir sıra qayıq təsviri olan daşlar (78, 80, 83, 85) kimi «Firuz-1» düşərgəsi yaxınlığında mezolit və son neolit dövrü balıqçı qəbilələri tərəfindən b.er.əvvəl VIII-VI minilliklər arasında çəkilmişdir.

DAŞ № 87

Kiçikdaş dağı qayalıqları sahəsinin cənub-şərq hissəsində «Firuz-2» düşərgəsindən 60° altında 85 metr məsafədə, 85 №-li daşdan 150° altında 130 metr, 86 №-li daşdan 187° altında 85 metr məsafədə böyük qaya parçasıdır. Qərb-şərq olmaqla iri çatla (qərb ucda eni 0,5 metr) iki hissəyə bölünüb. Daşın qərb-şərq uzunu 12 metr, iki hissənin birlikdə eni 8 metr, cənub tərəfdən hündürlüyü 3-3,5 metrdir. Şimal hissə şimala tərəf alçalır və yer səviyyəsinə enir.

87 №-li daşın cənub hissəsinin cənub üzünün qərb ucunda çox pis saxlanmış bir heyvan və bir insan rəsmi qalığı (55-ci tablo, A, şəkil № 1, 2), cənub üzün şərq ucunda da çox pis saxlanmış bir ədəd keçi var və qayıqdan bir hissə saxlanmışdır (55-ci tablo, A, şəkil № 4 və 5).

Daşın cənub hissəsinin qərb ucunda, daşın çatından 80 sm sağa və yerdən də 1,0 metr hündürdə bir keçi rəsmi saxlanmışdır (55-ci tablo, A, şəkil № 3). Daşın hər hissəsinin üstündə də bir yalaq vardır. Cənub hissəsinin üstündəki yalaq uzunsov və təknəvaridir. Uzunluğu 165, eni 54-55 sm arasındadır. Yalağın ucları qövsvari dövrələnir, dərinliyi 10-15 sm arasındadır.

Daşın şimal hissəsi üstündəki yalaq bərabəryanlı üçbucaq formasındadır. Yanlarının ölçüsü 50-44-45 sm-dir. Onun içindən yenidən dərinə kiçik bir yalaq qazılıb. Onların ümumi dərinliyi 14 sm-dir.

Daşın cənub üzünün qərb və şərq uclarındakı rəsmlər (№№ 1, 2, 4, 5) bu sahədə ilk tunc dövründə həyat olarkən, er.əvvəl IV-III minilliklərdə, daşın qərb ucundakı keçi rəsmi onlardan bir qədər gec çəkilmişdir.

DAŞ № 88

«Firuz-2» düşərgəsindən 70° altında 250-300 metr məsafədə və eyni istiqamətdəki 87 №-li daşdan 250° altında 85 metr məsafədə, bir qayanın iki bölünməsindən alınmış 2 hissədən cənubdakıdır. (Şimal hissə də daş № 89 kimi qeydə alınmışdır).

88 №-li daşın cənub tərəfdə uzunluğu 8 metr, eni 7 metr, hündürlüyü 2-2,5 metrdir. Daşın şimal-şərq tərəfi maili, qərb tərəfi 1,9 metr hündürdür və irəli çıxaraq örtülü sahə əmələ gətirir.

Daşın cənub tərəfinin alçaq və hamar yerində diametri 28, dərinliyi 15 sm olmaqla çevrilmiş konus şəkilli yalaq qazılmışdır.

DAŞ № 89

Kiçikdaş dağlı sahəsində daş № 88-lə iki bölünmüş iri, yastı daşın yerə yatmış iri və yastı şimal hissəsidir. № 88-lə arası 0,5 metrdir. Cənub-şərq tərəfində (88 №-li daşla arada) uzunluğu 8, şərq tərəfi 5 metr, hündürlüyü 1-1,2 metrdir. Üstü şimal-qərbə mailidir və torpağa enir. Daşın üstündə 3 yalaq var. Biri daşın qərb ucuna yaxın alçaqda, diametri 40x35, dərinliyi 15 sm-dir. Onun dibində yenidən diametri 20 sm yalaq qazılıb və ümumi dərinliyi 20 sm-dən çoxdur.

Daşın üstündəki başqa iki yalaq ya təbiidir, ya da genişlənərək formasını tam itirmiş çuxurlardır.

DAŞ № 90

Kiçikdaş dağı sahəsində 85 №-li daşdan 205° altında 55 metr, 91 №-li daşdan 165° altında 46 metr, 88 və 89 №-li daşlardan 350° altında şimala 100 metr məsafədə yerdən bitili, üstü şimala tərəf maili enib yerlə bərabərləşən, cənub və şərq tərəfləri 1,1-1,3 metr hündürlükdə dik divar əmələ gətirən oval şəkilli yastı

daşdır. Üstü 9x4 metr ölçüdə hamar sahədir. Daşın üstündə diametri 48x43, dərinliyi 15 sm olan 1 ədəd qazanvari yalaq qazılıb.

DAŞ № 91

Daş № 85-dən 250° altında 34 metr, daş № 90-dan 345° altında 46 metr və daş № 84-dən 195° altında 28 metr məsafədə yerdən bitili, qərb-şərq uzunluğu 7 metr, eni 3,5 metr, cənub-qərb tərəfi 0,8-1 metr hündür, şimal tərəfi alçalaraq yerlə bərabərləşən daşdır. Daşın şimal-qərb tərəfindən üstünə 1,0-1,4 metr hündürlükdə bir daş düşüb.

91 №-li daşın üstündə - biri orta hissədə və biri qərb ucda olmaqla, iki yalaq qazılıb. Birinin diametri 37, ikincinin diametri 30 sm-dir, hər ikisinin dərinliyi 13 sm-dir.

DAŞ № 92

«Firuz» düşərgəsindən 230° altında 400 metr, «Firuz-2» düşərgəsindən 310° altında 170 metr məsafədə, şərq tərəfindən keçən torpaq yoldan 10 metr qərbə, şimal-şərq-cənub-qərb yerdə 10 metr uzanmış, hündürlüyü bu üzdə 5-5,5 metr, eni 4 metr, arxası dağa tərəf və bu üzdə hündürlüyü 2-3 metr nəhəng qaya parçasıdır.

Daşın cənub-şərq üzü ortada güclü aşınma nəticəsində ovulub tökülüb. Təsvirlər aşınma sahəsindən sağda, şərq tərəfdə, yerdən 1-1,5 metr hündürlük arasındadır. Burada 4 təsvir qeydə alınmışdır (55-ci tablo, Q). Onlardan ikisi (№ 1, 2) aşınma sahəsi hissəsində, sağdakılar düz sahədədir. Soldakı sxematik keçi rəsmləri (№ 1, 2) aşınma sahəsində olub çəkilməsi ilə çox təzə görünür, onların orta əsrlər dövründə çəkilməsi sözsüzdür. Sağda № 3-də yenə keçi rəsmi anormal baş və buynuzla çəkilmişdir. 4 №-li şəkil qalığının və qabağındakı xətt qalığının nə ifadə etdiyini demək çətindir. Onların düz sahədə olmaqla xətlərinin saxlanma vəziyyətinə görə bir qədər qədimdə çəkildiklərini demək olar,

DAŞ № 93

«Firuz» düşərgəsindən 295° altında 35 metr, 92 №-li daşdan 130° altında 100 metr məsafədə, cənub-qərb və cənub tərəflərdə üstü 2-2,5 metr qədər irəli çıxan çox nəhəng qayadır. Daşın arxa tərəfi dağa tərəf torpaqdadır. Eni təxminən 10 metr, hündürlüyü 2,5-5 metr arasındadır. Şəkillər cənub-şərq üzdə, sağ (şərq) hissədədir. Burada 1 ədəd iri, uzun (125 sm) qayıq və adamın beldən aşağı hissəsi kimi 2 rəsm (58-ci tablo, A, 1-2) qeydə alınmışdır. Qayıq, içərisində 10 adam simvolu olmaqla, yönü sağa tərəf təsvir edilmişdir. Qayıqda soldan ikinci və üçüncü adamın arasında, qayığın gövdəsindən bir hissə silinmişdir. Eləcə də adam rəsminin yuxarı hissəsi silinib. Şəkillər «Firuz-2» düşərgəsinin şimal yanından

aydın görünür. Hər iki rəsmin dövrünü neolit ilk tunc dövrünə, er.əvv. VI-IV minilliklərə aid etmək olar.

DAŞ № 94

«Firuz-2» düşərgəsindən 295° altında, 32-33 metr, 93 №-li daşın cənub-şərq tərəfi altının şərq hissəsində, şərq tərəfdən 1 metr hündür, cənub-şərqə tərəf getdikcə alçalan, uzunluğu 3,5, eni 1,5-2,0 metr orta ölçülü daşdır. Daşın yanı aşınmaya məruz qalıb lay-lay tökülür, çox pis saxlanıb. Şəkillər daşın üstündədir. Burada bir adam şəklinin qalığı saymaq olan yumru başı və uzun bədəni olan qalıq və sifəti qarşısında xətt qalıqları (ola bilsin ki, qabaqdan üzünə tərəf qaldırılmış olan əl-qolunun qalıqları) var. Şəklin qalmış uzunluğu 70 sm-dir (55-ci tablo, B). Dövrünü 93 №-li daşın rəsmləri ilə bir dövrə aid etmək olar.

DAŞ № 95

Daş № 93-ün cənub-qərb tərəfi altının qərb hissəsində, №-li daşdan qərb tərəfdə, yerdən bitili kiçik daşdır. Daşın qərb tərəfini torpaq basıb. Daşın şərq üzü şimal-cənub 2 metrdən artıq hündürlüyü 1,3 metrə qədər sahədir. Bu üzdə iki heyvan təsviri və xətt qalıqları qeydə alınmışdır (55-ci tablo, V, şəkil 1-3). Onlardan ikisi (№ 2, 3), ümumiyyətlə aşınma nəticəsində çox pis saxlanıbdır. 1 №-li rəsmdəki heyvanın da başı bədənə nisbətdə çox kiçik, boynu nazik, süksünü qabarıq çəkilmiş, qulaqları dikinə çıxıntı ilə verilmişdir. Onu başı və qulaqlarına görə at, boynuna görə öküzə, ümumi görünüşündə isə keçiyə oxşatmaq olsa da, dəqiq aidiyyətini demək çətindir. 95 №-li daş və şəkillər 93 və 94 №-li daşlarla bir qrup təşkil edir. Bu baxımdan bu şəkillərin tarixini də 93 və 94 №-li daşlardakı şəkillərlə bir dövrə aid etmək olar.

DAŞ № 96

«Firuz-2» düşərgəsinin (qazılmış sahənin) şimal tərəfini bağlayan çox iri, yastı daşdır. Qazıntı tərəfdə uzunluğu 6, hündürlüyü 3 metrdir. Daşın düşərgəyə baxan üzü arxeoloji qazıntı nəticəsində bir metrdən çox açılıb və burada, daşın döşündə, yer səviyyəsindən 30 sm dərində bir ədəd konusvarı yalaq aşkar olub. Yalağın diametri 27x24 sm, dərinliyi 15 sm-dir. Yalağın «Firuz-2» düşərgəsinin qədim sakinləri tərəfindən qazılıb işlədilməsi şübhə doğurmur.

96 №-li daşın üstünün orta hissəsində 4 ədəd sxematik keçi təsviri qeydə alınmışdır (56-cı tablo, A). Şəkil № 1-dəki keçi nisbətən reallığa yaxındır, boynu irəli uzanıb başı yuxarı qaldırılmış, kiçik buynuzları arxaya tərəf yönəlmişdir. 2 və 3 №-li rəsmlərdə keçilərin boynu və başını düz xətt təşkil edir. 2 №-li rəsmdə qoşa buynuzlar düz xəttin ucundan çıxaraq yuxarı qalxır və yanda arxaya tərəf dönür. 3

№-li rəsmdə baş xəttinin ucundan çıxan qoşa buynuzları qövsvarı olaraq uzanıb heyvanın belinə dəyir. Onun quyruğu isə keçi quyruğu deyil. 4 №-li rəsmdə əsl sxematik keçi təsvir edilib, lakin onun da quyruğu dala tərəf çox uzandığından keçi quyruğu kimi deyil.

96 №-li daşdakı təsvirlər tunc dövründən sonrakı dövrlərdə antik və ilk orta əsrlərdə çəkilmişdir.

DAŞ № 97

«Firuz-2» düşərgəsinin cənub divarını təşkil edən çox nəhəng qaya parçasıdır. Şimal-şərq tini 19 №-li daşa söykənir, şimal tərəfin yuxarısı düşərgəyə tərəf əyilir. Cənub tərəfi 98 №-li daşdan yerdə 10 sm, yuxarıda 0,5 metr olan çatla ayrılır. Daşın şərq üzü 6-7 metr hündürlükdə düz divar əmələ gətirir.

Daşın bu üzündə əvvəlcə bir maral (№ 2); iki xətt qalığı (№ 2 və 3) və 7 ədəd (№№ 4-10) bir-birinin içərisində olmaqla 3 dairəcikdən ibarət işarə qalığı qeydə alınmışdır (56-cı tablo, B). Sonra daşın cənub dibində aparılmış yoxlama qazıntısı nəticəsində yer səthindən 70-80 sm dərinə qədər səviyyədən daha 18 ədəd bu tipli işarə (56-cı tablo, B, №№ 11-28) aşkar edilmişdir. Sonunculardan 20, 27 və 28 №-li işarələr bir-birinin içində çəkilmiş iki kiçik dairəcikdən ibarətdir. Arxeoloji ədəbiyyatda bu işarələr günəş simvolu, 97 №-li daş və onun qabağındakı sahə isə sitayiş yeri, pir kimi qeyd olunur (63).

Qeyd edək ki, Kür-Araz arxeoloji mədəniyyəti üçün səciyyəvi olan spiral və dairəciklərə ilk əvvəl qaya və daşlarda, sonra keramika üzərində rast gəlinir, daha sonra onlardan memarlıq abidələrinin bəzədilməsində də istifadə edilir.

97 №-li daşın şərq tərəfində aparılmış qazıntıdan tərkibində saman olan qalın gil qab qırıqları, ilk tunc dövrünün əvvəllərinə aid az miqdarda gil qab qırıqlarının tapılması buranın o dövrdə günəş məbədinin mehrabı kimi düzəldildiyini göstərir və qeyd olunan spirala oxşar dairəciklərin ilk tunc dövrünün əvvəllərində, er.əvv IV minillikdə çəkilməsini deməyə imkan verir (64).

97 №-li daşda göstərilən dairəciklərdən hündürdə saxlanmış kobud maral təsviri (№ 1) və xətt qalıqları isə qayada saxlanma vəziyyətinə və mövzusuna görə daha sonrakı dövrlərdə (antik) çəkilmişdir.

DAŞ № 98

Kiçikdaş dağı sahəsində 97 №-li daşın cənub tərəfində, ondan 10-50 sm arası olan çatla ayrılmış nəhəng qayanın qərb hissəsidir. Daşın şərq üzü dik divar kimidir. Bu üzün yuxarısında qalmış lağım yeri göstərir ki, onun şimal uca yaxın hissəsi daşqıranlar tərəfindən lağımla partladılmışdır.

Şərq üzün ortadan aşağısı təbii aşınma ilə lay-lay qopub tökülür. Aşağıdan 2-2,5 metr isə daha dərin qopuqlara məruz qalıb. Bu üzdə daşın uzunluğu 5, hündürlüyü 6-7 metrdir.

Burada son orta əsrlərdə çəkilmiş təsvirlər (57-ci tablo, A) qeydə alınmışdır. Onlardan üçündə (№№ 1, 2, 4) çox sxematik və savadsız çəkilmiş keçi rəsmi göstərilir, birində (№ 3) çox pozulduğundan oxunması mümkün olmayan təsvir qalığı saxlanıb.

DAŞ № 99

98 №-li daşdan cənub-şərq tərəfdə, şimal-qərb tini 98 №-li daşa toxunan, qərb tərəfində papaq kimi çıxıntısı olan, qərb və şərq tərəflərində uzunluğu 5,5, cənub tərəfdə 4 və şimal tərəfdə 3 metr, hündürlüyü 5 metr iri daşdır. 18 №-li daşdan 3,5 metr qərbdədir və aralarında nə vaxtsa olmuş hörüyün qalığı var. Daşın şimal və şərq tərəfləri üzündə 11 ədəd rəsm və ya rəsm qalığı qeydə alınmışdır (57-ci tablo, B 1-11). Şəkillərdən üçü (№ 9-11) daşın şərq tərəfində, dördü isə şimal tərəfdə (№№ 1, 2, 5, 6) qayıq təsvirləridir. Onlardan yalnız şərq üzdəki 10 №-li, içində 7 adam olan qayıq, hər iki başı yerində olmaqla, tam saxlanmışdır. Qalanların hissələri qismən aşınma nəticəsində silinmişdir. Qayıqlardan 1 №-lidə ən az, 5 ədəd, 6 №-lidə ən çox, 21 adam işarəsi saxlanmışdır. 5 №-li qayıq təsviri 4 №-li qədim, kölgəvarı döyülmüş qadın təsvirinin üstündə çəkilərək onu ortadan kəsir. 11 №-li qayığın sağ tərəf ucuna yaxın lövbər şəkli çəkilib. Daşın şimal üzündə göstərilən 4 qayıq və çox səliqəsiz çəkilmiş döymə qadın rəsmindən başqa daha bir ədəd naməlum heyvan (№ 3) və iki ədəd kiçik ölçülü keçi (№ 7, 8) rəsmi də çəkilmişdir.

99 №-li daşdakı rəsmlərdən qayıq təsvirləri er.əvv. V-IV minilliklərdə, qadın təsviri «Firuz-2» düşərgəsindəki (daş № 19) oxşar qadın təsvirləri ilə bir dövrdə, 7-8 №-li rəsmlərdəki keçi təsvirləri isə Qobustanda «Böyükdaş» yaşayış yerindən və 3 №-li kurqandan aşkar edilmiş şəkilli daşlar üzərindəki keçi təsvirləri ilə oxşarlığa əsasən er.əvv. III minilliyin sonu, II minilliyin əvvəllərində çəkilmişdir.

DAŞ № 100

«Firuz-2» düşərgəsi və 98, 99 №-li daşlardan 180° altında 100-120 metr məsafədə «Firuz-2»dən cənubdakı köhnə neft buruğu yerindən 260° altında 50 metr, məsafədə hündürlüyü 3-3,5, yerdə ölçüsü 2,5x3,5 metr, yuxarı getdikcə nazilən daşdır. Daşın cənub-şərqə baxan üzündə 4 ədəd (58-ci tablo, B, №№ 1-4) şərqə baxan üzündə də 4 ədəd (58-ci tablo, B, №№ 5-8) rəsm və rəsm qalığı qeydə alınmışdır.

Rəsmlərdən birində (№ 1) təhrif olunmuş keçi, birində (№3) yırtıcı heyvan, çox güman ki, bəbir, birində (№ 6) ayaqlarının yumrulanması və quyruğunun dala uzanmasına görə çox güman ki, at, dəst-xəttinə görə, 7 №-li rəsmdə də görünür, at nəzərdə tutulmuş, bir təsvirdə (№ 5) aidiyyətini müəyyən etmək çətin olan heyvan təsvir edilmiş, 3 nömrə altında (№№ 2, 4, 8) isə rəsm qalıqları qeydə alınmışdır. 3 №-li rəsmdə bəbir təsvir olunmasını onun qabaq ayaqlarının dırnaqlarla göstərilməsi, onun başı (qulaqsız olsa da), bədəni, dal ayaqlarının sıçrayış vəziyyəti və quyruğunun dala tərəf aşağı istiqamətdə uzanması da göstərir.

100 №-li daşın üzərindəki təsvirlərdə 3 №-li rəsmdəki bəbir rəsmini, 2 və 4 №-li rəsm qalıqlarını ən qədim hesab etmək olar. Onlar, çox güman ki, antik və ilk orta əsrlər dövründə, qalan rəsmlər isə son orta əsrlərdə çəkilmişdir. 100 №-li daşın dibində də kiçik bir daş üzərində çox sxematik çəkilmiş yüklü at təsviri vardır (58-ci tablo, D). Ümumi görünüşdə onun da son əsrlərdə çəkildiyini demək olar.

DAŞ № 101

Kçikdaş dağı sahəsində Göydərənin ayağının şimal tərəfində, düzənlik qurtarıb qayalıqlar başlanan sahədə 15 №-li qazılmış kurqan yerindən 173° altında 100-130 metr, köhnə buruq yerindən 190° altında 80-100 metr məsafədə, 102 №-li daşdan 13-15 metr şimal-qərbdə çox nəhəng daşdır. Daşın aşağısı sarı, yuxarısı qara rəngə çalır.

Şəkil qayanın 93° altında 15 №-li kurqana baxan üzündə, yerdən 2 metr hündürdədir. Burada bir sxematik adam təsvir olunmuşdur (58-ci tablo, Q). Onun qolları azca yana olmaqla yuxarı qaldırılmış, bədəni dördbucaqlı şəklində, belindən üfüqi xətlə (və ya kəmərlə) kəsilmişdir. Ayaqlar bədənin yan xətlərinin aşağı ucunun dikinə xətlə ayrılması ilə verilmişdir.

Rəsmin qayada 20-ci əsrdə çapıldığı onun təzəliyindən aydın bilinir.

DAŞ № 102

Kiçikdaş dağı sahəsində Göydərənin ayağından şimal tərəfdə, düzənlik qurtarıb qayalıqlar başlanan sahədə, 15 №-li qazılmış kurqanın yerindən 170° 100-120 metr, 101 №-li daşdan 13-15 metr cənub-şərqdə, 58 №-li daşdan 200 metr tam şimalda, 101 №-li daşla qoşa dayanmış çox nəhəng qayadır.

Şəkil daşın şərqə baxan tininin cənub üzündə, daşa yazılmış (102) inventar nömrəsindən soldadır. Burada 3 ədəd sxematik heyvan təsviri qeydə alınmışdır (58-ci tablo, V). Onlardan biri (№ 3) sxematik keçi, ikisi (№ 1 və 2) naməlum heyvan rəsmindən qalıqdır.

102 №-li daş üzərindəki rəsmlərdən ikisi (№ 1 və 2) son orta əsrlərdə, biri (№ 3) isə gec, 20-ci əsrdə çəkilmişdir.

DAŞ № 103

Kiçikdaş dağının şərq ətəyində - düzən sahədə, 58 №-li daşdan 80° altında 530 metr, 15 №-li kurqandan 100° altında 250 metr, 104 №-li daşdan 295° altında 100 metr məsafədə iri, cənub-şimal yatıq, üstü cənuba maili, şimal altda hündürlüyü 2,5, dərinliyi 3 metr örtülü sahə əmələ gətirən, üstü lay-lay, şimala tərəf nazilən, 6x8 metr yer tutan qaya daşdır. Onun altında hörük qalığı var, qədimdə yaşayış olduğu hiss olunur. Şəkillər daşın şimal tərəfi altında şərq-qərb, yerdən 15-20 sm hündürlükdə bitili daşın şimal üzündədir. Burada iki ədəd pis saxlanmış və təyinatı mümkün olmayan kiçik ölçülü heyvan rəsminin qalığı qeydə alınmışdır (59-cu tablo, A, 1-2). Onlardan sağa, daşın tilində bir cərgədə də çoxlu kəsiklər edilmişdir ki, onların surəti alınmayıb, 103 №-li daşda qədim şəkil qalıqlarının çəkilmə dövrünü er.əvv III minillik hesab etmək olar.

DAŞ № 104

Kiçikdaş dağı qayalıqlarının şərq ətəyində - düzən sahədə, 58 №-li daşdan 70° altında 550 metr, daş № 103-dən 115° altında 100 metr, 105 №-li daşdan 295° altında 115 metr məsafədə, uzunluğu 9, eni 4 metr daşdır. Cənub tərəfin şərq ucunda hündürlüyü 150-160 sm-dir, qərbə getdikcə alçalır və yerə yenir.

Şəkil daşın qərb üzündə, yerdən 10 sm hündürdə və şərq ucdan 2,5 metr qərbdədir.

Burada yönü sağa olmaqla uzunluğu (burnunun ucundan budunun dalına) 45, hündürlüyü (qabaq ayağının ucundan buynuzunun üstünə) 50 sm ölçülü keçi təsvir edilmişdir. Onun buynuzları böyük yarımçevrə əmələ gətirərək, ucu keçinin belinə tərəf əyilir (59-cu tablo, B). Dal ayaqlarının ucu birləşir. Quyruğu tamdır, belindən və buynuzundan hissələr silinib. Rəsm ümumi baxışda Qobustanda er.əvvəl III minilliyə aid 30 №-li kurqanın daşı üzərindəki keçi təsviri ilə oxşardır.

DAŞ № 105

Kiçikdaş dağı qayalıqlarının şərq ətəyində - düzən sahədə, 103 və 104 №-li daşlardan 115° altında, 104 №-li daşdan 115 metr, 106 №-li daşdan 345° altında 75 metr məsafədə yerdən bitili, 4x3 metr ölçülü, qərb tərəfdə ən çox hündürlüyü 80 sm olan kiçik yastı daşdır. Üstü düz təhər, lakin kələ-kötür, cənub-şərqə tərəf mailidir. Şəkil cənub üzün qərb ucuna yaxın, yerdən 45-50 sm hündürdədir. Burada bir ədəd heyvan təsviri saxlanmışdır (59-cu tablo, V). Onun aşınmaya məruz qalaraq nöqtələr səviyyəsində saxlanmış buynuzu, başı və güclü çiyni heyvanın öküz olduğunu göstərir. Lakin qarınaltı xətti bucaq altında yaxınlaşır, quyruğu saxlanmayıb. Daşa 105 nömrəsi onun cənub tinində torpağa yaxın yerində yazılıb.

Təsvirin dövrünü 105 №-li daşa yaxın, bir kompleks təşkil edən başqa təsvirlər arasında er.əvvəlki III minilliyə aid etmək olar.

DAŞ № 106

Kiçikdaş dağı sahəsinin cənub-şərq hissəsində 103 №-li daşdan 130° altında 75 metr, 107 №-li daşdan 30° altında 10 metr məsafədə şərq-qərb uzunluğu 6 metr, qərb tərəfdə eni 2,0 metr, cənub tərəfdə hündürlüyü 3 metr, şimal tərəfini yarıya qədər torpaq basmış, şərq ucu cənub-şərq tərəfdəki iri qayanın üstünə yatmış lay daşdır. Daşın üstündə təbii əmələ gəlmiş yalaq var.

Təsvirlər daşın cənub üzünün qərb ucunda (iri qaya ilə arada) yerdən 10-15 sm hündürdədir (59-cu tablo, Q). Burada yönü sağa olmaqla bir öküz (№ 2), bir keçi (№ 1) və iki rəqs edən adam təsviri qeydə alınmışdır (39-cu foto şəkil). Öküz çox əzəmətli təsvir edilsə də başı bədənilə müqayisədə kiçikdir. Qoşa buynuzu dik qalxıb qabağa yönəlir və yenidən arxaya meyilli olaraq dik qalxır. Təsvir qədim Qobustan öküzlərinin çəkilişi üçün səciyyəvi üsulla - 4 xətlə çəkilmişdir. Bədəni iri və ətli alınıb, quyruğu normaldır. Bir düz xətt öküzün gözünün yanından başlayıb başını sifətini kəsərək, döşü bərabərinədək aşağı sallanır. Onun nə məqsədlə çəkildiyini demək çətindir. Bəlkə rəssam öküzün başına bağlanmış ipi ifadə etmək istəmişdir?

Keçi (№ 1) öküzün üstündə, yönü sağa təsvir edilmişdir. Onun dal ayaqları silinib, buynuzu dik qalxıb dala tərəf çevrələnir və ucu az qalır başına dəysin. Adamlar (№ 3, 4) hər ikisi qollarını yana açıb, əllərini yuxarıdan başına tərəf əymiş, ayaqları dizdən bükülərək yarı oturmuş vəziyyətdə rəqs edən kimi təsvir edilmişdir. Onların belini kiçik üfüqi xətt kəsir.

Səhnə ümumi baxışda adamların öküz və keçi totemlərinə sitayiş mərasimini əks etdirir. Dövrünü er.əvvəlki IV minilliyə aid etmək olar.

DAŞ № 107

Kiçikdaş dağı sahəsinin cənub-şərq düzən hissəsində 106 №-li daşdan 210° altında 10 metr məsafədə, 109 №-li daşdan 220 metr tam şimalda yerdən bitili yastı, şərq tərəfdə hündürlüyü 1,0 metr, qərb tərəfini torpaq yarıya qədər basmış, şimal-cənub uzunluğu 7 metr, eni 5 metr daşdır.

Təsvirlər daşın şərq tərəfinin şimal hissəsindədir. Burada bir üfüqi xətt və iki heyvan təsviri qeydə alınmışdır (54-cü tablo, J). 35 sm uzunluğunda xəttin (№ 1) sağ tərəf ucu elə bil sağdakı, yönü sola heyvanın (№ 2) sinəsinə tuşlanıb. Heyvanın başı və qulaqları kobud olaraq qabağa uzanmış, qabaq ayaqlarının ucu qövsvari birləşir, quyruğu keçi quyruğu kimidir. İkinci heyvanın da (№ 3) yönü soladır. Onun çənəsi qabağa uzanmış quş dimdiyini xatırladır, iri buynuzu dala tərəf, uzanmışdır. Təsvirləri tunc dövrünün sonlarına aid etmək olar. 107 №-li

daşın şimal ucu üstündə 3 ədəd də ətrafı aşınıb yeyilərək, formasını itirmiş yalaq var. Onların ölçüləri: 1) 60x35, dərinliyi 15 sm, 2) 100x73, dərinliyi 70 sm, 3) 135x75, dərinliyi 60 sm-dir.

DAŞ № 108

Kiçikdaş dağı sahəsinin cənub-şərq tərəfinin düzən sahəsində, 103 №-li daşdan 135° altında, 106 №-li daşdan 170° altında 63 metr, 109 №-li daşdan 25° altında 175 metr məsafədə, hündürlüyü 1 metr, ölçüsü 10x5 metr iri, yastı daşdır. Üstü düz və hamardır. Üstündə 2 ədəd təbii və formasız yalaq var. Şərq tərəfdən daşın üstünə başqa bir iri daş yatır. Daşın cənub üzünün şərq ucu tinindən 1 metr sola, yerdən 10-15 sm hündürdə bir keçi təsviri saxlanmışdır (50-ci tablo, D).

Keçinin döş nahiyəsi iri, güclü, başı nisbətən kiçik, qılıncvari buynuzu dala və yuxarı meyilli olmaqla çox uzun, belinə tərəf dönmüşdür.

Təsvirin tunc dövrünün sonlarında çəkildiyini hesab edirik.

Daşın inv. №-si şəkil olan tinin üstündə yazılıb.

DAŞ № 109

Kiçikdaş dağı sahəsinin cənub-şərq tərəfində düzən sahədə, 107 №-li daşdan 120° altında 220 metr, 108 №-li daşdan 205° altında 175 metr, daş № 110-dan 315° altında 182 metr məsafədə, hündürlüyü, şərq tərəfdə, 115, qərb tərəfdə 140 sm üstü şərqə tərəf maili iri, yastı, 10x6 metr ölçülü daşdır.

Şimal tərəfin orta hissəsində daşın altı ovalvari oyuqdur və bu oyuğun sol (şərq) hissəsində torpağa yaxın iki heyvan rəsmi var (59-cu tablo, E). Təsvirlər sxematik və savadsız çəkilibdir. Çəkilmə dövrü orta əsrlərdən qabaq deyil.

109 №-li daşın üstündə 5 iri və xırda, yağış suyu yığmaq üçün kənarları genişlənərək formasını itirmiş yalaqlar qazılmışdır (40-cı foto şəkil).

Onların 5 ədəd irisinin ölçüsü aşağıdakılardır: 90x78x40; 64x57x35; 100x73x70; 135x75x60; 50x45x35 sm.

109 №-li daşdan 3 metr şimal-qərb tərəfdə olan 9x7 metr ölçülü, 1,0-0,8 metr hündürlüyündə başqa bir yastı daşın üstündə də bir iri və üç kiçik ölçülü yalaq var. Onlar da formasını itirmişdir. Ölçüləri: 1) 80x60x35 sm, 2) 35x35x15 sm, 3) qərb ucda diametri 41, dərinliyi 15 sm, ən kiçiyinin, 1-ci yalaqdan cənubda, diametri 20x25, dərinliyi 16 sm-dir.

DAŞ № 110

Kiçikdaş dağı sahəsinin cənub-şərq hissəsində, 109 №-li daşdan 135° altında 182 metr, 112 №-li daşdan 200° altında 30 metr, 114 №-li daşdan 70° altında 195 metr məsafədə, cənub-şərq tərəfdə 3 metr, cənub-qərb tərəfdə 4 metr

olmaqla, 2,2 metr hündürlükdə dik divar əmələ gətirən, arxası şimal-şərqə tərəf maili yerə enən daşdır.

Daşın cənub-şərq üzündə, sol tərəfdən torpağa yaxın yerində (20-25 sm hündürdə) iki keçi və bir adam, daşın cənub-qərb tərəfində sağ tərəfdən hündürdə iki heyvan təsviri qeydə alınmışdır (60-cı tablo, A). Keçi təsvirləri (№ 2 və 3) 75 və 76 №-li daşlardakı er.əvvəlki 3-cü minilliyə aid keçi təsvirləri ilə eyni dəst-xətlə çəkilmişdir. Onlar qabaq-qabağa, yuxarı qalxmış, iri buynuzlarla təsvir edilmişdir. Adam yan görünüşdə, yönü sağ tərəfə olmaqla, elə bil 2 №-li keçinin buynuzları üstündə oturmuş vəziyyətdə göstərilmişdir. O qabağa uzanmış qolları ilə uzunsov dairəvi əşya, ola bilsin ki, yay-ox tutmuşdur (41-ci foto şəkil). Səhnə çox güman ki, keçi totemi ilə bağlı mərasimi əks etdirir (41-ci foto şəkil).

Daşın cənub-qərb üzündə yerdən 1,2 metr hündürdə, 4 və 5 №-ilə qeydə alınmış heyvan rəsmləri ümumi görünüşdə keçini andırır. Onlardan 5 №-li heyvanın qabaq hissəsi çox güclü, süksünü qabarıq verilmişdir. 4 №-li təsvirdə keçi çox pis saxlanmışdır. Qeyd edək ki, daşın bu, cənub-qərb üzündə müasir adamlar tərəfindən çoxlu avtoqraflar yazılması da onların korlanmasına səbəb olmuşdur. 4 və 5 №-li heyvanlar daşın cənub-şərq üzündəki keçi totemi mərasimindən çox gec, ən tezi son tunc dövründə çəkilmişdir.

DAŞ № 111

Kiçikdaş dağı sahəsinin şərq tərəfinin cənub hissəsində, düzən sahədə, 114 №-li daşdan 135° altında, 110 №-li daşdan 180° altında 200 metr məsafədə, yanları 2,5-2,5 və 1,6 metr olmaqla, üçbucaqlı sahə tutan, cənub tərəfi 2 metr hündürlükdə dik, kiçik daşdır.

Daşın cənub üzünün aşağı hissəsi düz divar kimidir və təbii cilalanıb-çaxmaqlaşmış sahəyə malikdir. Daşın bu üzündə yerdən 10-15 sm hündürdə, yönü sola olmaqla bir keçi təsviri var (60-cı tablo, B). Onun bədəni uzun, ayaqları qısadır. İri buynuzları yuxarı qalxıb dala əyilir və keçinin öz hündürlüyünə nisbətən çox iridir. Bədəni bir enli xətlə verilib və aşınaraq qarınaltı xətti dalğalı şəkil alıb. Qabaq ayaqları və arxa ayağının biri təbii reallıqla verilib. O birini çox qısa xətt əvəz edir. Bu keçi təsvirinin çənəsindən quyruğuna 24 sm, qabaq ayağının ucundan buynuzunun üstünə 17 sm-dir. Təsvir tunc dövründə çəkilib.

DAŞ № 112

Kiçikdaş dağı qayalıqlarının şərq baxarının cənub hissəsində, dəmiryoluna yaxın, ucdakı daşlardan biri, 110 №-li daşdan 20° altında 30 metr məsafədə, şimal-qərb cənub-şərq uzunluğu 10, eni 6 metr çox iri daşdır. Hündürlüyü qərb tərəfdə 2,5 metrdir, üstü şərqə tərəf yatıqdır və torpağa girir. Qərb və cənub tərəfləri və cənub-şərq ucu dik və hündürdür. Daşın qərb üzündə çoxlu şəkil qalığı var. Burada

13 ədəd heyvan rəsmi və onların pis saxlanmış qalıqları qeydə alınmışdır (60-cı tablo, V, 1-13).

Qeyd edək ki, tabloda 1 və 13 №-li şəkillərin arası 5,3 metrə bərabərdir. Ona görə tərəfimizdən tabloda rəsmlər üçün miqyası saxlamaqla 1-lə 2 və 5-lə 6 №-li rəsmlərin arasındakı məsafələr bir qədər yaxınlaşdırılmışdır.

12 №-li daş üzərindəki rəsmlərdən 4 ədəd (№№ 6, 8, 9, 10) keçi təsviri, 6 ədəd (№№ 1, 2, 5, 7, 12, 13) təyinatı çətin olan heyvan təsvirinin qalığı və 3 ədəd (№№ 3, 4, 11) xətt qalığı qeydə alınmışdır.

112 №-li daş üzərindəki qədim təsvirlər aşınma və yuyulma nəticəsində çox pis saxlanmışlar. Onların dövrünü ilk və orta tunc dövrlərinə, er.əvvəlki III-II minilliklər arasına aid etmək olar.

DAŞ № 113

Kiçikdaş dağı sahəsinin cənub-şərq hissəsində, düzdə dəmir yoluna yaxın, 112 №-li daşın cənub ucu altında yerdən sal daşdır. Üstünün çox hissəsini torpaq örtmüş və açıq sahələrdə xətt qalıqları görünürdü. Üstün 2,0x2,5 metr sahəsi torpaqdan təmizləndikdə daşın 112 №-li daşın altına tərəf hissəsində çoxlu xətt və şəkil qalıqları aşkar edildi (61 -ci tablo). Təsvirlərin xətləri çox pis və dayaz saxlanmışdır.

Onlardan bir adam (№ 3), üç heyvan (№№ 4, 6, 9), bir qayıq (№ 5), bir iri uzun xətt qalığı (№ 8), üç ədəd kiçik yalaq (№№ 1, 2, 7) və çoxlu xətt qalığı qeydə alınmışdır.

113 №-li daşın üstündəki təsvir qalıqlarının, daşın yeri və vəziyyətinə görə, onun 112 №-li daşdakı qədim rəsmlərlə həmdövr olması sözsüzdür.

DAŞ № 114

Kiçikdaş dağı sahəsinin şərq ətəyinin cənub hissəsində, 110 №-li daşdan 250° altında 195 metr, 112 №-li daşdan 240° altında 150 metr, 17 №-li daşdan 60° altında 100-130 metr və torpaq yoldan şərqdə, 116 №-li daşdan 10° altında təxminən 350-400 metr məsafədə, üstü cənuba tərəf yatıq, şimal ucu dik və hündür, altı örtülü sahə əmələ gətirən qaya parçasıdır. Şimal tərəfi altında ondan qopub düşmüş iri, 5x3 metr ölçülü seqment şəkilli daş var. Onun qalınlığı № 114-cü daşa baxan tərəfdə 1,2 metrdir.

Daşın qərb tərəfində diametri 6 sm olan bir ədəd işarə (№ 1) və ondan sağda formaca insan fiqurunu xatırladan iki ədəd (№ 2 və 3), hündürlüyü 14 və 20 sm olan döymə şəkil qalığı var (62-ci tablo, A, № 1-3). Şəkillər daşa yazılmış 114 inv. №-sindən 230-250 sm solda, 70 sm aşağıdadır.

114 №-li daşda çəkilmiş işarə və iki bənzətmə şəkil o dövr sakinlərinin (er.əvvəl IV-III minilliklərdə) inam və etiqadıyla bağlıdır.

DAŞ № 115

Kiçikdaş dağı sahəsinin şərq ətəyinin cənub hissəsində, 116 №-li daşdan 195° altında 130 metr, 117 №-li daşdan 315° altında 60 metr, 117[a] №-li daşdan 170 metr düz qərbdə, torpaq yoldan 40 metr qərbdə şimal tərəfi maili və yarıya qədər torpaq basmış, yerdə tərəfləri 6-5-6 metr, olan üçbucaqlı kimi sahə tutmuş üstü şərq-qərb ikiçatlı iri daşdır.

Hər üç üz maili olaraq yerə enir. Cənub-şərq və cənub-qərb ucu azca dikdir. Daşın cənub-şərq üzündə 4 keçi və bir pis saxlanmış sxematik insan təsviri saxlanıb (62-ci tablo, B, № 1-5).

Sol tərəfdəki keçilər (№ 1-2) qabaq-qabağa, sağ tərəfdəki keçilər yönü sağa tərəf çəkilmişdir. Keçilərin dördü də dolu bədənli, dörd ayaq və buynuzları göstərilməklə, lakin nisbətən sxematikdir. Bir keçinin (№ 4) bel xəttində 5-ci ayaq və ya ucu aşağı sallanmış quyruq kimi verilməsi onun savadsız təsvir olunduğunu göstərir.

3-cü fiqurda adam iki ayaqla, şaquli düz uzun xətdən ibarət bədənlə və ona sağdan və soldan paralel çəkilmiş xətlərlə qol verilməklə təsvir edilmişdir.

115 №-li daşdakı təsvirlərin dövrü Qobustanda tunc dövrünün sonu - dəmir dövrünə aiddir.

DAŞ № 116

Kiçikdaş dağı sahəsinin şərq ətəyinin cənub hissəsində, 114 №-li daşdan 190° altında 350-400 metr, 115 №-li daşdan 15° altında 130 metr, 117 №-li daşdan 170-180 metr şimalda, 118 №-li daşdan 285° altında 200 metr məsafədə, tökmə torpaq yoldan 10 metr qərb tərəfdə, şimal tərəfi alçalıb yerlə bərabərləşən, cənub ucu və cənub-qərb tərəfi dik, iri, uzunsov qaya daşdır. Şimal-cənub uzunluğu 13 metr, eni 6-7 metr, qərb tərəfdə hündürlüyü 3 metrdir. Daşın qərb tərəfinin ortasında yerdən 50 sm hündürdə, yönü sola olmaqla bir ədəd pis saxlanmış, kiçik ölçülü qədim keçi şəkli var (62-ci tablo, V, № 1). Onun uzunluğu quyruqdan çənəsinə 19 sm-dir. Daşın cənub ucunun şərq tinində də, № 1-dən 6,5 metr sağa olmaqla bir sxematik heyvan təsvir edilib (62-ci tablo, V, № 2). Onun kiçik quyruğunun ucu qövsvarı olaraq aşağı əyilir, bədəni dördbucaqlı şəklindədir, ayaqları bədənə şaquli çəkilib, yandan bədənin bir hissəsi dikinə xətlə kəsilib, başı bel xəttinin ucu ilə, qoşa buynuzları dala maili xətlərlə verilib. Təsvirin iti alətlə çapıldığı və çox cavan olduğu aydın bilinir.

1-ci şəkildəki keçi təsviri dördbucaqlıya oxşar bədənlə, başı iri - donuz başına oxşar, buynuzları dik qalxmış qoşa qısa xətlə, dal ayaqlarının ucu qövsvari olaraq bitişmiş verilib.

116 №-li daşdakı keçi təsvirinin (№ 1) dövrü er.əvvəl III minilliyə, 2 №-li rəsmdəki heyvan təsvirinin dövrü eramızın son əsrlərinə aiddir.

DAŞ № 117

Kiçikdaş dağı sahəsinin şərq ətəyinin cənub hissəsində, 115 №-li daşdan 135° altında 60 metr məsafədə, 116 №-li daşdan 170-180 metr cənubda tökmə torpaq yoldan 8 metr şərqə yolun kənarında alçaq, yastı, iri daşdır. Şimal tərəfi torpaqla bərabərləşir, cənub ucu, eləcə də, cənub-şərq və cənub-qərb tərəfləri 1 metrə qədər hündürdür. Daşın üstü romb şəkillidir, ölçüsü şərq-qərb diaqonalda 6 metr, şimal-cənub 2 metrdir.

Daşın cənub ucunun şərq üzündə 2 ədəd sxematik keçi (63-cü tablo, A, № 9, 10) cənub ucun qərb üzündə isə 7 keçi və bir naməlum heyvan təsviri (63-cü tablo, A, № 1-8) var. Onlardan biri (№ 1) daşda sol tərəfdə № 2-dən 203 sm sola, lakin № 2-8-lə bir səviyyədədir. Təsvir № 1 o qədər pis saxlanmışdır ki, onun hansı heyvana və ya əşyaya aid olduğunu demək çətindir. Qalan şəkillərdə (№ 2-8) keçi təsvir edilmişdir. Hamısının yönü soladır. Onlar olduqca sxematikdir, 4 ədədində (№№ 2, 3, 6, 8) qoşa, birində (№ 7) tək buynuz, onların keçi olmasına şübhə qoymur. İki ədədinin (№ 4, 5) başı və arxa hissəsi aşınıb tökülmüşdür.

Daşın şərq üzündəki iki keçi təsviri də olduqca sxematik və savadsız çəkilmişdir. Hər ikisinin yönü sağadır, dal ayaqları çatışmır, daldakının başı və buynuzları yoxdur, buynuz əvəzi qabağa kiçik xətt çəkilib. Qabaqdakı keçinin quyruğu iri, mal quyruğu kimi daldan aşağı sallanır.

117 №-li daşdakı təsvirlərin sxematikliyi ilə yanaşı xətlərinin pis saxlanmasını da nəzərə alsaq, onların eramızdan əvvəlki I minilliyin əvvəllərində çəkildiklərini demək olar.

117 №-li daşın üstündə 6 ədəd də yalaq var. Onlardan ikisi daşın ortasının qərb kənarına yaxın çox iri yalaqlardır. Üç ədədi daşın şimal ucu və biri cənub ucu üstündədir. Yalaqların heç birinin ilk forması saxlanmayıb. Onların içərisi uzun müddət ərzində yağış suları ilə yuyulmaqla genişlənmişdir. Çox güman ki, bu yalaqlar vaxtilə su ehtiyatı üçün çəllək rolunu görmüşdür.

117 №-li daşdan 60° altında 110 metr, daş № 115-dən 170 metr şərqə,116 №-li daşdan 155° altında 100-150 metr məsafədə də üzərində, formasını itirmiş iri, çəlləkvari yalaqlar olan bir daş var. Onu Daş №117^{A} kimi qeydə almışıq. O, bu ərazidə ən hündür və ən iri, şimal-cənub uzunluğu 15 metr, eni 6 metr, şərq tərəfdən hündürlüyü 3 metr qaya-daşdır. Daşın üstünün qərb yarısı mailidir, ortadan şərqə tərəf düz səthə malikdir. Burada ilk formasını itirmiş, genişlənərək üçbucaq forması almış, uzunluğu 240 və 150 sm, ən geniş yerində eni 115 və 120 sm, dərinliyi 15-20 sm arasında iki ədəd çox iri və diametri 30x40, dərinliyi 10 sm olan bir ədəd yalaq var. Hesab edirik ki, bu yalaqlardan da keçmişdə yaxın ərazidə yaşamış adamlar yağış suyu yığmaq üçün çəllək kimi istifadə etmişlər.

DAŞ № 118

Kiçikdaş dağı sahəsində şərq ətəyin cənub hissəsində 111 №-li daşdan 190° altında təxminən 250 metr, 114 №-li daşdan 165° altında, 116 №-li daşdan 105° altında 200 metr məsafədə, bu sahədə şərqə tərəf ən ucda (burada şərq tərəfində 1980-ci illərdə tikilməyə başlanmış və yarımçıq qalmış zavod binasına baxarda) iri, şərq-qərb uzunluğu 14 metr, eni 4 metr, şimal tərəfini yarıya qədər torpaq basmış, şərq və qərb uclarında hündürlüyü 2,0-2,5 metrə çatan qaya daşdır.

118 №-li daşın cənub üzünün orta hissəsində yönü sola olmaqla, nisbətən yaxşı saxlanmış bir keçi təsviri, ondan sağa daha 4 yerdə keçi təsvirlərindən qalıqları andıran xətlər qeydə alınmışdır. 63-cü tablo, V, №№ 1-5). Daşın bu üzü zamanın təsirindən bir lay ovulub tökülüb, qədim səthdən orda-burda qalıqlar qalıb. Bu səbəbdən də qədim təsvirlərin çoxu qopub tökülmüşdür.

Saxlanmış keçi təsviri və təsvir qalıqlarının çəkilmə əlamətləri, (dəst-xətti), daşın bu üzünün ümumi vəziyyəti və şəkil qalıqlarının saxlanma dərəcəsini nəzərə alaraq, onların dövrünü er.əvvəl I minilliyin əvvəllərinə aid etmək olar.

DAŞ № 119

Kiçikdaş dağı sahəsində «Ceyranlar» düşərgəsinin girəcəyindən 7-8 metr cənubda yerdən bitili, şərq-qərb uzunluğu 7 metr, hündürlüyü qərb ucda 1,5 metr, şərq ucda alçalan, cənub üzü maili, şimal üzü nisbətən dik daşdır.

Daşın «Ceyranlar»a baxan şimal üzünün qərb ucunda bir ədəd sxematik keçi rəsmi qazılıb. Onun uzunluğu və hündürlüyü 25 sm-dir, başı verilməyib, buynuzlar bədənin qabaq hissəsindən qövsvarı çıxıb dala uzanır. Buynuzları, bədəni və ayaqları bir-birinə paralel qoşa xətlə verilib. Nisbətən iri quyruğu qövsvarı olaraq dik qalxıb dala əyilmişdir (63-cü tablo, B).

Təsvirin sxematikliyi, çəkilmə üsulu və s. onun orta əsrlərdə «Ceyranlar» düşərgəsindən istifadə etmiş maldarlar tərəfindən çəkildiyini göstərir.

DAŞ № 120

Kiçikdaş dağı sahəsində «Ceyranlar» düşərgəsinin qərb divarını təşkil edən 49 №-li daşdan 70 sm cənub tərəfdə, 119 №-li daşdan 2 metrə qədər qərb tərəfdə yerdən bitili yastı daşdır. Şərq-qərb uzunluğu 8 metr, eni qərb ucda 4, şərq ucda 5,5 metrdir. Daşın şərqə tərəf üstü maili olaraq yerə birləşir. Şərq üzün yuxarı hissəsində, sol uca yaxın üç keçi, onlardan 125 sm sağda bir sxematik at rəsmi çəkilmişdir (63-cü tablo, Q, № 1-4). Keçilərdən ikisi (№ 1 və 2) qabaq-qabağa, üçüncüsü (№ 3) onlardan 20-25 sm aşağıda yönü sağa təsvir edilmişdir. Onlardan sağda təsvir edilmiş at da (№ 4) keçilər kimi sxematikdir. Lakin onun uzun boynu, qabağa şəklənmiş kiçik qulaqları, quyruğunun dala uzanması onun at təsviri

olmasına şübhə yeri qoymur. Atın hündürlüyü qabaq ayağından qulağına 20 sm-dir. At şəklindən 3,5 sm aşağıda və 70 sm, aralıda ərəb əlifbası ilə 2 və ya 3 söz qalığı var, birində «Həsən» oxunur, biri yarımçıqdır.

120 №-li daşdakı təsvir və yazıların da «Ceyranlar» düşərgəsindən orta əsrlər dövründə istifadə etmiş maldarlar tərəfindən qazılması şübhə doğurmur.

DAŞ № 121

Kiçikdaş dağı sahəsinin şimal-şərq ətəyində 52 №-li daşdan 290° altında, 43 №-li daşdan 330° altında Qobustan qəsəbəsindən Daşqışlağa gedən torpaq yolun keçmişdə qışlaqlar olmuş sahəni keçdiyi yerdə, yoldan 4-5 metr şimal tərəfdə, şimal-qərb-cənub-şərq uzunluğu 7 metr, eni 4 metr, hündürlüyü şimal-qərb ucda 2 metr, cənub-şərq ucda 1 metr olan daşdır. Daşın cənub-qərb (yola tərəf) üzündə bir ədəd sxematik atlı (süvari) təsvir edilmişdir (64-cü tablo, B). Rəsm iti alətlə, nazik xətlə qazılıb və pis saxlanıb. At yüyənsiz və yəhərsizdir. Süvarinin bədəni bir şaquli xətlə verilmiş, ayaqları atın bel və qarınaltı xətlərini kəsib aşağı çıxır. Adamın çiynindən qabağa uzanan xətt (əl) adamın atın yalmanından tutmasını göstərir. Atın dala tərəf yuxarı meyilli kiçik quyruğunun ucu kiçik çevrə ilə qurtararaq, quyruğun düyüldüyünü göstərir.

Təsvir buradakı qışlaqların sakinləri tərəfindən orta əsrlərdə çəkilmişdir.

DAŞ № 122

Kiçikdaş dağı sahəsinin şimal-şərq ətəyində 121 №-li daşdan 2-3 metr cənub-qərbdə, yerdən bitili sal daşdır. Üstü Daşqışlağa gedən yola tərəf azca mailidir və bir ucu yola çıxır.

Daşın üstündə, orta hissəsində, xətləri dərin qazılmış və bəzi yerləri aşınıb genişlənmiş, naməlum təsvir qalığı saxlanmışdır (64-cü tablo, A). Çəkilmə texnikasına görə təsvirin dövrünü çox qədim hesab etmək olar, lakin dövr deməyə çətinlik çəkirik.

DAŞ № 123

Kiçikdaş dağı sahəsində «Ceyranlar» düşərgəsindən 20-30 metr şərqə, düzə tərəf, 48 №-li daşdan 17 metr şərqə torpaq yolun qərb kənarında, ortadan qərb-şərq çatla iki bölünmüş nəhəng qayanın cənub hissəsidir. Şimal-cənub uzunluğu 13 metrdir.

123 №-li daşda 5 rəsm (64-cü tablo, V, №№ 1-5) qeydə alınmışdır. Onlardan 1, 2 və 3 №-li rəsmlər daşın şərq üzünün cənub ucunda, (42-ci foto şəkil) 4 №-li rəsm onlardan 9 metr sağa-şimala tərəf, 5 №-li rəsm isə daşın cənub-qərb tərəfində qeydə alınmışdır.

Daşın şərq üzünün cənub hissəsindəki 1 və 3 №-li rəsmlər daşın aşınması nəticəsində çox pis saxlanmışdır. 1 №-li rəsmdə, görünür, insan təsvirindən, 3 №-li rəsmdə öküz rəsmindən qalıqlar saxlanmışdır. 2 №-li rəsmdə isə 45 sm hündürlüyündə, ön görünüşdə kölgəvari döyülmüş qadın təsvir edilmişdir. Onun döşü iri və dairəvi, ayaqları dizdən boğmalı olmaqla, dizdən aşağı və yuxarı olduqca iri və qabarıq verilmişdir. Çiynində soldan sağa çəpəki çəkilmiş alət verilmişdir. Onun yuxarı ucunda üç, aşağı ucunda iki çıxıntı göstərilmişdir.

Şərq üzdə sağdakı şəkil (№ 4) başı saxlanmamış, kobud ifadə edilmiş, qabaq və dal ayaqlarının ucu qövsvari birləşmiş heyvan (keçi) təsviridir.

Daşın cənub-qərb tərəfində qeydə aldığımız 5 №-li rəsm kölgəvari döyülmüş iri qayıq təsvirinin sağ hissəsidir. Onun sol hissəsi qayanın qopub düşmüş hissəsi ilə məhv olmuşdur. Qalmış hissənin uzunluğu 60, gövdənin eni 6-7 sm-dir. Qayığın qalmış hissəsinin içində 6 ədəd adam işarəsi var.

Daşın şərq üzünün cənub ucundakı şəkillərin (№№ 1-3) tarixi «Ceyranlar» düşərgəsində yaşayışın, er.əvv XII-X minilliklər dövrünü tutur. 5 №-li şəkildəki qayıq təsviri er.əvv IV-III minilliklərdə, 4 №-li yarımçıq heyvan rəsmi isə daha gec dövrlərdə çəkilmişdir.

DAŞ № 123[A]

123 №-li daşdan 28-30 metr şərqdə, düzə tərəf, yeganə iri, yanları düz olmayan, təxmini diametri 10 metrə bərabər, ümumi hündürlüyü 3 metrə çatan daşdır. Onun üstünün cənub-qərb küncündə ölçüsü 150x65, dərinliyi 40 sm su hovuzu - çapma qazılıb. Bu tərəfdə daşın hündürlüyü 2 metrdir. Kənardan hovuz görünmür və çapmadan su götürmək məqsədilə daşın üstünə çıxmaq üçün nərdivan lazımdır.

Bu daşın üstündəki çapma da, «Ceyranlar» düşərgəsi ətrafında, buraya yaxın 46, 46[a], 52, 53 №-li daşlardakı çapmalarla bir vaxtda XX əsrin 1-ci yarısında, burada qışlayan maldarlar tərəfindən qazılmışdır.

DAŞ № 124

«Firuz-2» düşərgəsindən və 18 №-li daşdan 90-100 metr tam cənubda, şimal-cənub uzunluğu 10 metr, şərq-qərb eni 4 metr, qərb tərəfini torpaq basmış (qalmış hündürlüyü 20 sm) üstü şərqə tərəf maili daşdır.

Daşın cənub ucundan bir hissə, eni 5-8 sm çatla, aralanıb. Bu hissənin cənubdakı, iri daşa baxan cənub-qərb tinində, yerdən 50-60 sm hündürdə 3 ədəd pis saxlanmış sxematik heyvan təsviri qeydə alınmışdır. Heyvanların hər üçünün yönü soladır (64-cü tablo, Q, №№ 1-3). 1 və 2 №-li heyvanın quyruğuna və hər üç heyvanın buynuzuna görə onlar keçidir. Hər üçü çox sxematik və savadsız çəkilmişdir. Rəsmlər çəkilişi və ümumi görünüşünə görə orta əsrlərdə çəkilmişdir.

DAŞ № 124[A]

Bu nömrə ilə, 124 №-li daşın şəkilləri olan cənub-qərb tinindən 2 metr cənub-qərb tərəfdə, üzəri düz və şimala tərəf maili sal daş qeydə alınmışdır. Daşın ölçüləri: şimal-cənub 6, şərq-qərb 5 metrdir. Üstündə şimal uca yaxın diametri 35, dərinliyi 18 sm olan qazanvari yalaq qazılıb. Yalaq 124 №-li daşdakı keçi şəkillərindən daha çox qədimə aiddir.

Qeyd edək ki, 124 №-li daşdan 8-10 metr şimalda, hündürlüyü 2,5 metrə qədər iri bir qaya parçasının şərq tərəfində, bu tərəfə paralel qədim hörgü qalığı və ona uyğun daşın döşündə pərdi ucu qoymaq üçün açılmış səkiciklər var. Burada vaxtilə, çox güman ki, antik və ya ilk orta əsrlərdə yaşayış olub və yalaq onun sakinlərinindir.

DAŞ № 125

«Firuz-2» düşərgəsindən cənub-qərbə, qalxmanın arxasında, 58 №-li daşın şimalından Qaraatlı pirinə gedən torpaq yolun Göydərədən keçdiyi yerə baxan güney sahədə, 124 №-li daşdan təxminən 300 metr qərbdə iri daşdır.

Onun cənub üzündə, yerdən adam boyu hündürdə 4 ədəd rəsm qeydə alınmışdır. Daşın şəkillər olan sahəsini daşın qabağında bitmiş kolun budaqları sürtür və burada çoxlu təzə avtoqraflar yazılıb.

Qeydə alınmış təsvirlərdən biri (№ 3) yönü sağa olmaqla, qədim öküz, biri (№ 1) kiçik ölçülü heyvan və biri (№ 2) iri ölçülü qeyri-mütənasib çəkilmiş naməlum heyvan təsviri və xətt qalığından (№ 4) ibarətdir (65-ci tablo, A, № 1-4).

Öküz rəsmi (№ 3) ümumi görünüşünə görə Qobustanda qədim öküzlər kimi çəkilmişdir. O başını aşağı əyib irəliyə, qabağındakı xəttin aid olduğu təsvir qalığına hücum vəziyyətindədir. Bu, öküzün bədəni ilə dal ayaqlarının vəziyyətindən aydın görünür. Öküz təsvirindən bir qədər sola və yuxarı, yönü sağa olmaqla çəkilmiş heyvan (№ 1) boynu uzun, qulağı qoşa və qabağa şəklənmiş, qabaq ayaqları dal ayaqlardan uzun, kiçik quyruğu maili dala uzanmış halda təsvir edilmişdir. O, ümumi görünüşdə kaftar təsviridir. 2 №-li rəsmdə uzunluğu 1,2 metr, aiddiyyətini müəyyənləşdirmək mümkün olmayan heyvan təsvir edilmişdir.

2 №-li rəsmdəki heyvanın xəttinin təzəliyi və onun orta əsrlərin sonlarında, 1 №-li rəsmin ondan bir qədər qədimdə, antik dövrdə, çəkilmiş olduğu şübhəsizdir.

Öküz təsviri və qabağında xətt qalığı kimi saxlanmış təsvir qalığı çəkilmə texnikası və saxlanma vəziyyətinə görə daha qədimdir. Öküzün qabağa doğru hücum və ya dartınma vəziyyəti bu sahəyə yaxın, 58 №-li daşdakı tələyə düşmüş öküz təsvirini (42-ci tablo, A, № 1) andırır və ola bilsin ki, eyni «rəssam» tərəfindən yaradılmışdır. Bu baxımdan öküzün dövrünü er.əvvəlki VI minilliyə aid etmək olar.

DAŞ № 126

Daş № 124-dən təxminən 300 metrə qədər qərbdə, 58 №-li daşdan şimala, şərqdən Göydərəyə qalxan yolla, şimaldan gələn torpaq yolun kəsişəcəyindən şimal-şərqdəki sarı rəngli, baş-ayaq çatı olan, nəhəng qayadan 225° altında təxminən 150 metr məsafədə, buradakı 4 iri qayadan biri cənub-şərqdə olanıdır. O, yerdə 4x4 metr sahə tutur. Üstü iki çatlı olub cənuba və şimala mailidir, şərq və qərb başı üçbucaq formada divar əmələ gətirir.

Daşın cənub üzündə sol (qərb) tərəfdən sağa və yerdən yuxarı 60 sm məsafədə bir ədəd sxematik maral təsviri var (65-ci tablo, B). Maralın bədəni və boynu qeyri-real nazik və uzundur. İri buynuzları şaxəlidir. Quyruğu keçi quyruğu kimi yuxarı qalxıb dala əyilib. Bütün bunlar maralın Qobustandakı başqa real maral təsvirlərindən çox cavan olduğunu, orta əsrlərdə çəkildiyini göstərir.

Daşın bu üzündə başqa, daha qədim təsvir qalıqlarının izi hiss olunur. Lakin onlar zamanın təsiri ilə yuyulduğundan və üstündə çoxlu müasir avtoqraflar yazıldığından oxunmur.

DAŞ № 127

127-128 №-li daşlar 126 №-li daşdan təxminən 200 metr, 58 №-li daşdan şimaldakı sarı rəngli və çatlı nəhəng qayadan 300-350 metr tam qərbə, buradakı ətrafı qayalıqlarla əhatə olunan böyük səkivari düzən sahədədir. Burada bəzi hörgü qalıqları və maddi qalıq izlərinə rast gəlinir. Bu sahə Göydərə ilə Qaraatlı pirinə gedən yolun dərənin başında şimaldan gələn torpaq yolla kəsişdiyi yerdən 200 metr şimaldadır. 127 və 128 №-li daşlar yoldan 10-15 metr şərqdədir. Şimal-şərq-cənub-qərb araları 4 metrdir. Daş № 127 onların cənub-qərbdə olanı, lay daşdır. Onun qərb ucu 3 metrə qədər sınıb, qalmış hissəsinin cənub üzdə uzunluğu 8 metr, ümumi hündürlüyü 1,9 metrdir. Şərq tərəfi altı 1,5 metr qədər dərin, 1 metr hündürlüyündə boşdur. Daşın cənub üzündə, yerdən 105 sm hündürdə, bir ədəd sxematik keçi (?) və bir heyvan rəsminin yarımçıq qalığı qeydə alınmışdır (65-ci tablo, V, № 1, 2).

Keçi rəsminin (№ 1) bədəni və ayaqları qoşa xətlə çox uzun və nazik, boynu yuxarıya meyilli uzun, qabaq ayaqlarının ucu birləşmiş, dala tərəf meyilli olmaqla dik qalxmış və azca arxaya tərəf əyilmiş iri qoşa buynuzla təsvir olunmuşdur. Ümumi baxışda onu ceyrana da oxşatmaq olar. Lakin yuxarı qalxaraq buynuzuna tərəf yönəlmiş çox iri quyruğu onun nəinki ceyran, keçi olmasını da inkar edir və savadsız olaraq orta əsrlərdə çəkildiyini göstərir.

Qeydə aldığımız xətt qalığını (№ 2) yarımçıq qalmış heyvan təsvirindən hissə hesab etmək olar.

DAŞ № 128

127 №-li daş üçün göstərilən sahədə, 127 №-li daşdan 4 metr şimal-şərqdə çox iri daşdır.

Daşın cənub-şərq tərəfində böyük hasar qalığına malik, keçmişdə yaşayış olmuş sahə var. Üstündə orta əsrlər keramika qırıqlarına təsadüf olunur. Daş cənub-qərb-şimal-şərq olmaqla, uzunluğu 11 metr qayadır. Onun cənub-şərqə baxan üzünün sağ hissəsində yerdən 75 sm hündürlükdə ərəb əlifbası ilə bir sətirlik (65-ci tablo, D, № 2) və sol hissə üzərində, yerdən 35 sm hündürdə, yenə bir sətirdə, 9 işarədən ibarət başqa bir yazı (65-ci tablo, D, № 1) saxlanmışdır.

Azərbaycan MEA-nın müxbir üzvü Məşədixanım Nemətovanın oxumasına görə ərəb əlifbası ilə yazıda «Allah, sən onun sahibinə rəhm elə!» yazılmışdır.

Ondan sola, 9 işarəli (hərfli) yazının hansı qrafika ilə yazıldığı və nə ifadə etdiyi haqqında hələlik məlumatımız yoxdur.

DAŞ № 128^{A}

128 №-li daşın cənub-şərq tinindən 100-105° altında 130 metr, 128 №-li daşın qabağındakı hörgü qalığından 50 metr məsafədə, buradan şərq-qərb keçən cığırdan 1 metr qərbə, uzunluğu 4 metr, hündürlüyü 1,5 metr üstü qövsvari daşdır.

Daşın cənub-şərqə cığıra baxan üzündə bir ədəd ayaqları, bədəni, boynu və buynuzlarını eyni aralıqda qoşa paralel xətlər təşkil edən sxematik keçi təsvir edilmişdir (65-ci tablo, Q).

Təsvirin orta əsrlərdə qazılması şübhə doğurmur.

DAŞQIŞLAQ SAHƏSİNİN QAYAÜSTÜ TƏSVİRLƏRİ

Daşqışlaq Kiçikdaş dağının özül hissəsindən 1,0-1,5 km cənub tərəfdə, dağın qayalıqlar zonasının cənub-qərb hissəsində «Qaraatlı» pirindən şimal, şimal-qərb tərəfdə, pirə gedən yolun üstündə, keçmişdə «Bəylər yatağı» adlanmış, hazırda cənub tərəfində qəbristanlığı olan bir neçə evdən ibarət qışlaq kəndinin adıdır.

Daşqışlaq adlandırdığımız qayaüstü təsvirlər kolleksiyası kəndin şərq tərəfindəki qapalı sahənin və kəndlə «Qaraatlı» piri arasında yol ətrafı qayalıqların daşları üzərində qeydə alınmışdır.

Daşqışlaq son əsrlərdə maldarların qışlağı olmuş və hazırda da Qobustan qəsəbəsi sakinləri tərəfindən qışlaq kimi istifadə olunur.

Daşqışlaq sahəsində 41 ədəd daş üzərində 230 ədəd şəkil qalığı və 50-yə yaxın çapma, yalaq, dəlmə, yazı, xətt qalığı, pərdi yeri və su üçün qanov və b. insan əli ilə qayada qazılmış abidə qalığı qeydə alınmışdır.

Qeydə alınmış təsvirlərin çoxu antik, ilk orta əsrlər və orta əsrlərdə çəkilmişdir. Tək-tək tunc və yeni daş dövründə çəkilmiş qədim təsvirlərə də təsadüf olunur ki, onların Kiçikdaş dağının başqa yerlərindəki qədim düşərgələrdə («Qayaarası «Ceyranlar», «Firuz», «Firuz-2») və Böyükdaş dağının qədim sakinləri tərəfindən ov vaxtı və ya az müddətli istifadələri ilə əlaqədar çəkildiklərini söyləmək olar.

DAŞ № 1

Daşqışlaq sahəsində, kəndin şərq tərəfində köhnə torpaq yoldan 20-30 metr şimal tərəfdə, daşqışlaq qəbristanlığındakı iri günbəzdən 90° altında, 2 nömrəli daşdan 290° altında 20 metr məsafədə, şimal-qərb-cənub-şərq olmaqla uzunluğu 7 metr, eni 4 metr, hündürlüyü 3 metr olan yerdən bitili iri qayadır.

Daşın cənub-qərb üzünün sağ ucunda yönü sağa olmaqla bir atlı təsviri və qabağında heyvanın arxa hissəsinin qalığı saxlanmışdır (55-ci tablo, A, 2 və 3-cü şəkillər). Onların başının üstündə də soldan sağa bir uzun xətt çəkilmişdir (66-cı tablo, A, 1).

Səhnədə at bir qulaqlı, sxematik, lakin ümumi görünüşdə reallığa yaxın təsvir edilmişdir. Onun üstündə, iki ayağı üstə dayanmış beldən dala əyilmiş adam təsvir edilmişdir. Heyvanın yönü sola olmaqla yalnız döşdən dala olan hissəsi çəkilmişdir. Onu quyruğuna görə keçi hesab etmək olar. Təsvirlərin dövrü orta əsrlərə aiddir.

DAŞ № 2

Daşqışlaq kəndinin şimal-şərq tərəfində, 1 nömrəli daşdan 110° altında 20 metr məsafədə, 3 nömrəli daşdan 20 metr qərbdə, şimal-qərb-cənub-şərq uzunluğu 12 metr, eni 3 metr, hündürlüyü 1-1,7 metrə qədər, yerdən bitili qayadır (43-cü foto şəkil). Daşın cənub üzünün şərq hissəsində 18 ədəd (66-cı tablo, B, şəkil 8, 10-13, 15, 19-29) və qərb hissəsində 7 ədəd (66-cı tablo, B, şəkil 1-7) dəvə şəklindən ibarət karvan təsviri verilmişdir. Cənub tərəfində 3 adam (66-cı tablo, B, şəkil 14, 16, 18) və bir naməlum heyvan şəklindən qalıq (66-cı tablo, B, şəkil 17) vardır. Dəvələr kiçik ölçülüdür (uzunluqları 20-30 sm-dir).

Dəvələrdən 18 ədədinin (şəkil №№ 1-7 və 19-29) yönü sola, 7-sininki (№№ 8-15) yönü sağa təsvir edilmişdir. Onların başının qulaqsız, boynunun dalğavari, bellərinin qabarıq olması və zəncirvari olaraq bir-birinin arxasınca düzülməsi burada dəvə karvanı təsvir olunduğuna şübhə yeri qoymur.

Daşın qərb hissəsindəki 7 dəvədən 3 ədədi (№№ 1-3) bir qrup və 4 ədədi (№№ 4-7) ikinci qrup kimi, lakin karvanbaşısız təsvir edilmişdir. Daşın cənub başındakı dəvələr bir-birinə əks istiqamətdə hərəkət edən 2 karvan təşkil edir. Onlardan yönü sağa olan qrupda 6-dəvə (№№ 9-13, 15) bir nəfər karvanbaşı (№ 16) tərəfindən çəkilir. Bu qrup karvanda 13 nömrəli dəvənin fonunda da bir qeyri-müəyyən rəsm (№ 14), çox güman ki, adam var.

Əks istiqamətdə (yönü sola) hərəkət edən karvanda pis saxlanmış, kiçik ölçülü karvanbaşının (№ 18) arxasınca 10 dəvə (№№ 19-28) hərəkətdədir. Onların doqquzu yüklü, biri (№ 27) isə yüksüzdür. Lakin onun boyun xətti və quyruğu onun da dəvə olduğunu deyir.

Birinci karvandan yuxarıda, yönü karvan istiqamətində bir dəvə (№ 8) və ikinci (altdakı) karvandan altda da yönü bu karvan istiqamətində olmaqla bir dəvə (№ 29) təsvir edilmişdir.

2 nömrəli daşdakı səhnələrdə orta əsrlər dövründə Xəzər dənizinin qərb sahili boyu qədim ipək yolu ilə hərəkət edən dəvə karvanı çəkilmişdir.

DAŞ № 3

Daşqışlaq sahəsində 2 nömrəli daşdan 20 metr şərqdə uzunluğu 25 metr, ortada eni 7-8 metr və hündürlüyü 5 metrə qədər yerdən bitili iri qayadır.

Daşın cənub-qərbə baxan maili üzündə, yerdən 2 metr hündürdə bir keçi şəkli çəkilib (67-ci tablo, A). Onun dik qalxan buynuzlarının ucları boynuna tərəf çevrələnmişdir. Quyruğu da belinə tərəf meyilli dik qalxmış, qabaq və dal ayaqlarının ucları birləşmişdir. Keçinin başı və bədəni (qarınaltı və bel xətti paralel olmaqla) mütənasibdir. Təsvirin dövrünü, Qobustanda tunc dövrü yaşayış yeri və kurqanlardan aşkar edilmiş keçi təsvirləri ilə yaxınlığına əsasən tunc dövrünə aid etmək olar.

DAŞ № 3[A]

Daşqışlaq sahəsində 2 nömrəli daşdan 50° altında 30 metr məsafədə və 3 nömrəli daşdan 15 metr şimalda, uzunluğu (şimal-qərb-cənub-şərq) 8 metr, eni 4 metr, hündürlüyü 2,5 metr iri qaya parçasıdır.

Daşın cənub-qərbə baxan üzünün cənub ucunda bir ədəd naməlum heyvan şəkli var (67-ci tablo, B). Onun quyruğu keçi quyruğunu andırır, başı yoxdur və baş yerindən bir ədəd buynuzvari xətt çıxaraq, əvvəl maili olaraq yuxarıya qabağa, sonra bucaq altında dala uzanır. Saxlanma dərəcəsi onun qədimliyini göstərsə də dövrünü demək çətindir.

DAŞ № 4

Daşqışlaq sahəsində 2 və 3 nömrəli daşlardan bir xətlə tam şərqə, 3[A] nömrəli daşdan 125° altında 30 metr məsafədə, yola tərəf, kənardakı, yerdən bitili yastı daşdır. Onun cənub-qərbə baxan üzü maili və hamardır. Uzunluğu 9 metr, ortada hündürlüyü 2 metrdir. Daşın üstü sola və sağa alçalır. Daşın cənub-qərbə baxan üzündə, solda bir adam (ovçu), sağda 2 maral şəkli və pis saxlanmış bir keçi təsviri qalığı vardır (67-ci tablo, Q, şəkil 1-4).

Adam təsvirinin hündürlüyü 40 sm-dir. O aşağı ucu haçalanan şaquli xətlə verilmiş, ondan qabağa (marallara tərəf) bir üfüqi uzun xətt (çox güman ki, odlu silah) uzanır. Marallar (№ 2 və 4), eləcə də quyruğu maralın (№ 4) belini kəsib dik qalxdığına görə keçi saydığımız yarımçıq heyvan (№ 3) yönü sola təsvir edilmişdir.

4 №-li daş üzərindəki bütün təsvirlər çox sadə və sxematikdir. Qabaqdakı maralın (№ 2) buynuzu 2 çıxıntısı olan şaquli xətlə, quyruğu da dik qalxan çox uzun xətlə göstərilmişdir.

Göstərilən təsvirlərin hamısının son əsrlərdə çobanlar və ya təsadüfi adamlar tərəfindən çəkildiyi şübhə doğurmur.

DAŞ № 5

Daşqışlaq sahəsində 4 №-li daşdan 45° altında 30 metr məsafədə, 3[A] nömrəli daşdan 50 metr şərqdə, 6 nömrəli daşdan 2 metr cənuba, şərq-qərb uzunluğu 8 metr, qərb ucda eni 2,5 metr, hündürlüyü 3,5 metr iri daşdır. Qərb üzü maili və hamar səthə malikdir. Bu səthdə 2 süvarinin döyüş səhnəsi təsvir edilmişdir (67-ci tablo, V). Təsvirlər olduqca sxematik və şərtidir. Soldakı süvarinin (№ 1) belində qılıncı var, ayaqları atın altına sallanır və az qalır yerə dəysin. Bədəni bir yoğun xətlə verilib və yuxarı ucu kiçik dairəciklə (baş) qurtarır.

Süvarinin (№ 1-də) bir qolu başından çıxıb dirsəkdən düz bucaq altında bükülərək başı üzərindən qabağa uzanmış düz xətti tutur.

Bir ucu qabaqdakı süvariyə (№ 2) yönəlmiş bu üfüqi xətlə, çox güman ki, nizə göstərilmişdir. Bu süvarinin (№ 1) sinəsindən qabağa daha 2 xətt uzanır. Onlardan biri adamın ikinci qoludur. O uzanıb atın yalmanına çatır. Adamın sinəsindən qabağa uzanan üçüncü (ortadakı) xəttin ucu isə nöqtələr topası ilə əhatə olunur. Bununla, çox güman ki, tapançadan açılan atəş göstərilmişdir.

Sağ tərəfdəki süvarinin (№ 2) bədəni şaquli çəkilmiş və ucu atın qarnı altından aşağı enən xətdən ibarətdir. Onun qabağında, atın yoğun boynu istiqamətində, çox güman ki, soldakı süvariyə tuşlanmış aləti göstərən xətt qalığı var. Bu süvarinin (№ 2) atının qabaq ayağının biri yoxdur, quyruğu çox qısadır, qantarğası boynunun altında qövs əmələ gətirir.

5 №-li daşdakı süvarilərin döyüş səhnəsi son əsrlərdə (XVIII-XIX) çəkilmişdir.

DAŞ № 6

Daşqışlaq sahəsində 5 №-li daşdan 2 metr şimalda şərq-qərb uzunluğu 20 metr, cənub üzdə hündürlüyü 7-8 metr nəhəng qaya parçasıdır. Şimala baxan ucu azca maili və dikdir. Daşın cənub üzündə, 2 metr hündürdə bir qədim öküz və onun çənəsinin altında, yanı üstə olmaqla, sxematik adam təsviri var (68-ci tablo, A, 1 və 2-ci şəkil).

Öküzün qabaq hissəsi arxaya nisbətən yoğun verilib. Başının arxa hissəsi, qulaqları və buynuzları tökülüb. Başının üstündəki yarım-çevrə xətt, ola bilsin, ibtidai öküzlərdə təsadüf edilən, qabağa tərəf burulmuş buynuzlardan birinin qalığıdır. Adam rəsminin (№ 1) bədən, baş və qolları öküzə (№ 2) tərəf tuşlanmış yay-oxu andırır, lakin arxa ucunun düzbucaq altında çox iri haçalanması (insan ayaqları kimi) rəsmin öküzə səcdə edən adam olduğunu deməyə əsas verir.

6 №-li daşın cənub tərəfi, öküz rəsmindən altda, bir qədər içəriyə doğru batır və torpağa 0,5 metr qalmış səviyyədə səki əmələ gətirir. Burada diametri 30 sm və dərinliyi 20 sm olmaqla, bir ədəd konusvari yalaq qazılmışdır (44-cü fotoşəkil). Yalağın örtülü sahədə olmaqla, içinin və hər 2 tərəfə yanlarının odun təsirindən qızarması, ondan tərpənməz qab kimi, içindəki maye ərzağın, əvvəlcə yalağın üstündə ocaq qalamaqla qızdırılması və ərzağın daşın hərarəti hesabına bişməsi üçün istifadə olunduğunu göstərir. Qobustanda bu üsuldan çox qədim zamanlardan istifadə olunduğu məlumdur (65). Daşın yalaq olan tərəf dibində keçmişdə yaşayış olduğu güman edilir. 6 №-li daş üzərindəki öküz və adam rəsmi ümumi baxımdan neolit dövrü təsvirlərini andırır. Daşdakı qab kimi istifadə edilmiş yalağın da o dövrdə düzəldiyi güman edilir. Onlarla qarşı duran, cənubda 4 nömrəli daşa qədər qayaların arası 20 metrə qədər, diametri olan, açıq sahə hörgü qalıqları ilə əhatələnmiş, 6 №-li daşın 2-2,5 metr qabağında isə alçaq bir daşın üstündə yalaq qazılmışdır. Onun açıq havada olması, səliqəsiz yonulması, yanıq

izinin olmaması və yağış suyu yığmağa yaramaması maldarların itə yal vermək üçün düzəldilmiş yalaq olduğunu göstərir.

DAŞ № 7

Daşqışlaq sahəsində 6 №-li daşdan 40° altında 30 metr məsafədə, 10 №-li daşdan 40-50 metr tam qərbdə, cənub tərəfdə uzunluğu 6,5 metr, hündürlüyü 4 metr, altı boş, cənub üzü dik divar kimi iri qaya parçasıdır. Daşın bu tərəfi şimal-cənub olmaqla, şimal tərəfdən isə şərq-qərb olmaqla çatlayıb.

7 №-li daşın cənub üzündə 10 ədəd şəkil və xətt qalığı qeydə alınıb (68-ci tablo, B, şəkil 1-10 və 45-ci fotoşəkil). Onlardan 5 ədədi (№№1-3, 6,7) adam, 2-si (№ 4 və 10) keçi, qalanları (№№ 5, 8, 9) başqa rəsmlərdən xətt qalıqlarıdır.

Adam təsvirlərindən ikisi (№ 1 və 2) siluet döyülmüş və pis saxlanmışdır. Şəkil № 2-dəki adamın bədəninin sol hissəsi, başdan aşağı bütöv yuyulub silinmiş, sağ tərəf ayağı dizdən aşağı saxlanmış, sağ tərəfdəki qolu yana uzanmış, sol tərəfdəki qolundan üfüqi xətt qalmışdır. Adam rəsmlərindən üçü (№№ 3, 6, 7) sxematik və xətlə təsvir olunmuş və yenə də pis saxlanmışdır.

Keçi rəsmlərinin hər ikisi (№ 4 və 10) dolu bədənli və real, başı ilə bədəni mütənasib, buynuzları yuxarı qalxıb dala tərəf əyilmiş çəkilmişdir. Ümumi görünüşdə «Böyükdaş» yaşayış yerindən olan şəkillərlə oxşardır. Bu baxımdan onların orta tunc dövründə çəkildiyini güman etmək olar.

İnsan təsvirlərindən № 1 və 2 kölgəvarı döyülmüş mezolit dövrü təsvirləri ilə eyniyyət təşkil edir. Sxematik adam təsvirlərinin və xətlə çəkilib qalıqları saxlanmış başqa şəkil qalıqlarının isə bir qədər gec, eneolit-tunc dövrlərində çəkildiyini söyləmək olar.

DAŞ № 8

Daşqışlaq sahəsində 7 №-li şəkilli daşın altında uzunluğu 2 metr, eni 1,5 metr, hündürlüyü 0,5 metr, yerdən bitili, kiçik yastı daşdır.

Daşın cənub-qərb tərəfə baxan üzündə bir ədəd qaban və 8 ədəd başqa şəkillərdən qalıq-xətlər qeydə alınmışdır (68-ci tablo, V, 1-8-ci şəkillər).

Qaban (№ 7) burnu uzun, qulaqları kiçik, bel xətti qabarıq qövsvari, bədəni iri, ayaqları qısa olmaqla real təsvir edilmişdir. 9 № ilə daşın cənub üzü və üstü arasında tili boyu açılmış kəsiklər qeydə alınmışdır.

8 №-li daşın qabağı - 7 №-li daşın altında bu yerdən keçmişdə yaşayış üçün istifadə olunduğunu göstərən əlamətlər var. Çox güman ki, qədim qobustanlı ovçular son daş dövründə bu yerlərə ova gələrkən 7 №-li daşın altından (8 №-li daşın dibindən) müvəqqəti sığınacaq kimi istifadə etmişlər, 6, 7, 8 №-li daşlar üzərindəki qədim təsvirləri çəkmişlər.

DAŞ № 9

Daşqışlaq sahəsində 7 və 8 №-li daşlardan 140° altında 10-15 metr məsafədə, 10 №-li daşdan 230° altında 35 metr məsafədə, şimal-qərb-cənub-şərq uzunluğu 10 metr, eni 4-5 metr, hündürlüyü 5 metr iri qaya-daşdır. Şimal tərəfi maili yerə yatıqdır. Cənub tərəfi 4-5 metr hündürdür və 2-3 metr irəli çıxır. Daşın bu tərəf alt üzündə 3 metr hündürdə, araları 50-60 sm olmaqla, üfüqi vəziyyətdə pərdi ucu qoymaq üçün 5 ədəd kiçik səkicik qazılıb. Daşın bu tərəfi altından, vaxtilə örtülü sahə kimi istifadə olunduğu aydındır. Daşın bu üzündə təsvir qalığı yoxdur və olsaydı da qala bilməzdi. Belə ki, daşın alt üzü lay-lay qopub tökülmüşdür.

9 №-li daşın şimal-şərqə baxan maili üzündə bir ədəd sxematik heyvan şəkli çəkilmişdir (68-ci tablo, Q). Heyvanın üfüqi xətlə verilmiş bədənindən aşağıya ayaqlarını göstərən 4 xətt çəkilmiş, bədəninin davamı olan kiçik quyruğu yuxarı meyillənmişdir.

Heyvanın bədəninin qabaq ucu da yuxarı qalxır və baş əvəzi üfüqi xətlə tamamlanır. Burada hansı heyvanın təsvir olunduğunu söyləmək çətindir.

Təsvirin xəttinin saxlanma dərəcəsinə görə onun son orta əsrlərdə çəkildiyini güman etmək olar.

DAŞ № 10

Daşqışlaq sahəsində 9 №-li daşdan 50° altında 35 metr məsafədə, 7 və 8 №-li daşlardan 40-50 metr tam şərqdə, 15 №-li daşdan 12-13 metr cənubda şərq-qərb uzunluğu 8-9 metr, hündürlüyü 4 metr, tək dayanmış dik daşdır.

10 №-li daşın şərqə baxan maili üzündə, alçaqda 2 maral (№ 3, 4) və hündürdə 2 yırtıcı (№ 1, 2), şir, (69-cu tablo, A, 1-4) təsvir edilmişdir (46-cı fotoşəkil). Yırtıcılar və marallar yönü sağa, yan görünüşdə verilmişdir. Hər iki yırtıcı sıçrayış vəziyyətində, quyruğu maili olaraq dala uzanmış və ucu düzlənmiş qulaqları kiçik təsvir edilmişdir. Ayaqları qabağa uzanmış, birinin (№ 2) ayaqlarının dördü də, o birinin (№ 1) dal ayaqları 3 barmaqla, birinin (№ 1) qabaq ayaqları iki barmaqla qurtarır. Hər ikisində döş hissənin çox yoğun, belin nazik, quyruğun maili və uzun olması onların şir olmasına şübhə qoymur.

10 №-li daşın şərq üzündə maral təsvirləri daşın aşağı hissəsində, yerdən azca hündürdədir. Onlar (№ 3 və 4) yönü sağa dayanıb başını qaldıraraq qabağa boylanan vəziyyətdə yan görünüşdə təsvir edilmişdir. Marallar ombası iri, beli nazik, diz bükükləri göstərilməklə, döşləri qabağa, buynuzlar qabağa əyilmiş halda göstərilmişdir.

10 №-li daşın şərq üzündəki real çəkilmiş şir və maral təsvirləri antik və ilk orta əsrlər dövründə çəkilmişdir.

10 №-li daşın qərb tərəfində iki maral (69-cu tablo, A, № 5, 6) və cənub-qərb çiynində də bir maral (№ 7) qeydə alınmışdır. Onların hər üçü olduqca sxematikdir. Bədən üfüqi xətlə, ayaqları bədənə şaquli düz xətlə göstərilmiş, baş yerinə kobud çəkilmiş şaxəli buynuzlar əlavə edilmişdir.

10 №-li daşın cənub tərəfi bir növ düz divar əmələ gətirir. Onun ortası bərabərində, 2 metr hündürdə, bir səviyyədə olmaqla, pərdi ucu qoymaq üçün 17 ədəd səkicik açılmışdır (47-ci fotoşəkil). Görünür, daşın bu tərəf dibindən keçmişdə talvarvari tikili üçün istifadə olunmuş və qeyd olunan 5, 6, 7 №-li maral rəsmləri onun dövründə - orta əsrlərdə çəkilmişdir.

10 №-li daşın ətrafı geniş sahədə yanmış daş qırıqları və çürüntülü torpaq qalıqları ilə əhatələnir və hər yerdə hörgü qalıqlarına təsadüf olunur.

DAŞ № 11

Daşqışlaq sahəsində 7 №-li daşdan 40° altında 20 metr məsafədə, 10 №-li daşdan 310° altında 28 metr məsafədə, 12 №-li daşın cənub-qərb tini yanında, 13 №-li daşdan 330° altında 10 metr qərb tərəfdə kiçik kubvarı daşdır. Daşın cənub-şərq ucu dik və düzdür. Eni 165 sm, hündürlüyü 110 sm-dir. Daşın bu üzündə 2 maral təsvir edilib (70-ci tablo, A və 48-ci fotoşəkil). Onlardan biri (№ 1) çox iri ölçüdə və erkəkliyi göstərilməklə, beldən nazik, döş və omba hissədə yoğun və ucları birləşmiş, qabaq ayaqları qabağa olmaqla elə bil irəli atılmaq vəziyyətindədir. Qabaq ayaqlarının ucu qarşıda diz çökmüş maralın (№ 2) boynuna toxunur. İkinci maralın (№ 2) da dal ayaqları qabağa uzanır, qabaq ayaqları dizdən bükülərək diz çökmüş vəziyyətdədir və boynunu dala döndərib elə bil üstdəki maraldan (№ 1) imdad diləyir. Burada məhəbbət səhnəsi təsvir olunmuşdur.

Bu səhnə çox real, həyati və mütənasib təsvir edilmişdir. Daşın üst hissəsi sındığından iri maralın (№ 1) buynuzlarının ucu sınıb saxlanmayıb. Təsvirlər antik dövrdə çəkilmişdir.

Maral təsvirlərindən aşağı, daşın alt tilində iki ədəd heyvan bağlamaq üçün deşik açılmış və onlardan biri sınmışdır.

DAŞ № 12

Daşqışlaq sahəsində 10 №-li daşdan 300° altında 25 metr aralı, 11 №-li daşın şimal-şərq tərəfi yanında, 13 №-li daşdan 1,5 metr qərb tərəfdə yerdən bitili, ölçüsü 4x4 metr və 2,0-2,5 metr hündürlükdə yastıtəhər iri qaya parçasıdır. Daşın cənub üzü 1,5-2,0 metr hündürlükdə dik sahəyə malikdir. Bu üzün 11 №-li daşa baxan tərəfinin aşağı hissəsində bir ədəd maral (?) təsvir edilmişdir (69-cu tablo, B). Heyvanın boynu dik yuxarı qalxır və 2 buynuza malikdir. Buynuzlardan birinin 3, o birinin bir şaxəsi var. Quyruğu göstərilməyib. Təsvir, boynu və buynuzlarına

görə, cüyürü xatırladır. Onun, maral kimi, ilk orta əsrlərdə çəkildiyini güman etmək olar.

DAŞ № 13

Daşqışlaq sahəsində 10 №-li daşdan 335° altında 15-17 metr aralı, 7 №-li daşdan 60° altında 30-35 metr məsafədə, 11 №-li daşdan 150° altında 10 metr məsafədə, uzunluğu (şimal-qərb-cənub-şərq) 12 metr, eni 6 metr, hündürlüyü 4-4,5 metr iri qaya daşdır.

Daşın cənub-qərb üzü azca maili hamar səthə malikdir. Daşın bu üzündə 9 ədəd şəkil və şəkil qalığı qeydə alınmışdır (69-cu tablo, V, №№ 1-9 və 49-cu fotoşəkil). Onlardan biri (№ 2) buynuzları xətlə və çıxıntıvari budaqlarla, bədəni real və əzəmətli dayanmış, erkəklik əlaməti göstərilməklə təsvir edilmiş maral, iki ədədi (№ 3, 4) sxematik keçi, iki ədədi (№ 5, 6) yığma (sökülüb yığılan) qayıq təsviri, üç ədədi (№ 7, 8, 9) təyinatı çətin heyvan təsviri və bir (№ 1) xətt qalığından ibarətdir. Maral təsviri və 8 №-li qeyri-müəyyən heyvan təsvirinin ayaqları müasir torpaq səviyyəsindən aşağıdadır. Maral dal ayaqları qabağa əyilmiş, boynu dala yığılaraq döşü qabağa çıxmış vəziyyətdə - qabağa sıçrayış vəziyyətində verilmişdir. Quyruğu bel və omba xətlərinin bucaq altında çıxıntıvari birləşməsindən ibarətdir. Maralı eramızın ilk orta əsrlər dövrünə, qeyri-müəyyən və pis saxlanmış heyvanların (№ 7, 8, 9) dövrünü maraldan bir qədər qabağa - antik dövrə aid etmək olar. Keçi rəsmlərini (№ 3 və 4) çəkilmə texnikası və saxlanma dərəcəsinə görə son orta əsrlərə aid etmək olar.

13 №-li daş üzərindəki səhnədə yığma qayıq təsvirləri (№ 5, 6) xüsusi diqqət cəlb edir.

Qobustanda qayıq təsvirləri çoxdur. Onlar əsasən Böyükdaş və Kiçikdaş dağı sahələrindədir. Cingirdağ, Yazılıtəpə, eləcə də Şonqardağ və Şıxqaya sahələrində qayıq təsviri qeydə alınmamışdır. Qobustanda qayalar üzərində qayıq təsvirləri üç formada - xətti, kölgəvari döyülmüş və yığma qayıq tipində qeydə alınmışdır (66).

Xətti və kölgəvarı qayıq təsvirləri Qobustanda çoxdur. Görünür, onlar qədim qobustanlıların dənizlə bağlı işlərində (balıq tutmaqda, su səddini keçməkdə), onların balıqçılıq təsərrüfatına böyük köməklik göstərmişdir.

Daşqışlaq 13 №-li qayadakı 2 ədəd yığma qayıq təsviri nəinki Daşqışlaq sahəsində, eləcə də, bütün Qobustanda yeganədir. Bu qayıqlar suya oturan aşağı tərəfi seqmentvari, üst üzü düz xətlə bağlanmış hissədən ibarətdir. Onlardan birinin gövdəsi (№ 5) yuxarıdan aşağı sağdan sola maili olaraq 11 və soldan sağa 12 ədəd xətlə, ikinci qayığın gövdəsi 11 şaquli və soldan sağa 4 maili xətlə doldurulmuşdur.

Qeyd edək ki, Norveçin dünya səyyahı Tur Heyerdal birinci dəfə 1981-ci il avqust ayının 29-da Qobustanda olarkən biz ona qayalar üzərində və «Firuz» düşərgəsində qazıntılar nəticəsində aşkar edilmiş kölgəvari və xətti tipli qayıq

təsvirlərini qaya və daşlar üzərində olduğu kimi Daşqışlaq sahəsindəki 13 №-li daş üzərindəki yığma qayıq təsvirini isə (uzaqda olduğuna görə), şəklini slaydda bağışlamaqla, tanış etmişik, dövrünün isə eramızın əvvəllərinə aid olduğunu bildirmişdik. Sonralar Tur Heyerdal «Azərbaycan əlaqələri» məqaləsində (67) vikinqlərin ilk kralı Azər Odinin eranın əvvəllərində yığma gəmidə şərqi Zaqafqaziyadan gəldiyi haqda Norveç saqalarında məlumat olmasını və bu tip «yığma gəmi»nin şərqi Zaqafqaziyada istifadə olunması haqda eradan əvvəl V əsrdə Herodotun məlumat verdiyini göstərmişdir.

Herodotun bu məlumatı Qobustanın yığma gəmilərinin tarixinin eramızın əvvəllərinə aid olmasını inkar etmir.

«Herodot yazırdı ki, bu ərazidə yaşayan səyahətçi tacirlər taxtadan karkası olan, üzərinə dəri çəkilmiş qayıqlardan istifadə edirdilər. Bu qayıqlar elə böyük ölçüdə olurdu ki, içində gəmi heyəti və yükdən əlavə bir və ya bir neçə uzunqulaq da daşımaq olurdu. Onlar çay axarı ilə Vavilona üzür, orada mallarını və karkası (taxtanı) satır, sonra dəriləri qatlayıb uzunqulaqlara yükləyərək yenidən, növbəti səyahətə hazırlaşmaq üçün, su axarının əksi ilə evə dönürdülər» (68).

Tur Heyerdalın 1999-cu ildə «Nedelya» qəzetinə verdiyi müsahibəsində (69) Azər Odinin ailəsi ilə qatlanan gəmidə şərqi Azərbaycandan romalıların zülmündən qaçıb getməsi fikri isə bu tip qayıqların VII-IX əsrlərə qədər istifadədə olunduğunu düşünməyə əsas verir. Belə ki, əgər Tur deyən kimi, Azər Odin Skandinaviya kral nəslinin birincisidirsə, 1830-cu ildə kral nəsli kəsilənə qədər 31 kral hakimiyyətdə olubsa, hər kral hakimiyyəti 25 (olsun 30) il davam edibsə, bu ən tezi ərəb istilaları dövründən qabağa getmir (70). Deməli, əgər Azər Odin şərqi Zaqafqaziyadan kiminsə zülmündən qaçıb gedibsə, o burada ötəri olmuş romalıların yox, yerli bütpərəstlərə qarşı İslam dini yayan ərəblərin zülmündən qaça bilərdi.

DAŞ № 14

Daşqışlaq sahəsinin 13 və 15 №-li daşları arasında uzunluğu 9 metr, eni 2,5 metr, hündürlüyü 3 metr iri qaya parçasıdır. Daşın üstü cənub-qərbə tərəf mailidir. Daşın cənub üzündə, aşağıdan bir cərgədə 3 ədəd kiçik ölçülü sxematik heyvan (70-ci tablo, B, №№ 2, 3, 4) və bir maili xətt (№ 1) qalığı var. 2 №-li şəkildəki heyvanın başından üstdə bir ədəd (+) üstəgəl işarəsi qoyulmuş, sağdakı 4 №-li şəkildəki heyvanın isə ifadəsindən onun buğa (erkək) olmasını demək olar. Belə ki, o özündən qabaqdakı 3 №-li şəkildəki heyvanı iyləyir. Təsvirlər sxematikliyi və çəkiliş texnikasına görə orta əsrlərə aid edilə bilər. Təsvirlərin xətlərinin içərisi son zamanlarda kim tərəfindənsə cızılıb, təzələnmişdir.

DAŞ № 15

Daşqışlaq sahəsində 10 №-li daşdan 12-13 metr şimalda, 14 №-li daşın şərq tərəfində, 20 №-li daşdan 7-8 metr qərbdə, şimal-qərb-cənub-şərq yatmış uzunluğu 15 metr, cənub-şərq ucda eni 4-5 metr, əks ucda (16 və 17 №-li daşların altında) eni 7-8 metr nəhəng qaya parçasıdır. Onun şərq üzü səthi mailidir. Qərbə baxan ucu azca irəli çıxır və kiçik örtülü sahə əmələ gətirir. Burada 6 ədəd şəkil və xətt qalığı (70-ci tablo, V, № 1-6), 5 ədəd də pərdi ucu qoymaq üçün deşik (səkicik) qeydə alınmışdır.

Buradakı şəkillərdən 3 ədədində (№ 1, 3, 6) insan, ikisində (№ 2 və 4) heyvan təsvir edilmişdir. 5 №-ilə isə bir neçə xətt qalığı qeydə alınmışdır. Təsvirlər olduqca kobud və qeyri-təbii çəkilmiş və pis saxlanmışdır. Ona görə də çətin seçilirlər. Buradakı 6 №-li təsvirin başı silinib, lakin geyimindən kənara çıxan ayağına görə onu kobud çəkilmiş və pis saxlanmış adam təsviri hesab edirik. 1 və 3 nömrəli təsvirlərdəki adamlar da çox savadsız çəkilmiş 2 və 4 №-li təsvirlərdəki təyinatı çətin olan heyvanların üstünə oturmuşlar. Təsvirlərin saxlanma dərəcəsini nəzərə alaraq onların eramızdan əvvəlki minilliyin son əsrlərində çəkildiyini söyləmək olar. Daşın bu üzündə, alçaqda qazılmış 5 ədəd pərdi ucu yeri isə nə vaxtsa keçmişdə buradan yaşamaq üçün ev və ya heyvan saxlamaq üçün tövlə düzəldilmiş olduğunu göstərir.

15 №-li daşın şimal qərbdən cənub-şərqə tərəf maili səthə malik şərq üzündə 20 ədəd şəkil, yazı və xətt qalığı qeydə alınmışdır (71-ci tablo, №№ 1-20 və 50-ci fotoşəkil).

Onlardan 11 ədədi (№№ 2, 4, 6, 9, 11, 14, 15, 16, 17, 19, 20) maral, 2 ədədi (№ 7 və 10) at, biri (№ 5) atlı (süvari), biri (№ 12) keçi, biri (№ 1) qeyri-müəyyən heyvan təsviri, iki yerdə ərəb əlifbası ilə yazı qalığı (№ 3 və 13), bir ədəd işarə (№ 8) və bir neçə xətt qalığından ibarətdir.

Maral təsvirlərinin, eləcə də iki at, atlı, keçi və qeyri-müəyyən heyvan təsvirlərinin hamısının yönü sağa tərəf verilmişdir. Onların çəkilişində nisbi reallıq olsa da sxematiklik əsas yer tutur.

Onlardan biri (№ 2) tam sxematikdir. O, yalnız 2 xətdən ibarət şaxəli buynuzlarına görə maral sayıla bilər. Nömrə 4 kimi qeydə alınmış təsvir bədən və ayaqlarının formasına görə maraldır, görünür, bala olduğundan hələ buynuzları çıxmayıb. 16 №-ilə qeydə alınmış maralın arxa hissəsi, 17 №-ilə qeydə alınanın qabaq ayaqları və hər ikisinin baş və buynuz hissələri aşınıb tökülmüşdür. Lakin onların bədən və ayaqları maral olmalarını göstərir. Qalan təsvirlərdən 6, 15, 19 №-ilə qeydə alınmış maral şəkilləri 16 №-li daşdakı qeydə aldığımız maralla, 11 №-li maral orada maral № 2 kimi qeydə aldığımız maralla, 9, 14, 20 №-li marallar isə 17 №-li daşdakı maral № 2 ilə ümumi dəst-xətt oxşarlığına malikdir.

Hər iki at (№ 7 və 10) və atlının (№ 5) atı sxematik olsalar da bədəni, boynu, başı, qulaqları və quyruğuna görə real at təsviridir. 5 №-ilə qeydə alınmış atlı səhnəsində atlının özü sxematikdir.

11 və 12 №-ilə qeydə alınmış maral və keçi təsvirləri bir-birinin üstündə çəkilmişdir. Onların hansının əvvəl, hansının sonra çəkildiyini belə müəyyən etmək çətindir.

15 №-li daş üzərində iki (№ 3 və 13) yazı qeydə alınıb. Onların biri (№ 3) üç sətir, o biri (№ 13) iki sətir olmaqla ərəb əlifbası ilə yazılmışdır. Onlardan dəst-xəttinə görə XIII əsrə aid 2 sətirlik yazının (№ 13) birinci sətrində «Məlik şaci» sözü yazılmışdır (71).

15 №-li daşın şərq üzündəki şəkillərin ərəb əlifbası ilə yazılardan qabaq çəkildiyi, ümumi baxışda, aydın görünür və onların ilk orta əsrlərdə çəkildiyini göstərir.

15 №-li daşdan 7-8 metr şərq tərəfdəki 20 №-li daş üzərindəki ərəb əlifbası ilə yazının (72) XI əsrə aid olması bu sahədə güclü həyat izinin varlığı da burada ilk orta əsrlərdə qaynar həyat olmasından xəbər verir. Sözsüz ki, buradakı təsvirlər də o dövr sakinləri tərəfindən çəkilmişdir.

DAŞ № 16

Daşqışlaq sahəsində 15 №-li daşın şərq üzünün şimal hissəsi üstündə, iki qaya parçasından hissədir. Uzunluğu 5,5 metr, eni 2,0 metr, qalınlığı 1,0 metr daşdır (50-ci fotoşəkildə).

16 №-li daşın üst üzündə 2 maral təsvir edilmişdir (72-ci tablo, A, 1-2). Onların hər ikisinin bədəni nisbətən real, qabaq ayaqları qabağa atılaraq qaçış vəziyyətində, başı və buynuzları yuxarı qaldırılmış halda təsvir edilmişdir.

Onlardan üstdəki maralın (№ 1) buynuzları və onun budaqları düz qazma xətlə, aşağıdakı maralın (№ 2) buynuzları və onun şaxələri bucaqvari qoşa xətlə verilmişdir. Yuxarıdakı maralın (№ 1) ağzı alt və üst çənə xəttinin, paralel olmaqla, aralarına çəkilmiş xətlə, aşağıdakı maralın ağzı quş dimdiyi formasında göstərmişdir.

Daşın cənub-şərq ucunun aşağısında müəyyən əşyanı asmaq üçün qazılaraq çıxıntı düzəldilmişdir.

16 №-li daşdakı 1 №-li maral təsvirinin oxşarı Yazılıtəpə kolleksiyasında 66 №-li daşda 1 №-li təsvirdə var. Onun dövrünü İ.M.Cəfərzadə eradan əvvəlki III minilliyin son əsrlərinə aid edir (73). Lakin onların ümumi görünüşü və Daşqışlaq kolleksiyası şəkilləri arasında olmasını nəzərə alaraq 16 №-li daşdakı maralların dövrünün ilk orta əsrlərə aid olduğunu söyləyə bilərik.

DAŞ № 17

Daşqışlaq sahəsində 15 №-li şəkilli daşın şərq üzünün şimal hissəsi üstündə 16 №-li daşdan altdakı, uzunluğu 5,0 metr, eni 1,5 metr və qalınlığı 1,0 metr ölçülü daşdır.

O maili olaraq tili üstə dayanmışdır. Daşın şərqə baxan, divar kimi düz üzündə iki maral təsvir edilmişdir (72-ci tablo, B, № 1-2).

Maral təsvirlərinin arasında, daşın üstünə çıxmaq üçün, 6 ədəd səkicik qazılmışdır (50-ci fotoşəkil).

Marallardan soldakının (№ 1) quyruğundan çənəsinə 1 metr, qabaq ayağının ucundan qabaq buynuzunun ucuna 96 sm-dir. Sağdakı (№ 2) maralın ölçüsü uyğun olaraq 45 sm və 50 sm-dir. Hər iki maral yönü sağa təsvir edilmişdir. Soldakı maralın (№ 1) bədəni təhrif olunmuş şəkildə beldən nazilərək, arxa hissəsi kobud, iri, dal ayaqları 2 qoşa şaquli xətlə, omba yarımçevrə, quyruq ondan dala çıxmış kiçik xətlə, buynuzları və onun budaqları düz xətlə göstərilmişdir.

Sağdakı maral (№ 2) qabaq ayağını dala, dal ayağını qabağa yığmaqla, sıçrayış vəziyyətində təsvir edilmişdir. Onun bədəni reallığa yaxın tərzdə, iri buynuzlarının biri (qabaqdakı) kiçik budaqlar ayrılmış düz xətlə, arxadakı buynuzu bucaq əmələ gətirən şaxələrlə verilmişdir. Onun bucaqvari ağzından qabağa uzanan xətlə rəssam, çox güman ki, maralın dilini və ya sıçrayış anında çıxardığı nərə səsini verməк istəmişdir.

17 №-li daşdakı hər iki maral təsviri 16 №-li daşdakı maral rəsmlərinə oxşatma kimi, eyni dövrdə - ilk orta əsrlərdə çəkilmişdir.

DAŞ № 17^{A}

Daşqışlaq sahəsində, 15, 16, 17 №-li daşlardan şimal tərəfdə, cənub-qərb ucu 15 №-li daşın şimal ucunu basmış və 17 №-li daşa söykənmiş, şimal-cənub uzunluğu 13 metr nəhəng qaya parçasıdır. Cənub-şərq ucu 18 №-li daşın şimal ucunu basır və 19 №-li daşa söykənir, qərb tərəfi altı böyük sığınacaq əmələ gətirir, 18 №-li və 15 №-li daşlar arasında körpü kimi dayanır.

Daşın qərb tərəfi qabağında hörgü qalığı və ortadakı daşlarda yanıq izi var. Onlar bu sahənin yaşayış üçün istifadə olunduğunu göstərir.

Daşın hörgü qalığına baxan qərb tərəfində 2,2-2,3 metr hündürdə, bir cərgədə 4 ədəd pərdi yeri qazılmışdır. Sağdan birinci və ikinci pərdi yerindən 1 metr aşağı və 15 №-li daşın şimal ucundan yuxarıda hündürlüyü 37 sm olan bir sxematik adam təsviri (72-ci tablo, V, 1-ci şəkil) və soldakı pərdi yerinin altında isə kobud qazılmış naməlum şəkil qalığı (72-ci tablo. V, 2-ci şəkil) vardır.

Pərdi yerlərinin olması keçmişdə burada yaşamaq üçün tikinti olduğunu göstərir.

Şəkillərdən insan təsviri Qobustanın mezolit və neolit dövrlərinə aid qədim adam təsvirlərini xatırladır. Bu cür döymə insan təsviri Daşqışlaq kolleksiyasının yalnız bu (№ 17^{A}) və 7 №-li daşlarında qeydə alınmışdır. Daşqışlaqda hələlik ilk orta əsrlər və ən çoxu antik dövründən əvvələ aid həyat izinə rast olmamışıq. Bu səbəbdən də göstərilən təsvirlərin, çox güman ki, daha qədim dövr adamları tərəfindən burada ov zamanı dincələrkən çəkildiyini söyləmək olar.

DAŞ № 18

Daşqışlaq sahəsində 15 və 20 №-li daşların arasında, 17^{A} №-li daşın cənub-şərq ucu altında, yerdən bitili, şimal-cənub uzunluğu 4 metr, eni 2,5 metr, hündürlüyü 2 metrə qədər alçaq, orta həcmli daşdır.

Daşın cənuba baxan üzü və qərb tərəfi dik və hamar, üstü mailidir. 18 №-li daş üzərində 7 şəkil, 1 işarə və 1 suyu ötürmək üçün qanov qeydə alınmışdır (73-cü tablo, A). Şəkillərdən beşi daşın qərb, 17 №-li daşa baxan üzündə (№ 1-5), ikisi və işarə daşın üst üzündə (№ 6, 7, 8), qanov isə (№ 9) qərb üzlə üst üz arasındakı til boyu qazılmışdır (51-ci fotoşəkil). Cənub üzdə bir nömrə altında, qulaqlarını qabağa şəkləmiş ağzı açıq, uzun quyruqlu, çox güman ki, yırtıcı (canavar), 2 və 3 №-ilə qabaq-qabağa dayanmış it və adam təsvir edilmişdir. İtin dal ayaqları silinib, quyruğu qabağa tərəf meyilli olmaqla dik qalxmış, başı qulaqsız təsvir edilmişdir. Görünür, onun qulaqları Azərbaycanda çoban itləri (Qafqaz ovçarkası) kimi kəsilib.

Daşın cənub üzündəki 4 və 5, eləcə də üst üzdəki 8 №-li şəkillərdə maral təsvir edilmişdir. Onlardan № 4-də maral bütövdür, çəkilişi sxematikdir, quyruğunun dala uzanması savadsız çəkildiyini göstərir. 5 №-ilə qeydə alınmış maralın başı ilə qabaq hissəsi və dal ayaqları eroziyaya məruz qalıb tökülüb, buynuzunun bir, arxa qolu saxlanıb. Onun da quyruğu 4 №-li şəkildəki maralın quyruğu kimi savadsız çəkilib. Görünür, hər ikisini eyni adam çəkib. Başqa bir maral təsviri (№ 8) yarımçıq qalıb. Onun çox kiçik buynuzları və iri bel xətti çəkilmişdir.

6 №-li təsvirdə əllərini yuxarı qaldırmış adama oxşar rəsm verilmişdir.

7 №-li təsvirdə çox pis saxlanmış, qeyri-müəyyən heyvan və onun üstündə adam rəsminin qalığı qeydə alınmışdır. Daşqışlaq sahəsində 15, 16, 17, 17^{A}, 18, 19, 20, 21 №-li daşların arasında nə vaxtsa güclü yaşayış olması aydın bilinir.

O cümlədən, göstərilən daşlar üzərindəki təsvirlərin az-çox bir-birinə uyğun gəlməsi onların antik və ilk orta əsrlərdə yaranmasına bizdə şübhə doğurmur.

DAŞ № 19

Daşqışlaq sahəsində 18 və 20 №-li daşların arasında, şimaldan onların üstünə yatmış, 1,0-1,5 metr enində, 4-5 metr hündürlüyündə və 7-8 metr uzunluqda iri qaya parçasıdır.

Daşın cənub-qərb üzündə 2 heyvan şəkli var (73-cü tablo, B). Onlardan biri (№ 1) dal ayaqlarında bükülülük cəhdi, bədəni (quyruqsuz) və buynuzunun başından dala maili çəkilmiş xətlərlə göstərilməsinə görə maralı xatırladır. İkinci heyvan rəsmində qabaq hissə yoğundur, arxaya getdikcə nazilir, quyruq göstərilməyib, buynuzlar alından yuxarı meyilli olmaqla qabağa uzanmış iki düz xətlə göstərilmişdir. Hər iki rəsm sxematik və reallıqdan uzaqdır. Onların burada orta əsrlərdə yaşamış sakinlər tərəfindən çəkilməsinə şübhə yoxdur.

DAŞ № 20

Daşqışlaq sahəsində 15 №-li daşdan 7-8 metr şərq tərəfdə, 18 və 19 №-li daşlardan cənub-şərq tərəfdə, ucu 19 №-li daşın altına girmiş, şərq-qərb uzunluğu, 10-12 metr iri qaya daşdır.

Onun qərb üzü dik və hamardır. Bu üzün yerdən uzunluğu 9 metrdir. Ortada hündürlüyü 6-7 metr olan qərb üzü bərabəryanlı üçbucağı xatırladır. Burada 24 ədəd şəkil, yazı və şəkil qalığı qeydə alınmışdır (74-cü tablo, 1-24 və 52-ci fotoşəkil).

Daşın cənub tərəf boynunda da ərəb əlifbası ilə yazı qeydə alınmışdır. Buradakı yazı Kufi xəttinin yaranması dövrünün ilk mərhələsinə aid bəzəksiz və sadə formalı, düz xətlərdən ibarətdir (73-cü tablo, V). XI əsrə aid olan bu kitabədə «Bismil-ləhi-rəhmani rəhim. Hacib ümum, rəhimlilərin rəhimlisi olan Allahın adı ilə baş Hacib» yazılmışdır (Hacib mühüm dövlət vəzifəsi olub, saray işini idarə etmişdir) (74).

20 №-li daşın qərb üzündə qeydə alınmış təsvirlərdən 7 ədədi (№№ 1, 2, 9, 10, 11, 14, 17) maral, bir ədədi keçi (№ 7), 2 ədədi (№ 3, 4) adam, 4 ədədi (№№ 8, 20, 21, 22) atlı, 5 ədədi (№№ 6, 13, 15, 16, 24) heyvan və onlardan qalıqlar, bir sətir (№ 19) yazı və dörd qrup (№№ 5, 12, 18, 23) xətt qalığından ibarətdir.

Maral təsvirlərinin yönü sağa tərəfdir. Hamısı sxematikdir. Ayaqlarının çəkilişində reallığa cəhd edilsə də (dirsək çıxıntıları göstərilsə də № 1, 9, 10, 11, 14) alınmamışdır. 1 №-li maralın başı, bədənin qabaq yarısı silinmişdir. 1 və 14 №-li marallarda buynuz yuxarı qalxmış azca qövsvari xətlə və ona paralel ziqzaq xətt çəkilməklə göstərilmişdir. Keçi (№ 7) çox kiçik ölçülü, yönü sağadır. Dal ayağı və quyruğu çatmır. 2 nəfər adam (№ 3 və 4) yönü sola olmaqla antropomorf tipdə təsvir olunmuşlar. Onların başı çıxıntıvari, özləri qabağa (sola) tərəf meyilli təsvir edilmişdir. Çox güman ki, onlar ibadət edən vəziyyətdə çəkilmişlər.

Rəsmlərdən 4 ədədi (№№ 8, 20, 21, 22) atlı adam təsviridir. Üçünün yönü sağa, birinki (№ 20) sola tərəf təsvir edilmişdir. Dördü də çox sxematikdir. Atlılardan birinin (№ 21) atı 2 qulaq, üfüqi xətlə bədən və ondan aşağı çəkilmiş 2 qabaq və bir dal ayaqla olduqca sxematik göstərilmişdir. Bəlkə də bu rəsmdə at yox uzunqulaq nəzərdə tutulmuşdur. O biri üç təsvirdə minik (№№ 8, 20, 22) az-çox ata oxşayır.

Atlılardan birinin əlində yay-ox (№ 20), ikincisinin (№ 21, 22) əlində üfüqi xətt verilmiş, ola bilsin, nizə göstərilmişdir, 8 №-li atlı, ayaqları yana açılmış şaquli xətlə göstərilmiş, əli qabağa, atın çənəsinə uzanmaqla bir növ atın cilovunu çəkir.

20 №-li daşda 5 ədəd heyvan (№№ 6, 13, 15, 16, 24) təsvirinin hansı heyvana aid olması və 4 ədəd xətt (№№ 5, 12, 18, 23) qalığında nə təsviri nəzərdə tutulduğunu demək çətindir. 19 №-də yazı qeydə alınmışdır. Ərəb əlifbası ilə olan bu yazı qalığı çox pis saxlanmışdır.

20 №-li daşın qərb üzündə, yuxarı hissədə, 9 və 10 №-li maralların başı ətrafında 3 ədəd də deşik (ip bağlamaq və nə isə (ərzaq) asmaq üçün) açılmışdır (52-ci fotoşəkil). Onlardan biri 9 №-li maralın arxa buynuzunun orta hissəsini korlamış (74-cü tablo, 9), biri yenə 9 №-li maralın çənəsindən sağda və biri 10 №-li maral təsvirinin başından azca yuxarıda açılmışdır. Daşın bu, divar kimi dik və hamar üzündə deşik açmaq üçün əvvəlcə daşda iki yerdən qoşa və dərin oyuq qazılmış və sonra dibdə araları birləşdirilmişdir. Qeyd edək ki, 20 №-li daşın şəkillər olan qərb üzü güclü təbii aşınmaya, lay-lay qopub tökülməyə məruz qaldığından çox yerdə təsvirlərin hissələri qopub tökülmüş, oxunmaz olmuşdur.

20 №-li daşın qərb üzündəki maral şəkillərinin qonşu 15, 16, 17 №-li və onların sahədəki başqa ətraf daşlardakı maral təsvirləri ilə oxşarlığına görə eləcə də bu daşlar arasındakı həyat izlərinin dövrünə görə ilk orta əsrlərdə çəkildiyini güman edirik.

DAŞ № 21

Daşqışlaq sahəsinin 15 və 20 №-li daşlarının arasında, 20 №-linin cənub-qərb tini qabağında yerdən bitili, hündürlüyü 1 metr, uzunluğu 2,0 metr, eni 1,2 metr kiçik daşdır.

Daşın cənub-qərbə baxan üzünün yuxarı hissəsində bir sxematik naməlum heyvan rəsmi qazılmışdır (75-ci tablo, A). O yönü sağa, yan görünüşdədir. Uzun boynu qabağa meyilli, yuxarı uzanır. Başı bədənə nisbətdə iridir. Ağzı açıqdır, birləşmir. Buynuz və ya qulaq əvəzi çəkilmiş 2 qısa xəttin biri dik qalxır, ikincisi mailidir, ucu qabaqdakına toxunur. Quyruğu kiçik və aşağıya meyillidir. Ümumi görünüşünə görə, çox güman ki, savadsız çəkilmiş at təsviridir. Rəsm 15, 18, 20 №-li daşların arasında, orta əsrlərdə yaşayış olarkən çəkilmişdir.

DAŞ № 22

Daşqışlaq sahəsində 20 №-li daşın cənub tərəfində, ona söykənmiş, yerdən bitili, piramida şəkilli kiçik daşdır. Onun şərq üzü üçbucaq şəkilli dikdir, şimal və qərb tərəfləri yarımdairə kimi birləşir. Daşın şərq üzündə aşağıdan yerə yaxın bir ədəd kiçik ölçülü sxematik heyvan təsviri var (75-ci tablo, B-1). O üfüqi çəkilmiş bədən xəttindən, iki qulaq və dörd ayaq ayrılmaqla ifadə edilmişdir. Bədən xəttinin bir ucu arxaya uzanıb quyruq təşkil edir. Heyvanın belindən yuxarı iki iri və ortasından bir kiçik xətt qaldırılmışdır. Ola bilsin ki, burada yəhərli at təsvir edilmişdir.

22 №-li daşın cənub üzü maili düz səthə malikdir. Bu üzdə əvvəl 5 maral şəkli qeydə alınmışdır (75-ci tablo, B, 2-5 və 9). Onlardan birinin (№ 9) yalnız buynuzlarının ucu görünür, bədəni isə torpaq altında qalmışdı. (53-cü fotoşəkil). Daşın bu dibi, o maral təsvirini üzə çıxarmaq məqsədilə, 80 sm dərinliyə qədər qazıldı. Nəticədə maralın bədənindən əlavə və ondan sola olmaqla daha üç rəsm aşkar edildi. Onlardan biri (№ 8) bir gövdə üzərində iki baş təsvir edilmiş maral təsviridir (bax: 53-cü fotoşəkil). Burada əsas maral yönü sağa olmaqla ayaqları qaçış vəziyyətində çəkilmişdir. Maralın ikinci başı, boynu birinci (əsas) maralın boynundan ayrılmaqla dala tərəf dönüb geriyə əyilmiş vəziyyətdə təsvir edilmişdir. Maralın hər iki başında kiçik dairə şəklində göz qeyd olunmuşdur.

Qeyd edək ki, Qobustanda heç bir kolleksiyada nə ikibaşlı, nə də gözü kiçik dairəciklə göstərilmiş başqa maral və ya hər hansı heyvan, yoxdur. İki başlı maral təsvirindən dala (sola) tərəf bir neçə xətt qalığı var ki, onlar (№ 7) ümumi baxışda elə təsəvvür yaradır ki, burada çənələri və buynuzları əks istiqamətə çevrilmiş və bir-birinin üstündə çəkilmiş 2 keçi başı təsvir edilmişdir. Torpaq altından bir maral (№ 6) rəsmi də, bu naməlum şəkil qalığından sol tərəfdə aşkar edilmişdir. O quyruğu, bədəninin quruluşu və ayaqlarına görə çox real təsvir edilmiş təsvirdir, lakin buynuzları yoxdur. Ola bilsin ki, çox qədimdir və buynuzları açıq havada aşınmışdır. Arxadan bu maralın sağrısına bir xətt də uzanır.

Qeyd edək ki, Daşqışlaq sahəsində daşlar üzərində maral təsvirləri çoxluq (26%) təşkil edir, 22 №-li daşın cənub üzündə də qeydə alınmış 9 rəsmdən yeddisi (№№ 2-6, 8, 9) marala aiddir. Onların hamısı az və ya çox sxematikdir. 5 ədədi (№№ 3, 4, 5, 8, 9) buynuzla, ikisi (№ 2 və 6) buynuzsuzdur. Sonuncuların ombası, dal ayaqları və bədəni, buynuzları olmadan da, onların maral rəsmi olduğunu deyir. Maral rəsmlərindən dördü (№№ 3, 4, 5, 9) sxematik və savadsız çəkilmişdir.

Maral təsvirlərindən birinin (№ 3) arxa hissəsi başqa daha qədim maralın (№ 2) qabaq hissəsi üzərində çəkilmişdir.

Burada maralın biri (№ 2) sıçrayış vəziyyətində çəkilmiş, ayaqları, quyruğu və bədəninə görə real təsvir edilmişdir. İkinci (№ 3) maral onun qabaq hissəsi üstündə, sonradan və çox sxematik təsvir edilmişdir. Burada müxtəlif dövrlərdə çəkilmiş tam iki heyvan təsvir edilmişdir. Lakin ədəbiyyatda bir yerdə bu səhnə

«ikibaşlı maral» kimi verilmişdir (75). Görünür, müəllif «Daşqışlaq» sahəsində ikibaşlı maral təsviri olduğunu bizdən eşitdikdən sonra onun təsvirini daşın dibində qazıntı aparılıb ikibaşlı maral (№ 8) təsviri hələ aşkar olunmamış, çəkilmiş fotosunda axtarmış və iki maralın (№ 2 və 3) bir-birinin üstündə çəkilmiş təsvirini ikibaşlı maral hesab etmiş və «Qobustan dünyası» kitabına da, bu haqda söhbət olmadığı halda, istinad verilmişdir.

Biz hesab edirik ki, hər bir tarixçi və arxeoloq başqasının materialını onun müəllifindən əvvəl çap etmək istədikdə lazımi qədər diqqətli olmalıdır.

22 №-li daşdakı təsvirlərin çoxu Daşqışlaq sahəsinin bu daş ətrafındakı daşlarda (№№ 15, 16, 17, 18, 20 və s.) maral təsvirləri ilə bir dövrdə - ilk orta əsrlərdə, 2 və 6 №-li maral rəsmləri isə qalanlarından bir qədər əvvəl çəkilmişdir.

DAŞ № 23

Daşqışlaq sahəsində 20 və 22 №-li daşlardan 150° altında, 22 №-li daşdan 8 metr məsafədə, 10 №-li daşdan 65° altında 12-15 metr məsafədə yerdən bitili yastı qayanın üstünə düşmüş, uzunluğu 4,8 metr, uzunsov daş parçasıdır.

Daşın qərbə baxan, 2 metr enində maili üzünün sol ucuna yaxın bir ədəd boynunu döndərib dala baxan maral təsvir edilmişdir (76-cı tablo, A). Onun boynu nazik, başı iridir. Sol buynuzu (şəkildə sağ) üç budaqla iri, bütöv, sağ buynuzu bir budaqla qısa, ön görünüşdə verilib. Ayaqları qabağa uzanmış, bədəni sıçrayış vəziyyətində yığılmış göstərilmişdir. Ombası iri və yumrudur, quyruğu kiçik və yuxarı qalxmışdır. 23 №-li daşdakı maral təsviri antik dövrün sonu - ilk orta əsrlərdə çəkilmişdir.

DAŞ № 23^{A}

Daşqssşlaq sahəsində 22 və 23 №-li daşların arasında, şərq-qərb uzunluğu 10 metr, eni 2,5 metr, cənub tərəfdə hündürlüyü 1,5 metr, şimal tərəfi yerlə bərabərləşən, yerdən bitili böyük sal qaya daşdır. Onun üstündə 2 ədəd, bir-birindən, şərq-qərb olmaqla, 410 sm aralı yalaq qazılmışdır. Onlardan qərb ucdakı dördbucaqlı formadadır. Ölçüləri 20x15 sm, dərinliyi 8 sm-dir. Şərqdə, daşın üstündəki yalaq konusvarıdır. Diametri 35 sm, dərinliyi 20 sm-dir. Daş bu yalağın içindən çat verib və yalağın içində kiçik kol bitib.

DAŞ № 24

Daşqışlaq sahəsində, 20 və 22 №-li daşlardan bir metr şərq tərəfdə, qərb üzdə eni 2,7 metr, hündürlüyü 2,2 metr iri və dik qaya parçasıdır. Qərb üzünün yuxarı yarısı mailidir. Daşın qərb üzündə biri onun yuxarı, maili səthində və biri

ondan altdakı dik divar səthində olmaqla 2 maral təsvir edilmişdir (76-cı tablo, B, № 1-2).

Onların hər ikisinin yönü sağadır. Birinin (№ 1) quyruğu bucaqvarı çıxıntı ilə, buynuzları iri, qeyri-təbii, hər iki tərəfə şaxələrlə, boynu nazik və uzun, başı və bədəni nisbətən normal göstərilmişdir.

İkinci maral (№ 2), görünür, birinciyə oxşatma kimi inamsız xətlərlə, quyruqsuz təsvir edilmişdir. Onun ayaqları təhrif olunmuş, başının bir hissəsi pozulmuşdur.

24 №-li daşdakı maral təsvirlərinin ilk orta əsrlərdə, qonşu 15 və 20 №-li daşlar arasında yaşayış olduğu vaxt çəkildiyini güman edirik.

DAŞ № 25

Daşqışlaq sahəsində 20 və 24 №-li daşdan 3 və 5 metr şimal-şərqdən başlayıb 13 metr şərqə uzanmış, cənub üzü dikinə divar əmələ gətirən və qərb yarısında çatla aralanmış qayadır. Daşın şərq üzü də dik və hamardır. Eni 11 metr, hündürlüyü 6 metrdir. Şərq tərəfdən ona söykənmiş başqa qaya bu üzün çox hissəsinin qabağını körpüvarı örtür. Daşın bu örtülü, şərq üzündə 6 ədəd qədim heyvan rəsmi var (76-cı tablo, V, 1-6).

Buradakı heyvan təsvirlərindən üçü öküz (№№ 3, 4, 6), ikisi keçi (№ 1, 2) və biri (№ 5) ceyran rəsmidir. Heyvanların hamısı yönü sağa təsvir edilmişdir. Öküzlərin üçündə də buynuzlar əvvəl yuxarı istiqamətdə çıxıb sonra qabağa uzanmış və ucları yuxarı meyillənmişdir. Öküzlərdən ikisi (№ 4 və 6) qulaqsız, biri (№ 3) qulaqla çəkilmişdir. Birinin (№ 3) dal ayaqları və qarınaltı xətti, birinin (№ 6) dal ayaqları və quyruğu silinmiş, birinin (№ 4) quyruğu olduqca kiçik qalmışdır.

Keçilərin hər ikisində buynuzlar dik qalxıb qövsvarı olaraq arxaya dönmüş, boyun göstərilmədən baş bədənə bitişikdir. Baş, qabaq buynuzla qabaq ayaq arasında, çıxıntı bucaqla ifadə olunmuşdur. Keçilərdən biri (№ 2) iri öküzün (№ 3) arxa hissəsi üzərində çəkilmişdir.

İki öküz (№ 4 və 6) arasında təsvir edilmiş ceyranın (№ 5) bədəni yoğun, ayaqları olduqca qısa, boynu nazik, uzun, qoşa buynuzu dik və dala meyilli göstərilmişdir. Təsvirlərdən öküz və ceyran ilk tunc dövründə, keçilərin az sonra çəkildiyini demək olar.

DAŞ № 26

Daşqışlaq sahəsində 15 №-li daşdan 315° altında 70 metr məsafədə, 25 №-li daşdan 300° altında 90 metr məsafədə, hər yandan qayalıqla əhatə olunan düzən sahədə tək, yerdən bitili üstü ellipsvari nəhəng, yastı daşdır. Şimal-qərb-cənub-şərq uzunluğu 10 metr, eni 8 metr, hündürlüyü şimal-qərb ucda 2,0 metrdir. Daşın cənub və cənub-şərq tərəfi maili olaraq yerə enir. Üstü yatıqdır və burada

(ortasında) ölçüsü 3,0x2,0 və 2,5 metr, dərinliyi 30-35 sm olan hovuz var (59-cu fotoşəkil).

Daşın şimal-qərb hissəsi üstündə də iki iri, ölçüsü 100x70 sm, dərinliyi 15 sm və 80x60 sm, dərinliyi 20 sm, bir ədəd də nisbətən kiçik ölçülü, ölçüsü (45x30 sm), dərinliyi 15 sm olan yalaq qazılmışdır.

Hovuzun ətrafı və daşın başqa sahələrində də 30 ədəd xırda yalaq var.

Böyük hovuza cənub-qərb tərəfdən, birinci yalağa şimal-qərb tərəfdən yağış suyunu yığmaq üçün qanov çəkilmişdir. Daşın cənub-şərq ucunda bir keçi və rəsmdən xətt qalıqları var (77-ci tablo, A, 1-2). Keçinin bədəni normal, boynu nazik və çox uzun çəkilib. Boyunun ucu formalaşmamış başı əvəz edir. Buradan yuxarı qalxan iki qoşa qılıncvari iri buynuzlar dala meyilli yuxarı qalxıb ucları birləşir.

Daşın üstündəki iri hovuz daşın çökək yerində təbii (suyun dayanıb əhəng daşını yeyib genişləndirməsi ilə?) əmələ gəlmədir, yalaqlar isə süni qazmadır. Daşın üstündəki süni yalaqlar və keçi təsvirinin dövrü Daşqışlaq sahəsində ilk orta əsrlərdə olan yaşayış dövrünə aiddir.

DAŞ № 27

Daşqışlaq sahəsində 25 №-li daşdan 15 metr şərqə tərəf, şərq-qərb uzunluğu 7 metr, eni 2 metr, hündürlüyü 3 metr, azca şimala yatıq uzunsov daşdır.

Daşın cənub üzünün şərq ucunda bir ədəd sxematik heyvan şəkli, ondan 145 sm sola və 50 sm aşağı, pis saxlanmış ikinci heyvan şəklindən qalıq və ondan da 140 sm sola və 20-30 sm aşağı bir işarə qazılmışdır (77-ci tablo, B, 3, 2, 1). Buradakı sxematik heyvan təsviri (№ 3) ümumi görünüşünə görə at rəsmini andırır. Onun nazik uzun boynu yuxarı və qabağa uzanır. Başı aşınıb tökülüb, alt çənəsi və üst xətti qalıb, quyruq çıxıntıvarıdır, üfüqi olaraq dala uzanır. İkinci şəkil (№ 2) üfüqi xəttin (bədənin) uclarından aşağı bütöv və qırıq xətlər çəkilmiş rəsm (?) qalığından ibarətdir. İşarə (№ 1) tilləri qövsləndirilmiş «П» şəkillidir, aşağıya açıq ucları qövsvarı olaraq yana tərəf dönür. Hər üç təsvirin dövrünü orta əsrlərə aid etmək olar.

DAŞ № 27^{A}

Daşqışlaq sahəsində 27 №-li daşın qərb tərəfdən üstünə yatmış hissəsidir. Qərb tərəfi yerdən bitili, şərqdə 27 №-li daşın üstünə yatmaqla, altı-açıq kiçik örtülü sahə əmələ gətirir. Daşın cənub-qərbə baxan, eni 5 metr, hündürlüyü 2,5 metr, üzünün ortasından azca sola, alt kənarına yaxın yerində bir heyvan şəkli saxlanmışdır (77-ci tablo, V). Quyruq qarışıq omba hissəsi və başı silindiyindən onun hansı heyvana aid olmasını və dövrünü demək çətindir.

DAŞ № 28

Daşqışlaq sahəsinin 10 №-li daşından 60° altında 100 metr məsafədə, 22, 23^{A} və 24 №-li daşlardan 70° altında 60-70 metr şərqə, burada əmələ gəlmiş kiçik sığınacağın şərq divarını əmələ gətirən, şimal-qərb-cənub-şərq istiqamətində uzunluğu 10 metr, eni 6 metr, hündürlüyü şərq ucda 1,1 metr iri qaya daşdır. Cənub-şərq istiqamətdə üstü mailidir, onun aşağı ucunda kiçik çapma qazılıb və ona su yığmaq üçün üst səthdə 2 tərəfli qarım qazılıb. Qərb tərəfdən başqa qaya onun üstünə yatıb daşaltı sığınacaq əmələ gətirir.

Daşın qərb üzündə, ortada, daşın inv. №-sindən sola, yerdən 1,5 metr hündürdə kiçik ölçülü (uzunluğu 25 sm), bir ədəd çiyin donqarı çox iri göstərilmiş keçi şəkli və ondan 2,7 metr sağa və azca hündürdə bir «П» şəkilli işarə çəkilmişdir. (77-ci tablo, Q, 2, 1).

Keçinin (№ 2) bədəni və başı simmetrik və real görünüşlüdür. Buynuzlar arxaya meyilli qılıncvarıdır. Quyruğu arxaya meyilli qısa xətlə göstərilmiş, qabaq ayağının biri və dal ayaqları bütöv aşınıb tökülmüşdür.

İşarə (№ 1) 27 №-li daşdakı işarənin oxşarıdır, lakin küncləri düzbucaq altındadır. 28 №-li daşdakı keçi rəsmi tunc dövründə, işarə və çapma orta əsrlərdə qazılmışdır.

DAŞ № 28^{A}

Daşqışlaq sahəsi 28 №-li daşdan qərbə, buradakı kiçik sığınacağın girəcəyindən sol (qərb) tərəfdə, 28^{b} №-li daşın altında şərq-qərb 4x2 metr ölçülü, üstü 2 çatlı və üstünün ortasından heyvan bağlamaq üçün deşik açılmış orta ölçülü daşdır. Daşın üst üzündə, deşikdən 20 sm sağ tərəfdə, diametri 12 sm olan bir ədəd dairə və ondan 30 sm yuxarı uzanmış xətdən ibarət işarə qazılmışdır. Bu tip işarələr Şonqarda da IV sahənin 2-ci və 3-cü daşlarında və Daşqışlaqda 15 №-li daşda (№ 8, 71-ci tablo) qeydə alınmışdır. Göstərilən deşikdən sol tərəfə və 70 sm aşağıda da çox pis saxlanmış işarə və ya şəkil qalığı var. Daşın cənub üzünün şərq ucuna yaxın, torpağa yaxın yerində, daşın bu tərəf üzərinə söykənmiş daşın altında da bir qədim tipli qayıq şəklinin qalığı saxlanıb. Dövrlərinə gəldikdə, birinci işarənin (77-ci tablo, D) və dəlmənin orta əsrlərdə qazıldığını, qayıq rəsminin isə daha qədim dövrə aid olduğunu söyləmək olar.

DAŞ № 28^{B}

Daşqışlaq sahəsində 28 №-li daşın yanındakı kiçik sığınacağın üstünü örtmüş nəhəng qayanın qərb tərəfində, yuxarı ucu o qayaya söykənmiş, yuxarısı enli, aşağı ucu getdikcə nazilən, və 28^{A} №-li daşın üstünə azca oturan iri qaya parçasıdır. Qərb tərəfi başqa uzunsov qayanın üstünə yatır.

Daşın cənub-şərqə baxan üzündə yerdən 2 metr hündürdə iki işarə (sxematik adam şəkli çəkilib) (77-ci tablo, E, 1-2) şəkli çəkilib. Birinin (№ 1) yuxarı ucundan (başından) sağa kiçik xətt ayrılır, qollar üfüqi olaraq yana açılıb sonra qövsvari aşağı dönür. Ayaqları yandan aşağı enir və şaquli bədən göstərən xəttin aşağı ucu ayaqlar qədər uzundur. İkinci təsvirdə qollar ayaqlar arasında şaquli bədəni dördbucaqlı fiqur kəsir. Qolları birincidəkindən qısa və qövsvarıdır. Dövrü orta əsrlərə aiddir.

DAŞ № 29

Daşqışlaq sahəsində 10 №-li daşdan 30° altında 70 metr məsafədə, 25 №-li daşdan 140° altında 85 metr, 28 №-li daşdan 70 metr tam cənuba düzən sahədə tək dayanmış nəhəng qayadır. Onun qərb üzünün çatları arasında nar ağacı bitib. Daşın şərq-qərb uzunluğu 27 metr, eni 10 metr, şərq tərəfdə hündürlüyü 6-7 metr, qərb ucda mailidir. Şimal-şərq və cənub-şərq tərəfi dikdir.

Daşın cənub tərəfi ortasında, kiçik sahədə içəriyə tərəf səkivari batıqdır. Daşın bu sahəsində 13 ədəd təsvir qeydə alınmışdır (78-ci tablo, A, 1-13). Onlardan 9 ədədi (№№ 2, 5-11 və 13), (bəzilərindən hissələr tökülmüş olsa da) tam keçi rəsmləri, biri (№ 1) qeyri-müəyyən heyvan rəsmi, 3 ədədi (№ 3, 4, 12) şəkillərdən xətt qalıqlarıdır. Keçi rəsmlərinin yönü sağa, qeyri-müəyyən heyvan qalığının (№ 1) yönü soladır.

29 №-li daşın şərq üzünün çatla ayrılmış şimal hissəsinin şərqə baxar səthində və çatdan sol üzdə, hərəsində bir ədəd olmaqla 2 keçi rəsmi (78-ci tablo, A, № 14, 16) və bir rəsm qalığı (№ 15); onlardan altdakı maili səthdə də daha 2 keçi rəsmi (78-ci tablo, A, № 17 və 18) qeydə alınmışdır. Onların yönü sağadır və pis saxlanmışdır.

29 №-li daşın ətrafındakı düzən sahənin hər yerində hörgü-hasar qalıqlarına təsadüf olunur. Bəzi hasar daşları üzərində də heyvan (keçi) rəsmləri qazılmışdır. Onlardan 2 daş üzərində keçi rəsmi qeydə alınmışdır (80-ci tablo, V, № 1 və 2). Bu keçi rəsmlərinin hər ikisi (eləcə də hasarların başqa daşlarında olan keçi rəsmləri) 29 №-li daşın cənub üzündəki təsvirlərlə eyni dəst-xəttə malik, bir dövrlüdürlər. Hiss olunur ki, bu təsvirləri çəkmiş maldarlar 29 №-li daşın cənub dibində məskən salmış və hasar qalıqları onların qoyun-keçi sürülərini saxlamağa qulluq etmişdir.

Daşqışlaqda 29 №-li daş və onun ətrafındakı hasar daşlarındakı keçi təsvirləri öz dəst-xətləri ilə Qobustanda tunc dövrü kurqanları və yaşayış yerlərində («Böyükdaş» və «Dairə») arxeoloji qazıntılardan tapılmış keçi rəsmləri ilə oxşardır.

DAŞ № 30

Daşqışlaq sahəsində 29 №-li daşdan 75° altında 100 metr məsafədə, şimal-qərb-cənub-şərq uzunluğu 30 metr, eni 15 metr və hündürlüyü 5 metr nəhəng bitili qayadır. Daşın cənub-qərb tərəfi üzündə, qərb uca yaxın hissədə 2 ədəd çox iri keçi və onların ayaqları yanında 2 ədəd nisbətən kiçik ölçülü keçi təsvir edilib (78-ci tablo, B, №№ 1-4 və 55-ci fotoşəkil).

30 №-li daş üzərindəki keçilərdən üçünün (№№ 1, 3, 4) yönü sağa, birininki (№ 2) soladır. Birinin (№ 1) həm sol və həm sağ ayaqlarının ucu, birinin (№ 3) dal ayaqlarının, birinin (№ 4) isə qabaq ayaqlarının ucu birləşir. Keçilərdən birinin (№ 4) buynuzu tək, birinki (№ 3-də) qısa verilmiş, ikisinin (№ 1 və 2) qoşa buynuzu yuxarıdan qövsvari dala əyilir. Hamısında qarınaltı xətt belinə yaxınlaşaraq bədən iki baş-başa üçbucaq əmələ gətirir. Hamısında quyruq yuxarı qalxıb qövsvari olaraq belinə tərəf əyilir. Təsvirlərin qayada qazılması, dəst-xətti və saxlanma vəziyyəti onların orta əsrlər dövründə çəkildiyini göstərir.

DAŞ № 31

Daşqışlaq sahəsində 30 №-li daşdan 50 metr cənubda, 29 №-li daşdan 110° altında 100-110 metr məsafədə sal qaya üzərində iri daşdır. Şərq-qərb uzunluğu 5 metr, hündürlüyü 2 metrdir. Şəkil olan qərb üzü 3,5x2,0 metr ölçüdə dik və hamar səthə malikdir (56-cı fotoşəkil). Daşın bu üzündə çoxlu qarışıq (üst-üstə və kəsişən) rəsmlər var (79-cu tablo, №№ 1-11). Burada qeydə alınmış şəkillərdən 5 ədədini (№№ 1, 3, 5, 6, 7) oxumaq, onlar haqda fikir demək çətindir. 3 ədədi (№№ 4, 8, 10) heyvana bənzər (zoomorf) məxluqu andırır, 9 №-ilə qeydə alınmış təsvirdə yay-ox çəkilmiş, 11 №-ilə qeydə alınan təsvirdə başı təhrif olunmuş, yarımçevrə əmələ gətirən buynuzları belinə çatan keçi, 2 №-li şəkildə kiçik ölçülü, təyinatı çətin, keçiyə oxşar heyvan təsvir olunmuşdur.

Daşın cənub-şərqə baxan əks tərəf üzündə də bir keçi təsviri saxlanmışdır (79-cu tablo, № 12). Bu keçi nisbətən uzun bədənli, təbii görünüşdə, quyruğu yuxarı qalxıb heyvanın belinə tərəf meyillənmiş, dal və qabaq ayaqlarının və buynuzlarının ucu qövsvari birləşmiş təsvir edilmişdir. Bu keçi təsviri Daşqışlaqda 3 №-li daşdakı keçi şəkli ilə (bax: 67-ci tablo, A) tam oxşardır (hər ikisinin bir adam tərəfindən eyni vaxtda çəkildiyini demək olar). Yalnız fərq ondadır ki, 3 №-li daşdakı keçi təsvirində buynuzların ucu birləşmir.

Bu oxşarlığa görə keçinin, ola bilsin ki, daşın qərb üzündəki, söhbət açdığımız qarışıq səhnənin də son tunc dövründə çəkildiyini söyləmək olar.

DAŞ № 32

Daşqışlaq sahəsində 31 №-li daşdan 290° altında 30-35 metr, 29 №-li daşdan 120° altında 115 metr məsafədə Sal qaya üzərindəki 4 daşdan biridir. Uzunluğu 3 metrə yaxın, hündürlüyü 2 metrdir.

Daşın şimal üzündə 2 keçi rəsmi var (80-cı tablo, A, № 1-2). Onların hər ikisi yönü sola olmaqla real təsvir edilmişdir. Birinin (№ 1) qabaq ayaqlarının ucu birləşir. O birinin (№ 2) dal ayağı və quyruğu aşınıb tökülmüşdür. Hər iki keçinin qarınaltı xətti və iç ayaqları yarımçevrə əmələ gətirir.

Təsvirlər Qobustanda tunc dövrü yaşayış yerləri və kurqanlardan aşkar edilmiş keçi təsvirlərinin oxşarıdır və tunc dövründə çəkildiyi şübhə doğurmur.

DAŞ № 33

Daşqışlaq sahəsində 31 №-li daşdan 140° altında 300 metr məsafədə, köhnə torpaq yoldan 10-15 metr şərqdə çox iri, yastı sal daşdır. Onun 8 metr uzunluğu və 1,2 metr hündürlüyü olan qərbə baxan üzündə, ortada iki şəkil qalığı var (80-ci tablo, B, № 1-2).

Təsvirlərin hər ikisi sxematikdir. Biri (№ 1) keçi, biri (№ 2) naməlum heyvan təsvirindən qalıqdır. Keçi (№ 1) bütövdür, yönü sağadır, başı bədən xəttinin davamı kimi irəli çıxır. Buynuzlar dala tərəf meyilli olmaqla yuxarı qalxır. Naməlum heyvan təsvirindən qalıqda bədən əvəzi iki qoşa üfüqi xətt və altdakı xəttin uclarından aşağı (ayaq kimi) 2 qoşa və qısa xətt saxlanmışdır. Təsvirlərin maldarlar tərəfindən son orta əsrlərdə çəkildiyini güman edirik.

DAŞ № 34

Daşqışlaq sahəsində 35 №-li daşdan 50 metr cənub-şərqdə üzü cənub-qərbə baxan, yerdən bitili qaya parçasıdır. Dərədən 30 metr hündürdədir.

Daşın dərəyə baxan üzündə 6 şəkil var. Onlar bir xətt üzrə, soldan sağa 3 maral, bir it və 2 keçi rəsmindən ibarətdir (80-cı tablo, Q, 1-6 və 57-ci fotoşəkil). Onların hamısı yan görünüşdə sxematikdir. Bədən iki üfüqi paralel və onların ucundan aşağı enən ayaq kimi 4 şaquli xətlə göstərilmişdir. Maralların buynuzu başdan, arası düzbucaq altında sağa və sola olmaqla, yuxarı çıxan xətlə və onların arasına tərəf şaxələrlə verilib.

Maralın birinin (№ 1) quyruğu, ombasına sancılmış düz xətlə, qalan iki maral (№2, 3), it (№ 4) və keçilərin (№ 5, 6) quyruğu yuxarı qalxıb dala tərəf döndərilmiş xətlə verilmişdir.

Keçi təsvirləri (№ 5 və 6) çox sxematikdir. Onların keçi olduğunu yalnız buynuzları deyir. Quyruq keçi quyruğuna oxşar olsa da bədənə nisbətən çox iridir.

İt təsviri (№ 4) reallığa yaxındır. Onun uzun boynu ağız və 2 qabağa şəklənmiş qulaqla qurtarır. Başı, boynu və quyruğu onun it olmasına şübhə qoymur.

Təsvirlərin ümumi dəst-xətti onların orta əsrlərdə çəkildiyini göstərir.

DAŞ № 35

Daşqışlaq sahəsindən Qaraatlı pirinə gedən yolda pirə çatmamış yolun sol tərəfindəki dərənin şərq döşündə, cənub-qərb üzü yastı, yerdən bitili iri daşdır.

Daşın cənub-qərbə baxan üzü dik və hamardır. Onun bu üzündə bir atlı və ondan sağda, atlının qabağında üç keçi təsviri var (81-ci tablo, A, 1-4 və 58-ci fotoşəkil).

Atlı səhnəsindəki (№ 1) adam rəsmi kiçik yarımçevrə baş və onun uclarından aşağı çəkilmiş iki şaquli yan xətt ilə göstərilmişdir. O qolsuzdur, ayaqları (?) atın sağ tərəfində bədəninin ortasına kimi enir, aşağı keçmir. Adamı ortadan uzun (atın başı ilə quyruğu arasında) bir xətt kəsir. Bu xətlə, çox güman ki, onun nizəsi nəzərdə tutulmuşdur.

At sxematik olsa da, boynu və qabağa şəklənmiş qoşa qulağı onun at olmasını təsdiq edir. Onun qısa (kiçik) quyruğunun ucu aşağı meyillidir. Ola bilsin ki, qədim rəssam ata düyülmüş quyruq vermək istəmişdir.

Keçi rəsmlərindən ikisi (№ 2 və 3) qabaq-qabağa, biri (№ 4) onların altında, yönü soladır. Sonuncunun yalnız başı, buynuzu, qabaq ayağı və boyun xəttindən hissə saxlanıb. Yuxarıdakı keçilərin (№ 2 və 3) hər ikisinin quyruğu və soldakının buynuzunun biri yoxdur.

Daşdakı təsvirlər ümumi baxışda nizəli atlının yönünün keçi təsvirləri istiqamətində olmasına görə, ov səhnəsi təsəvvürü yaradır. Lakin keçilərin qaçış vəziyyətində deyil, ikisinin sakit qabaq-qabağa və birinin (№ 4) yönü atlıya tərəf olması, əsasən də, atlı təsvirinin keçilərdən çox-çox sonra, orta əsrlərdə çəkilməsi təsvirlərin ov səhnəsinə aid olmasını inkar edir. Keçi təsvirləri isə, çox güman ki, antik və ya ilk orta əsrlərdə çəkilmişdir.

DAŞ № 36

Daşqışlaq sahəsində, Qaraatlı pirinə gedən yolda, 34 №-li daşdan cənub-qərbə tərəf dərənin dibində iri dik qayadır.

Daşın cənub-qərbə (dərənin içinə) baxan üzü dik və hamardır. Onun bu üzündə 3 ədəd dəvə, bir işarə və bir xətt qazılıb (81-ci tablo, B, 1-5 və 59-cu fotoşəkil). Dəvələrdən ikisi (№ 2, 3) yan görünüşdə yönü sola, dal-qabaq, daldakı qabaqdakına bağlı, biri isə (№ 4) yönü sağa, onlardan altda təsvir edilmişdir. Sonuncunun başı bərabərindən qabağa bir üfüqi xətt çəkilmiş və ucu yuxarı qaldırılmışdır (№5). İşarə (№ 1) xətt qalığının (№ 5) yuxarı ucundan 0,5 metr

yuxarıda dördbucaqlının şaquli xətlə yarı bölünməsindən ibarətdir. Dəvə təsvirləri üfüqi xətlə verilmiş bədənə üstündən və altından (iç ayaqlar arasında) qövs çəkilməklə göstərilmişdir. Baş bədən xəttinin əyilərək yuxarı qalxmış və qabağa yönəlmiş ucundan ibarətdir. Qulaqları yoxdur. Kiçik quyruq daldan aşağı sallanır. Şaquli ayaqların ucu qabağa tərəf qalınlaşır.

Qobustanda dəvə şəkli çoxdur. Daşqışlaq sahəsində 2 №-li daşda, Kiçikdaş sahəsinin 36, 37, 43, 45, 54 №-li daşlarında və Böyükdaş dağı ərazisində də çoxlu dəvə təsviri qeydə alınmışdır. İ.M.Cəfərzadə Böyükdaş dağı aşağı səki sahəsindəki 155 №-li daşdakı dəvələri XIV-XV əsrlərə aid etmişdir (76).

Qeyd edək ki, 36 №-li daşdakı dəvə rəsmləri Qobustanda qeydə alınmış çoxsaylı başqa dəvələrdən fərqlənir. 36 №-li daşdakı dəvə rəsmləri yalnız bu sahədə 2 №-li daş üzərindəki (66-cı tablo) dəvə rəsmlərinə və Kiçikdaş sahəsində 43 №-li daşdakı 17 və 20 №-li dəvə rəsmlərinə (31-ci tablo) oxşayır.

Daşqışlaq sahəsinin 2, 36 №-li və Kiçikdaş sahəsinin 43 №-li daşları üzərindəki dəvə rəsmlərində dəvənin başı, boynunun əyrisi ilə qabağa uzanmaqla, qulaqsızdır. Kiçikdaş sahəsi 36, 37, 45, 54 №-li daşlar, eləcə də Böyükdaş dağı aşağı və yuxarı səki sahələrindəki daşlar üzərində qeydə alınmış 70-ə qədər dəvə rəsmində çox vaxt dəvələrin boynu bucaq altında əyilməklə qabağa uzanır və yuxarı qalxaraq qabağa şəklənmiş qoşa qulaqla tamamlanır. Ümumi baxışda onları yüklü at da saymaq olar.

Qobustan qayalarında qeydə alınmış at rəsmləri çox vaxt, tam sxematik olsalar da, ilk baxışdan at olduğu bilinir.

Qobustanda dəvə kimi qeydə alınmış rəsmlərin çoxunda baş, boyun və qulaq əsasən atda olduğu kimi çəkilsə də, özlərinin yüklü və at xasiyyətinə zidd olaraq bir-birinə bağlı olmaqla, karvan təşkil etməsi onların at yox, dəvə olmasını göstərir. Görünür, karvanda dəvənin savadsız olaraq at başı ilə təsvir edilməsi onları çəkən yerli rəssamın dəvəni yalnız o vaxtlar buradan keçən karvanda kənardan görməsi ilə bağlıdır. Bu tip dəvələrin ilk orta əsrlərdə çəkildiyini demək olar.

Daşqışlaq qayaüstü təsvirlərinin çoxu orta əsrlərdə və sonrakı dövrlərdə burada olmuş qışlaqların əhalisi tərəfindən çəkilmişdir. Bəzi daşlar (№№ 3, 6, 7, 8, 25, 28, 31, 32) üzərində qeydə aldığımız qədim tipli təsvirlər isə daha qədim zamanlarda burada qısamüddətli yaşayışda olmuş sakinlər, eləcə də, Kiçikdaş və Böyükdaş dağları ərazisindən, son neolit və tunc dövründə, ov dalınca gələnlər tərəfindən çəkilmişdir.

Daşqışlaq sahəsində yuxarıda qeydə alınan 42 daş üzərindəki qədim təsvirlər və başqa abidələrdən əlavə sal qayalar üzərində XVIII-XIX və XX əsrin əvvəllərində, yağış suyunu yığmaqla su ehtiyacını ödəmək üçün maldarlar tərəfindən 5 ədəd də çapma-hovuz qazılmışdır. Bu çapmaların vaxtilə kimlər tərəfindən qazdırıldığı Daşqışlaq sakinlərinə məlumdur. Məlik çapması, Sərxan çapması, Qubad çapması, Qiyas çapması və Abdulla çapması kimi tanınan bu cür

çapmalar indi də keçmiş sahiblərinin adını daşıyır. Təsəvvür üçün qeyd edək ki, Məlik çapmasının (60-cı fotoşəkil) uzunluğu 260 sm, eni 95 sm və dərinliyi 65 sm, su tutumu 1600 litrdir. Bu cür çapmalardan bir neçəsi də Kiçikdaş kolleksiyası daşlarının (№№ 46, 46^{a}, 52, 53, 123^{A}) üzərində qeydə alınmışdır. Qobustanda Böyükdaş dağının aşağı səki sahəsində də bu cür çapmalar çoxdur.

Son əsrlərdə Qobustan qayalarında qazılmış bu cür çapma-hovuzlar məqsəd etibarilə daş dövrünün sonundan -neolit dövründən başlayaraq düzəldilmiş yalaqların ənənəvi davamı olub, adamların su ehtiyacını yağış suyu yığmaqla ödəməyə qulluq etmişdir.

XX əsrdə texniki imkanın genişlənməsi nəticəsində iri metal su çənlərinin meydana çıxması və qışlaqlara su kəmərləri çəkmək imkanı bu cür çapmalardan istifadəyə ehtiyacı azaltmışdır.

NƏTİCƏ

Kitabda təqdim olunan hər üç kolleksiya "Qayaaltı", "Kiçikdaş" və "Daşqışlaq" - bir dağın, Kiçikdaş dağının ayrı-ayrı sahələrində olmaqla əslində bir dağın, Kiçikdaş dağı ərazisindədir.

Kiçikdaş dağı ərazisində qayaüstü təsvirlər ilk dəfə İ. M. Cəfərzadə tərəfindən 64 daş üzərində (№ № 1-62 № A-B və № 49a) qeydə alınmışdır.

Onlardan 3 daş (№№ 5,15,58) üzərindəki təsvirlər kəsirlə olmaqla çap olunmuş (İ.Cəfərzadə - 1973), qalanlardan 15 daş bəzi çatışmamazlıqlarla təsvir edilmişdir.

Sonralar müəlliflər tərəfindən aparılan axtarış və tədqiqatlar nəticəsində Kiçikdaş dağı sahəsində üzərində qədim qayaüstü təsvir və insan əlinin başqa izi olan 90 yeni daş, Qayaaltı sahəsində 21 daş və Daşqışlaq sahəsində 41 daş aşkar edilib işlənilmişdir.

Kiçikdaş dağı ərazisində qayaüstü təsvirlərin ən qədimi "Qayaaltı" sahədə "Qayaarası" düşərgəsində və Kiçikdaş sahəsinin 49 və 49b nömrəli daşlarında ("Ceyranlar" düşərgəsində) qeydə alınmış yuxarı paleolit dövrünə aid təsvirlərdir. Tarixin sonrakı dövrlərinə aid rəsmlərə Kiçikdaş dağı kolleksiyasının müxtəlif sahələrində rast gəlinir.

"Firuz" düşərgəsində mezolit dövrünün sonu - neolit dövrü materiallarına, "Firuz-2" düşərgəsində son neolit-eneolit və ilk tunc dövrü qalıqlarına təsadüf olunmuşdur.

"Firuz" düşərgəsi ikinci dəfə tunc dövründə istifadə olunmuşdur. Sonrakı dövrlərin (tunc, antik və ilk orta əsrlər) təsvirlərinə Kiçikdaş ərazisinin düzən sahəsi və Daşqışlaq sahəsində daha çox rast gəlinir.

Qədim qayaüstü təsvirlərin öyrənilməsində əsas məsələ onların tarixinin düzgün müəyyənləşdirilməsi və çəkilmə səbəblərinin izahından ibarətdir. Sözsüz ki, hər bir qədim rəsm nə vaxtsa və nə məqsədləsə çəkilib.

Bu kitabda təqdim olunan, eləcə də Qobustanda başqa kolleksiyalardakı qayaüstü təsvirlərin dövrünün müəyyənləşdirilməsi hər hansı oxşatmalar deyil, qədim insan düşərgələri, yaşayış yerləri və kurqanlarda aparılmış qazıntılar nəticəsində əldə olunmuş arxeoloji dəlillərə: mədəni təbəqədən, yaşayış yerinin divarını təşkil edən qayaların mədəni təbəqə basmış divarlarında, kurqanların qəbir ətrafı və örtük daşları üzərində, aşkar olunmuş qədim rəsmlərin dəsti - xəttinə əsaslanır.

Arxeoloji ədəbiyyatda biri - birindən çox uzaq, əl çatmaz regionlarda mövzuca eyni, biri-birinə oxşar rəsmlərə - öküz, keçi, maral və s. kimi heyvan rəsmlərinə rast gəlmək olur. Çox vaxt bu "oxşarlıq" tarixi dövrün eyniləşdirilməsi, birinin o birinin təsiri altında çəkilməsi (birindən o birinə keçməsi, oradan gəlmə olması və s.) kimi iddiaların irəli sürülməsi üçün əsas götürülür.

Həyatda dünyanın bütün regionlarında, minillər boyu, öküz - öküz, keçi - keçi, maral - maral, at - at və s.dir. Hər hansı heyvan cinsinin fərqləri belə öz - özlüyündə bir- birini tam təkrar etmir. (Naxırçı bir naxır inəyin hər birini əlamətlərinə görə ayrılıqda tanıyır).

Bizə görə hər hansı heyvanın uzaq məsafələrdə çəkilmiş iki rəsmi də (fotosurət deyillərsə) tam eyni olmur və onları cinsi oxşarlığına görə eyni dövrə aid etmək düz deyil.

Biz təsvirlərin eyni heyvana aid olması oxşarlığı ilə onların eyni dövrlülüyü fikrini qəbul etmirik. Bu kimi oxşarlıq rəsmlərin çəkilmə dövrünün yaxınlığı yox, təsvirlərin yaradılmasının, nə məqsədlə çəkilməsi fikrinin izahında əsas ola bilər.

İtaliyalı etnososioloq alim E. Anati Qobustanda Böyükdaş dağı, yuxarı səki sahəsində 30 nömrəli daşın cənub üzərindəki öküz sürüsü səhnəsini Misirdəki öküz təsvirləri ilə eyniləşdirilir [77]. Qobustan (Azərbaycan) adlı başqa bir kitabında isə Boyükdaş dağı yuxarı səki sahəsində 42 nömrəli daşın şərq üzündəki öküz təsvirlərini Portuqaliyada Foz Qao və İspaniyada Siyeqa Verdidəki öküz təsvirləri ilə eyniləşdirərək onları oxşar saymaqla Qobustandakı təsvirləri "böyük miqrasiya" dövründə, guya avropalılar tərəfindən qoyulmuş avtoqraflar sayır [78].

E. Anatiyə görə insanın yaranma ocaqlarından biri olan Azərbaycan "Avropa ilə Asiyanın kəsişdiyi yerdə Avropanın darvazası olmuşdur və bir tranzit məkan kimi buradan ötüb keçənlər qayalarda öz oymalarını (təsvirləri) miras qoyulmuşlar".

Azərbaycan və onun keçmişi haqda məlumatı olmayan, bir avropalı kimi Azərbaycanı və onun sakinlərini mədəni cəhətdən ən geri qalmış xalq səviyyəsində hesab edəndən nə gözləməlisən?

Deməli, o ən qədim və mədəni xalq olan azərilərin bu cür qədim mədəniyyət yarada biləcəyinə şübhə ilə yanaşır.

Bizə görə, ayrı-ayrı uzaq regionlar arasında qayaüstü təsvirlərin və ümumən qədim mədəniyyətlərin oxşarlığı onların eyni dövrlülüyü üçün əsas deyil. Onlar arasındakı oxşarlıq onların dövrü deyil, mədəni səviyyəsində olan oxşarlıqdan xəbər verə bilər.

Azərbaycanda Azıx, Tağlar, Daşsalahlı, Damcılı, Qazma kimi alt paleolit dövrü mağaralarında, Qobustanda üst paleolit dövründən ilk orta əsrlərə qədər ki, müxtəlif dövrlərin yaşayış yerlərində, Kültəpə, Toyrətəpə, və s. kimi tarixin sonrakı mərhələlərini işıqlandıran qədim yaşayış yerlərində, onlarca daha sonrakı dövr abidələrində aparılmış arxeoloji qazıntıların nəticələri alt paleolit dövründən indiyə qədər burada biri - birini əvəz etmiş, tarixən özündən əvvəlki dövrünün dəsti - xəttini götürüb saxlayan daim etdirən mədəniyyətləri oturaq əkinçi maldar tayfalarından ibarət Azərbaycan xalqının babalarının yaratdığını göstərir.

Qobustanın, o cümlədən Kiçikdaş ərazisinin qayaüstü təsvirləri bu ərazidə minillərlə məskun olmuş adamların həyat tərzi, təsərrüfatı, inam dünyası və s. haqda təsviri izahları ilə bu tip mənbələrin olduqca qiymətli arxiv olduğu göstərilir.

Qayaüstü təsvirlər Qobustan ərazisində tarixin müəyyən inkişaf mərhələlərini işıqlandırmaq, minilliklər ərzində adamların dünyagörüşündə, incəsənətin yaradıcılıq dəsti - xəttində və s. dəyişiklikləri izləmək və izah etmək üçün əvəzsiz imkanlar yaradır.

Ərazinin təbii şəraitində olmuş dəyişiklikləri heyvanat aləmi, insanların yaradıcılıq qabiliyyəti və s. haqda məlumat verir. Qayaüstü təsvirlər tarixinin ən qədim dövrlərindən söhbət açan, qaya və daşlar üzərindən, keçmişin gözü ilə bizə baxan canlı tarixi şahidlər xəbərçilərdir.

Qobustan qayaları üzərində təsvir edilmiş bir sıra səhnələr:

"Yallı" oyunu və qız qaçırma səhnələri, keçi və öküzə (totemină) sitayiş səhnələri mərə - mərə (ev gördü) kimi qədim xalq oyunları göstərdiyi kimi "Firuz" və "Kənizə" düşərgələrindən tapılmış insan kəllələrinin müasir Azərbaycanlıların kəllələri ilə eyni olması qədim Qobustanlıların müasir azərbaycanlıların - As ərlərin babaları olduğunu göstərir.

Həyat insanların dünyagörüşü və etiqadlarını yaratdığı kimi onların eyni cür düşünüb nəticə çıxarmasını da tənzimləyir. İnsanların dünyanın ayrı-ayrı regionlarında biri digərindən asılı olmadan ilk od əldə etməsi, ovçuluğu, yığıcılığı bilməsi və s. onların həyata baxışını, yaşamaq üçün mübarizəsinin nəticəsidir. Qaya və daşlar üzərində qədim insanın özü, anası, ovu, totemi, heyvanı və s. kimi mövzularda təsvir etdikləri rəsmlər onların dünyagörüşü və inamının nəticəsidir.

Qayaüstü təsvirlərin yaranma səbəbləri arxeoloji ədəbiyyatda ən çox ovçuluq və ovun uğurlu olması üçün ovçuluqla bağlanır. Qobustanda apardığımız arxeoloji qazıntı və tədqiqatların nəticələri belə yozumu inkar edir.

Qobustanda "Anazağa" düşərgəsində ceyran və gur sümükləri hərəsi 40 faiz, "Qayaarası" düşərgəsində ceyran sümüyü 90 faiz təşkil etdiyi halda, bu heyvanların qayalarda təsviri, Qobustanda heyvan təsvirlərinin yox dərəcəsində az hissəsini təşkil edir. Qobustan qayalarında ən çox təsvir edilmiş heyvan təsvirlərindən biri maraldır. Ona müxtəlif silahlarla ov səhnələri də çoxdur. Lakin Qobustanda qazıntı aparılmış 20-yə qədər müxtəlif dövrlü yaşayış yerlərindən maralın bir ədəd belə mətbəx sümüyü tapılmamışdır.

Qobustanda daş dövrü təbəqələrindən keçi sümüyü də yoxdur. Keçinin daş dövrünə aid (o dövr düşərgələrinin qədim rəsmləri arasında) təsvirləri də yoxdur. Lakin Qobustan qayalarında keçi təsvirləri xüsusi çoxluq təşkil edir. Keçi sümüyü, heyvanların əhliləşdiyi dövrdən sonraya e.ə. IV minilliyin əvvəllərinə təsadüf edir.

Beləliklə, Qobustanda keçi və öküz təsvirləri qədim qobustanlıların təsərrüfat həyatında əsas yer tutmuş və totem sayılan heyvan, adamların keçisi, inəyi və s. kimi, maralda gözəllik simvolu, totemdir, bəzi heyvanlar ov obyekti kimi, bəziləri həyat tərənnümü və dini görüntülərlə bağlı çəkilmişdir.

Qobustan qayalarındakı insan təsvirlərində əsasən qəbilə üzvləri - ana (qadın) ovda və əməkdə fərqlənmiş fərdlər və s. təsvir edilmişdir.

Qobustan
Kiçikdaş dağı abidələri
(rezume)

Qobustan Böyük Qafqaz silsiləsinin cənub-şərq qurtaracağını əhatə edir və Abşeron yarımadasından qərbdə Pirsaat və Sumqayıt çaylarının orta və aşağı axarı arasında, Ceyrankeçməz çayı hövzəsində yerləşir. Ərazisi qobu və yarğanlarla zəngin, dərə-təpəli, yarımsəhradan ibarətdir. İqlimi quru subtropikdir. Gilli şoran torpağa malikdir.

Azərbaycanda qədim qayaüstü təsvirlər ilk dəfə Qobustan qayaüstü təsvirlərinin tədqiqatçısı İ.M.Cəfərzadəyə 1939-1941-ci illərdə məlum olmuşdur. Lakin, onların öyrənilməsinə 1945-ci ildən başlanmışdır.

Qayaüstü təsvirlər Qobustanın cənub-şərqində (Böyükdaş, Kiçikdaş, Cingirdağ dağları və Yazılıtəpə) aşkar edilmişdir. Adı çəkilən dağlar Bakıdan 50-60 km cənub-qərbdə, Xəzər dənizindən ən uzağı 6-7 km aralıdadır.

1965-ci ilə qədər İ.M. Cəfərzadənin rəhbərliyi altında üç dağ ərazisində 750-yə qədər daş və qaya üzərində 3500-dən çox insan və heyvan şəkilləri, müxtəlif mövzulu həyat səhnələri, qayıq təsvirləri, işarə, damğa, yazı, yalaq (daş qab), dəlmə və s. kimi insan əlinin izi olan abidə qeydə alınmışdır.

1965-ci ildən başlayaraq müəlliflər C.N.Rüstəmov və F.M.Muradovanın rəhbərliyi ilə Azərbaycan EA Tarix İnstitutu tərəfindən Qobustan arxeoloji ekspedisiyası Qobustanda 16 qayaaltı düşərgə, 4 tunc dövrü yaşayış yeri, pirlər, 40-a qədər kurqan qazıb öyrənmişdir. Qobustanda qazıntılarla yanaşı qayaüstü təsvirlərin axtarılması, qeydə alınması da davam etdirilmişdir. Hazırda 1000-dən artıq qaya və daş üzərində 6000-dən artıq təsvir qeydə alınıb öyrənilmişdir.

Təqdim edilən əsərdə Kiçikdaş dağının 3 kolleksiyasında (Qayaaltı, Kiçikdaş və Daşqışlaq) öyrənilmiş abidələr təqdim olunur.

Kiçikdaş dağı Qobustan qəsəbəsindən cənub-qərbdə, Böyükdaş dağından 3-km cənubdadır. Hazırda Kiçikdaş dağı iki hissədən ibarətdir: dağ hissə, gil özülü dağılıb qayalıqlar dənizinə çevrilmiş hissə. Kiçikdaş dağının qayaüstü təsvirləri 3 kolleksiyadan - Qayaaltı, Kiçikdaş və Daşqışlaq kolleksiyalarından ibarətdir.

1. "Qayaaltı" qayaüstü təsvirlər kolleksiyası Kiçikdaş dağı zirvəsinin cənub-şərq tərəfində, dağın daş örtüyünün altında, nəhəng qaya parçaları arasında aşkar edilmiş 18 rəsmli daş "Qayaaltı" kolleksiyası kimi qeydə alınmışdır. Bu sahədə təsvirlərin dövrünü müəyyənləşdirmək məqsədilə "Qayaarası" və "Qayaarası-2" adlı daş dövrü düşərgələrində arxeoloji qazıntı işi aparılmış, nəticədə bu kolleksiyadakı öküz, qaban, döymə qadın, xətti kişi, ceyran təsvirlərinin çəkilmə tarixinin üst paleolitin sonuna aid olduğu müəyyənləşdirilmişdir. "Qayaaltı" daşlarında artıq yay-oxun meydana çıxdığını göstərən tək-tək yay-oxlu kişi təsvirlərinə də təsadüf olunur. Hər iki düşərgə sakinləri əsas ceyran ovlamışlar, fauna qalıqlarının 98%-ni iri ceyran sümüyü təşkil edir.

"Qayaaltı" kolleksiyasının 5 №-li daşında qədim qadın təsvirləri sitayiş obyekti - totem öküzün üstündə çəkilmişdir. Onların hər ikisi üst paleolitin sonuna aiddir. 5 №-li daşda uzunluğu 430 sm olan tunc dövrünə aid nərə cinsindən olan balıq təsviri çəkilmişdir. 6 №-li qayada 3 qadın təsvirinin bədəni kəsmə xətlərlə bəzədilmişdir.

Hər iki düşərgənin daş məmulatının arxaik səciyyəli olması - burada şatelperron tipli paleolit əlamətli köndələn bıçaq nümunələrinin çoxluğu materiallar arasında paleolit səciyyəli qadın heykəlciklərinin və mədəni təbəqə altındakı daşlarda öküz başı təsvirlərinin açılması bu kolleksiya abidələrini üst paleolitin sonuna aid etməyə imkan verir (e.ə. 18-15 min il).

2. Kiçikdaş qayaüstü təsvirlər kolleksiyası 128 ədəd rəsmli daş və qayadan ibarətdir. Rəsmlərin mövzusu əsas döymə qadın, döymə və xətti kimi, öküz, öküz ovu, ceyran, gur, keçi, keçi ovu, öküz və keçiyə sitayiş səhnələri, sitayiş tərzində kişi təsvirləri, dəvə karvanı, maral və şir təsvirləri, su üçün daş qablar, hovuzlar, spirallar və günəş təsvirləri, qayıq, balıq, qoyun, qaban, tələ təsviri, ərəb dilində yazı və s. ibarətdir. Bu kolleksiya qayaüstü təsvirlərinin dövrünü müəyyənləşdirmək məqsədilə "Ceyranlar", "Firuz", "Firuz-2" daş dövrü düşərgələrində, "Firuz-2" düşərgəsinin qonşuluğunda ilk tunc dövrü pirində, "Firuz" düşərgəsinin üst təbəqəsindəki ilk tunc dövrünə aid yaşayış yerində, 14 tunc dövrü kurqanında qazıntı aparılmışdı. Qazıntıların nəticəsi Kiçikdaş qayaüstü təsvirlər kolleksiyasının uzun dövrlü - üst paleolitin sonundan son orta əsrlərə qədər aid olduğunu göstərmişdir. Kiçikdaşda mezolitin sonu - neolitin əvvəllərinə aid "Firuz" düşərgəsində 11 adamın dəfn olunduğu qəbrin açılması və burada dəfn olunanların antropoloq R.M. Qasımovanın təyinatına görə, kəllə quruluşuna görə iki xronoloji tipə (dolixokran və braxokran - uzun və yumru kəlləli insanlar) mənsub olduğunu göstərmişdir. Bu tiplərin müxtəlifliyinin müasir azərbaycanlıların baş göstəricilərinin müxtəlifliyinə uyğun olması dəlilinə əsaslanan R.M. Qasımova, bunun azərbaycanlıların etnogenezi probleminin həlli üçün əsas ola biləcəyi qənaətinə gəlmişdir. Dəfn olunanlar əmək alətləri, silah və bəzək əşyaları ilə təchiz olunmuşlar. 7 ölünün yanında balıqçılıqla bağlı əmək alətlərinin tapılması burada balıqçı qəbiləsi üzvlərinin dəfn olduğunu göstərir. Bu fikri "Firuz" düşərgəsinin divarları - qayalarda, düşərgədə mədəni təbəqədən tapılmış üstündə qayıq rəsmi olan daş düşərgə ətrafındakı qayalarda qayıq təsvirlərinin çoxluğu da təsdiq edir. İlk tunc dövrü yaşayış yeri daşlarında və kurqan daşlarında, ilk tunc dövrü pirindəki qayalarda əsas keçi, tək-tək öküz təsviri çəkilmişdir. Pirdə spirallar, öküz, yandırılmış ocaq və ocaq qurğusu qırıqlarının tapılması burada öküz, günəş və oda-ocağa sitayiş edildiyini göstərir.

3. "Daşqışlaq" qayaüstü təsvirlər kolleksiyası. Bu sahənin qayaüstü təsvirləri "Qaraatlı" pirindən şimal - qərb tərəfdə, Daşqışlaq kəndi ilə "Qaraatlı" piri arasındakı yol ətrafı qayaların üzərində qeydə alınmışdır.

Bu sahədə 41 daş üzərində 230 ədəd şəkil və şəkil qalığı, 50-yə yaxın ehtiyat su yığmaq üçün daşda qazılmış yalaq (qab), iri ölçülü hovuz, dəlmə, ərəb əlifbası ilə yazılmış, su qablarının sahibi - maldarlara aid adlar və başqa abidələr qeydə alınmışdır.

Kolleksiyanın qayaüstü təsvirlərinin əsas mövzusu döymə qədim kimi, qaban, keçi, keçi ovu, maral, maral ovu, arxaya baxan, iki başlı maral, maralların məhəbbəti səhnəsi, şir, ceyran, cüyür, at, it, dəvə karvanı, silahlı süvarilər, yığma qayıq təsvirləri, müxtəlif işarələrdən ibarətdir.

Daşqışlaq ərazisində daimi yaşayış yeri yoxdur. Buranın qədim qayaüstü təsvirləri Böyükdaş, Kiçikdaş dağlarının qədim düşərgə sakinləri, qalanı qonşu rayonların bu ərazidən qışlaq kimi istifadə etmiş, maldarları tərəfindən çəkilmişdir. Qayaüstü təsvirlər arasında maral şəkilləri üstünlük təşkil edir. Onların bir qismi çox real, əksəriyyəti sxematikdir. Real təsvirlər tunc, antik və ilk orta əsrlərə, sxematik təsvirlər isə orta əsrlərə aiddir. İki başlı maral təsviri Qobustan abidəsi üçün yeganə bu cür təsvirdir. "Maralların Məhəbbəti" səhnəsi isə gözəl həyatı təsvirdir. Ümumiyyətlə, Qobustanın Kiçikdaş dağı ərazisindən maldarların uzun müddət - keçən əsrin 70-ci illərinə qədər qışlaq kimi istifadə etməsi (Qobustan qoruğu yaranana kimi) qayalardakı qədim qayaüstü təsvirlərdən ciddi fərqlənən, çox vaxt onların bənzətməsindən ibarət sxematik təsvirlərin yaranmasına səbəb olmuşdur. Sonuncuların yaranması, əksər hallarda qədim təsvirlərin korlanmasına, hətta məhvinə səbəb olmuşdur.

Kiçikdaş abidələri üst paleolitin sonundan orta əsrlərə qədərki tarixi dövr ərzində yaranmış, onların müəllifi bu ərazidə yaşamış qədim insanlar və qışlaqlara gələn maldarlar olmuşdur. Kiçikdaş abidələrinin tədqiqi qədim qobustanlıların təsərrüfat həyatı, mənəvi aləmi, dini görüşləri, mədəni və texniki inkişaf səviyyəsi, incəsənəti barədə məlumat verməsi baxımından əvəz olunmaz mənbədir.

ГОБУСТАН
Памятники горы Кичикдаш
(резюме)

Гобустан - это географический район, охватывающий юго-восточную оконечность Большого Кавказского хребта, расположен на западе Абшеронского полуострова, между средним и нижним течением рек Пирсагат и Сумгаит-чай в бассейне реки Джейранкечмяз. Полупустынная территория состоит из оврагов и балок. Климат сухой субтропический. Почва глинисто-солончаковая.

Впервые древние наскальные изображения были обнаружены в 1939-1940 годах исследователем Гобустанских наскальных изображений заслуженным деятелем науки, археологом И.М.Джафарзаде. Однако их систематическое изучение началось с 1945 года.

Наскальные изображения были обнаружены на юго-востоке Гобустана (горы Беюкдаш, Кичикдаш, Джингирдаг и холм Язылы). Эти горы расположены в 50-60 км на юго-западе города Баку, в 6-7 км от Каспийского моря.

Под руководством И.Джафарзаде до 1965 года на территории Гобустана было исследовано около 750 камней и скал, на которых обнаружено более 3500 наскальных изображений: людей и животных, лодок, тамгов, символов, надписей, чашечных углублений и т.д.

С 1965 года на территории Гобустана стали проводиться археологические раскопки Гобустанской археологической экспедицией Института Истории АН Азербайджана. Под руководством авторов книги Дж.Рустамова и Ф.Мурадовой было исследовано и изучено 16 подскальных стоянок, 4 поселения эпохи бронзы, святилища, около 40-а курганов. В настоящее время зарегистрировано более 6000 наскальных изображений на 1000 скалах. Авторами данной книги было зарегистрировано еще три территории с наскальными изображениями Шонгар, Шыхгая и на побережье Каспийского моря в районе Шихова.

Гора Кичикдаш расположена на юго-западе Гобустана, в 3 км на юге от горы Беюкдаш. В настоящее время гора Кичикдаш состоит из двух частей: горной и скальной. В данной книге представлены материалы о памятниках трех коллекций горы Кичикдаш - Гаяалты, Кичикдаш, Дашгышлаг.

1. Наскальные изображения коллекции «Гаяалты» расположены на юго-восточной стороне вершины горы Кичикдаш. В коллекцию «Гаяалты» входит камень с 18-ю рисунками, обнаруженный между огромными каменными глыбами. Для определения датировки наскальных изображений данной коллекции были проведены археологические раскопки на древних стоянках каменного века «Гаяарасы» и «Гаяарасы-2». В следствии

проведенных работ было установлено, что изображения женщины, мужчины, быка, джейранов относятся к концу верхнего палеолита. Были также зарегистрированы рисунки мужчин с луком и стрелой, свидетельствующие о появлении лука и стрелы.. Нужно отметить, что 98 % остатков фауны на обоих стоянках составляют кости джейранов, так как основным занятием здесь была охота на джейранов.

На камне № 5 коллекции «Гаяалты» древние женщины изображены на быке - тотеме, являющимся объектом поклонения. Оба рисунка датитруются концом верхнего палеолита. Изображение огромной рыбы длиной 430 см также находится на камне № 5. Изображенные на камне № 6 три женщины украшены линиями.

Архаическая характерность каменных материалов обоих стоянок, а также характерные для палеолита изображения женских фигур, линейных мужчин и быка, обнаруженные под культурным слоем дают возможность относить памятники этой коллекции к концу верхнего палеолита (18-15 тыс до н.э.).

2. Коллекция наскальных изображений «Кичикдаш» состоит из 128 камней и скал с изображениями женщин, быков, джейранов, козлов, оленей, львов, рыб, овец, лодок, символов, а также сцен охоты на быков и козлов, караван верблюдов, ритуальных сцен, надпись на арабском языке и т.д. Для определения датировки вышеперечисленных изображений, были проведены археологические работы на стоянках «Джейранлар», «Фируз», поселении каменного века «Фируз-2», святилище и поселении начала эпохи бронзы на верхнем культурном слое стоянки «Фируз», а также 14 курганах эпохи бронзы. Было установлено, что коллекция наскальных изображений Кичик-даш, охватывает периоды от конца верхнего палеолита до конца средних веков. На стоянке «Фируз», эпохи конца мезолита-начала неолита было раскопано коллективное захоронение, где было зафиксировано 11 скелетов, которые по строению черепа, (согласно исследованиям антрополога Р.М.Гасымовой) были разделены на два хронологических типа (долихокран и брахокран - люди с длинным и круглым черепом). Основываясь на сходство черепов этих типов и современных азербайджанцев, Р.М.Гасымова пришла к мнению, что эти факты могут послужить решению проблемы этногенеза азербайджанского народа. Наряду с оружием и украшениями, около 7-ми скелетов были найдены орудия труда для рыболовства, что свидетельствует о захоронении здесь общины, занимающейся рыболоством. Подтверждением также служит камень с рисунками лодок, найденный в культурном слое на стоянке «Фируз» и изображения множества лодок на скалах стоянки и вокруг него.

На камнях и скалах поселения, курганов, святилища начала бронзового века встречаются в основном изображения коз, и изредка быков. Найденные

в святилище изображения спирали и быков, а также остатки очага подтверждают, что древний человек поселявший эту территорию поклонялся быкам, солнцу и огню.

3. Наскальные изображения коллекции «Дашгышлаг» расположены на северо-западе от святилища «Гараатлы», на скалах у дороги между селением Дашгышлаг и святилищем «Гараалты».

На этой территории зарегистрировано 230 наскальных изображений на 41 камне, около 50-ти чашечных углублений для сбора воды, бассейн большого размера, имена скотоводов, написанные на арабском языке и другие памятники.

Основная тема наскальных изображений коллекции рисунки выбивных древних мужчин, кабанов, коз, сцены охоты на козлов и оленей, двухголовые олени, любовная сцена оленей, львов, джейранов, лошадь, собака, вооруженные всадники, сборные лодки, различные символы и т.д. На территории Дашгышлака нет постоянного поселения. Часть наскальных изображений этой территории созданы поселенцами стоянок гор Беюкдаш и Кичикдаш, а остальные скотоводами, использующими эту территорию как пастбища.

Большую часть коллекции составляют изображения коз. Часть из них изображена реалистично, с линиями на туловище, датируются они эпохой бронзы и античного периода. Большинство рисунков относящихся к средним века изображены схематически.

Изображение двуглавого оленя единственное в коллекции Гобустана. Любовная сцена оленей это жизненное описание.

Памятники горы Кичикдаш, охватывающие период от конца верхнего палеолита до средних веков - это не только изображения, созданные проживающими здесь древними людьми, а также отличительные от древних наскальных изображений схематические рисунки созданные здесь скотоводами использующими эти земли на протяжении долгого времени (до создания на этой территории в 70-х годах прошлого столетия Гобустанского историко-художественного заповедника) как пастбища.

Изучение памятников горы Кичикдаш является незаменимым источником для изучении искусства, хозяйственной жизни, духовного, культурного, технического уровня развития древних гобустанцев.

GOBUSTAN
Monuments of Kichikdash
(abstract)

Gobustan is a geographical region covering the southeastern extremity of the Greater Caucasus mountain range. It is situated in the western part of the Absheron peninsula, between the middle and lower courses of the Pirsagat and Sumgait-Chay rivers, in the Jeyrankechmaz river basin. This semi-desert territory consists of ravines and gullies. It has a dry-subtropical climate and the soil is saline clay.

Ancient petroglyphs were first discovered in 1939-40 by the researcher of the petroglyphs of Gobustan, Honoured Science Worker and archaeologist, I. M. Jafarzade. Their systematic study however, begun in 1945.

Petroglyphs were discovered in the south-eastern part of Gobustan (Boyukdash, Kichikdash and Jingirdag Mountains and Yazili hill). These mountains are situated 50-60 km southwest of Baku and 6-7 km from the Caspian shoreline.

Research, under the guidance of I. M. Jafarzade, was carried out in Gobustan until 1965 on about 750 stones and rocks on which more than 3500 petroglyphs of people and animals, boats, signs and symbols, inscriptions, cup-marks etc. were discovered.

From 1965 archaeological excavations in Gobustan were carried out by the Gobustan archaeological expedition of the Institute of History of the Azerbaijani Academy of Sciences. Under the leadership of the authors of this book, J. Rustamov and F. Muradova, 16 rock shelter-dwellings, four Bronze Age settlements, sanctuaries and about 400 barrows were researched and studied. At present more than 6000 petroglyphs on 1000 blocks have been recorded. The authors of this book recorded an additional three territories containing rock art - Shongar, Shikhgaya, in the Shikhov area, and on the shore of the Caspian Sea.

Kichikdash Mountain is located in the south-western part of Gobustan, 3 km south of Boyukdash Mountain. Kichikdash Mountain is formed of two parts: the mountain and rocky parts. The rock art of Kichikdash Mountain forms three groups - Gayaalti, Kichikdash and Dashgishlag and materials about them are presented in this book.

1. The petroglyphs of the Gayaalti group are situated on the south-eastern side of Kichikdash Mountain peak. The Gayaalti group includes 18 images on blocks discovered between large boulders. In order to define the dating of the petroglyphs in this group, archaeological excavations on the Stone Age sites Gayaarasi and Gayaarasi II were carried out. As a result of this work it was settled that images of women, men, a bull and deer belong to the Upper Palaeolithic Period. Rare images of men with bows and arrows were also recorded and these

bear witness to the appearance of this type of weapon. It should be mentioned that 98% of faunal remains in both settlements consist of deer bones, thus the principal occupation here was deer hunting. On block number 5 of the Gayaalti group women are depicted on a bull - a totem which is an object of worship. Both images have been dated to the end of the Upper Palaeolithic Period. An image of a large fish which is 430 sm long is also found on block number 5. Three women adorned with lines are depicted on block number 6.

The archaic characteristics of the stone tools found on both sites, as well as images of female figures and line-drawn men and a bull distinctive of the Palaeolithic Period discovered under the cultural layer, suggests that these belong to the end of the Upper Palaeolithic Period (18-15 thousand BC).

2. The Kichikdash petroglyph group consists of 128 blocks and rocks with images of women, bulls, deer, goats, gazelles, lions, fish, sheep, boats, symbols and bull and goat hunting scenes, camel caravans, ritual scenes and inscriptions in Arabic etc. In order to define the date of the aforementioned images archaeological works were carried out on the Jeyranlar and Firuz sites, the Stone Age settlement Firuz II, a sanctuary from the beginning of the Bronze Age, a settlement from the beginning of the Bronze Age found in the upper cultural layers of the Firuz site and also 14 barrows of Bronze Age date. As a result of the archaeological excavations, the Kichikdash petroglyph group has been dated to a period ranging from the end of the Upper Palaeolithic Period to the end of the medieval era. On the Firuz site, dating from the end of the Mesolithic to the beginning of the Neolithic Periods, a collective burial containing eleven skeletons was unearthed, which research by anthropologist R. M. Gasimova has divided into two chronological types on the basis of skull structure (dolichocrania and bracocrania - people with long or round skulls). Based on the similarities of these skull types with skulls of modern Azerbaijanis R. M. Gasimova reached the conclusion that these facts may help to solve the issue of the ethnic origins of the Azerbaijani people. Tools, weapons and adornments were also found in the burial. Fishing tools found near seven skeletons indicate that the community buried here was engaged in fishing. Images of boats on blocks found in cultural layers of the Firuz site and near it confirm this.

Images of goats and occasionally of bulls are mainly found on blocks of settlements, barrows and sanctuaries belonging to the beginning of the Bronze Age. Depictions of spirals and bulls and also remains of hearths found in a sanctuary confirm that ancient man living here worshipped bulls, the sun and fire.

3. The petroglyphs of Dashgishlag group are located in the north-western part of the Garaatli sanctuary, on rocks near the road between Dashgishlag village and the Garaatli sanctuary. 230 petroglyphs on 41 blocks, about 50 cup-marks for collecting water, a large pool, names of cattle breeders written in Arabic and other rock art are recorded on this site.

The principal subjects of the petroglyphs of this group are images of men, wild boars, goats, goat and deer hunting scenes, a two-headed deer, deer, lion and gazelle-mating scenes, a horse, a dog, armed horsemen, reed-boats, different symbols etc. There was no constant settlement at the Dashgishlag site. The some of the petroglyphs on this site were created by settlers from the settlements of Boyukdash and Kichikdash Mountains and the rest by cattle breeders who used this area as pasture.

Among the images found here the largest number are of goats. Some of them are depicted realistically, with lines drawn on the bodies, and they date to the Bronze Age and ancient period. Most of the images belonging to the medieval era are schematically depicted.

The image of the two-headed deer is unique in the whole of Gobustan. The deer mating scene is lifelike. The usage of Kichikdash Mountain as pasture by cattle breeders for a long period, until the creation of the Gobustan Historic-Artistic Preserve in the 1970s, resulted in the appearance of schematic images differing from the ancient petroglyphs.

The rock art of Kichikdash Mountain, which covers a period from the end of the Upper Palaeolithic to the medieval eras, consists of images created by ancient people settled here, as well as cattle breeders using this land as pasture. The study of the petroglyphs of Kichikdash Mountain is an irreplaceable source of information about the art, economic life and spiritual, cultural and technical levels of development of the ancient people of Gobustan.



1-ci tablo

2-ci tablo



3-cü tablo

4-cü tablo



5-ci tablo



6-cı tablo



7-ci tablo



8-ci tablo



9-cu tablo



10-cu tablo



11-ci tablo

12-ci tablo

13-ci tablo



14-ci tablo



15-ci tablo

16-cı tablo



17-ci tablo

18-ci tablo

19-cu tablo



20-ci tablo



21-ci tablo



22-ci tablo

23-ci tablo



24-ci tablo



25-ci tablo



26-cı tablo

27-ci tablo

28-ci tablo



29-cu tablo



30-cu tablo



31-ci tablo

32-ci tablo



33-cü tablo



34-cü tablo

35-ci tablo



35 A tablo

35 B tablo

36-cı tablo



37 A tablo

37 B tablo



38-ci tablo



39-cu tablo

40-cı tablo



41-ci tablo



42-cı tablo



43-cü tablo



44-cı tablo



45-ci tablo



46-cı tablo

47-ci tablo

48-ci tablo



49-cu tablo

50-ci tablo

51-ci tablo



52-ci tablo

53-cü tablo



54-cü tablo



55-ci tablo

56-cı tablo



57-ci tablo

58-ci tablo



59-cu tablo



60-cı tablo



61-ci tablo



62-ci tablo

63-cü tablo

64-cü tablo

65-ci tablo



66-cı tablo



67-ci tablo



68-ci tablo



69-cu tablo



70-ci tablo



71-ci tablo



72-ci tablo

73-cü tablo



74-cü tablo



75-ci tablo



76-cı tablo



77-ci tablo



78-ci tablo

79-cu tablo



80-ci tablo





2-ci fotoşəkil

7-ci fotoşəkil

14-cü fotosəkil

16-cı fotoşəkil

17-ci fotoşəkil



43-cü fotoşəkil

45-ci fotoşəkil

46-cı fotoşəkil

48-ci fotosəkil

50-ci fotoşəkil

52-ci fotoşəkil

56-cı fotoşəkil



5-ci fotoşəkil



15-ci fotoşəkil

18-ci fotoşəkil

19-cu fotoşəkil

20-ci fotoşəkil



21-ci fotoşəkil



22-ci fotoşəkil

23-cü fotoşəkil

25-ci fotoşəkil

26-cı fotoşəkil

27-ci fotoşəkil



28 A fotoşəkil

29-cu fotoşəkil



31-ci fotoşəkil

38-ci fotoşəkil



39-cu fotoşəkil

40-cı fotoşəkil

41-ci fotoşəkil

44-cü fotoşəkil



47-ci fotoşəkil



53-cü fotoşəkil

54-cü fotoşəkil

57-ci fotoşəkil

58-ci fotoşəkil



59-cu fotoşəkil



60-cı fotoşəkil

MÜNDƏRİCAT

QOBUSTANIN QAYAÜSTÜ TƏSVİRLƏRİ 3
«KİÇİKDAŞ» KOLLEKSİYASI 33
DAŞQIŞLAQ SAHƏSİNİN QAYAÜSTÜ TƏSVİRLƏRİ 129
NƏTİCƏ 155
QOBUSTAN. KİÇİKDAŞ DAĞI ABİDƏLƏRİ. (REZUME) 158

Yığılmağa verilmişdir: 18.08.2008
Çapa imzalanmışdır: 25.08.2009
Ofset kağızı. Format 60X84 1/16
Şərti çap vərəqi 19,75. Tiraj 500

Kitab "E.L" Nəşriyyat və Poliqrafiya Şirkəti MMC-nin
mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Ünvan: Bakı şəhəri. Dərnəgül qəsəbəsi 3105-ci məhəllə,
Tel: 562-83-03; 563-54-42. Direktor: Cəfər Əziz oğlu Bağırov.